

# DÜNYANI HEYRAN QOYAN İNSAN

Ф3(2А)
Д 97

229525

# DÜNYANI HEYRAN QOYAN İNSAN

M. F. A[illegible] adına
Azərbaycan Dövlət
K[illegible]A[illegible]ANASI

Bakı - 2004

BBK 45.2.2

İdeyanın müəllifi və buraxılışa məsul:
**Ramiz Mehdiyev**
*fəlsəfə elmləri doktoru, professor*

Tərtibçi redaktorlar:
**Aslan Aslanov**
**Vaqif Musayev**
**Dağbəyi İsmayılov**

**Dünyanı heyran qoyan insan.**
Bakı, Azərnəşr, 2004, 376 səh.

Oxuculara təqdim edilən bu kitabda dunyanın görkəmli siyasi və dövlət xadimlərinin, diplomatlardan, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərindən tutmuş biznes nümayəndələrinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin otuz il siyasi hakimiyyətin zirvəsində olan ümummilli liderimiz, xalqımızın dahi oğlu Prezident **Heydər Əliyev** haqqında fikirlərinin bir hissəsi toplanmışdır.

Ümidvarıq ki, bu materiallar Heydər Əliyev şəxsiyyətinin əzəmətinin, müasir tarixdə onun müstəsna rolunun daha dolğun və dərindən dərk olunmasında indiki və gələcək nəsillərə kömək edəcəkdir.

4502020000 / M-651(07)2004 qrifli nəşr

BBK 45.2.2

© AzərTAc 2004



## OXUCUYA

2003-cü il dekabrın 12-də okeanın o tayından, uzaq Klivlenddən xalqımızı, dünyadakı xeyirxahlarımızı, Azərbaycanın dostlarını sarsıdan müdhiş xəbər gələndən bəri müxtəlif adamların dilindən səslənən bir ifadəni, təkrar da olsa, yada salmamaq olmur: "Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq çətindir". Bu, həqiqətən, belədir. Çünki Heydər Əliyev təkcə Azərbaycanın ən yeni tarixinin son qərinəsində deyil, həm də keçmiş SSRİ-nin tarixinin müəyyən bir dövründə silinməz iz qoymuş ən görkəmli şəxsiyyətdir. Müstəqil Azərbaycan Respublikasının son onillik tarixi isə bilavasitə onun adı ilə bağlıdır. Eyni zamanda, Heydər Əliyev zamanəmizin diplomatiya tarixində ən görkəmli simalardan biri kimi tanınmışdır. Ona görə də otuz ildən artıq bir dövrdə siyasi hakimiyyətin zirvəsində olan Heydər Əliyevi xalqımızın milli sərvəti, Azərbaycanın bəxtinə düşmüş Tanrı payı adlandıranlar, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Konrad Adenauer kimi siyasətçilər və dövlət xadimləri ilə müqayisə edərək, onun hələ sağlığında canlı əfsanəyə çevrildiyini deyənlər heç də yanılmırlar.

Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrü Azərbaycanın ən yeni tarixində dönüş illəri, ictimai-iqtisadi həyatın, elm, mədəniyyət və incəsənətin sürətlə tərəqqisi dövrü olmuşdur. Bugünkü Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, dünya iqtisadiyyatına sıx inteqrasiyası prosesi məhz həmin illərdə təməli qoyulmuş potensial olmadan mümkün deyildi. Bunu təkcə Azərbaycan müəllifləri deyil, müxtəlif ölkələrin siyasi və dövlət xadimləri də dəfələrlə vurğulamışlar.

Bununla belə, Heydər Əliyevin ən böyük xidməti Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlaması, onu əbədi və dönməz etməsi, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etməsi olmuşdur. Sözdə bir-iki kəlmə ilə ifadə edilən bu taleyüklü vəzifələrin yerinə yetirilməsinin arxasında Heydər Əliyev şəxsiyyətinin gecəli-gündüzlü, ağlasığmaz dərəcədə gərgin və məqsədyönlü fəaliyyəti dayanır. Həmin illərə ötəri nəzər salanda, hətta onun kimi nəhəng, müdrik, qətiyyətli, polad iradəli insanın da bu qədər işin öhdəsindən necə gələ bildiyinə heyrətlənməmək mümkün deyildir. Amma

bu, həqiqətdir. O da həqiqətdir ki, buna yalnız Heydər Əliyev nail ola bilərdi.

Prezident Heydər Əliyevin Azərbaycan, xalqımız, bütün region üçün gördüyü misilsiz işlər özlüyündə nə qədər böyük və əhəmiyyətli olsa da, biz bunların əzəmətini, bəlkə də, hələ olduğu kimi dərk edə bilmirik. Yəqin ona görə ki, Heydər Əliyev kimi dahinin müasiri olduğumuz üçün bütün bu nəhəng işlər bizə çox adi görünür. Bu baxımdan, xalqımızın görkəmli oğlunun ən yaxın dostları – Ukraynanın Prezidenti Leonid Kuçma "Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir", Qazaxıstan Prezidenti Nursultan Nazarbayev isə "onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir" – deməkdə tamamilə haqlıdırlar.

Fransada çıxan "Kuryer İnternasional" jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə dərc olunmuş geniş məqaləsində deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Bəli, Heydər Əliyev, həqiqətən, yüksəklərə qalxmışdı, əlçatmaz zirvə idi. Ona görə də məlum aforizmdə deyildiyi kimi, dağın, zirvənin əzəmətini ətəyindən yox, kənardan baxmaqla görmək mümkündür. Bu mənada ümummilli liderimiz, xalqımızın dahi oğlu haqqında dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənən fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sözləri ilə desək, "siyasət nəhəngi"nin əzəmətini daha dolğun dərk etməyə imkan verir.

Ümidvarıq ki, bu kitabda toplanmış materiallar Heydər Əliyev şəxsiyyətini, müasir tarixdə onun müstəsna rolunu qiymətləndirməkdə indiki və gələcək nəsillər üçün faydalı olacaqdır.



**"Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".**

***Heydər ƏLİYEV***

*Ramiz MEHDİYEV*
*fəlsəfə elmləri doktoru, professor*

# Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr



*Heydər Əliyev 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Liderdir.*

Bu günlərdə mən "Azərbaycan – İRS" jurnalının növbəti nömrəsi ilə tanış oldum. O, bütünlüklə Azərbaycan Prezidenti Heydər Əliyevə həsr edilmiş xüsusi buraxılışdır. Ona heyran qaldığımı gizlətməyəcəyəm: jurnal həqiqətən də çox gözəl tərtib olunub, Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən nadir fotoşəkillər verilmişdir. Buradakı məqalələr də belə yüksək səviyyədədir. Zəngin faktiki material və gözəl ifadə tərzi bir-birini son dərəcə ahəngdar şəkildə tamamlayır. "Həyat dərsi" məqaləsi diqqətimi xüsusilə cəlb etdi. Jurnalın bu nömrəsi də elə həmin məqalə ilə açılır.

Həcmcə çox da böyük olmayan bu məqalədə bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsi dolğun və dəqiq ifadələrlə canlandırılır. Müəllif Mehriban Əliyeva yazır ki, onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq nümunədir, İnsanın məğlubedilməzliyinə inam dərsidir. Müəllif yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər. Heydər Əliyev. Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən – Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı".

Məqalənin müəllifi ilə razılaşaq: Heydər Əliyevin Azərbaycan üçün varlığı "talenin Tanrı payıdır".

Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Onun qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jurnalistlərin diqqətini ona cəlb edir. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük. Bir çox jurnalistlər onu hakimiyyət Ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət magiyası ona artıq otuz ildən çoxdur ki, sadəcə, hakimiyyətin zirvəsində qalmağa deyil, həm də milyonlarla insanın sevimlisi, idealı kimi qalmağa imkan verir.



*Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir.*

Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür - onun şəxsiyyət kimi və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı və təşəkkül tapdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Onun dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsviri kimi çox geniş yayılmış yanaşma da haqlı ola bilər. Bütün bu yazılarda onun gördüyü işlərin çox böyük əhəmiyyətini hiss edirik. Bir çox müəlliflər qeyd edirlər ki, onun gördüyü bütün işlər və söylədiyi sözlər heyrət doğurur, eləcə də bu şəxsiyyəti başa düşməyə çalışan hər bir kəs onun yaratdıqlarına ürəkdən valeh olmaq üçün səbəb axtarıb tapır.

Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin acısını dadır, məhvedici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir. Bu deyilənlər sanki Azərbaycanın ən yeni tarixinin səhifələrindən köçürülmüşdür.

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə

hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərc-mərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülür, bir sıra bölgələrdə separatçılıq əhval-ruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətl-qarətlər törədilir, ziyalılar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparılırdı, Xalq Cəbhəsi hökumətinin və ayrı-ayrı şəxslərin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizam-intizam və tabeçilik yox idi.

*Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı.*

Bütün bunların nəticəsi olaraq, Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri bir-birinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər və sair. Adama elə gəlirdi ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığını və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yolu yoxdur.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölkəni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda, böyük həqiqəti rəhbər tuturdu: nə qədər ki, insanlar özlərinin həyatı və yaşamaq hüququ uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz.

Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid



vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan qanlı münaqişəsi məhz Heydər Əliyevin dövründə beynəlxalq hüquq prinsipləri əsasında həlli üçün sülh danışıqları mərhələsinə keçdi. Məhz onun dövründə ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu. Məhz onun dövründə Azərbaycan özünün coğrafi-siyasi vəziyyətinin nadir imkanlarından istifadə edə bildi. Bu yol nə qədər enişli-yoxuşlu olsa da, Azərbaycan xalqı öz gələcək inkişafının üfüqlərini məhz Heydər Əliyevin həyata keçirdiyi sistemli fundamental dəyişikliklər çərçivəsində görür.

*Heydər Əliyev XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır.*

Şübhəsiz ki, Heydər Əliyev öz xalqının psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub-yaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək, sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirməyə çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə lider lazımdır.

Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdədir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir".

Yeni minilliyin astanasında biz dönüb hadisələrlə zəngin olan yaşadığımız əsrə nəzər salır, bu hadisələrdən bir çoxunun

həqiqi əhəmiyyətini dərk edir və ictimai inkişafın hərəkətverici qüvvəsinə çevrilə bilmiş siyasi xadimlərin tarixə verdikləri töhfəni sanki yenidən qiymətləndiririk. Müasir dövrün görkəmli siyasətçilərindən biri kimi Heydər Əliyev, şübhəsiz ki, həmin tarixi simalar sırasında xüsusilə seçilir.

Öz tənqidçilərindən və siyasi opponentlərindən fərqli olaraq, Heydər Əliyev ölkənin bir çox problemlərinin - siyasətin, iqtisadiyyatın və ictimai həyatın məğzini və mahiyyətini müəyyənləşdirən problemlərin həllinin açarını tapmışdır. Yalnız həmin problemlərin həllindən sonra Azərbaycan üçün gələcək inkişafın perspektivləri açılmış və bu perspektivlər bizdən ötrü nikbinlik və daha yaxşı gələcək üçün ümidlər mənbəyi olmuşdur. Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb ümummilli problemlərin həlli yollarına işıq salır. Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyanı təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir.

*Heydər Əliyev ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi.*

Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə - ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı dövrlərdə ölkəyə rəhbərlik etməyə başlamışdır. 1993-cü ilin iyununda Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək həddinə çatmışdı. Zaman və hadisələr, həyatın özü tələb edirdi ki, kimsə öz xalqına inamı qoruya, ölkəni viranedici fəlakətlərdən xilas edə bilsin. O, ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi və bununla da Azərbaycan tarixində öz misilsiz yerini bəri başdan müəyyənləşdirdi. Həmin taleyüklü günlərdə onun tükənməz enerjisi, nikbinliyi və milli amallara sadiqliyi - bütün bu şəxsi keyfiyyətləri, əslində, milli dirçəliş konsepsiyasının həyata keçirilməsi üçün tam səfərbər olunmuşdu.



Ankaradakı Bilkənd Universitetinin banisi, dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: "Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".

Heydər Əliyevin dövründə Azərbaycanı onun hüdudlarından çox-çox uzaqlarda tanıdılar. Mübaliğəsiz deyə bilərik ki, o, ölkəni siyasi təcriddən çıxararaq, xarici siyasətdə çox böyük irəliləyiş yaratdı. Azərbaycanın səsi mötəbər beynəlxalq təşkilatların və dövlət başçıları sammitlərinin tribunalarından getdikcə daha tez-tez və gur eşidilməyə başladı, Azərbaycan beynəlxalq strukturlara üzv qəbul edildi.

*Heydər Əliyev sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir.*

Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi. Şəkkakların əksinə olaraq, o bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, insanların maddi vəziyyətini yaxşılaşdıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər.

Heydər Əliyev Azərbaycana elə xidmət edir ki, bizlərdən hər biri də ölkəmizə onun kimi - öz ağıl-zəkasının tam gücü ilə, xalqın milli tarixinə və mənəvi dəyərlərinə qayğıkeş münasibətlə, Azərbaycanın milli sərvətlərini artırmaq və hər bir vətəndaşa layiqli yaşayış təmin etmək istəyi və əzmi ilə xidmət etməlidir. O, ümumxalq məhəbbəti və hörmətini ancaq belə qazana bilmişdir. Onun bütün həyatı milli tarixin salnaməsinə düşməyə layiq olan seçmə nümunədir.

O, sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir, öz zəmanəsinin ən yaxşı natiqlərindən biri kimi tanınmışdır, öz xalqının xarakterini dərindən öyrən-

mişdir, bilir ki, ümummilli vəzifələrin həyata keçirilməsi üçün onun çox böyük qüvvəsini necə səfərbərliyə almaq lazımdır. Belə demək ədalətli olardı ki, o, bir çox həmvətənlərindən, eləcə də cilov bilməyən hikkələri ilə hakimiyyət iddiasında olanlardan həmişə daha bəsirətli, uzaqgörən olmuşdur. O, Dağlıq Qarabağ üstündə gedən Ermənistan-Azərbaycan müharibəsinin Azərbaycan üçün perspektivsizliyini lap əvvəldən başa düşmüşdü: ölkə müharibəyə hazır deyildi, təpədən-dırnağadək silahlanmış və əvvəlcə sovet, sonra da Rusiya qoşunlarından kömək alan erməni birləşmələrinin hücumlarına tab gətirə bilmirdi. O, Azərbaycana zor gücünə qəbul etdirilmiş münaqişənin dincliklə həllinin labüdlüyünü hamıdan əvvəl başa düşərək dərk etmişdi ki, Cənubi Qafqaz regionunda sülhə və sabitliyə tərəfdar olan dünyanın aparıcı ölkələri problemin hərbi yolla həllinin əleyhinədirlər. Öz ərazi bütövlüyünün bərpası baxımından bu müharibə Azərbaycan üçün ədalətli sayılardı, lakin hər bir müharibə kimi, o da inkişafa doğru yolda dəfedilməz manea olardı. Heydər Əliyev son dərəcə mürəkkəb və çətin bir şəraitdə ölkəyə sosial sülh verə bildi, əvvəlki nəsillərin nail olduqları yaxşı nə varsa, hamısını qoruyub saxlayaraq ölkəni yeniləşdirdi.

*Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır.*

Həyat sübut edir ki, sınaqlara tab gətirməyənlər iflasa uğrayır, özünü dəf edə bilənlər isə xalqın rəğbətini qazanır. Heydər Əliyev istər fiziki, istərsə də ictimai baxımdan ciddi sınaqlardan keçmişdir. Bu sınaqlar onda cəsarət və səbrlə yanaşı, dəyişiklikləri həssaslıqla hiss etmək, iti tarixi duyum kimi keyfiyyətlər də aşılamışdır. O, dönüş məqamının başlandığını əvvəlcədən duymaq və qarşıdakı işlərin zəruriliyini buna uyğun olaraq əsaslandırmaq üçün kifayət qədər uzaqgörəndir. Öz liderinin dövlətçilik istedadına və müdrikliyinə güvənən xalq həmişə bilir ki, o, sabitliyi qoruyub saxlamaq, ölkəni dəyişmək, zamanın tələblərinə layiqli cavab vermək üçün nə kimi tədbirlər görəcəkdir. Məhz buna görə də insanlar indiki çətinliklərə dözməyə hazırdır, çünki inanırlar ki, onlar dönmədən daha gözəl həyata doğru aparan prosesin iştirakçılarıdır.

Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər - iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir. Onun fenomenal yaddaşı barədə rəvayətlər söylənir: neçə illər əvvəl olmuş və çoxları üçün əhəmiyyətsiz görünmüş faktları və hadisələri bütün təfərrüatı ilə xatırlaya bilir. Çoxdan və ötəri görüşdüyü adamların adları da yadındadır.



Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun - ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

*Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.*

Bununla belə, hesab edirəm ki, bu məqalə və kitablarda müəlliflər Heydər Əliyevin səciyyəvi keyfiyyətlərini tam açmağa, onun istedadını və parlaq şəxsiyyətini bütünlüklə göstərməyə müvəffəq olmamışlar. Ən əvvəl ona görə ki, bu, olduqca çətindir. Heydər Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, bütöv bir dövrü təsvir etməyə cəhd göstərmək demək olardı. Bütöv bir dövrü təsvir etmək isə son dərəcə çətin bir vəzifədir. Bu məqalədə biz onun çoxşaxəli fəaliyyətinin ancaq bir cəhətindən, yəni azərbaycançılıq ideologiyasında öz təcəssümünü tapan milli ideyanı gerçəkləşdirməsindən danışmağa çalışacağıq.

Heydər Əliyev dövrünə müraciət edən istənilən tədqiqatçı belə bir suala cavab tapmalıdır ki, dövlətçiliyimizin çoxəsrlik tarixində nə üçün məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəsna yer tutur. Axı, indi onun adı da, elə özü də bu dövlətçiliyi təcəssüm etdirir. Əlbəttə ki, öz əhəmiyyətinə görə Heydər Əliyevin fəaliyyətinin Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxdığını deyən siyasətçi və politoloqlarla razılaşmaq lazımdır. Bu da doğrudur ki, müasir dövrdə Azərbaycanda da, bütün postsovet məkanında da, hətta deyərdik, bütün dünyada da gedən prosesləri Heydər Əliyevin fəaliyyət dairəsindən kənarda təsəvvür etmək mümkün deyildir. Lakin bu, hansısa bir fenomenin, olsa-olsa, nəzərə çarpdırılmasıdır.



bizim məqsədimiz isə bu fenomenin mahiyyətinə varmaqdır.

Əgər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında son onilliklər ərzində yazılanların hamısını nəzərdən keçirsək, onda ən əvvəl deməк lazımdır ki, müxtəlif ölkələrdə, bir çox dillərdə Azərbaycan Prezidentinin şəxsiyyətindən, həyat yolundan, siyasi baxışlarından bəhs edilən kitab və məqalələr nəşr olunur. Bütün bu nəşrlərdə əsas diqqət Heydər Əliyevin siyasi fəaliyyətinin konkret cəhətlərinin təhlilinə yetirilir. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, nadir istedada, ensiklopedik biliyə, genişmiqyaslı dünyagörüşünə malik olan bu tarixi şəxsiyyətin fəaliyyətini yalnız əməli fəaliyyətlə, gerçəkləşdirdiyi konkret layihələrlə məhdudlaşdırmaq olmaz.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin otuz ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar onun həm əməli fəaliyyətində, həm də inkişafımızın paradiqmasının fəlsəfi anlamında öz əksini tapmışdır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini



müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır. Lakin çox vaxt bütün bunlar Heydər Əliyevin konkret fəaliyyətinin kölgəsində qalır. Buna görə də, Heydər Əliyev fenomeninin mahiyyətini başa düşmək üçün göstərilən cəhdlər diqqətimizi onun dünyagörüşünün tərkib hissəsini təşkil edən fəlsəfi cəhətlərə yönəldir.

Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə savadlı və yüksək erudisiyaya malik insandır. Bu savadlılıq akademik xarakter, hansısa cərəyan və konsepsiyaların həyatdan təcrid olunmuş halda dərk edilməsi xarakteri daşımır, onda ümumbəşəri dəyərlər Azərbaycan ziyalılarının bir çox nəsillərinin yaratdıqları milli ideallar sistemi ilə ahəngdarlıq təşkil edir. Məhz buna görə də o, dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlaya bilmişdir ki, burada sosiologiya və fəlsəfənin bir çox mücərrəd problemləri ideyalar və elm sahəsindən əməli siyasət müstəvisinə keçmişdir. Mirzə Fətəli Axundovdan başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs cəhətlər haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görümündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyalarını başa düşmək lazımdır.

Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə, məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər

***Heydər Əliyev müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir.***

hansı təlim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim hamımızın gözləri qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışlarında son dərəcə aydın ifadə olunmuşdur. Məhz natiqlik istedadı ona ilk baxışdan qeyri-mümkün görünən məsələni reallaşdırmağa - öz fəlsəfi və siyasi əqidəsini böyük auditoriyalar qarşısında şifahi çıxışlar çərçivəsində formalaşdırmağa imkan vermişdir.

Gerçəkliyin özünün obyektiv qanunlarını əks etdirən elmi metodologiyaya uyğun olaraq, Heydər Əliyev XX əsr Azərbaycan tarixini özünəxas peşəkar tarixçi dəqiqliyi ilə dörd mərhələyə bölür. Birinci mərhələ ötən əsrin əvvəlindən oktyabr inqilabınadək olan tariximizdir. İkinci tarixi mərhələ 1918-1920-ci və 1920-1922-ci illəri - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olana qədərki dövrü əhatə edir. Üçüncü mərhələ 1922-ci ildən Azərbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövrdür. Dördüncü mərhələ isə 1991-ci ildən bu günədək olan dövrü əhatə edir. Əgər diqqət yetirsək görərik ki, son mərhələlər - üçüncü və onun bilavasitə nəticəsi olaraq, dördüncü mərhələlər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Həqiqətən də, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlanır.

*Heydər Əliyevin milli dirçəliş fəlsəfəsi bizim hamımızın gözləri qarşısında yaradılmışdır.*

Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. Bir tərəfdən, o, keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara son dərəcə dəqiq və nəzakətlə əməl edirdi. O dövrdəki nitqləri ilə tanış olarkən başa düşürsən ki, onun özü də kommunizm amallarına ürəkdən inanırdı. Lakin bununla yanaşı, o, sovet mədəniyyətinin ənənəvi formuluna - formaca milli və məzmunca sosialist mədəniyyəti formuluna tamamilə yeni bir məna verə bilmişdir. Onun gördüyü bütün işlər formal surətdə marksizm-leninizm ideologiyasının tələblərinə uyğun gəlirdi. Buna baxmayaraq, o, əvvəlki, standart stereotipləri qırır, hansısa yeniliklər daxil edə bilirdi ki, bunları da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə, bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. O, milli ruhun dirçəldilməsinə, öz zamanəsinin Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə biz Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini - nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.



Məhz bu baxımdan Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Məsələ bundadır ki, Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi.

*Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı.*

Heydər Əliyev öz fəlsəfi konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca mürəkkəb mexanizmdən istifadə etmişdir. Lakin onun atdığı ilk addımlar son dərəcə sadə idi - o, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərini müntəzəm qeyd etmək ənənəsinin bünövrəsini qoydu. Bu, formal bir hadisə deyildi. Bu, Azərbaycan mədəniyyəti klassiklərinin yaradıcılığının tarixinə və mahiyyətinə həqiqi müraciət idi, milli düşüncənin dərin qatlarını üzə çıxarmaq idi.

İlk baxışdan adama elə gəlir ki, Cəfər Cabbarlı qədər ikinci bir sovetpərəst dramaturq təsəvvür etmək çətindir. Təsadüfi deyil ki, o, sovet ədəbiyyatının bütün dərsliklərinə Azərbaycan sovet dramaturgiyasının banisi kimi daxil olmuşdur. Lakin Heydər Əliyev dövründə respublikamızda keçirilmiş ilk yubileylərdən birinin necə məna kəsb etdiyini yada salaq. Zahirən hər şey o dövrün qaydalarına uyğun idi - 1969-cu il oktyabrın 10-da görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 70 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Cəmi on gün sonra isə müasir dramaturgiyamızın banilərindən biri olan bu ustadın yubileyi

M. F. A... adına Azərbaycan Dövlət KİTABXANASI

ümumittifaq səviyyəsində, Azərbaycan incəsənət xadimləri nümayəndələrinin iştirakı ilə Moskvada İttifaqlar Evinin Sütunlu salonunda keçirildi.

Lakin ona diqqət yetirək ki, bir tərəfdən, Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının yubileyi ənənəvi sovet qanun-qaydalarına uyğun olaraq keçirildi, digər tərəfdən isə, burada tamamilə "qeyri-ənənəvi cəhətlər" vardı. Sovet ədəbiyyatşünaslığının adətən fikir vermədiyi əsərlər ictimaiyyətin diqqət mərkəzinə çıxarılırdı. Yeni nəsil özü üçün tamamilə yeni bir Cabbarlını kəşf etdi, o Cabbarlını ki, rəsmi ideologiya çərçivəsində bəzən Ezop dili ilə elə məsələlərə toxunurdu ki, bu, Azərbaycanın keçdiyi tarixi yolun nadirliyi barədə hamını düşünməyə vadar edirdi. Dərk edirdik ki, biz hamımız olduqca böyük tarixi sərvətlərin, çox yüksək tolerantlıq, dini və etnik dözümlülük şəraitini qoruyub saxlamış və zamanəmizə, bizə gətirib çatdırmış əcdadlarımızın yaratdıqları misilsiz mənəvi xəzinənin varisləriyik. Bu yubiley tədbirlərinin bütün iştirakçıları fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qayıdır, XX yüzilliyin başlanğıcındakı mürəkkəb sosial prosesləri gözlərinin qarşısına gətirir, milli teatrın, dünyəvi təhsil sisteminin təşəkkülünün təfərrüatına vaqif olurdular.

*Heydər Əliyevin siyasətinin öncül qayəsi ümummilli dəyərlərin bərqərar edilməsidir.*

Bakının mərkəzində Cəfər Cabbarlıya abidə ucaldılanda, Azərbaycan kinostudiyasında onun büstü açılanda, əsərləri yenidən səhnəyə qoyulanda aydın oldu ki, Cabbarlı dramaturgiyası və poeziyası bədii obrazlar sistemi vasitəsilə məhz Heydər Əliyevin siyasətinin öncül qayəsi olan ümummilli dəyərlərin bərqərar edilməsinə yönəlmişdir. Məhz bu baxımdan həmin yubileyin son dərəcə rəmzi mənası oldu.

Azərbaycan mədəniyyətinin yubileyləri təntənə ilə qeyd edilən bir çox nümayəndələrinin xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri bu və ya digər formada şərh edilir, araşdırılır və sistem halına salınır, nəticədə isə böyümək də olan nəslin sərvətinə çevrilir, onların dünyagörüşünün əsasını formalaşdırırdı.

Daha bir misal. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq, Bakı Dövlət Universitetinin açılmasını respublikamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək, universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Heydər Əliyev çıxışlarından birində bu barədə deyir: "Bu, dözülməz bir hal idi. Elə həmin 1969-cu il noyabrın 1-də biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunmuşdur ki, bu çıxışın universitetdə böyük əks-sədası oldu. Çünki bu çıxış Azərbaycan dilində idi və universitetin qarşısında qoyulan məsələlər bizim ümummilli problemlərimizlə sıx bağlı idi".



O yubiley günlərində çoxları, bəlkə də, umumiyyətlə, ilk dəfə düşünürdü ki, görəsən, əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətini yaradanların məqsəd və məramları nə idi. Axı, sovet elmində Azərbaycan Xalq Cümhuriyyətinin həmin nümayəndələrinə ancaq rüsvayçılıq damğası vururdu, əslində isə, Bakıda universiteti məhz onlar açmışdılar və respublikada ali təhsilin bünövrəsini də məhz bu universitet qoymuşdur.

Sovet dövrünün ehkamları respublika rəhbərindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də, bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi. Bu da heyrətqarışıq bir heyranlıq və bu üslubu təqlid etmək arzusu doğururdu. 1972-ci illərin ortalarında yazıçılardan biri ona "yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız!" deyəndə, Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız". Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi.

*Rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi, Heydər Əliyev Azərbaycan dilinə müraciət edirdi.*

Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki, gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində

Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarında və tədbirlərində son dərəcə aydın ifadə edəcək, eyni zamanda öz çıxışlarında da bu mövzuya müraciət edəcəkdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlatmaq istərdik: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir".

***Heydər Əliyev, ilk növbədə, milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas edə bilmişdir.***

Elə görünür ki, öz milli müstəqilliyimizi bəyan etdikdən sonra biz, ilk növbədə, gələcək inkişafımızın bəzi, heç olmasa, əsas istiqamətlərini müəyyənləşdirməli idik. Lakin 1991-93-cü illərdə Azərbaycanda keçmişə nihilist münasibət və tarixi tamamilə yenidən yazmaq istəyi hökm sürürdü. Yeni dalğanın gətirdiyi bir çox "demokrat"ların platformasını bəzi tədqiqatçılar "neobolşevizm" adlandırırlar. Ölkənin o vaxtadək yaradılmış iqtisadi potensialına həmin illərdə çox böyük ziyan vuruldu, milli dəyərlərin hansısa bir yoxlanılmış sistemə əsaslanmayan ideyasız inkişaf pərəstiş obyekti səviyyəsinə qaldırıldı. Hamıya məlumdur ki, təkcə təbiət deyil, cəmiyyətin inkişafı da boşluğa dözmür. Bu ideya boşluğu dərhal mentalitetimizə yad ideologiya ilə dolduruldu və çox tez bir zamanda cəmiyyətə nifaq saldı.

Azərbaycan xalqı Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərliyi dövründə həyata keçirdiyi işlərin əhəmiyyətini yalnız iki ildən sonra - səhvlərin və yanılmaların, mənfi təcrübənin acı dərslərini görəndən və yaxınlaşan fəlakəti hiss edəndən sonra dərk etdi. Aydın oldu ki, Heydər Əliyev, ilk növbədə, milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas edə bilmişdir. Hamının və hər şeyin elliklə inkar edildiyi hərc-mərclik dövründə Heydər Əliyevin adını



belə xalqın tarix və yaddaşından silməyə can atanlar da qəlbinin dərinliyində gözəl başa düşürdülər ki, onun siyasi və dövlətçilik fəaliyyəti xalqın milli dövlətçilik barədə çoxəsrlik arzu və istəklərinin həyata keçməsi üçün əlverişli zəmin yaratmışdır. 1993-cü ildə ölkəyə yenidən başçılıq edən Heydər Əliyevi, ilk növbədə, bütövlükdə respublikaya vurulan ziyanın miqyası dəhşətə gətirdi. Çox şeyə boş yerdən başlamaq lazım gəldi. Heydər Əliyev ötən əsrin 70-ci illərində Azərbaycanda necə böyük quruculuq işlərinin həyata keçirildiyini sonralar öz çıxışlarında dəfələrlə xatırlayacaqdır. Artıq 80-ci ilin ortalarında Azərbaycan həm formal cəhətdən, həm də faktiki olaraq keçmiş SSRİ-nin ən dinamik inkişaf edən respublikalarından birinə çevrilmişdi.

***Heydər Əliyev ötən əsrin 70-ci illərində Azərbaycanda necə böyük quruculuq işlərinin həyata keçirildiyini sonralar öz çıxışlarında dəfələrlə xatırlayacaqdır.***

Bu vəziyyət Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı dövrdəkindən kəskin surətdə fərqlənirdi. SSRİ-nin perspektivsiz əyalətlərindən biri kimi respublikamız barəsində formalaşmış fikrin nəticəsi idi ki, 1960-cı ilin sonlarına yaxın Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində geridə qalırdı. Sovet hökumətinin rəsmi dairələri səviyyəsində belə bir fikir vardı ki, məşhur neft yataqları öz keçmiş əhəmiyyətini itirmişdir və respublikanın neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur. Bunun, demək olar, alternativi yox idi. Vəziyyətdən çıxmaq üçün yeni yollar axtarmaq əvəzinə, respublikada mənfi meyllərin tədricən güclənərək, daha dərin kök atması ilə barışmışdılar, hakimiyyət uğrunda gizli mübarizə getdikcə daha eybəcər şəkil alırdı. Belə bir vəziyyətdə, ilk növbədə, respublika iqtisadiyyatının getdikcə güclənən tənəzzülünün qarşısını almaq, ictimai-siyasi həyatdakı mənfi halları aradan qaldırmaq lazım idi. Buna ən əvvəl respublikanın siyasi rəhbərliyindəki intriqalar, dövlət və əmək intizamının, tələbkarlığın olmaması, hakimiyyət orqanlarındakı qohumbazlıq və rüşvətxorluq mane olur və bütün bunlar da cəmiyyətə son dərəcə mənfi təsir göstərir, cəzasızlıq və hərki-hərkilik şəraiti yaradırdı.

Xalqın etibarından və dəstəyindən məhrum olan, habelə başı daxili çəkişmələrə qarışan ölkə rəhbərliyi məqsədyönlü dövlət siyasətini həyata keçirə bilmirdi. Ona görə də milli dilin inkişafı və işlədilməsi, dövlət idarəçiliyi strukturlarının yerli

əhali sırasından olan kadrlarla möhkəmləndirilməsi sahəsində ciddi tədbirlər görülmürdü. Üstəlik, ölkə rəhbərliyi saxta beynəlmiləlçilik adı altında həmin istiqamətdə bütün mümkün təşəbbüslərin qarşısını alırdı ki, bu da, heç şübhəsiz, milli şüurlu, milli kateqoriyalarla düşünən və milli mentalitetin daşıyıcısı sayılan kadrların irəli çəkilməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatını bütövlükdə dərin və uzunsürən böhran bürümüş respublikanı bu ağır vəziyyətdən çıxarmağın yollarını axtarıb tapmaq, prinsipcə yeni konseptual səviyyədə yanaşma əsasında ölkənin inkişaf planlarını işləyib hazırlamaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni metodlar tətbiq etmək lazım idi. Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir.

*Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir.*

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfi hallarla fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başlandı. 1969-cu il Azərbaycanın ən yeni tarixində dönüş ili oldu. Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı.

Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə - 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır.

Əlbəttə, milli dirçəliş ideyalarının, azərbaycançılıq ideologiyasının əməli surətdə həyata keçirilməsini yalnız təsərrüfat və sənaye sahələrində qazanılmış uğurlar fonunda, onların əsasında inkişaf etdirmək olardı. Heydər Əliyevin strateji proqramında diqqəti çəkən cəhət məhz odur ki, burada mənəvi, bədii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlərlə və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə birləşərək, vahid məcrada reallaşdırılmışdır. Yeri gəlmişkən, Heydər Əliyev müstəqillik dövründə çıxışlarından birində "Dədə Qorqud" qazma qurğusunu nəzərdə tutaraq deyir: "...adını da "Dədə Qorqud" qoyduq, əvvəl "Şelf-2" adlanırdı. Amma biz ona Dədə Qorqud adı verdik, çünki bu, bizim babamızdır". Gördüyümüz kimi, Prezident Heydər Əliyev hətta iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda qoymur, çünki o, öz ölkəsinin iqtisadi inkişafını hər zaman mənəvi mədəniyyət problemləri ilə sıx bağlılıqda, vahid axarda görür.

*Prezident Heydər Əliyev hətta iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda qoymurdu.*

70-ci illərdən başlayaraq, Azərbaycan sürətli iqtisadi inkişafla və iqtisadi potensialın gücləndirilməsi ilə yanaşı, demək olar, daxilən, tədricən öz təkamülünün növbəti mərhələsi kimi tarixən şərtləndirilmiş suverenliyə və müstəqilliyə hazırlaşırdı. 80-ci illərin axırları - 90-cı illərin əvvəllərində ərazi bütövlüyü uğrunda xalq hərəkatının geniş vüsət alması Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə təmin edilmiş iqtisadi inkişaf, milli ruhun və milli özünüdərkin dirçəlməsi sayəsində mümkün olmuşdur. Bu, Azərbaycanda milli özünüdərk prosesinin xüsusilə gücləndiyi həmin 70-ci illərdir. Bu, həmin 70-ci illərin əvvəlləri idi ki, Heydər Əliyev Novruz bayramının keçirilməsi barədə ziyalılara cavab verərək demişdir: "Mənim tapşırığımla deyil,... qoy ürəkləri istədikləri şəkildə keçirsinlər". Hər bir azərbaycanlı ümummilli dəyərlər sisteminə məhz beləcə, özünün istədiyi kimi qoşulurdu. Bu, həmin 70-ci illərdir ki, onda Heydər Əliyev cəmiyyətin həyatındakı çoxsaylı dəyişiklikləri dahi Nizaminin bu ölməz sözlərini sitat gətirərək həyata keçirirdi: "Qoy ədalət zəfər çalsın!". Bu haqq-ədalətin daşıyıcısı, carçısı və bayraqdarı, ilk növbədə, onun özü - ölkədə danılmaz nüfuza malik olan ümummilli lider idi.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İtti-

*Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və milli-mənəvi idealların bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.*

faqının bir çox respublikalarında aşkar şəkildə hiss olunduğu bir vaxtda, Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və cəmiyyətdə, mədəniyyətdə, ədəbiyyatda gedən prosesləri necə başa düşdüyünü açıq ifadə etməyə, əslində isə, milli-mənəvi idealların bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

Məhz o illərdə respublikada şəhərsalma və şəhərlərin, rayon mərkəzlərinin abadlaşdırılması sahəsində böyük işlər görülürdü. Bakıda bir sıra memarlıq ansamblları, inzibati mərkəzlər, saraylar, institutlar, nəşriyyatlar, tədris korpusları, komplekslər tikilib istifadəyə verilmişdir ki, bunlar da müasir Azərbaycan memarlığının əsərləri xəzinəsinə daxil olmuşdur. Bir çox memarlıq abidələri məhz Heydər Əliyevin təşəbbüsü sayəsində bərpa edilmişdir. Onun sayəsində Bakının ən gözəl güşələrində xalqımızın milli ruhunun ifadəçiləri olan görkəmli xadimlərə əzəmətli abidələr ucaldılmış, məşhur tarixi şəxsiyyətlərin ev muzeyləri yaradılmış və bunlar mədəniyyət mərkəzlərinə çevrilmişdir. Məhz o dövrdə Kirovabadda şəhərin təzə yaşayış massivlərindən birinə "Yeni Gəncə" adı verilmiş və bununla da dolayısı ilə bildirilmişdir ki, bu şəhərin tarixi və əsl adı Gəncədir.

Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi. Bu işlərin sırasında gənclərdə elmi dünyagörüşünü, məntiqli düşüncə qabiliyyətini artırmaq məqsədi ilə, demək olar ki, bütün şəhərlərdə və rayon mərkəzlərində şahmat məktəblərinin inşa olunması və fəaliyyəti mühüm işlərdən biri hesab oluna bilər.

Bununla bərabər, Heydər Əliyev hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Bu prosesin inkişaf





etdirilməsi məqsədi ilə 1969-1982-ci illərdə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verildi, ali məktəblərin şəbəkəsi genişləndirildi. 1980-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatmışdı.

Heydər Əliyev həmişə bu fikirdə olmuşdur ki, konkret işlər nəzəri mülahizələrdən qat-qat vacibdir. O deyirdi ki, müasir milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında, milli dirçəlişə ümid bəsləmək mümkün deyildir. 1969-cu ildə rəhbərliyə gəldiyi elə ilk aylardan o, milli hərbçi kadrlar hazırlanması sahəsində bir sıra addımlar atdı. Heydər Əliyev özünün yaratdığı hərbi litseyin 30 illik yubileyində iftixarla demişdir: "Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm". Heydər Əliyev ona görə xoşbəxtdir ki, onun öncədən gördükləri həyata keçdi: Azərbaycan müstəqillik əldə etdi, bu hərbçi kadrlar isə müstəqilliyin qorunması üçün çox gərəkli oldular.

1970-80-ci illərdə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi ənənəyə çevrilmişdi. Bununla bərabər, SSRİ respublikalarında da, sosializm düşərgəsi ölkələrində, habelə bir sıra xarici dövlətlərdə də Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bunlar Azərbaycanın xarici ölkələrlə əlaqələr qurmasına imkan yaradır, özünəməxsus tariximizin, milli mədəniyyətimizin nailiyyətlərinin tanıdılmasını təmin edirdi. Paytaxtımız Bakı şəhəri isə sürətlə dünya şöhrətli elm və mədəniyyət mərkəzinə çevrilirdi.

Bu, elə bir vaxt idi ki, fəal vətəndaşlıq nümunəsi sayılan və hətta Moskva və Leninqrad jurnallarında çap etdirmək mümkün olmayan "dissident" materialları Bakı mətbuatında işıq üzü görürdü. Heydər Əliyev bu yazıların müəlliflərini hər cür hücumlardan və qəsdlərdən qoruyurdu. Təsadüfi deyil ki, Azərbaycanda həmin dövrdə "sandıqda yatıb qalmış dissident ədəbiyyatı" yoxdur. Ədiblərin heç bir qadağa olmadan istər tarixi keçmişimizə, istərsə də bu günümüzə həsr etdikləri milli ruhlu əsərlər yarada bilməsi üçün əlverişli şəraitin təmin edilməsi heç də asan iş deyildi. Bunu həm gənc şair və

***Heydər Əliyev həmişə bu fikirdə olmuşdur ki, konkret işlər nəzəri mülahizələrdən qat-qat vacibdir.***



yazıçılara xüsusi qayğı və diqqətin təzahürü kimi, həm də, ilk növbədə, Heydər Əliyevin fəlsəfi və siyasi amalının konkret işlərdə öz əksini tapması kimi qiymətləndirmək olar. Eyni sözləri mədəniyyət və incəsənətin digər sahələrində - kino, rəssamlıq, musiqi sahəsindəki milli ruhlu əsərlər barəsində də demək olar. Bu baxımdan kino sənətinin "İstintaq", "Bir cənub şəhərində", "Ulduzlar sönmür" kimi nümunələri səciyyəvidir.

Görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri var. Nərimanov 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti devrildikdən sonra son dərəcə mürəkkəb bir dövrdə Azərbaycan dövlətçiliyini qoruyub saxlayan qeyri-adi siyasi şəxsiyyət kimi Heydər Əliyevi cəlb etmişdi. Əlamətdar haldır ki, taleyin hökmü ilə Heydər Əliyev də 1993-cü ildə dağılıb parçalanmaq təhlükəsi qarşısında qalmış Azərbaycanı xilas etmək missiyasını öz üzərinə götürməli olacaqdı.

Xalqımızın böyük oğlu Nəriman Nərimanovun şanlı adını bərpa etmək üçün Heydər Əliyevin atdığı cəsarətli addım, həqiqətən, Azərbaycan dövlətinin mənafeləri naminə qazanılmış mühüm qələbə idi. Bu addımı atmaq heç də asan iş deyildi, belə ki, buna görə Heydər Əliyev öz siyasi karyerasını itirə bilərdi. Azərbaycanın düşmənlərinin iradəsi ilə Nəriman Nərimanov siyasi unutqanlığa məruz qalmışdı, davakar millətçi kimi qələmə verilirdi. 1972-ci ilin yazında Nərimanovun 100 illik yubileyi keçirildi, Bakıda isə ona əzəmətli abidə ucaldıldı. Heydər Əliyev abidənin təntənəli açılış mərasimində çıxış edərək demişdi: "Nəriman Nərimanov... öz zəkası və iradəsi ilə xalqına xidmət edirdi... Nəriman Nərimanov bu gün də bizimlədir. Bu gün o, özünün nəhəng qaməti ilə burada - qocaman Xəzərin dalğaları üzərində ucalmaqdadır". Bir müddət sonra "Pravda" qəzetində Heydər Əliyevin N.Nərimanovun həyat və fəaliyyəti haqqında məqaləsi dərc edildi. O, bununla kifayətlənməyərək, Nərimanov haqqında çəkilən filmin ekranlara çıxarılmasına da nail olur. Az sonra, 1977-ci ildə məhz onun səyləri ilə Ulyanovsk şəhərində Nərimanova abidə ucaldıldı, 1982-ci ildə isə Moskvada xatirə lövhəsinin açılışı oldu.

***Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri var.***

*Heydər Əliyevi xüsusi qayğılandıran digər məsələ milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi.*

Sovet rəhbərliyinin bəzi dairələrində Azərbaycanın SSRİ-nin geridə qalmış ucqar əyaləti olması barədə yaranmış təsəvvürü Heydər Əliyev özünün yorulmaz təşkilatçılıq və siyasi fəaliyyəti ilə qısa müddətdə aradan qaldıra bildi. O, hətta Sovet Azərbaycanının 50 illik yubileyinə həsr edilmiş tədbirləri də elə səviyyədə keçirdi ki, onlar milli mədəniyyətimizin və tariximizin parlaq bayramına çevrildi. Bir çox yazıçılara, mədəniyyət və incəsənət xadimlərinə Dövlət mükafatları verildi. Həmin il keçirilmiş böyük rəssamlıq sərgisi isə mədəniyyətimizin nailiyyətlərinin görünməmiş nümayişinə çevrildi.

Heydər Əliyevi narahat edən bir məsələ də bütün sənaye potensialının, elm və mədəniyyət müəssisələrinin, təhsil ocaqlarının Bakıda cəmlənməsi, rayonların isə inkişaf prosesindən bir növ kənarda qalması idi. Bu mənfi meylləri aradan qaldırmaq lazım idi, bununla bağlı problemlər Gəncədə, Naxçıvanda, digər şəhər və rayonlarda ictimaiyyətlə görüşlərdə müzakirə olunurdu. Xatırladaq ki, bu sahədə vəziyyət tezliklə kökündən dəyişdi.

Azərbaycanın inkişafı yolunda Heydər Əliyevi xüsusi qayğılandıran digər məsələ milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi. Bu məqsədlə 1972-ci ildə 50 illiyi təntənə ilə qeyd olunmuş S.Vurğun adına Rus Dram Teatrından səmərəli şəkildə istifadə edilirdi.

Əgər fikrən o illərə qayıtmağa çalışsaq, əhəmiyyəti və mənası bütün dolğunluğu ilə yalnız indi dərk edilən nailiyyətlərin heyrətamiz mənzərəsi gözlərimiz qarşısında canlanar. Bu salnamənin yalnız bəzi hadisələrini yada salaq. 1972-ci ilin aprelində Heydər Əliyev görkəmli humanist şair İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə hazırlıqla bağlı qərar qəbul edilməsinə nail olur, bir il sonra isə şairimizin şanlı yubileyi müttəfiq respublikaların çoxsaylı nümayəndələrinin iştirakı ilə Bakıda və Moskvada qeyd edilir.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi keçirilir. Həm dahi Üzeyir bəyin adını daşıyan Konservatoriya, həm də professor və müəllimlər təltif olunurlar. Bir sözlə, yubiley bütün mədəniyyətimizin bayramına çevrilir. Üç il sonra Üzeyir Hacıbəyovun 90 illik yubileyi Bakıda və Moskvada böyük təntənə ilə qeyd olunur. Elə həmin il "Koroğlu" operası yeni quruluşda tamaşaya qoyulur. İctimaiyyətin diqqəti Üzeyir bəyin irsinə, bəstəkarın bənzərsiz musiqi yaradıcılığına, ədəbi fəaliyyətinə bir daha cəlb edilir. Hacıbəyovun publisistikası araşdırılarkən, XX əsrin əvvəllərində onu düşündürən milli oyanış problemləri - Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər xüsusilə vurğulanırdı.



*Milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər idi.*

Milli özgürlüyün atributu olan xalçaçılıq tarixən mədəniyyətimizdə son dərəcə mühüm yer tutmuşdur. Lakin o dövrdə xalq sənətinin bu növünə ögey münasibət bəslənildiyindən, Azərbaycanda bir dənə də xalça muzeyi yox idi. Bu hal Heydər Əliyevin vəzifə səlahiyyətləri çərçivəsindən kənarda olsa da, onu çox narahat edirdi. Bu narahatlığa tezliklə son qoyuldu. 1972-ci il aprelin 25-də Bakıda təntənəli şəraitdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi açıldı.

Bundan bir ay sonra Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Aşıq Ələsgərin anadan olmasının 150 illiyi münasibətilə təntənəli yığıncaq keçirildi. Bu, həmin dövrdə görünməmiş bir hadisə idi. Vətəni Göyçə mahalı sovet dövründə Ermənistan SSR-in tərkibinə daxil edilən Aşıq Ələsgərin belə bir yubileyinin keçirilməsindən məqsəd böyük el sənətkarını Azərbaycan xalqına qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğu, ulu atababalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrini yeni nəslə çatdırmaq idi.

1974-cü il. Azərbaycan teatrının 100 illik yubileyi qeyd edilir. Heydər Əliyev yubiley mərasimində çıxış edərək, Şərqdə ilk professional teatrın inkişaf yollarından, ictimai fikrin formalaşmasına onun göstərdiyi təsirdən danışır. Azərbaycan teatrının görkəmli nümayəndələrinə yüksək dövlət mükafatları verilir. Tanınmış səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı SSRİ xalq artisti fəxri adına layiq görülürlər. Moskvada Azərbaycan Akademik Dövlət Dram Teatrının yubiley qastrolları böyük uğurla keçir.

Azərbaycan dilinin tədqiqi sahəsində araşdırmalara görə

həmin il respublikanın bir qrup dilçi alimi də Dövlət mükafatına layiq görülür. Həmin dövrdə respublikamızda ilk dəfə olaraq müstəqil Dilçilik İnstitutu yaradılır ki, bu da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmlənməsinə kömək edir və dilin tarixinə, dialektologiyaya və bir çox digər problemlərə dair fundamental tədqiqatlar aparılmasına imkan verir. Millətlərarası ünsiyyət vasitəsi kimi rus dilinin fəal təbliğ olunduğu o illərdə Heydər Əliyev respublikada tam qoşadillilik mühitinin bərqərar edilməsinə çalışırdı. Sonrakı illərdə - 80-90-cı illərdə respublikanın rəhbərinin istər rəsmi, istərsə də qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməməsi, əslində, ana dilimizin nüfuzunu təsdiqləyirdi.

1975-ci il. Bakıda xalqımızın görkəmli şairi Səməd Vurğunun ev muzeyi açılır. Dekabrda isə Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə yaradılmış Ümumittifaq yubiley komissiyasının Moskvada birinci iclası keçirilir. 1976-cı ildə Moskvanın Böyük Teatrında Səməd Vurğunun yubileyi qeyd edilir. Elə həmin il İttifaqlar Evinin Sütunlu salonunda Müslüm Maqomayevin 90 illik yubileyi keçirilir. Dekabrın 12-də isə Azərbaycan memarı Əcəmi Naxçıvaninin anadan olmasının 850 illiyi münasibətilə, onun yaratdığı Möminə xatın türbəsinin qarşısında bu dahi sənətkarın abidəsinin təməli qoyulur.

1977-ci il iyunun 20-də Azərbaycanda görkəmli opera müğənnisi Şövkət Məmmədovanın 80 illik yubileyi qeyd edilir. Həmin ilin oktyabrında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1978-ci il. Fevralın 3-də Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Elə həmin gün böyük bəstəkara Sosialist Əməyi Qəhrəmanı adı verilir. Fevralın 15-də isə Moskva Konservatoriyasının Böyük salonunda ustadın yubileyi qeyd olunur.

Həmin ilin ən böyük hadisəsi isə, çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verilməsi oldu. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq, 1978-ci il

***Millətlərarası ünsiyyət vasitəsi kimi rus dilinin fəal təbliğ olunduğu o illərdə Heydər Əliyev respublikada tam qoşadillilik mühitinin bərqərar edilməsinə çalışırdı.***



Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər olan bu addım gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdı.

1978-ci ilin sentyabr və oktyabr aylarında Ukraynada və Böyük Britaniyada mədəniyyət və incəsənət xadimlərimizin böyük bir qrupunun iştirakı ilə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1979-cu ilin yanvarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı xüsusi qərar qəbul edilir və geniş tədbirlər planı təsdiq olunur. Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının İsveçdə konsertləri böyük uğurla keçir.

1980-ci ilin fevralında isə böyük Azərbaycan şairi Nəsiminin abidəsinin təntənəli açılışı olur. İndi Nəsimini nəinki təkcə Azərbaycanda tanıyırlar, artıq o, bütün dünyaya tanıdılır və o, məşhurlaşdıqca, bütün planetdə yaşayan insanlar Azərbaycanı da tanıyacaqlar.

1980-ci ilin noyabrında bir qrup Azərbaycan alimi və mədəniyyət xadimi SSRİ Dövlət mükafatına layiq görülür. Dekabrın sonlarında Azərbaycanın xalq artisti Qurban Pirimovun anadan olmasının 100 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Bir neçə ay sonra -1981-ci ilin martında görkəmli aktyor və rejissor Hüseynqulu Sarabskinin anadan olmasının 100 illiyi qeyd olunur. Həmin il iyunun 11-də Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsi, iyulun 21-də isə Hüseyn Cavidin 100 illiyinin qeyd olunması barədə qərarlar qəbul edilir. Avqustda isə Bakının mərkəzindəki ən gözəl binalardan biri milli mənəvi sərvətlərimizin qorunub saxlandığı Respublika Əlyazmalar Fonduna verilir.

Elə həmin vaxt, avqustda dahi Nizami Gəncəvinin 840 illik yubileyinin, görkəmli astronom və filosof Nəsirəddin Tusinin anadan olmasının 780 illiyinin və Aşıq Alının 180 illiyinin keçirilməsi haqqında qərarlar imzalanır.

Bir neçə ay sonra tanınmış yazıçı Mirzə İbrahimovun 70 illiyi münasibəti ilə təntənəli yığıncaq olur. Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Nizami Gəncəvinin yubiley gecəsi keçirilir. Noyabrda N.Tusinin 780 illiyinin, dekabrda

***Heydər Əliyevin Moskvada yaşayan azərbaycanlılara diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi.***

***1969-1982-ci illərdə Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır.***

isə görkəmli maarifçi və ədib Abdulla Şaiqin 100 illiyinin qeyd edilməsi respublikanın o vaxtkı mədəni həyatında yaddaqalan hadisələr olur.

O illərdə Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof şair Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur. Sonralar onun məzarı üzərində məqbərə ucaldılmışdır. Bu addım təkcə xalqımızın mədəniyyət salnaməsinə düşmüş bir hadisə deyil, həm də sovet gerçəkliyində görünməmiş və mümkün ola bilməyən hadisələrdəndir. Təsadüfi deyil ki, xarici müəlliflərin bir çoxunun geniş mənbələrə əsaslanan kitablarında bu fakt son dərəcə müfəssəl şərh olunur, o cümlədən Azərbaycanın müstəqilliyə can atmasının məhz başlanğıcı kimi vurğulanır.

Görülən bütün bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini daha yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir. XX yüzilliyin 1969-1982-ci illərində Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır. Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlədilməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin Ümumittifaq miqyasında keçirilməsi, Nəsimiyə, Cabbarlıya, Nərimanova abidələr ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet İttifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri və s. - bütün bunlar Heydər Əliyevin siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi.

1982-ci ilin dekabrı. Mübaliğəsiz demək olar ki, bütün xalq öz şanlı oğlunu SSRİ paytaxtına iftixar və qürur hissi ilə yola salırdı. Beş il ərzində o, Azərbaycanda gedən ictimai-siyasi və mədəni prosesləri uzaq Moskvadan müşahidə etməli olacaqdır. Buna baxmayaraq, heç olmasa, ildə bir dəfə Vətənə gələrək, insanlarla görüşəcək, respublika haqqında daha səhih məlumat almağa çalışacaqdır. 1982-ci ildən etibarən o, dünyanın ən nəhəng dövlətinin aparıcı rəhbərlərindən biri olur. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi onun



rəhbərlik etdiyi sahələr son dərəcə genişmiqyaslı və çoxşaxəli idi - elm, təhsil, mədəniyyətdən tutmuş nəqliyyata, hətta o dövrün ən iri layihələrindən biri hesab olunan BAM-ın tikintisinə qədər. Heydər Əliyevin qarşısında öz geniş erudisiyasını, böyük idarəçilik və təşkilatçılıq qabiliyyətini tətbiq etmək üçün hədsiz imkanlar açılır. Yüksək tələbkarlığı, tükənməz enerjisi ilə fərqlənən Heydər Əliyev bu imkanlardan mahir rəhbər kimi istifadə edərək, nə kimi potensiala malik olduğunu qısa müddətdə əyani şəkildə nümayiş etdirdi.

O, yeni tipli siyasi lider kimi təkcə ittifaq miqyasında deyil, həm də dünya miqyasında tanındı. Moskvada Heydər Əliyevin rəhbərliyi altında çalışmış idarə, təşkilat və müəssisələrin rəhbərlərinin və sadə işçilərinin onun şəxsiyyəti, iş üslubu, rəhbər keyfiyyətləri barədə bu günədək söylədikləri yüksək rəy və fikirlər buna əyani sübutdur.

Heydər Əliyevə xas olan istedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat keyfiyyətləri Moskvada işlədiyi müddətdə tezliklə ona çox böyük nüfuz və şöhrət qazandırdı. Onun iş üslubunun bir çox xüsusiyyətləri Kremldəkilərə qeyri-adi görünürdü. O, Kremlin ciddi riayət etdiyi qaydalar çərçivəsindən kənara çıxmadan öz xəttini yürüdür, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayırdı. Onun fəaliyyətini Azərbaycanda hamı böyük diqqətlə və iftixar hissi ilə izləyirdi. Bu da tamamilə təbii idi. Axı, o vaxta qədər heç bir azərbaycanlı SSRİ-də belə yüksək vəzifə tuta bilməmişdi. Onun Kremldə atdığı elə ilk addımlar təkcə Kremlətrafı mühitdə deyil, hətta uzaq xaricdə geniş əks-səda doğururdu. Qərb mətbuatı bütün sovet stereotiplərini alt-üst edən, Siyasi Büronun heç bir üzvünə bənzəməyən, gülərüz, cavan və hətta incə zövqlə geyinən yeni tipli bir siyasi xadimdən yazırdı. Ərəb ölkələrinin qəzetlərində o, "sovetlərin dəmir xarakterli müsəlman rəhbəri" kimi, türk mətbuatında isə "Kremldəki türk" kimi səciyyələndirilirdi. İndi, keçmiş Sovet İttifaqının bir çox rəhbərlərinin xatirələri və memuarlarının çap edildiyi bir vaxtda, onunla birlikdə işləmiş insanların rəyi ilə tanış olmaq mümkündür. Onun xarakterinin və iş üslubunun bir çox qeyri-adi xüsusiyyətləri həmin kitabların səhifələrində də öz əksini tapmışdır.

Heydər Əliyev Moskvada işləyərkən, son dərəcə gərgin

***Heydər Əliyev yeni tipli siyasi lider kimi təkcə ittifaq miqyasında deyil, həm də dünya miqyasında tanındı.***



iş rejiminə baxmayaraq, Azərbaycan haqqında məlumatlarla daim maraqlanırdı. O, imkan taparaq, Moskvada yaşayıb işləyən azərbaycanlılarla, o cümlədən vaxtilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı gənclərlə görüşür, onların həyatı ilə maraqlanır, üzləşdikləri problemlərin həllinə kömək edirdi. Heydər Əliyevin Moskvada yaşayan azərbaycanlılara diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi.

Keçmiş sovet rəhbərliyinin Heydər Əliyevi "səhhətinə görə" istefaya göndərmək qərarı Mərkəzin Azərbaycana qarşı yönəldilmiş riyakar siyasətinin həyata keçirilməsi yolunda ilk addım oldu. Heydər Əliyev kimi dövlət xadiminin SSRİ rəhbərliyinin yüksək dairələrindən çıxarılması erməni millətçilərinin və onların Kremldəki havadarlarının əl-qolunu açdı. Azərbaycanın o vaxtkı rəhbərliyinin Mərkəzə yarınmaq üçün yeritdiyi xalqa zidd siyasəti respublikada ictimai-siyasi



vəziyyəti son dərəcə kəskinləşdirdi. 1990-cı ilin qanlı yanvar hadisələri bütün dünyaya nümayiş etdirdi ki, sovet rəhbərliyi və onun yerlərdəki əlaltıları Azərbaycan xalqına qarşı ən ağır cinayətlər törətməkdən çəkinmirlər.

Pensiyaya göndərilən, "ev dustağı" şəraitində yaşamağa məcbur edilən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş qanlı faciə ilə əlaqədar yaranmış vəziyyətdə daha susa bilməzdi. O, faciənin səhəri günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanatla çıxış etdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm".

Heydər Əliyevin həmin bəyanatda səslənən "qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır" tələbi onun bu məsələ ilə əlaqədar sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də öz aktuallığını saxlamışdır. O, həmişə belə bir mövqedən çıxış etmişdir ki, "xalqa qarşı cinayət cəzasız qalmamalıdır". Çünki xalq onun üçün həmişə - onda da, sonralar da ən ülvi dəyər olmuşdur.

1990-cı ilin qanlı 20 Yanvar hadisələri Heydər Əliyevi siyasi fəaliyyətə qaytardı. Lakin artıq bu fəaliyyət sovet sisteminin məcrasından kənara çıxırdı. Siyasi vəzifəsi olmayan insan keçmiş SSRİ-də siyasi fəaliyyətlə məşğul ola bilməzdi. Buna, sadəcə olaraq, yol verilmirdi, buna əzəldən sərt qadağa qoyulmuşdu. 20 Yanvar faciəsi ilə əlaqədar onun siyasi bəyanatı təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu.

Heydər Əliyev bu siyasi eraya sıravi vətəndaş kimi qədəm qoydu. Onun rəsmi statusu ittifaq əhəmiyyətli fərdi pensiyaçı idi. Buna baxmayaraq, Heydər Əliyevin adı sovet rəhbərliyində elə bir xof, vahimə yaratmışdı ki, onu siyasi

***1990-cı ilin qanlı 20 Yanvar hadisələri Heydər Əliyevi siyasi fəaliyyətə qaytardı.***

fəaliyyətdən təcrid etmək, susdurmaq üçün hər cür vasitələrə, o cümlədən ən çirkin üsullara əl atılırdı. Heydər Əliyevin əleyhinə ittifaq və respublika mətbuatında genişmiqyaslı kampaniya başlandı. Onunla bağlı olan bütün hadisələr saxtalaşdırılır, yalan və böhtanlar yayılırdı. Onu Kunayevin və Rəşidovun vəziyyətinə salmaq üçün ən iyrənc vasitələrə əl atılırdı. SSRİ-nin o vaxtkı rəhbərlərinin sonralar etdikləri etiraflara görə, "onun ayağının altını möhkəm qazırdılar". Lakin onlar öz məqsədlərinə çatmaq üçün lazımi faktları yalnız bir səbəbə görə əldə edə bilmədilər - belə faktlar, sadəcə olaraq, yox idi. Əliyev əleyhinə kampaniyanın şişirdilməsi çərçivəsində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsindən tutmuş SSRİ Prokurorluğunun xüsusi qruplarına qədər saysız-hesabsız strukturlar səfərbər olunmuşdu. Sonrakı hadisələr göstərdi ki, Heydər Əliyevin hücumlar üçün hədəf kimi seçilməsindən məqsəd nəticə etibarilə bütün Azərbaycana zərbə endirmək idi. Heydər Əliyevi cismani divan tutmaqla hədələyərək, onu Vətənə qayıtmağa qoymur, ona hansısa şəkildə həyanlıq göstərənlərin hamısını təcrid edirdilər. Heydər Əliyevə qarşı təqibləri dövlət terror siyasəti səviyyəsinə qaldırmışdılar. Əjdər Xanbabayev kimi gözəl bir insanın qətlə yetirilməsi, əslində, Heydər Əliyevə qarşı yönəldilmiş aksiyaların gücünə əyani sübutdur. Lakin onu heç nə qorxutmadı və o, bütün maneələri dəf edərək, Vətənə dönməyə imkan tapdı.

***Heydər Əliyevin hücumlar üçün hədəf kimi seçilməsindən məqsəd nəticə etibarilə bütün Azərbaycana zərbə endirmək idi.***

1990-cı ildə Azərbaycan Ali Sovetinə seçkilər zamanı Heydər Əliyev deputat seçildi. 1991-ci il ərzində onun Ali Sovetin sessiyalarında etdiyi çıxışlarda istər SSRİ-də, istərsə də respublikada yaranmış böhranlı vəziyyətin dəqiq təhlili verilirdi. Gələcək inkişaf baxımından kommunist sisteminə məhz Heydər Əliyev qətiyyətlə "yox" dedi.

Əslində, bu çıxışlar yeni siyasi gerçəkliklərin, yeni siyasi ideologiyanın inikası idi. Heydər Əliyevin 1991-ci il fevralın 5-də parlamentin sessiyasındakı çıxışından bəzi xarakterik məqamları yada salaq:

"Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında bəzi fikirlərimi və təkliflərimi Ali Məclisə çatdırmaq istəyirəm.

Birinci: ölkə, sovet cəmiyyəti, dövlət üsul-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası



münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır.

Bunların səbəbləri: şübhəsiz ki, əmələ gəlmiş vəziyyətə keçmişin ayrı-ayrı mərhələlərində buraxılmış səhvlərin təsirini inkar etmək olmaz. Fəqət əsas səbəblər "perestroyka" adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir.

Təəssüf ki, bunların üstü örtülüb basdırılır, rəsmi dairələr və kütləvi informasiya orqanları ancaq keçmişi atəşə tuturlar.

Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə ölkəmizdə başlanmış dəyişikliklərin elmi, siyasi və iqtisadi əsaslarla işlənib hazırlanmış uzunmüddətli strategiyası olmamış və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər, təbiidir ki, müsbət nəticələr verməmişdir.

Milli siyasət sahəsində buraxılmış böyük səhvlər ölkənin bir çox respublikalarında faciəli vəziyyət yaratmışdır. Alma-Atada, Tbilisidə, Fərqanədə, Bakıda, Novı Uzendə, Oşda, Baltikyanı respublikalarda baş vermiş hadisələr müttəfiq respublikaların hüquqlarının tapdalanmasının, Mərkəzin imperiya siyasətinin nəticəsidir.

Əvvəlki illərdə özünə müəyyən qədər yol açmış demokratiya, aşkarlıq, siyasi plüralizm artıq məhdudlaşdırılır, ölkədə diktatura üsul-idarəsi tətbiq olunur.

Bunların hamısı cəmiyyəti fəlakət həddinə gətirib çıxarmışdır.

Sovet dövlətinin xarici siyasəti də çox qüsurludur.

Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur. Son beş ildə Qorbaçov xalqa çox vədlər verib. Lakin onların heç birini həyata keçirə bilməyib. Söz ilə əməl arasında boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, Kommunist Partiyası nüfuzdan düşüb.

***Gələcək inkişaf baxımından kommunist sisteminə məhz Heydər Əliyev qətiyyətlə "yox" dedi.***

İkinci: ölkədə yaranmış vəziyyət eyni ilə Azərbaycanda da hökm sürür. Respublikanın rəhbərliyi həmişə olduğu kimi, Mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır. Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya

*1993-cü ilin iyununda, Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı.*

atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublikamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub...

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə, mümkün olsa, öz sözlərimi deyərəm. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu, xırda məsələ deyil. Bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması - məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq...

Üçüncü: Azərbaycan Sovet Respublikasının mövcud olduğu 70 ildə Ermənistan Mərkəzin havadarlığına söykənərək, respublikamıza qarşı torpaq iddiaları edib, təxribat əməliyyatları aparıb, nəticədə xeyli torpaqlarımız zəbt olunub. Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə qəsbkarlıq fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq. İndi də belə mövqedəyik.

Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan respublikasının ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan, gərək ki, deputat Bədəlova çıxış elədi və Nüvədi kəndi haqqında danışdı. Sonra deputatlardan biri Zəngəzur, Göyçə mahalı haqqında danışdı. İndi qəti rəqəm demək istəmirəm. Ancaq mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918-ci ildə Azərbaycan



Respublikasının ərazisi 114 min kvadrat kilometr olub. İndi isə 86 min kvadrat kilometrdir. Gör əlimizdən nə qədər torpaqlar gedib.

Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər.

Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsini yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaq sahələri verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik.

Burada soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda, arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm, o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V.Polyaniçko dedi ki, 1977-ci ildə də Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı. Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq".

SSRİ-də gedən dağıdıcı proseslər gündən-günə güclənirdi. Siyasi, iqtisadi və sosial böhran son həddə çatmışdı. Belə bir şəraitdə özdəniraq yenidənqurma ideoloqları yeni prinsiplər əsasında ittifaq müqaviləsi bağlanmasının zəruriliyindən danışaraq, SSRİ-nin qalıb-qalmaması məsələsini ümumxalq

*Heydər Əliyev Azərbaycanın tarixində iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir.*

səsverməsinə çıxardılar. Bununla yanaşı, sovet təbliğat maşını hər bir insanı inandırmağa çalışırdı ki, heç bir müttəfiq respublika İttifaqsız yaşaya bilməz.

O dövrdə Naxçıvan Muxtar Respublikası İttifaqın qalıb-qalmaması barədə səsvermədə iştirakdan imtina etmiş yeganə bir diyar oldu. Muxtar Respublikanın sakinləri öz Ali Məclisinin sədri Heydər Əliyevin bu prinsipial məsələ ilə əlaqədar mövqeyini tam dəstəkləyərək, İttifaqa "yox" dedilər. Lakin Bakıda Mütəllibov hökuməti öz fəaliyyətini Moskvanın diktəsi ilə quraraq sübut etməyə çalışırdı ki, Azərbaycan İttifaqdan çıxsa, məhv olar. Ali Sovetin sessiyasında məhz belə fikirlərin səslənməsi üçün hər cür şərait yaradılmışdı və çoxları İttifaqı saxlamağın zəruriliyindən danışırdı. Heydər Əliyev həmin sessiyada öz qəti, sarsılmaz mövqeyini bildirərək, əslində, Azərbaycanın tam müstəqilliyinə nail olmağın zəruriliyini bəyan etdi. 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyevin çıxışının bəzi məqamlarına müraciət edək:

"1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda, çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz.

Biz hamımız bu İttifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda, tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini İttifaq daxilində görmüşük. Mən və mənimlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik...

Ölkənin rəhbərliyi 70 il mövcud olan İttifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni İttifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi İttifaq olmayıb, respublikalar heç də İttifaqda yaşamayıb, əsl İttifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni İttifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır... yetmiş il respublikamız sovet sosialist məzmununu daşıyıb. İndi biz respublikamızın

*Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi.*



adını bu sözlərdən azad etdik. Bəs, indi biz hansı yeni siyasi quruluşu qəbul edirik? Məlum deyil.

Yetmiş il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. Fəqət, bu, heç də yeni bayraq deyil. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?..

28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 May 1918-ci ildə ilk Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Belə olan halda, bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun.

İkincisi, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət, öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?

Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə, onların İttifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır...

Bu təbliğat əsassızdır. Əvvələ, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm. Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm... Fikrimizcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi İttifaqda olan respublikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bərabərhüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

*Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər - iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir.*

*Heydər Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, bütöv bir dövrü təsvir etməyə cəhd göstərmək demək olardı.*

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni İttifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin İttifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib.

1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə sovet ordusunun müasir silahlı qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət, qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz... Məlumdur ki, Sovet İttifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Eyni zamanda, yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri sovet orqanlarında rəhbər vəzifə tutmamalıdırlar. Demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidir. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərqərar olmalıdır.

Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin edilə bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək və onlar, tarix bizi bağışlamayacaqdır. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.



*Öz əhəmiyyətinə görə Heydər Əliyevin fəaliyyətinin Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxdığını deyən siyasətçi və politoloqlarla razılaşmaq lazımdır.*

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Bu, Heydər Əliyevin yeni mərhələdə siyasi platformasının, gələcək fəaliyyət proqramının əsas prinsiplərini özündə aydın əks etdirən bəyanat idi. Həmin sessiyada bütün Azərbaycan rəhbərliyi ayağa qalxaraq, onu susdurmağa cəhd göstərdi. Bu cəhd baş tutmadı. Heydər Əliyev öz siyasi platformasının müddəalarını xalqa çatdırmağa, böhrandan çıxış yolları barədə fikirlərini ifadə etməyə müvəffəq oldu.

Artıq seçim edilmişdi, geriyə yol yox idi. Beləliklə, Dövlət Təhlükəsizliyi Komitəsinin sabiq sədri, general-mayor, iyirmi yaşından Kommunist Partiyasına sədaqətlə xidmət etmiş, onun ali rəhbərliyində çalışmış olan Heydər Əliyev kommunist seçimindən şüurlu surətdə imtina etmişdi. Bu, uzun sürən gərgin düşüncələrin, axtarışların məntiqi nəticəsi idi. Azərbaycanın bir nömrəli kommunisti nəinki partiya sıralarını tərk etdi, həm də bu yolun yanlış olduğunu bütün xalqa bəyan etmək üçün özündə qüvvə tapdı. Burada 1990-cı ilin qanlı yanvar faciəsi günlərində partiya biletlərini atan, sonra isə yenidən onun sıralarına qayıtdığını bildirən bəzi üzdəniraq "əqidə sahibləri"ni yada salmaq yerinə düşər. Heydər Əliyevin 1991-ci il iyulun 19-da SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizəsinin mətnini olduğu kimi oxucuların diqqətinə çatdırmaq da yerinə düşərdi:

"Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

Birincisi, hələ 1990-cı ilin yanvarında, Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi ilə Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu anti-humanist, Konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən

Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbrlə gözlədim. Bir müddət sonra mənim çıxışlarıma cavab əvəzinə, "Pravda"da və partiyanın digər mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycanın kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

*Heydər Əliyevin yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmişdir.*

Artıq ilyarım keçib. Bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları nəinki üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələn hər şeyi edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaqdır. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyildir.

İkincisi, üç ildən artıqdır ki, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyləri ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət Mərkəzin ikiüzlü siyasəti nəticəsində qalmaqdadır. Vilayət Azərbaycan dövlətinin idarəçiliyindən əslində tamamilə çıxmışdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulmuşdur. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən adamlar həlak olur. Bütün bunlar "humanist ideologiyalı" Sovet dövləti üçün adi faktdır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişənin qarşısını hələ 1987-ci ildə, təzəcə başladığı vaxtda ala bilərdi, istər Azərbaycan xalqı üçün, istərsə də erməni xalqı üçün dəhşətli fəlakət və müsibətlər gətirmiş bu faciəyə imkan verməzdi. Deməli, bu münaqişə siyasi Mərkəzə lazımdır.

Üçüncüsü, bütün cəmiyyətin demokratikləşməsinin,





siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə ərazi bütövlüyünün müdafiəsi və cəmiyyətin demokratikləşməsi üçün Azərbaycanda başlanmış geniş demokratik hərəkat Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyləri ilə yatırılmışdır. Bu illərdə bir çox insanlar siyasi fəaliyyətinə görə repressiyalara məruz qalmışdır.

Artıq ilyarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən saxtalaşdırılmış referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın öz iradəsini sərbəst ifadə etməsinə ümid bəsləmək sadəlövhlük olardı. Demokratik təşkilatlar dəfələrlə məsələ qaldırmışdılar ki, seçicilərin əksəriyyəti referendumda iştirak etməmiş, referendumun nəticələri isə saxtalaşdırılmışdır. Lakin Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağı belə lüzum bilməmişdir.

Mən Mərkəz tərəfindən zorla qəbul etdirilən yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. Hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət, habelə bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Əsl siyasi, iqtisadi azadlıqlar üçün, milli dövlətin dirçəldilməsi məqsədi ilə müstəqillik üçün bütün müttəfiq respublikalara imkan vermək lazımdır. Bu, respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə əsla mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətlərdə inkişaf etməsinə təsir göstərər.

*Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun ideyalarını başa düşmək lazımdır.*

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi mən öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırmışam. Təklif edirdim ki, xalq arasında nüfuzunu tamamilə itirən Azərbaycan KP təkhakimiyyətlilikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranması üçün aşkarlıq və plüralizm üçün şərait yaratsın.

Lakin Azərbaycanın kommunist rəhbərliyi nəinki mənim çıxışlarıma və təkliflərimə baxmır, əksinə, onlara mənə qarşı mütəşəkkil və hazırlanmış hücumlarla cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.



Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxdığımı bildirməyə məcbur etmişdir, hərçənd ki, bu qərara gəlmək mənim üçün son dərəcə çətin olmuşdur.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlı olmuşdur. 1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyası ilə bağlamışam. Kommunist partiyasının ideallarına bütün varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi inamım məni tərk etmişdir. Yeniləşən partiya və respublikaların yeniləşən İttifaqı haqqında saysız-hesabsız bəyanatlar xalqı yenə də aldatmaq deməkdir.

Xalqa açıq və düzünü demək lazımdır ki, ölkəmizdə kommunist eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaradılmış və saxlanılan respublikalar İttifaqı dağılmaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edirəm, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun açıq təhlili məni yuxarıda bəyan etdiyim mövqeyə gətirib çıxardı".

1990-cı ilin yanvarından başlayaraq, Bakı və bütün Azərbaycan son dərəcə gərgin bir vəziyyətdə yaşayırdı. Fövqəladə vəziyyət şəraitində parlament və prezident seçkiləri keçirilmişdi. Sovet ordusunun tankları və əsgərləri Bakının küçələrində, strateji nöqtələrdə yerləşdirilmişdi. Bakının, bütün Azərbaycanın taleyini Moskva emissarları və hərbi bölmələr müəyyən edirdi. Dağlıq Qarabağda vəziyyət günbəgün gərginləşirdi.

*Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü.*

1991-ci il avqustun 29-da biz deputat Heydər Əliyevi Ali Sovetin tribunasında yenidən gördük. Onun çıxışında acı həqiqətlə yanaşı, sərt prinsipial tələblər də səslənirdi. Bu tələblərin ən başlıcası 20 yanvar hadisələrinə qiymət verilməsi barədə idi. Heydər Əliyevin 1991-ci il avqustun 29-da Ali Sovetin sessiyasındakı çıxışından:

"Hörmətli millət vəkilləri! Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət hakimiyyəti böhranı son dərəcə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücu-

mu, cinayətkar qrupların həyata keçirdikləri dövlət çevrilişi boşa çıxıb. Biz artıq sovet imperiyasının, Kommunist partiyasının dağılmasının şahidiyik. Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır.

Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti, buraxdığı kobud və bağışlanılmaz səhvlərdir (zaldan etiraz səsləri). Mən xahiş edirəm ki, sessiyada heç bir deputatı öz sözünü deməkdən məhrum etməyəsiniz. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi ölkədə olmuş 19-22 avqust dövlət çevrilişini, Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş, beləliklə də, Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur. Erməni millətçiləri bu haldan dərhal çevikcəsinə istifadə etmiş, respublikamıza qarşı hərbi əməliyyatı, siyasi təbliğatı gücləndirmişlər.

İndi biz respublikanın həyatında ən çətin dövrdə çıxış yolu tapmalıyıq. Çıxış yolunun tapılmasına hamımız səy göstərməliyik. Ancaq biz aydın etməliyik: bu çıxış yolunu biz necə tapa bilərik. Son günlərdə, o cümlədən bu gün bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikib. Ancaq biz bu günlərdə nəyin bahasına olursa-olsun, milli birlik yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: biz bu milli birliyə hansı platforma əsasında nail ola bilərik? Bu birliyi təmin etmək üçün bir neçə şərt təcili olaraq yerinə yetirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarımda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart aylarında keçirilən sessiyalarında, bu il iyul ayının 19-da Kommunist partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət, bu il avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyim məktubda göstərmişəm. Təkrar etmək istəmirəm. Ancaq bu təkliflər haqqında bir neçə əlavə fikrimi bildirmək istəyirəm.

Birinci: ilyarımdır ki, Bakıda fövqəladə vəziyyət hökm sürür. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır? O götürülməlidir. Çox yaxşı, ancaq bəs, bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə

***Nəriman Nərimanovun şanlı adını bərpa edərkən Heydər Əliyev öz siyasi karyerasını itirə bilərdi.***



Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanvarın 22-də qəbul olunmuş qərarı ləğv olunub və indiyədək həyata keçirilməyibdir? Aydınlaşdırmaq lazımdır ki, bu ilyarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər dəyib.

İkinci: Azərbaycan Respublikası rəhbərliyinin dövlət çevrilişi haqqında mövqeyinə dair cürbəcür söhbətlər gəzir. Xarici və İttifaq informasiya orqanları bu barədə xəbərlər yayırlar və bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o, bizə məlum deyil, ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti rus və Azərbaycan dillərində oxunub və bu müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və Dövlət Fövqəladə Vəziyyət Komitəsinin köməyi ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlı erməni quldur qruplarının tərksilah olunması məsələsinin həlli fövqəladə vəziyyət komitəsinin fəaliyyəti ilə bağlanıbdır. Bunu aydın demək lazımdır. Əgər belə bir səhv buraxılıbsa, bunu açıq etiraf etmək lazımdır, xalq həqiqəti bilməlidir. Bu gün belə, sabah isə başqa cür demək olmaz, bu, heç bir xalqda inam yarada bilməz.

Üçüncü: xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. O, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını saxlamaq, bunu qurultayda həll etmək fikri məsələni uzatmaq, kommunist partiyasının imkanlarından yenə istifadə etmək meylini göstərir. Bununla heç cür razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün mətbuat orqanlarının fəaliyyəti dayandırılmalıdır və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Parlament bunun üçün komissiya yaratmalıdır.

Məlumdur ki, Fövqəladə Vəziyyət Komitəsinin hökm sürdüyü dövrdə Azərbaycan Respublikasının mətbuat orqanları, partiyanın mətbuat orqanları bu komitənin sənədlərini 3 gün ərzində rus və Azərbaycan dillərində dərc eləyib. Elə

***Heydər Əliyevə xas olan keyfiyyətləri Moskvada işlədiyi müddətdə tezliklə ona çox böyük nüfuz və şöhrət qazandırdı.***

bunun özü əməkdaşlığın olmasını göstərir. Kommunist partiyasının mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidir.

Dördüncü: 20 Yanvar faciəsindən ilyarımdan çox vaxt keçir. Bu gün burada, bu salonda da cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan prezidenti Ayaz Mütəllibova sual verirəm: bu məsələyə indiyə qədər nə üçün siyasi qiymət verilməyib? Mən Tamerlan Qarayevin verdiyi arayışla razı ola bilmərəm. Çünki bu məsələnin həm siyasi, həm də hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı məsələnin hüquqi cəhətinə, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunmasına, onu, şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Məsələyə siyasi qiymət verilmədiyinə görə, başqa tədbirləri də həyata keçirmək olmur.

Bu hərbi təcavüzün günahkarı kimdir? Bu gün deyirlər ki, Yazov, Kryuçkov, Bakatin, Girenko, Qorbaçov. Bu, doğrudur. Bəs, Azərbaycan rəhbərliyindən kimdir günahkar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa üzvləri. Bəli, əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Başqa qüvvələr də günahkardırsa, demokratik qüvvələr, Xalq Cəbhəsi də günahkardırsa, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitlik əldə etmək olmaz. Əgər bu məsələyə siyasi qiymət verilibsə, Ayaz Mütəllibovdan xahiş edirəm desin, Qorbaçov 3 nazirin təyin olunması barədə 9 respublikanın rəhbərlərinin razılığını alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin olunmasına nə üçün etiraz etməmişdir? Əgər edibsə, bəs niyə çıxışında demədi? Nə üçün 20 Yanvar faciəsinin günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatları qurultayına Hazırlıq komissiyasına üzv seçilibdir. Onu ora kim təqdim edib? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günahkardırlar, mən bunu tam açıqlığı ilə demək istəyirəm.

Bütün bu məsələləri aydınlaşdırmadan, - şübhəsiz ki,

***Heydər Əliyev Moskvada işləyərkən, son dərəcə gərgin iş rejiminə baxmayaraq, Azərbaycan haqqında məlumatlarla daim maraqlanırdı.***



mən də çıxış edən deputatların təklifləri ilə razıyam. - Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Sonra, Azərbaycan Respublikası Ali Soveti deputatlarının əksəriyyəti, tam əksəriyyəti kommunist olduqlarına görə, Kommunist Partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə, mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər keçirilməlidir.

Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra, xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə də heç narahat olmayın. Mən bu gün öz vicdanım qarşısında cavabdeh olaraq bu çıxışı edirəm".

Beləliklə, bütün bu çıxışlardan göründüyü kimi, 1987-1991-ci illərdə Heydər Əliyevi məhz milli dövlətçiliyimizin taleyi narahat edirdi. O, artıq öz siyasi seçimini etmiş və Azərbaycanın müstəqilliyi uğrunda gərgin siyasi mübarizəyə başlamışdı. Onun Naxçıvanda həyata keçirdiyi siyasət sayəsində Azərbaycanın bu qədim diyarında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa edilmiş, "sovet sosialist" sözləri Muxtar Respublikanın adından çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdi. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin təşəkkülünün əsas ideyaları və yolları haqqında ən başlıca taleyüklü fikirlərini 1992-ci ildə yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi platformasında əks etdirdi. Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetindəki çıxışları ilə həmvətənlərini yaranmış vəziyyəti təhlil etməyə və Azərbaycanın yeni inkişaf yolu barədə öz seçimlərini etməyə çağırdı. Onun şəxsi siyasi kredosu müstəqil milli dövlət quruculuğu konsepsiyasında əksini tapdı.

O, hələ 1990-cı ilin baharında deyirdi: "İstəyirəm xalqımızda birlik olsun, milli qürur hissi daha güclü olsun, tariximizi sevək, el üçün yanmış şəxsiyyətlərimizin qədrini bilək...". Bu zaman onun ən dəruni arzusu və ümidi də məhz xalqın birliyinə, bütün azərbaycanlıların həmrəyliyinə əsaslanan milli dövlət qurmaqla bağlı idi. Ancaq o, hətta

***Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş qanlı faciə ilə əlaqədar yaranmış vəziyyətdə daha susa bilməzdi.***

Naxçıvanda da şəxsən özünə qarşı yönəldilmiş bir çox hücumlara və təqiblərə məruz qalırdı. Heydər Əliyev "el üçün yanmış şəxsiyyətlərin qədrini bilməkdən" danışdığı bir vaxtda, Bakıda əyləşən bəzi nazirlər həyatlarının başlıca məqsədini Heydər Əliyevi cismən məhv etməkdə görürdülər.

Tarixin hökmü ilə baş verən hadisələr isə sanki Heydər Əliyevin 1991-ci il ərzindəki çıxışlarında göstərdiyi ssenari üzrə cərəyan edirdi. 1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının XXXIII fövqəladə qurultayı çağırıldı. Azərbaycan Kommunist Partiyası məhz bu qurultayda ləğv olundu. Nəhayət, kommunizmə rəsmi səviyyədə də "yox" deyildi. 1991-ci il dekabrın 8-də SSRİ adlı nəhəng bir dövlət dünyanın siyasi xəritəsindən silindi. "Azərbaycanın dövlət müstəqilliyi haqqında" 1991-ci il oktyabrın 18-də qəbul olunmuş Konstitusiya aktı, nəhayət ki, dekabrın 29-da ümumxalq referendumuna çıxarıldı. Bu Konstitusiya aktı qüvvəyə minərək, Azərbaycanın müstəqillik, suverenlik yolunu seçməsi haqqında qəti qərarını hüquqi cəhətdən təsdiq etdi. Azərbaycanın müstəqilliyi qısa bir zamanda Birləşmiş Millətlər Təşkilatı tərəfindən və beynəlxalq hüquq normalarına uyğun olaraq, dünyanın bütün ölkələri tərəfindən tanındı. Lakin Azərbaycanda müstəqil milli dövlət quruculuğu prosesi bir çox ciddi əngəllərlə üzləşirdi. 1990-1991-ci illərdə Dağlıq Qarabağda hadisələr gündən-günə gərginləşirdi. Respublikada baş alıb gedən siyasi hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr dövlətçiliyə ağır zərbələr vururdu. 1992-ci ilin may-iyun aylarında Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətə gəldi. Həmin günlərdə nəinki dövlət quruculuğu prosesi ilə bağlı məsələlər ön plana çəkilmirdi, hətta hər bir azərbaycanlının ləyaqətinə və qüruruna toxunan ağlasığmaz qərarlar qəbul edilirdi. Bu baxımdan Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərarı milli özünüdərk və milli dövlətçilik ideyasının dirçəldilməsinə vurulan ən ağır zərbələrdən biri hesab etmək olar.

*Heydər Əliyev tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər.*

Çox qısa bir müddətdə respublikada yaranan ictimai-siyasi hərc-mərclik dövlətçilik böhranına və Azərbaycanın məhv olması təhlükəsinə gətirib çıxardı. 1993-cü ilin iyununda baş verən Gəncə qiyamı Xalq Cəbhəsinin daxilində gedən qarşıdurmanı siyasi, hərbi və ictimai böhran müstəvisinə



keçirdi. "Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı yeganə ümidini Heydər Əliyevin hakimiyyətə dəvət olunmasında gördü.

1993-cü ilin iyun ayında deputat Heydər Əliyev Azərbaycan parlamentinin başçısı seçildi. Onun ilk üç ay ərzindəki gərgin fəaliyyəti hər hansı bir nəzəriyyədən və ideyalardan tamamilə uzaq idi. Milli Məclisin televiziya ilə birbaşa yayımlanan iclasları zamanı aparılan kəskin siyasi diskussiyalar, ayrı-ayrı siyasi və ictimai xadimlərlə görüşlər, qəti qərarlar və konstruktiv təkliflər Heydər Əliyevə bu üç ay ərzində dərin siyasi və ictimai böhran prosesini dayandırmağa imkan verdi. Bu, möcüzəyə bənzər bir hadisə idi. Əslində, tabeliyində heç bir qurum olmayan, yalnız öz sözünə və zəkasına arxalanan siyasi xadim məhz öz zəngin rəhbərlik təcrübəsinə əsaslanaraq, dövlətin dağılmasının qarşısını ala bildi. "Fəaliyyətini donduran" dövlət məmurlarının sabotajı, ancaq öz bölgə komandirlərinə tabe olan silahlı qurumlar, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş bir məmləkət - bunların hamısı acı gerçəklik idi. Lakin o da gerçəklik idi ki, 1993-cü ilin oktyabrında Azərbaycan xalqı Heydər Əliyevi özünün Prezidenti seçdi. Artıq sonrakı aylarda Azərbaycanda dövlət var idi, dövlət qurumları fəaliyyət göstərirdi. Respublikada həyat tədricən normal məcrasına qayıdırdı.

*"Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı yeganə ümidini Heydər Əliyevin hakimiyyətə dəvət olunmasında gördü.*

1993-cü ilin 10 oktyabr günü. Zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etmiş Heydər Əliyev əlini Konstitusiyaya və Qurana basaraq, Azərbaycan xalqına sədaqətlə xidmət edəcəyinə, müstəqil dövlətimizin dünya birliyində layiqli yer tutmasına çalışacağına, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacağına və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafını təmin edəcəyinə and içdi.

Ölkə müharibənin od-alovu içərisində idi. Buna baxmayaraq, Prezident andiçmə mərasimindən cəmi 20 gün sonra xalq şairi Məmməd Arazın yubiley gecəsində iştirak etdi. O, bunu onunla izah etdi ki, Məmməd Araz Azərbaycan xalqının milli özünüdərkinin təşəkkülündə müstəsna xidməti olan qələm sahiblərindən biridir.

Heydər Əliyev mədəniyyət və ədəbiyyat xadimlərimizin



arasında üç söz ustasının - Bəxtiyar Vahabzadənin, Məmməd Arazın və mərhum Xəlil Rzanın adlarını çəkərək deyir: "Dövlətimiz müstəqil dövlətdir, formalaşır, onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat, - "İstiqlal" ordeni, - təsis olunub. Bu orden birinci kimə çatmalıdır? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy etmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bizim görkəmli şəxsiyyətlərimizə çatmalıdır.

Bu şərəfə, ilk növbədə, görkəmli şəxsiyyətlərimiz layiq görülməlidirlər. Buna görə də mən dünən Fərman verdim və hörmətli şairlərimiz Bəxtiyar Vahabzadə, Məmməd Araz və mərhum Xəlil Rza Azərbaycan xalqının milli azadlığı uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə bu ordenlə təltif olundular. Hesab edirəm ki, düzgün addım atmışam.



Düşünürəm ki, xalqımız, ictimaiyyətimiz bunu bəyənəcəkdir". Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevrildiyi haldır.

Yanvar hadisələrinin dördüncü ildönümü yaxınlaşırdı. Heydər Əliyev Fərman imzalayır və burada sovet qoşunlarının 1990-cı ilin yanvarında Azərbaycana təcavüzünə ilk dəfə hüquqi və ictimai-siyasi qiymət verilir. İfadələr son dərəcə dəqiqdir: totalitarizmin insanlığa və humanizmə qarşı tarixdə görünməmiş cinayəti. 20 Yanvar faciəsinə onun verdiyi siyasi qiymət məhz belədir.

Bir qədər əvvəl - 1993-cü il sentyabrın 21-də, Azərbaycan üçün hələ olduqca çətin və həyəcanlı günlərdə, erməni işğalının öz miqyasına və xarakterinə görə görünməmiş bir şəkil aldığı dövrdə prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə müharibədən və iqtisadi çətinliklərdən daha çox mədəniyyətə qayğıdan danışır və mütəfəkkir şair Məhəmməd Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsinin zəruriliyini vurğulayırdı: "Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, həm də bəşəriyyət qarşısında böyük xidmətləri olan, dünya mədəniyyətinə qiymətli töhfələr vermiş böyük filosof və mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq".

Bu sözlər hərbi sahədəki uğursuzluqlarla və torpaqlarımızın bir hissəsinin işğalı ilə yanaşı, Azərbaycanda terror və sui-qəsd cəhdlərinin davam etdiyi, anarxiya meyllərinin güclü olduğu, ölkənin ziddiyyətlər məngənəsində boğulduğu bir zamanda deyilmişdi. Bunun səbəbi çox sadədir və Heydər Əliyevin siyasi mövqeyi ilə bilavasitə bağlıdır. O, öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəldilməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli-mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət verirdi. Füzulinin

***Heydər Əliyev öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də xalqın milli ruhunun dirçəldilməsində görürdü.***

500 illik yubileyi ilə əlaqədar yaradılmış Dövlət komissiyasının iclasında Prezidentin dediyi aşağıdakı sözlər bu baxımdan olduqca səciyyəvidir: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

Prezident 1994-cü il martın 16-da Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Fərman imzalayır. Azərbaycan dövlətçiliyi və azərbaycançılıq baxımından Heydər Əliyevin Füzuli yubileyi ilə bağlı fikir və tövsiyələri müstəqil Azərbaycanda öz aktuallığını həmişə saxlayacaqdır: "...bu yubileyi keçirməklə biz xalqımızın özünü daha yaxından tanıması üçün hər şey edəcəyik və etməliyik. Xalq gərək öz kökünü daim xatırlasın, tarixini öyrənsin, öz milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Bu yubileyin keçirilməsi, şübhəsiz, indiki nəslin, xüsusən gənclərin tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə nə qədər böyük töhfələr verdiyini bir daha dərk etməsinə imkan verəcək və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar hissini daha da yüksəldəcəkdir. Elə bunun özü müstəqil Azərbaycanda bizim üçün zəruri amildir".

***Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır.***

Heydər Əliyev bu yubileyin Azərbaycan gəncliyi üçün əhəmiyyətini vurğulayır. Gənclik azərbaycançılıq ideologiyasından yaxşı baş çıxarmalı, Azərbaycan xalqının mədəniyyətini, incəsənətini, elmini bilməlidir. Bu, son dərəcə mühüm məsələdir. Azərbaycanın müstəqilliyinin başlıca mənbəyi və bu müstəqilliyin dönməzliyi və əbədiliyinin təminatçısı məhz Azərbaycan gəncliyidir.

Müstəqil Azərbaycanın keçirdiyi bu mədəniyyət və incəsənət bayramı beynəlxalq miqyas aldı və Parisdə - YUNESKO-nun iqamətgahında, İraqda, Mərkəzi Asiya respublikalarında, qonşu İranda, Türkiyədə və Rusiyada da qeyd olundu. Sonuncu iki ölkədəki yubiley təntənələrində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Heydər Əliyev dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin yubileyinin bayram olunmasının başlıca mənasını mədəni irsimizi, tariximizi, milli incəsənətimizi bir daha, - bu dəfə artıq milli müstəqillik dövründə, - təhlil süzgəcindən keçirməkdə və bunları ideoloji buxovlardan və qadağalardan xilas etməkdə görürdü. Buna görə də Heydər Əliyev deyirdi: "Biz Füzulinin 500 illiyini məhz müstəqillik dövründə keçirdik. Digər tərəfdən, əsl poeziya bayramına, milli mədəniyyət bayramına çevrilən bu təntənələr Azərbaycan dövlətçiliyinin, Azərbaycanın müstəqilliyinin bayramı oldu".



Təbiidir ki, tariximizin sovet dövründə Füzuli yaradıcılığının mahiyyətini bütün genişliyi ilə açmaq mümkün deyildi. Sadəcə olaraq, bu, sovet ideologiyasının hakimlik ruhuna sığışmırdı. Dahi sənətkarın əsərlərinin xeyli hissəsi geniş oxucu kütləsinin diqqətindən kənarda qalmışdı. Onun yalnız bu və ya digər dərəcədə marksist-leninçi yozumuna uyğun gələn fəlsəfi əsərləri təbliğ olunurdu. Heydər Əliyevin xidməti bundadır ki, onun sayəsində böyük şair Azərbaycan xalqı qarşısında ilk dəfə bütün əzəməti ilə, ideoloji qəliblərdən azad olunmuş şəkildə dayandı.

***Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur.***

Heydər Əliyev dövrlər arasında bolşevizm tərəfindən qırılmış müqəddəs əlaqəni özünün bütün siyasəti ilə bərpa etdi. O, bu çox çətin məsələnin bir hissəsini hələ 1969-1982-ci illərdə həll etmişdi. Lakin onun Azərbaycan xalqının milli dirçəlişinə dair fəlsəfi konsepsiyası, əlbəttə ki, tam şəkildə yalnız müstəqil Azərbaycanda həyata keçirilə bilərdi. Burada onun fəlsəfi dünyagörüşünün əsasını ümumbəşəri idealların və milli dəyərlərin ahəngdar vəhdəti təşkil etdi. O, bütün tariximizi əsl böyük humanizm məktəbi, yüksək tolerantlıq, mədəniyyətlərin və sivilizasiyaların ibrətamiz dialoqu kimi gördü. Heydər Əliyev tərəfindən Azərbaycanın nadir coğrafi-siyasi mövqeyi həm Böyük İpək yolunun dirçəldilməsi kimi genişmiqyaslı iqtisadi layihələrin reallaşdırılması üçün istifadə edildi, həm də o, Azərbaycan mədəniyyətinin əsl əhəmiyyətini bütün genişliyi və müxtəlifliyi ilə fəlsəfi baxımdan dərk etmək üçün bünövrə oldu. Azərbaycan Respublikasının təqvimində faşizm üzərində Qələbə gününün bərpası kimi sadə addımlardan başlayaraq, elm, mədəniyyət və təhsil sahəsində dəyişikliklərə qədər Heydər Əliyevin son 10 ildə gördüyü bütün işlər onun milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsinə, azərbaycançılıq ideologiyasının formalaşmasına xidmət etmişdir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin 500 illiyinin keçirilməsi haqqında Fərman imzalanandan düz bir il sonra Azərbaycanın başının üstünü yenidən təhlükə aldı. Lakin Azərbaycan xalqı milli müstəqillik kimi müqəddəs sərvətini qoruyub saxlamaq üçün özündə güc tapdı. Bu təhlükəni aradan qaldıran xalq öz əziz bayramına qovuşdu. Nəhayət, 1996-cı ilin yazında Bakıda keçirilən yubiley şənlikləri məhz Prezident Heydər Əliyevin istədiyi kimi, müstəqil dövlətimizin böyük ədəbiyyat və mədəniyyət bayramı oldu. Dahi Füzulinin şərəfinə keçirilən bu bayram, həqiqətən, Azərbaycan dövlətçiliyinin təntənəsinə çevrildi. Hələ bir neçə il əvvəl böhran, hərc-mərclik, anarxiya və vətəndaş müharibəsi təhlükəsi içərisində olan ölkə öz böyük mədəniyyətinin böyük bayramını misilsiz ruh yüksəkliyi ilə qeyd etdi.

1993-cü il oktyabrın 28-də Heydər Əliyev Rusiyada yaşayan azərbaycanlıların nümayəndələrindən biri, məşhur neftçi Fərman Salmanovla görüşdü. Bu görüşü 2001-ci il noyabr ayının 9-da keçirilən Dünya azərbaycanlılarının birinci qurultayından təxminən səkkiz illik bir vaxt ayırır. Məhz bu qurultayda Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməli barəsində danışarkən ona çox dəqiq və aforizmə bənzər bir tərif verdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır". Bu səkkiz ildə Azərbaycanın siyasi, ictimai və mədəni həyatında baş verən bir çox hadisələr, əslində, milli dövlətçiliyimizin prinsiplərinin ideya baxımından formalaşmasına xidmət etmişdir. Bu prosesləri diqqətlə izləyən, çox vaxt onların təşəbbüskarı və iştirakçısı olan Heydər Əliyev belə bir fikri vurğulayır ki, "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da - intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim dahi insanlardır. Onlar bəşər mədəniyyətini əsrlərdən-əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".

***"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır".***





Azərbaycançılıq ideologiyasının formalaşdırılması sahəsində atılan ən böyük addımlardan biri misilsiz milli-mənəvi sərvətimiz olan "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılması oldu. "Dədə Qorqud" eposu 1930-cu illərdən bəri qadağan olunmuş, ona pantürkizm damğası vurulmuşdu. Müstəqil Azərbaycan dövləti eposa öz rəsmi münasibətini bildirdi və bu, Prezident Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında 1997-ci il 20 aprel tarixli Fərmanında öz əksini tapdı. Azərbaycan Prezidenti 1999-cu il fevralın 21-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Sərəncam imzaladı. Yubiley təntənələrindəki çıxışlarında o, türk xalqlarının ümumi tarixi köklərinin "Dədə Qorqud"la bağlı olduğunu bildirərək, eposun bütün türk xalqlarına, lakin ilk növbədə, Azərbaycan xalqına mənsub olduğunu vurğuladı və bu qəhrəmanlıq eposunu milli sərvətimizin ən əzəmətli və parlaq abidəsi kimi səciyyələndirdi.

Dədə Qorqud xalq birliyi, dövlətçilik düşüncəsinin

daşıyıcısıdır. Heydər Əliyev başlıca ideyası vətənpərvərlik olan "Kitabi-Dədə Qorqud" haqqında danışarkən demişdir: "Əsrlərin və minilliklərin qovuşduğu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlət başçılarının, dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos, nəhayət, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də təkcə bir cəngavər, bir igid haqqında deyil, bütöv bir xalqın qəhrəmanlığı haqqında eposdur... Eposun əsas mahiyyətini qəhrəmanlıq ideyası təşkil edir. Xalqımızın həyatının bugünkü mərhələsində, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, onun ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə qədər vacib olduğu gün kimi aydındır".

***Azərbaycançılıq ideologiyasının formalaşdırılması sahəsində atılan ən böyük addımlardan biri "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılması oldu.***

Hər bir xalqın, dövlətin milli ideallar sistemi var. Bu mənada epos azərbaycançılıq ideologiyasında mühüm yer tutur. "Bizim üçün bir tarixi amil, azərbaycançılıq var" söyləyən Heydər Əliyevin fikrincə, bu baxımdan milli dövlətçiliyimizin ideya təməlində "Kitabi-Dədə Qorqud"un yeri tamamilə aydın görünür. Buna görə də Azərbaycan Prezidenti iftixar hissi ilə bildirir ki, "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim qədim əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz var, fəxr edirik ki, Dədə Qorqud kimi əcdadımız var... Bir sözlə, "Kitabi-Dədə Qorqud" bu gün bizə çox gərəkdir".

Hamımızın ümumi ruhunun ifadəçisi olan "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin təntənə ilə keçirilməsi, həqiqətən, onu birdəfəlik Azərbaycan xalqının mənəvi sərvətinə çevirdi, gənclərimizin mənəvi dəyərlər sisteminə daxil etdi.

"Kitabi-Dədə Qorqud"un yubileyi sayəsində xalqın diqqəti bir daha milli ənənələrə, özünün zəngin milli-mənəvi xəzinəsi olan mədəniyyətinə yönəldi. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası yaradıldı və bu eposun nə qədər zəngin sərvət olduğu bütün dünyaya tanıdıldı. Heydər Əliyevin "Biz yeni əsrə, yeni minilliyə Qorqud irsinin bayrağı altında, Qorqudun övladları, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq" sözləri bu baxımdan son dərəcə mənalıdır.



Heydər Əliyev dünya azərbaycanlılarının qurultayındakı dolğun nitqini bitirərkən demişdir: "Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin!". Heydər Əliyevin bu sözlərini mahiyyətcə canlı orqanizmi xatırladan, milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etmək olar.

Qoy, bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın! Qoy, bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın! Qoy, Azərbaycanın bu həmişəyaşıl mənəvi sərvətlər ormanlığından bir ağac belə kəsilməsin! Qoy, Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim günəş nur saçsın! Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır.

***Yaxın və uzaq ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən və özgürlüyündən heç vaxt imtina etməyəcəkdir.***

Lakin unutmamalıyıq ki, bu gün Azərbaycanda xarici qüvvələrin dəstəklədiyi, vətəndaş qarşıdurması qızışdırmaq istəyən məsuliyyətsiz adamlar vardır. Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyəti yalnız öz zəkasının gücü ilə idarə edir.

Azərbaycanın böyük dövlətlərin arasında məngənəyə alındığı ağır bir vaxtda Heydər Əliyev öz xalqının xilaskarı kimi gəldi. O, tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu yaxın və uzaq dövlətlər ilə münasibətlərdə etmək o qədər də çətin deyildi, çünki bu ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən və özgürlüyündən heç vaxt imtina etməyəcəkdir.

Heydər Əliyev bizim müasirimizdir. Elə bircə bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi dahi tarixi şəxsiyyətdir.





Heydər Əliyev bütün varlığı ilə Azərbaycanın, onun bu gününün və gözəl gələcəyinin təcəssümüdür. Hətta 2003-cü il aprelin 21-də Respublika sarayında baş vermiş hadisə də xalqının dahi oğlu kimi onun nüfuzuna xələl gətirməmişdir. O, yıxıldıqdan sonra iki dəfə tribunaya qayıtmaqla dövlətçilik iradəsi və məsuliyyəti nümayiş etdirərək, sanki ölkənin bütün vətəndaşlarına bir daha bildirdi: "Narahat olmayın, mən sizinləyəm və biz birlikdə Azərbaycan dövlətini bütün çətinliklərdən keçirərək, sivilizasiyalı inkişaf yoluna çıxaracağıq".

Fransanın "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler dövlətimizin başçısı Heydər Əliyevə həsr etdiyi məqaləsində yazır: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq.

Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: "Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir".

***Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır.***

*Corc BUŞ*
*ABŞ Prezidenti*

# Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm







***Heydər Əliyev kimi liderlə işləmək şansı əldə etdiyimə görə çox minnətdaram.***

Hörmətli cənab Prezident,

Bu yaxınlarda Vaşinqtona səfəriniz zamanı Sizinlə görüşməkdən məmnun qaldım. Bir daha istədim ki, Sizə yazıb bu günədək qlobal terrorizmə qarşı müharibədə göstərdiyiniz dəstəyə görə Amerika xalqı adından şəxsən Sizə və hökumətinizə minnətdarlığımı bildirim. Biz bu günlər bizimlə bir cərgədə dayananları unutmarıq.

Siz bizimlə bir olduğunuzu bəyan etdiniz və sözlərinizi əməllərinizlə təsdiqlədiniz. Sizin liderliyiniz sayəsində Azərbaycan əsgərləri Əfqanıstanda bizim qüvvələrlə çiyin-çiyinə qulluq edirlər. Bizim bu ölkədəki əməliyyatlarımız ölkənizin ərazisi üzərindən uçuşa icazə olmadan baş tuta bilməzdi. Hüquq mühafizə və informasiya mübadiləsi sahəsindəki əməkdaşlığımız terrorçu qruplara qarşı davam edən əməliyyatların uğurla keçməsinə çox yardım etmişdir...

Bizim hər ikimiz bilirik ki, liderlik çətinliklərə qalib gəlməkdən ibarətdir. Fevralın 26-da Vaşinqtondakı görüşümüz zamanı müzakirə etdiyimiz kimi, yeni əsrdə dünya kütləvi qırğın silahları, terrorizm bəlası, terrorizmi

maliyyələşdirən və ya onu dəstəkləyən dövlətlərin doğurduğu təhlükələr ilə üz-üzə dayanıbdır. Heç bir ölkə bu düşmənləri təkbaşına məğlub edə bilməz. Uğur geniş beynəlxalq əməkdaşlıqdan asılıdır.

Bu, mənim qəti inamımdır və bu işə sadiq olaraq qalıram. Sizin bu işə töhfəniz artıq böyük dəyişikliklərə səbəb olmuşdur və olmaqda davam edəcəkdir.

***

Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.



*Bill KLİNTON*

*ABŞ-ın keçmiş Prezidenti*

# Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolundakı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur





*Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm...*

Demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət kimi Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm...

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolunda qarşılaşdığı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur. Birləşmiş Ştatlarda bu müvəffəqiyyətin davam etdirilməsini arzulayırlar.

***

Cənab Prezident, Amerika-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi sahəsində göstərdiyiniz səylərə görə, Sizə minnətdarlığımı bildirirəm. Mən bizim aramızda yaranmış şəxsi dostluq münasibətlərini yüksək qiymətləndirirəm.

Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk. Sizin liderliyiniz və güclü qətiyyətiniz sayəsində Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.



*Əhməd NECDƏT SEZƏR*
*Türkiyə Respublikasının Prezidenti*

# Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu məkana çevrilməsi sahəsindəki fəaliyyəti ilə daim xatırlanacaqdır





*Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır.*

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.



*Vladimir PUTİN*
*Rusiya Federasiyasının Prezidenti*

# Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi



Prezident Heydər Əliyeviç Əliyevi onun yanında tərifləmək mənim üçün münasib deyil. Lakin onun dövləti müdrikliyini, - daha münasib söz tapmaq çətindir,- qeyd etməyə bilmərəm. Bu da ondan ibarətdir ki, Sovet İttifaqının dağılmasından sonra gedən çox mürəkkəb proseslərə baxmayaraq, Azərbaycanla Rusiya arasında münasibətlərdə, - nə gizlədim, bu barədə heç vaxt açıq danışmasaq da, - hər halda, müəyyən gərginlik olmuşdur. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə münasibət faktı, - bu isə məhz Azərbaycan Prezidentinin son illərdə apardığı həmin siyasətdir, - təkcə dövlətlərarası münasibətlərin əvvəlki həcmdə bərpası üçün deyil, həm də münasibətlərin ölkələrimizin xalqlarının mənafeyi naminə inkişafı üçün qapıları açıq qoymuşdur.

...Rusiyanın və Azərbaycanın tərəqqisinə həqiqi qayğı Azərbaycan və Rusiya xalqları arasında toplanmış dostluq potensialını təkcə qoruyub saxlamağı deyil, həm də onu zənginləşdirməyi tələb edir. Mehriban qonşuluq, yüksək mənəviyyat və qarşılıqlı hörmət yeni minillikdə qardaş Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinin möhkəm əsasıdır. Azərbaycan Prezidenti məni rəsmi səfərə dəvət





edəndə dedim ki, Heydər Əliyeviç, biz onsuz da Sizinlə hər üç aydan bir görüşürük, vaxt itirmək nəyə lazımdır? O dedi, sən hələ cavansan, başa düşmürsən, əslində, bunun həm Rusiya, həm də Azərbaycan üçün əhəmiyyəti böyükdür. Onda mən ona dedim ki, "yaxşı, gələrəm". Amma hiss edirəm ki, səhv etdim, fikrimi dəqiq ifadə etmədim, gərək deyəydim ki, "çox yaxşı". Həqiqətən, dünənki və bugünkü görüşlərimizdən aydındır ki, bu, sadəcə olaraq, formal iş deyil, bu, həqiqətən, Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına ciddi və əhəmiyyətli təkan verə bilər və yəqin ki, verəcəkdir.

Lakin sözümü bununla qurtara bilmərəm. Mən bu dəvəti təkcə ümumən Azərbaycana, onun rəhbərinə çox xoş hisslər bəslədiyimizə görə deyil, həm də ona görə qəbul etdim ki, Heydər Əliyeviç xeyli dərəcədə mənim həmyerlimdir, - hər halda, mən belə hesab edirəm. Bəli, bu, həqiqətən belədir. Düşünürəm ki, Siz indi mənimlə razılaşacaqsınız, çünki o, xeyli müddət mənim doğma şəhərimdə - Peterburqda - Leninqradda yaşamışdır, orada xüsusi təhsil müəssisəsini bitirmişdir. Mən öz həmkarlarımdan xahiş etmişəm, biz bir sıra arxiv sənədlərini qaldırmışıq. O, hələ bunu bilmir, bu da





onun üçün gözlənilməzdir. Xüsusi məktəbi bitirmək haqqında şəhadətnamə budur, orada yazılmışdır: "Baş leytenant Heydər Əliyevin şəhadətnaməsi. 16 may 1949-cu il". Sonra onun təhsilinin nəticələri gəlir. Mən hamısını olmasa da, bəzi yerlərini oxuyacağam. "Dialektik və tarixi materializm - əla. Çekist hazırlığı - əla, SSRİ-nin və xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası - əla. Cinayət hüququ - əla, Ədəbiyyat - məqbul, Hərbi iş - məqbul, Rus dili - əla". Zənnimcə, burada başqa qiymətlər yoxdur. Hamısı "əla"dır.

...Sonda demək istərdim ki, əgər universitetinizin tələbələri də Azərbaycan Prezidentinin vaxtilə oxuduğu kimi oxusalar, ölkənin tərəqqisi işi etibarlı əllərdə olacaqdır.

***

Görkəmli dövlət xadimi və siyasi xadim kimi Heydər Əliyevə Rusiyada səmimi hörmət hissləri bəsləyirlər.

Azərbaycan xalqının rifahı naminə fəaliyyətiniz Sizə bütün dünyada geniş şöhrət qazandırmışdır.

Ölkələrimizin xalqlarını əsrlər boyu bir-birinə bağlamış və indi də bağlayan əsl dostluq, yaxın mehriban qonşuluq və qarşılıqlı etimad ənənələrinin inkişafı və möhkəmlənməsi işinə verdiyiniz töhfəni yüksək qiymətləndiririk.

Əminəm ki, əsasən, Sizin şəxsi səyləriniz sayəsində strateji tərəfdaşlıq xarakteri alan Rusiya-Azərbaycan münasibətləri Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasının ən mühüm amillərindən biri olaraq, bundan sonra da hər vasitə ilə möhkəmləndiriləcəkdir.

***

Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur.

O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim. Bu, böyük itkidir.

***Postsovet məkanındakı heç də bütün dövlətlərdə Heydər Əliyev kimi müdrik adamlar dərhal rəhbərliyə gəlməmişlər.***

*Jak ŞİRAK*
*Fransa Prezidenti*

# Heydər Əliyev Azərbaycanı tərəqqi yoluna çıxarmışdır







Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim.

***

Azərbaycanın Avropa ölkələri ailəsində özünəlayiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir.

... Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

... Prezident Heydər Əliyevi Parisdə qəbul etmək mənim üçün böyük sevincdir. Çoxdandır ki, bizim aramızda qarşılıqlı dostluq münasibətlərindən də artıq əlaqələr yaranmışdır. Mən Prezident Heydər Əliyevə dərin hörmət bəsləyirəm.

***

Bu gün, 2002-ci il sentyabrın 18-də ABƏŞ Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulduğunu və eləcə də AÇG adını almış "Azəri-Çıraq-Günəşli" dəniz yataqlarının istismarının Faza-2 mərhələsinin başlanğıcını elan edəcəkdir.

Bu hadisə Prezident Heydər Əliyevin uzun illərdən bəri həyata keçirdiyi səylərin nəticəsidir və Fransa onu ilk gündən tamamilə dəstəkləmişdir.

Bugünkü mərasim xarici sərmayələri cəlb etmək yolunu tutmuş Azərbaycanın inkişaf strategiyasının nə qədər düzgün olduğunu bir daha təsdiqləyir.

***Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Heydər Əliyev kimi müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.***



*Seyid MƏHƏMMƏD XATƏMİ*
*İran İslam Respublikasının Prezidenti*

# Heydər Əliyevin xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir





*Heydər Əliyev gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.*

Heydər Əliyev yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir.



*Süleyman DƏMİRƏL*
*Türkiyənin 9-cu Prezidenti*

# Heydər Əliyevi Azərbaycanda yüksək vəzifəyə xalq dəvət etmişdi



*Heydər Əliyevin Azərbaycan idealına ürəkdən bağlı olması öz millətinə necə şövq verirsə, bizə də bir o qədər xoş təsir bağışlayır.*

Hörmətli Heydər Əliyev dostumdur, qardaşımdır, Azərbaycan Respublikasının Prezidentidir. Onunla uzun zamandır ki, tanışıq. Ona böyük sevgim, hörmət və ehtiramım vardır. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir. O, böyük türk topluluğunun keçmişini, gələcəyini çox yaxşı bilir. Yaxşı bilir ki, bu topluluğun içindəki hər müstəqil dövlət bir qardaşdır. Millət birdir, dövlətlər ayrı-ayrıdır. Türkiyə və Azərbaycan xalqları qardaş millətdir, bir millətdir. Biz bu bir millətin iki dost və qardaş dövlətləriyik.

Hörmətli Heydər Əliyev Azərbaycanın ən çətin vaxtında siyasət səhnəsinə çıxmışdır. 1960-80-ci illərdə Azərbaycana böyük xidmətləri olmuşdur. Bəzi insanlar, siyasi xadimlər ölkələrinə xidmətlər göstərir, amma elə bir gün gəlir ki, belə şəxslərə olduqca böyük ehtiyac duyulur. Yəni bu şəxs olmasa, "Bu ölkənin taleyi necə olacaqdır?"- deyə düşünəcəksiniz. Məsələn, Çörçill 1939-cu ildə İngiltərənin rəhbərliyində olmasaydı, tarixin gedişi necə dəyişərdi? Çörçill 65 yaşındaydı və o zaman İngiltərədə çoxlu siyasi xadim vardı. Ancaq ehtiyac duyulan şəxs o idi.

Hörmətli Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəlmişdir. O zamanı xatırlayın. Azərbaycan müstəqilliyini elan etmişdi. Ölkədə qarışıqlıq yaşanırdı. Bundan sonra Əbülfəz Elçibəy prezident seçildi. Lakin Əbülfəz Elçibəy sabitlik yarada bilmədi. Yenə də Azərbaycanda qarışıqlıq meydana gəldi: yəni müstəqilliyini əldə edən xalq bayram şənlikləri əvəzinə, hakimiyyət uğrunda mübarizə içərisində idi. Belə vəziyyətdə bir adamın ortaya çıxıb "dayanın!" - deməsi zəruri idi. Azərbaycan xalqı Heydər Əliyevə böyük ehtiyac duydu. Heydər Əliyev özü gəlib hakimiyyəti ələ almadı. Onu bu yüksək vəzifəyə Azərbaycan xalqı dəvət etmişdi.

O vaxtdan ötən 10 il ərzində Azərbaycan sabitlik içində yaşadı. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təsirini azaltmaq, bunu əhəmiyyətsiz göstərmək fikrində deyiləm. Onu söyləmək istəyirəm ki, Heydər Əliyev rəhbərliyə gəldiyi zaman artıq Qarabağda olan olmuşdu. Keçən 10 il ərzində bu məsələnin həllində iki yol vardı: birincisi, müharibəni davam etdirmək, Azərbaycanın bütün ehtiyatlarını xərcləmək, ölkəni viran hala gətirmək və ya sülhə, daha doğrusu, atəşkəsə nail olaraq, qan tökülməsinin qarşısını almaq, vaxt qazanmaq idi. Məncə, ən doğru yol seçildi.



*Həyatın çətin sınaqlarından məğrurluqla, sarsılmaz iradə ilə çıxan Heydər Əliyev dostluqda sədaqət rəmzidir.*

***

Bizi bağlayan telləri daha da gücləndirən və xalqlarımız arasında işbirliyi qurulması arzusunu əks etdirən bu səfərdə rəsmi görüşlərdən savayı, əziz dostum və qardaşım, hörmətli Prezident Heydər Əliyev ilə bütün məsələlər barədə təkbətək, səmimi qəlbdən fikir mübadiləsi etdik. Möhtərəm Əliyevin müxtəlif məsələləri dəqiq duyması və gerçək, dəyərli fikirlər söyləməsi yolumuzu işıqlandırmışdır. Azərbaycan idealına onun ürəkdən bağlı olması öz millətinə necə şövq verirsə, bizə də bir o qədər xoş təsir bağışlayır.

Hörmətli Heydər Əliyevin rəhbərliyi ilə qardaş Azərbaycanda demokratik sistem bərqərar ediləcəkdir. Bu proses ölkələrimiz arasında sarsılmaz əlaqələrə yeni bir təkan verəcəkdir.

... Bir həqiqəti açmaq istəyirəm. Hörmətli Heydər Əliyev ilə aramızda uzun illərdən bəri davam edən dostluğumuz bizdə bir-birimizə dərin inam hissi yaratmışdır və biz daim əlaqə saxlayır, görüşürük. Bu fikirləri həyatın çətin sınaqlarından məğrurluqla, sarsılmaz iradə ilə çıxan, dostluqda sədaqət rəmzi olan Heydər Əliyevin hüzurunda söyləməkdən xüsusi bir məmnunluq duyuram.

***

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılmışdır. Hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələlərdən biri də möhkəm sabitlikdir.

Atəşkəsə nail olunaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradıldı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı.

Hörmətli Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu - ölkədə sabitliyin, asayişin bərqərar olunmasıdır. Bu, asan iş deyildi. Heydər Əliyevə qarşı sui-qəsdlər hazırlanırdı. Ancaq Azərbaycan xalqı üçün, mənim qardaşlarım üçün ən vacib olanı müstəqil dövlətin yüksələn bayrağıdır. Yüksələn bayraq enməz! Azərbaycanın müstəqilliyi güclüdür, əbədidir. Heydər Əliyev öz həyatını təhlükəyə ataraq, Azərbaycandakı qardaş qarşıdurmasına son qoymuşdur.

Heydər Əliyev Azərbaycana demokratik seçkiləri gətirmişdir. Demokratiya o qədər də asan məsələ deyildir. Kommunist sistemindən, marksist sistemdən bazar iqtisadiyyatına və demokratiyaya keçmək çox çətin bir prosesdir. Heydər Əliyev bu prosesin bünövrəsini qoymuşdur. Zəruri islahatların müəllifidir. Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı, Azərbaycan BMT, Avropa Şurası, ATƏT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvüdür. Azərbaycan bütün dünya tərəfindən tanınır.



Heydər Əliyev "Əsrin müqaviləsi"nin, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinin memarıdır. Bu, böyük hadisədir. Torpağın altında yatan sərvət Azərbaycan xalqının rifahına xidmət edəcəkdir. "Zəngin təbii ehtiyatlarımız var" deməklə bir şey olmaz. Əhəmiyyətli olanı bu zəngin ehtiyatları xalqın maddi rifahının yüksəldilməsi üçün istifadə etməkdir.

Hörmətli Heydər Əliyev həm Türkiyə, həm də digər qonşular – Gürcüstan, Rusiya və İranla möhkəm əlaqələr qurmuşdur, Ukrayna ilə, Orta Asiyadakı türkdilli dövlətlərlə sıx münasibətlər yaratmışdır. Azərbaycanın MDB daxilində əhəmiyyətli yeri vardır.





Azərbaycan ilə ABŞ arasında çox yaxşı əməkdaşlıq əlaqələri mövcuddur. Prezident Heydər Əliyevin istər Əfqanıstan, istərsə də İraq müharibələri zamanı tutduğu mövqe də çox müsbətdir.

Müasir dünyada beynəlxalq aləmdə mühüm rol oynamaq üçün güclü olmaq lazımdır. Daxili siyasi və iqtisadi problemlər yaşayan dövlət beynəlxalq aləmdə də həlledici rol oynaya bilməz. Həm Türkiyə, həm də Azərbaycan daxildə güclü olmalıdır. Həm Türkiyə, həm Azərbaycan müasir dünyada coğrafi-siyasi baxımdan çox əhəmiyyətli strateji mövqeyə sahibdirlər.

Mən Türkiyə və Azərbaycanın bugünkü əlaqələrini yüksək qiymətləndirirəm. Bunu xüsusi vurğulamaq istəyirəm: Türkiyədə iqtidara kim gəlirsə-gəlsin, bu iki dost və qardaş ölkə arasındakı əlaqələr həmişə yaxşı olacaqdır.





Buna əminəm. Çünki bu əlaqələrin dərin kökləri vardır. Həmin əlaqələrin arxasında xalq dayanır. Azərbaycanın Türkiyədən yaxın, Türkiyənin isə Azərbaycandan yaxın kimi var? Qonşu, qardaş və dost! Bu üç dərin məfhum, məna harada var?

Hörmətli Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsi ölkəniz üçün bir şansdır. İnsanların qiyməti getdikdən sonra deyil, vaxtında, xalqa xidmət etdiyi zaman bilinməlidir. Vəzifədən getdikdən sonra insanları qiymətləndirmək artıq gecdir. Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.

Söhbəti yazdı:
**Tural Rzayev**
**AzərTAc-ın xüsusi müxbiri**

***

Hörmətli Heydər Əliyev ilə uzun illər davam edən dostluğumuz Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra daha da genişlənmiş və möhkəmlənmişdir. Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.

***Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.***

*Toni BLEYER*
*Böyük Britaniyanın Baş naziri*

# Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir







Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir. Böyük Britaniya Azərbaycan Respublikası ilə, Prezident Heydər Əliyevlə əlaqələrin daha da sıxlaşdırılmasına xüsusi əhəmiyyət verir. Biz Azərbaycanı və Prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik. Son beş ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə görülən işlər Britaniya hökuməti tərəfindən diqqətlə izlənilir və alqışlanır.

Biz inanırıq ki, Azərbaycan müasir dünyada həlledici iqtisadi və siyasi rol oynayır. Həmin rolu inkişaf etdirməkdən ötrü biz Sizinlə birlikdə işləmək istəyirik. İcazə verin, ölkənizdə əldə olunmuş tərəqqi, bunun naminə gördüyünüz iş münasibətilə Sizi təbrik edim. Şəxsən mənim üçün böyük şərəfdir ki, Sizi burada salamlayıram.

***Biz Azərbaycanı və Prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik.***

*Leonid KUÇMA*
*Ukrayna Prezidenti*

# Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir





Mənim dostuma, çox hörmətli Heydər Əliyeviçə bu gün Ukraynanın ali dövlət mükafatını – "Knyaz Yaroslav Mudrı" ordenini təqdim etmək mənə xüsusilə xoşdur. Ordendə belə bir yazı var: "Müdriklik, şərəf, şöhrət". Çox hörmətli Heydər Əliyeviç, bu sözləri tam mənası ilə Sizə də aid etmək olar.

Dövlət başçısı kimi Siz ölkənizin inkişafının siyasi və iqtisadi məsələlərinin, beynəlxalq problemlərin həllində müdriklik göstərirsiniz. Siz Cənubi Qafqaz regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyətinizlə artırmısınız. Ukrayna-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə Sizin verdiyiniz böyük töhfəni xüsusi vurğulamaq istərdim.

Yaroslav Mudrının obrazının Ukraynanın ali mükafatında təcəssümünü tapmasının çox böyük rəmzi mənası var. Ukraynanın əcdadı sayılan Kiyev Rus dövlətinin bu görkəmli xadimi universal xarakter daşıyan prinsipləri - ən mürəkkəb problemləri zor işlətmədən həll etməyi bacarmaq, qarşıya qoyulmuş məqsədlərə diplomatik yolla nail olmaq, cəmiyyətin mənafelərinə tamamilə tabe olmaq və bu mənafelərlə yaşamaq prinsiplərini təbliğ etmişdir.

Yaroslav Mudrının həyat amalının həyata keçirilməsi bu gün də aktualdır. Xarici dövlətlərin bir sıra liderləri, o cümlədən İspaniya, Finlandiya, Argentina, Braziliya, Çin liderləri "Knyaz Yaroslav Mudrı" ordeninə layiq görülmüşlər. Mən şadam ki, Azərbaycan Respublikasının Prezidenti də bunların sırasına mənsub olacaqdır. Bu, bizim ölkəmizin Azərbaycanın Prezidentinə və dost xalqına bəslədiyi hörmətin və səmimi rəğbətin daha bir sübutudur.

***

Hörmətli Heydər Əliyevlə ünsiyyət məni həm də bir çox cəhətdən zənginləşdirir. Çünki onun həyat yolu, olduqca böyük siyasi və dövlət fəaliyyəti təcrübəsi mənə də çox şey verir. Bəzən bu və ya digər problemi, necə deyərlər, siyrilmiş qılıncla həll etmək istəyirsən, müdrik bir insan olan Heydər Əliyev isə tələsməməyi məsləhət görür. Hərçənd dəqiq, sərt mövqe ona həmişə xas olan xüsusiyyətdir.

...Heydər Əliyev məhz bu mürəkkəb keçid dövrü ərzində

*Müdriklik, şərəf, şöhrət sözlərini tam mənası ilə Prezident Heydər Əliyevə aid etmək olar.*



bütün məsələlərdə ardıcıllıq nümayiş etdirmiş bir insandır. Buna görə də MDB liderləri ona hörmət bəsləyir, ondan nümunə götürürlər.

Ona heç də təkcə MDB liderləri hörmət etmirlər, Heydər Əliyev bütün dünyada məşhurdur.

...Heydər Əliyevin tarixdə rolunu və yerini birinci yerə çıxarmaq istəyirəm.

***

...Mənim dərin əqidəmə görə, görkəmli dövlət xadimi, siyasi xadim və bütün varlığı ilə Azərbaycan xalqına bağlı insan kimi Sizin fədakarcasına fəaliyyətiniz olmadan dövlətinizin dirçəlişi, demokratik cəmiyyətin təşəkkül tapması və əsaslı iqtisadi dəyişikliklər prosesi mümkün deyildir.

Ölkənizdə seçkilərin nəticələri parlaq şəkildə təsdiq etmişdir ki, Azərbaycan xalqı Sizin müdrikliyinizə inanır və Sizin simanızda Azərbaycanı firavanlığa və əmin-amanlığa inamla aparan bir rəhbər görür. Məhz Sizin səyləriniz sayəsində dünya birliyi ölkənizə dərin hörmətlə yanaşır və haqlı olaraq, onu regionda sülhün və sabitliyin dayağı sayır.

Ürəkdən şadam ki, Sizin simanızda Ukrayna özünə yaxın və etibarlı dost tapmışdır.

***

Azərbaycanın əvəzsiz lideri Heydər Əliyev mənim və Ukrayna xalqının yaxın dostu idi. Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf edib möhkəmlənmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir.

*Heydər Əliyevin fədakarcasına fəaliyyəti olmadan Azərbaycan dövlətinin dirçəlişi mümkün deyildi.*

*Nursultan NAZARBAYEV*
*Qazaxıstan Prezidenti*

# Heydər Əliyevin xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir






Biz Heydər Əliyevlə çoxdan tanışıq, bir-birimizi on illərdir tanıyırıq. Heydər Əliyev Kremldə işləyərkən mən, adətən, onun yanına dəstək almaq üçün gedirdim. Heydər Əliyev Moskvada xəstəxanaya düşərkən mən ona birincilər sırasında baş çəkdim. Heydər Əiyevə ağır itki üz verərkən – o, həyat yoldaşını dəfn edəndə mən onunla idim.

İndi başqa zamandır. Hesab edirəm ki, Azərbaycan xalqı Heydər Əliyevi dövlətə başçılıq etməyə çağırmaqla düzgün hərəkət etmişdir.

***

Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görmüşdür. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün çox ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır.

***Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır.***



*İslam KƏRİMOV*
*Özbəkistan Prezidenti*

# Azərbaycan xalqına həsəd aparıram, çünki onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi olan lideri var





Hörmətli Heydər Əliyeviç, Sizin bu gün burada dediklərinizin hamısını böyük məmnunluqla və həvəslə dinlədim. Özbəkistanın, onun rəhbərlərinin və xalqının ünvanına söylədiyiniz səmimi sözlərə görə təşəkkür etmək üçün söz tapmıram. Mən bir çox ölkələrdə olmuşam, çox eşidirəm, çox görürəm. Amma deməliyəm ki, indi Sizin verdiyiniz qiymətləri, burada eşitdiklərimizi nadir hallarda eşidirik. Üstəlik, vaxt gedir, tarix sürətlə irəliləyir, lakin hər bir xalqın indiki halda özbək xalqının, cəmiyyətinin müəyyən mərhələlərini, eləcə də Azərbaycanın keçdiyi mərhələləri izləmək çox çətindir. Taleyimə, bu həyata minnətdaram ki, bütün bu mərhələləri izləməyə və nəzərə almağa macal tapan adamlar var, halbuki tarix və xalq onların üzərinə olduqca böyük qayğı qoymuşdur. Buna görə də mən mübaliğəsiz deməliyəm, Sizinlə bugünkü ünsiyyətdən aldığım ilk təəssürat ondan ibarətdir ki, Sizin əla, hətta deyərdim, ensiklopedik yaddaşınız var.

Qədim tarixdən, fəlsəfə, siyasət, ədəbiyyat və dilin müxtəlif istiqamətlərindən bu qədər adı yadda saxlamaq, özü də bu qədər müasir adı yadda saxlamaq görünməmiş işdir! Heydər Əliyeviç, inanın mənə, bu məsələdə mən Sizinlə yarışa bilmərəm və Sizə tay ola bilmərəm. Təkcə onu deyim ki, yalnız Sizə deyil, Azərbaycan xalqına da həsəd aparıram, çünki bu gün onun belə lideri var və o, öz yaddaşında hər şeyi saxlayır, ən başlıcası isə, onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi var. Siz danışdıqca mən həyatımızda bir çox halları, hadisələri yeni tərzdə qiymətləndirməyə başlayıram.

Deməliyəm ki, lider olmağı arzulayan adamlar çoxdur. Bu, SSRİ süquta uğradıqdan sonra xüsusilə güclü təzahür etmişdir. Bütün ölkələrdə sərməstlik yaranmışdı ki, istənilən adam - böyük elmi işçi də, laboratoriya müdiri də, ömrü boyu tozlu arxivlərdə əlləşərək, iri-iri kitabları vərəqləməklə məşğul olmuş tarixçi də rəhbər roluna namizəd ola bilər. Deyə bilərəm ki, postsovet tarixi çox şey öyrədir və çox şeyə çağırır. Elə həyatın özü də nəinki postsovet məkanındakı ölkələrin, həm də digər ölkələrin timsalında artıq və gərəksiz şeyləri yuyub apardı, bu sərməstlik dalğasında ayağa qalxanları yerinə oturtdu. Bəzən çox, bəzən də təlatümlü keçən həyatın özü hər şeyi öz yerinə qoydu. Deməliyəm ki, postsovet timsalında

***Heydər Əliyevin əla, hətta deyərdim, ensiklopedik yaddaşı var.***



*Heydər Əliyev Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir.*

tarixin dönüş mərhələsində, ayrı-ayrı şəhərlərin, yerlərin deyil, məhz xalqların taleləri dəyişdikdə həyat o dərəcədə müdrik olur ki, indiki mərhələdə bu və ya digər cəmiyyətə, bu və ya digər xalqa rəhbərlik etməyə qadir olan adamları üzə çıxarır. Mən tərifli sözlər söyləməyə öyrəşməmişəm. Bu, məndə alınmır. Öz nöqsanımı bilirəm, lakin indiki halda, Qafqazın timsalında, onun iki respublikasının timsalında demək istəyirəm ki, həyat yenə də hər şeyi öz yerinə qoymağa vadar etdi. Milyonlarla insanın taleyi həll olunduğu bir dövrdə tarix bütün dünyada tanınmış bəzi rəhbərləri geri qaytardı. Heydər Əliyev kimin xoşuna gəlsə də, gəlməsə də bu gün dünya onu tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir.



*Əsgər AKAYEV*
*Qırğızıstan Prezidenti*

# Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur



Azərbaycan xalqının mənəvi dirçəlişi, respublikanın iqtisadiyyatının və bütün həyat fəaliyyətinin yeniləşməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Onun müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya dövlətləri birliyində layiqli yer tutmuşdur.

***

Çox hörmətli Heydər Əlirza oğlu,

Qazandığınız inandırıcı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir və əminəm ki, Qırğızıstanda hamı bununla əlaqədar sevinc hissi keçirir. Var qüvvəsini, biliyini, təcrübəsini və enerjisini vətənin rifahına həsr edən görkəmli dövlət xadimi və siyasi xadim kimi Sizin istedadınız Azərbaycan vətəndaşları tərəfindən layiqincə qiymətləndirilmişdir. Onlar ölkənizi sülh, tərəqqi və çiçəklənmə yolu ilə XXI əsrə aparmağı Sizə etibar etmişlər.

*Heydər Əliyev var qüvvəsini, biliyini, təcrübəsini və enerjisini vətənin pifahına həsr etmişdir.*



*Aleksandr KVASNEVSKİ*
*Polşa Prezidenti*

# Polşada Heydər Əliyevi görkəmli dövlət xadimi kimi tanıyırlar



Polşada Sizi görkəmli dövlət xadimi və dost dövlətin lideri kimi, bir neçə il bundan əvvəl Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biri kimi tanıyır və qiymətləndirirlər. Biz Xəzər dənizi hövzəsinin strateji cəhətdən çox mühüm regionunda vəziyyətin normallaşdırılması üçün Sizin göstərdiyiniz diplomatik fəallığı xüsusi diqqətlə izləyirik.

***Heydər Əliyev Mərkəzi və Şərqi Avropada baş vermiş böyük dəyişikliyin arxitektorlarından biridir.***





*Eduard ŞEVARDNADZE*
*Gürcüstanın keçmiş Prezidenti*

# Heydər Əliyev dünya miqyaslı dahi siyasətçidir



XXI əsr Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə başlandı. Bu, Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin çoxəsrlik tarixində son dərəcə əhəmiyyətli hadisələrdəndir. Müstəqillik əldə etdikdən ötən 10 ildə Gürcüstan üçün bu, ən böyük nailiyyətlərdəndir. Mən bu təntənənin səbəbkarına, ümumiyyətlə, bu mühüm layihənin əsas yaradıcısına, Azərbaycan xalqının tanınmış liderinə, xalqımın əsl dostuna, qardaşım Heydər Əliyevə bu sevincli gündə gürcü xalqı adından dərin minnətdarlığımı bildirirəm. Mən dəfələrlə demişəm, indi də təkrar edirəm ki, Bakı-Supsa olmasaydı, Bakı-Tbilisi-Ceyhan layihəsi də baş tutmayacaqdı, buna görə də dostum, qardaşım Heydər Əliyevə, qardaş Azərbaycan xalqına təşəkkür edirəm.

Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi. Ötən müddət ərzində Prezident Heydər Əliyev enerji dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir. Dünya miqyaslı dahi siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda, bunun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkanı verdi. Bizim bədxahlarımız bu layihənin reallaşmasını istəmirdilər. Ona görə də təxribat aktlarından belə çəkinmirdilər. Məhz Azərbaycan Prezidenti bütün bunlara sinə gərərək, qərarlılığını bir daha dünyaya nümayiş etdirdi. Beləliklə, həmin bədxahlar onda öz məqsədlərinə nail ola bilmədilər və gələcəkdə də nail ola bilməyəcəklər.

***Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi.***

***

Dostlarım bilirlər, onlara tez-tez deyirəm ki, mənim nəyəsə ehtiyacım var. Hiss edirəm ki, mən Sizinlə görüşə



ehtiyac duyuram. Özü də bu, çox tez-tez baş verir. Biz öz münasibətlərimizi son 30 ildə qurmuşuq. Bu münasibətləri necə istəyirsiniz, eləcə də adlandırın – qardaşlıq, həmkarlar arasında xüsusi qarşılıqlı münasibətlər, yaqin ki, bunların hamısı birlikdədir. Mənim nümayəndə heyətimin üzvləri təsdiq edə bilərlər ki, Gürcüstanda Sizi necə çox sevirlər, Sizə necə böyük hörmət bəsləyirlər. Hamı bilir, bizim aramızda elə münasibətlər yaranmışdır ki, onların sayəsində biz bir ölkəyə, digər ölkəyə, bütöv bir regiona aid hər hansı məsələni tam açıqlıq şəraitində ciddi şəkildə, işə dərindən bələdliklə müzakirə etmək iqtidarındayıq.

Siz məndən azacıq yaşlısınız. Bilmirəm, bu yaxşıdır, yoxsa pis. Mən bunu təsadüfən nəzərə çarpdırmıram, çünki yadımdadır, Siz məndən üç il əvvəl Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuşdunuz. O vaxt Sizin kimi, mən də cavan idim, Azərbaycanın iqtisadi potensialının yüksəldilməsi uğrunda Əliyevin necə mübarizə apardığını, buna necə müvəffəq olduğunu, bunun bütün İttifaqda necə təqdir edildiyini müşahidə edirdim.

...Qoy dostlarım bilsinlər ki, Gürcüstanda da müəyyən dəyişikliklərin həyata keçirilməsinin zəruriliyi haqqında qərar qəbul edildikdə, həlledici söz Heydər Əliyeviç Əliyevin sözü oldu. Gürcüstan barəsində, Gürcüstanın rəhbərləri barəsində nə kimi tədbirlər görülməsi haqqında məsləhətləşmələrə başlandıqda, məhz Heydər Əliyeviç risk edərək dedi ki, heç kimi axtarmaq gərək deyil, belə bir insan var, onunla işləmək olar.

Bax, biz elə o vaxtdan bəri birlikdə işləyirik. Aradan çox vaxt keçmişdir, böyük çətinliklər olmuşdur. Amma mən hesab etmirəm ki, Sovet İttifaqında Sizinlə birlikdə məşğul olduğumuz işlərə görə fəxr etməyə bilmərik.

...O ki qaldı qalan bütün sahələrə, - Sizin hansı sahələrə cavabdeh olduğunuz yadımdadır, - hamı bilirdi, bir halda ki, Əliyev işə girişmişdir, deməli, bu iş məntiqi sonluğuna çatdırılacaqdır. Birgə işimizin bu bəzi cəhətlərini indi nəyə görə xatırlamalı oldum? Ona görə ki, Siz rəhbərliyə gələndə, Azərbaycanda vəziyyət mürəkkəb idi. Gürcüstanda da vəziyyət çox mürəkkəb, çox çətin idi. O, sözün əsl mənasında, dağılırdı. Lakin Azərbaycanda da normal qayda-qanun yox idi. Odur ki, çox böyük potensiala malik olan bu böyük,

***Gürcüstanda da müəyyən dəyişikliklərin həyata keçirilməsinin zəruriliyi haqqında qərar qəbul edildikdə, həlledici söz Heydər Əliyeviç Əliyevin sözü oldu.***

*Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir.*

qüdrətli ölkəyə kimin rəhbərlik etməli olduğunu xalq özü müəyyənləşdirdi. Müstəqilliyin ilk çağlarında, müstəqil dövlət qurmaq üçün birgə mübarizəyə, birgə işə yenicə başladığımız vaxtlarda keçirdiyimiz ilk görüşləri xatırlayıram. Biz bu işdə məsləkdaş olduq və mən bununla fəxr edirəm.

Bilirsiniz ki, mən Sizi tez-tez, bəzən də telefonla zəng vurub narahat edirəm, bəzən öz nümayəndəmi ağıllı söz deyəcək və mürəkkəb problemlərin həllində kömək göstərəcək bir insan kimi məsləhət üçün Sizin yanınıza göndərirəm. Ona görə də mən bizim münasibətlərimizlə, həqiqətən, fəxr edirəm. Belə düşünürəm ki, biz iki müstəqil dövlətin dostluq və qardaşlığının təməlini qoymaqla tarixi iş görürük.

İndi məsələyə daha yaxından yanaşsaq, zənnimcə, gələcək nəsillər Sizin təşəbbüsünüzlə, mənim iştirakımla qəbul edilmiş qərarları xatırlayacaqlar.

... Bəzi böyük ölkələr Xəzər neftinin Qərb istiqamətində axması üçün nə qədər təzyiq və maraq göstərirdilər. Onda mən Heydər Əliyeviçə müraciət etdim. Mən məxsusi olaraq buraya gəldim və ona yeganə bir sual verdim: "Mən əmin ola bilərəmmi ki, Siz bu ideyanı – Qərb istiqamətində neft kəməri çəkilməsini dəstəkləyirsiniz?". Onda Heydər Əliyeviç dedi ki, bu barədə təkcə Siz düşünmürsünüz, mən qəti qərar qəbul etmişəm ki, iki istiqamət – Şimal istiqaməti və çox mühüm Qərb, Bakı-Supsa istiqaməti olacaq, arxayın ol, tam dəstək olacaqdır. Doğrudan da, bu neft kəməri çox qısa vaxtda çəkildi. Əminəm ki, əgər Bakı-Supsa neft kəməri olmasaydı, bəlkə Bakı-Tbilisi-Ceyhan da olmazdı, çünki bu sınaq addımı idi və göstərməli idi ki, belə bir şəraitdə iki dövlət bu cür neft kəmərini çəkməyə qadirdirmi.

...Mən qaz kəməri barəsində bir qədər şübhəli əhval-ruhiyyədə idim. Çünki həmişə məni qorxudub deyirdilər ki, Dünya Bankı bir şey məsləhət görür, biz isə başqa şey edirik və sair. Yadınızdadırsa, Sizin nümayəndələriniz mənim yanımda oldular və onlara bildirdim ki, Heydər Əliyeviç necə desə, eləcə də olacaqdır. Qoy Dünya Bankı, Beynəlxalq Valyuta Fondu nə istəyirlər desinlər, Heydər Əliyeviç necə desə, eləcə də olacaqdır. Heydər Əliyeviç isə elə dedi ki, bu, təbii olaraq, Azərbaycana da sərfəlidir, Türkiyəyə də sərfəlidir və Gürcüstana da çox sərfəlidir. Bu gün səhər mən müşavirlərimizin razılığa gəldikləri şərtlərə baxdım. Zənnimcə, bu, ideal sazişdir. Xüsusən də nə nefti, nə də qazı olmayan, təkcə suyu olan Gürcüstan üçün. Deyə bilmərəm ki, biz birdən-birə diqqət mərkəzində olan ölkəyə çevirdik, amma hər halda, qovşaq ölkəyə çevrildik. İndi Gürcüstanı funksiyası olan bir ölkə kimi tanıyırlar. Bu funksiya ondan ibarətdir ki, Gürcüstan neft, qaz axınlarını öz ərazisindən keçirməlidir, sonra daha nələrsə meydana gələcəkdir. Sizin fəallığınız, Sizin təşəbbüsünüz sayəsində ölkəmiz dirçəldilməkdə olan Böyük İpək yolunun üstündə qovşaq ölkəyə çevrilir. İpək Yoluna həsr edilmiş birinci konfrans burada, Bakıda keçirildi və mən də buna tərəfdar idim ki, konfrans məhz Bakıda keçirilsin, çünki bunun üçün Siz hamıdan çox iş görmüşdünüz.



*Azərbaycan xalqının əsl xöşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür.*

***

Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir.

Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin "polad iradəli Əliyev" yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək, Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

... Bizim dostumuz, qardaşımız Azərbaycan Prezidentinin qarşısında etiraf etmək istəyirəm ki, burada yaşayan azərbaycanlılara qarşı bir neçə il bundan əvvəl ədalətsiz hərəkətlərə yol verilmişdir. Mən Azərbaycan Prezidenti Heydər Əliyevin yanında kişi kimi söz verirəm ki, o qara günlər Gürcüstanda bir daha təkrar olunmayacaqdır.

***

Azərbaycan xalqının əsl xöşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi,



böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür.

...Siz özünüzə tayı- bərabəri olmayan abidə, əsrlər boyu yaşayacaq əbədi abidə yaradırsınız. Bu abidənin adı Azərbaycandır, - tərəqqi edən, yeni, xoşbəxt Azərbaycan.

***

Heydər Əliyev 30 ildən çoxdur ki, öz ölkəsinin, eləcə də başqa ölkələrin həyatına həlledici, müsbət təsir göstərir. Mən Azərbaycan müstəqillik qazandıqdan sonra onun oynadığı rolu xüsusi qeyd etmək istəyirəm.

Prezident Heydər Əliyev bu yolla öz xalqına xas təmkin və cəsarətlə gedir. "Əsrin müqaviləsi" ideyasının yaranmasından tutmuş ilkin neftin nəqlinədək bu müqavilənin, əslində, bütün təfərrüatına yaxşı bələd olduğuma görə, Prezident Heydər Əliyevə göstərdiyi müdriklik və uzaqgörənlik üçün minnətdarlığımı ifadə etmək istəyirəm. Bu müdriklik, uzaqgörənlik olmasaydı, belə nəhəng layihə çətin ki, baş tutardı.



*Zbiqnev BJEZİNSKİ*

*Keçmişdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi, məşhur politoloq*

# Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir



> ***Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür.***

Sovet İttifaqı dövründə Heydər Əliyevlə görüşməmişdim, amma, əlbəttə, onun haqqında eşitmişdim. Mən, xüsusilə, Ağ evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var.

Prezident Heydər Əliyevlə ilk dəfə bölgəyə səfər edərkən - 1990-cı illərin əvvəllərində tanış oldum. Mən Prezident Klintonun Prezident Əliyevin yanına göndərdiyi xüsusi emissar idim. O zaman Prezident Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak etməmək və tamamilə Bakıdan Novorossiyskə gedən kəmərə ümid etmək barədə Rusiyanın böyük təzyiqi altında idi.

Mən Bakıya həyat yoldaşımla getmişdim. Prezident Heydər Əliyevlə görüşümüz günün ikinci yarısında oldu. Mən səbirsiz idim, çünki Azərbaycan Prezidentinə Birləşmiş Ştatların Prezidentindən xüsusi mesaj və xüsusi məktub çatdırmalı idim. Görüş bitdikdən sonra biz ayrıldıq. Axşam isə, Prezident Heydər Əliyevlə uzun və mən deyərdim ki, tarixi əhəmiyyətə malik müzakirəmiz oldu. Biz yalnız boru kəməri haqqında deyil, habelə Prezidentin Birləşmiş Ştatların Qafqazda və Xəzər dənizi hövzəsində strateji öhdəliklərinə bağlılığı haqqında danışdıq. Bu, çox səmərəli bir müzakirə idi, çünki hər iki ölkə üçün təkcə iqtisadi deyil, həm də strateji əhəmiyyəti olan kəmərlə bağlı uzunmüddətli öhdəlikləri aydınlaşdırmağa imkan verdi.

Heydər Əliyevin şəxsi cəhətlərinə gəldikdə isə, deyim ki, mənim həyat yoldaşımın ondan xoşu gəlir. Bu, mənim üçün çox əhəmiyyətli barometrdir. Deyəsən, onun da mənim həyat yoldaşıma münasibəti yaxşıdır. Buna etirazım yoxdur, çünki bunu sağlam bir əlamət hesab edirəm. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə şəksiz liderdir.

ABŞ və Azərbaycan ilkin mərhələdə münasibətlərində bir sıra çətinlikləri aşmalı idilər. Heç birimiz bu çətinlikləri tamamilə aradan qaldıra bilməmişik. Biz hələ Azərbaycanla tam, dolğun strateji münasibətlər inkişaf etdirə bilməmişik. Bunun bir səbəbi Konqresdə, xüsusilə, Dağlıq Qarabağ



məsələsinə müxalifətin, Amerikada erməni seçicilərinin mövcudluğu, başqa səbəbi isə Rusiya ilə yaxşı münasibətlər qurmağa olan marağımızdır. Azərbaycan da çətinliklə qarşılaşır - cəmiyyətdə hərtərəfli demokratiyanın qurulması üçün çox işlər görməlidir. Bu istiqamətdə artıq irəliləyişlər var. Amma tarazlasaq, məncə ABŞ-Azərbaycan münasibətlərindəki çətinlikləri aradan götürmək üçün əhəmiyyətli irəliləyiş etmişik.

Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür. Siyasi sabitliyin yaradılması sahəsində gördüyü işin nə qədər səmərəli olduğunu isə, hazırda heç kim qiymətləndirə bilməz. Azərbaycanın siyasi sistemi ilkin inkişaf mərhələsində olduğundan, bu məsələyə qəti cavab vermək mümkün deyildir, bunu gələcək göstərəcəkdir.

> ***Heydər Əliyev çox maraqlı sima, dünya miqyaslı liderlərdən biridir.***

Söhbəti yazdı:
**Şəfəq Akifqızı**
**AzərTAc-ın xüsusi müxbiri**

***

Cənab Heydər Əliyevin ABŞ-a tarixi səfəri Azərbaycan ilə ABŞ arasında həqiqi tərəfdaşlığın yaranmasına kömək etdi. Amerikalılar artıq daha çox inanmağa başlayırlar ki, Azərbaycanın müstəqilliyi və strateji əhəmiyyəti yalnız bu region üçün deyil, həm də Amerika Birləşmiş Ştatları üçün çox lazımlıdır. Prezident Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda baş verən iqtisadi dirçəlişləri aydın görmək mümkündür. Bu da cənab Əliyevin ölkəsinin gözəl gələcəyi haqqında xoş sözlər deməyə əsas yaradır. Mənə elə gəlir ki, Azərbaycanda yaşayan əhalinin öz gələcəyi barədə nikbin olmağa haqqı var. Prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən beynəlxalq iqtisadi əlaqələr Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik gətirəcəkdir.

*Emil KONSTANTİNESKU*
*Rumıniyanın keçmiş Prezidenti*

# Heydər Əliyev çox parlaq şəxsiyyətdir







Cənab Prezident Heydər Əliyevlə biz dəfələrlə görüşüb söhbət etmişik. Heydər Əliyev kimi tanınmış siyasi xadimin təcrübəsi şəxsən mənim üçün böyük əhəmiyyətə malikdir.

Prezident Heydər Əliyev çox maraqlı simadır, onun dünya miqyaslı liderlərdən biri olduğunu nəzərə alsaq, görərik ki, o, çox parlaq şəxsiyyətdir. Onunla mən hələ prezident seçilməzdən əvvəl tanış olmaq istəyirdim. Lakin təəssüf ki, buna müvəffəq olmadım. Bizim ilk ünsiyyətimiz Lissabonda oldu, sonra başqa beynəlxalq tədbirlərdə görüşdük. Əgər bizim müxtəlif dünyalardan olduğumuzu nəzərə alsaq, deməliyəm ki, bu gün mən çox maraqlı təcrübə müşahidə etdim.

Belə bir fakt maraqlıdır ki, Heydər Əliyev totalitar dövlətin rəhbər heyətində olmuşdur. Lakin o, başa düşdü ki, islahatlar və dəyişikliklər xətti müəyyən istiqamətdə gedir və onun özü də bu xətlə gedə bilmişdir. Eyni zamanda, elə bir rəhbərə çevrilmişdir ki, hamı bu xətlə onun ardınca gedir. Mərkəzi və Cənubi Avropada liderlərin əksəriyyəti Prezident Heydər Əliyevin nail olduğu bu cür nəticələrə nail ola

bilməmişdir. Tarix müəyyən nəticələr əldə etməyə müvəffəq olmayan liderləri aradan götürmüşdür.

Prezident Heydər Əliyev bu ən yüksək vəzifədə rəhbərlik təcrübəsinə malikdir. Bununla yanaşı, o, demokratiyanın, bazar iqtisadiyyatının dəyərlərinə, insan hüquqları ilə bağlı dəyərlərə səmimiyyətlə inanır.

Prezident Heydər Əliyevdə olan mühüm ideyalar insanları dəyişdirə bilər və insanlar da birlikdə xalqın taleyini dəyişdirə bilərlər.

Zənnimcə, Heydər Əliyev dünya siyasətində çox mühüm rol oynamışdır və oynayacaqdır. Bu gün mən onun daha bir keyfiyyətini – bir sıra nəsillər üçün nəzərdə tutulmuş mühüm layihələrə qoşulan böyük dövlət xadimi keyfiyyətini kəşf etdim. Mən müəyyən dərəcədə tarixi fürsət olan İpək yolunu nəzərdə tuturam. Ən başlıcası, öz xalqından istifadə etmək deyil, əksinə, öz xalqına xidmət etməkdir.

Prezident Heydər Əliyev görkəmli siyasətçidir və qarşılıqlı maraq doğuran məsələləri son illər ərzində onunla bir neçə dəfə səmimi və konstruktiv şəraitdə müzakirə etmək mənə nəsib olmuşdur.

***Mərkəzi və Cənubi Avropada liderlərin əksəriyyəti Prezident Heydər Əliyevin əldə etdiyi nəticələrə nail ola bilməmişdir.***



*Petru LUÇİNSKİ*
*Moldovanın keçmiş Prezidenti*

# Mən Heydər Əliyevin mərdliyini, ağıl-zəkasını həmişə yüksək qiymətləndirmişəm





Açığını deyim ki, Azərbaycanda hökm sürmüş qarmaqarışıqlıqdan, toqquşmalardan, müharibədən və sairdən sonra burada baş vermiş dəyişikliklər, yenidənqurma işləri ancaq Sizin kimi çox müdrik, səbirli, cəsur insanın rəhbərliyi sayəsində mümkün olmuşdur. Bu dəyişikliklər göz qabağındadır, onlara Azərbaycan iqtisadiyyatının inkişafına dair göstəricilər də sübutdur.

Sizi bir çox illər əvvəl olduğu kimi, yenə də belə cavan görməyimə son dərəcə şadam. Bunu nümayəndə heyətimizin bütün üzvləri də qeyd edirlər. Sizdə Azərbaycanı daha da dəyişdirmək üçün hər şey etmək ovqatı görməyimə şadam və demək istəyirəm ki, Moldova Sizin ölkənizlə birlikdə olacaqdır.



***

Biz Prezident Heydər Əliyevlə hələ 1970-ci ildən tanışıq. Mən buraya əvvəllər də gəlmişəm. 1970-ci ildə burada gənclər forumu keçirilmişdi. Biz gəlib görüşdük və tanış olduq. Sonra isə, 1974-cü ildə biz Aleksey Nikolayeviç Kosıginin başçılıq etdiyi bir nümayəndə heyətində olduq. Təbii ki, xaricdə olmaq adamları yaxınlaşdırıb doğmalaşdırır. Elə həmin il, bir neçə aydan sonra Heydər Əliyeviç Moldovaya gəldi. Bu da böyük bir toplantı idi. Biz çox ünsiyyətdə olduq. Sonra biz Moskvada işlədik. Hər yerdə də çox normal münasibətlər saxladıq. Mən bu adamın mərdliyini, ağıl-zəkasını, nizam-intizamını həmişə yüksək qiymətləndirmişəm. Əlbəttə, çox detallardan xəbərsiz idim. İndi onları ünsiyyətdə olduğumuz bu iki gündə öyrəndim. Əlbəttə, gərək böyük cəsarətə malik olasan. Doğrudur, Allah da kömək edir. Lakin haqqında danışdığım hərc-mərclik şəraitində bütün bunlara sinə gərmək, dözmək üçün böyük cəsarətin, əzmkarlığın olmalıdır.

***Azərbaycanda baş vermiş dəyişikliklər Heydər Əliyev kimi çox müdrik, səbirli, cəsur insanın rəhbərliyi sayəsində mümkün olmuşdur.***

*Butros-Butros QALİ*
***BMT-nin keçmiş baş katibi***

# Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.





*Məhəmmədəli MƏHƏMMƏDOV*
*Dağıstan Dövlət Şurasının sədri*

# Dağıstan xalqı Heydər Əliyevə dərin məhəbbət, böyük hörmət və səmimi ehtiram bəsləyir



*Azərbaycan xalqını yalnız Heydər Əliyevin şəxsiyyəti, nüfuzu, siyasi iradəsi sıx birləşdirdi.*

Dağıstanlılar bir neçə il əvvəl, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycanda mövcud olmuş vəziyyəti xatırlayırlar. Azərbaycan xalqını yalnız Heydər Əliyevin şəxsiyyəti, nüfuzu, siyasi iradəsi sıx birləşdirdi. İndi böyük perspektivləri olan güclü bir dövlət kimi Azərbaycan tərəqqi yolu ilə irəliləyir. Azərbaycan xalqı buna görə ən əvvəl Heydər Əliyeviç Əliyevə minnətdardır.

Hörmətli Heydər Əliyeviçi Dağıstanda nəinki görkəmli siyasətçi kimi, həm də digər xalqların, o cümlədən etnik dağıstanlıların problemlərini və dərd-sərini başa düşən bir insan kimi sevirlər. Biz Heydər Əliyeviçə həm də ona görə hörmət edirik ki, görkəmli dövlət xadimi kimi o, Rusiya Federasiyası subyektlərinin ölkəmizdə, Rusiyanın tərkibində yerini başa düşür, Rusiyanın tərkibində Dağıstan xalqının iradəsini qiymətləndirir. Buna görə də Dağıstan xalqı ona dərin məhəbbət, böyük hörmət və səmimi ehtiram bəsləyir.

Rusiya Federasiyası ilə qardaşlıq, dövlət əlaqələrini daha da inkişaf etdirmək üçün Heydər Əliyeviçin apardığı siyasət Azərbaycan və Dağıstan xalqları arasında dostluğun daha da möhkəmlənməsinə təkan verir. Nəzərə çarpdırmaq istəyirəm ki, Azərbaycan cəmiyyətinin siyasi inkişafı, sosial-iqtisadi və mənəvi tərəqqisi işinə Heydər Əliyeviç Əliyevin vermiş olduğu və indi də verdiyi şəxsi töhfə onu böyük siyasətçiyə çevirir.

***

Heç bir mətn olmadan, saat yarım ayaq üstə durub danışmağı və bir dəfə də təkrara yol verməməyi yalnız görünməmiş fiziki və mənəvi keyfiyyətlərə malik olan insan bacara bilər. Sizin rəhbərliyinizlə Azərbaycan xalqının qazandığı bütün şanlı nailiyyətlər göz qabağındadır. Hər hansı miqyaslı siyasi xadimin nə qədər böyük xidmətləri olsa da, o, öz xalqı qarşısında həmişə borcludur. Amma mənə elə gəlir ki, bunu Sizin barənizdə demək olmaz.

Heydər Əliyeviç, biz, qonşularınız olan dağıstanlılar Sizin respublikaya rəhbərliyə necə bir qarmaqarışıq vaxtda gəldiyinizi və Azərbaycan xalqının ədalətli işinə necə bir mürəkkəb vəziyyətdə başçılıq etdiyinizi yaxşı bilirik. Siz



ölkəni hərc-mərclik vəziyyətindən çıxardınız, xalqınıza başçılıq edərək, onun lideri olaraq onu birləşdirdiniz və ruhlandırdınız.

Heydər Əliyeviç Əliyev həm öz sırf şəxsi, insani keyfiyyətlərinə görə, həm də özünün bənzərsiz siyasi yoluna görə nadir, bir çox cəhətdən təkrarolunmaz şəxsiyyətdir. Dağıstan xalqlarının həyatına və ənənələrinə bələd olması ilə Heydər Əliyev hər bir dağıstanlının məhəbbət və ehtiramını qazanmışdır.

*Heydər Əliyev həm öz sırf şəxsi, insani keyfiyyətlərinə görə, həm də özünün bənzərsiz siyasi yoluna görə nadir, bir çox cəhətdən təkrarolunmaz şəxsiyyətdir.*

*Mintimer ŞAYMİYEV*
*Tatarıstan Prezidenti*

# Heydər Əliyevin sovet sistemi şəraitində respublikası, xalqı üçün gördüyü işlər hamımızda heyranlıq, bəlkə də, bir qədər qibtə hissi doğurmuşdu





Mən Heydər Əliyevi bir insan, bir rəhbər kimi, deyərdim ki, iki keyfiyyətdə tanıyıram. Əlbəttə, bir adam dövlətin, xalqın tarixini bir gündə, bir dövr ərzində yarada bilməz. Bunun üçün xalqınızın bir çox nəsilləri, bir çox rəhbərləri böyük əziyyət çəkmişlər. Lakin Heydər Əliyeviç, məhz Sizin o illərdə respublikanı yüksəltməyiniz və xalqın nüfuzunu qaldırmağınız, o sistem şəraitində gördüyünüz işlər bizim hamımızda, eləcə də məndə heyranlıq hissləri, bəlkə də, bir qədər qibtə hissi doğurmuşdu. Bu, belədir. Mən hələ onu demirəm ki, məhz Sizin qayğı və diqqətiniz sayəsində nə qədər görkəmli yaradıcı adamlar geniş şöhrət qazanmış, keçmiş SSRİ-nin bütün xalqlarının mənəvi inkişafına müsbət təsir göstərmişlər.

Siz tükənməz enerjiyə, adamlarla işləmək bacarığına maliksiniz, lakin lazım gələrsə, məqsədə çatmaq naminə çox qəti mövqe tutmağı da bacarırsınız.

Biz tarixi bir məqamın şahidləriyik, çünki hesab edirik ki, insanı hələ sağlığında ikən layiqincə qiymətləndirmək, onun qədrini bilmək qeyri-mümkündür. Axı, bir ara iş elə gətirdi ki, təəssüflər olsun, Azərbaycan xalqı müəyyən dövrdə Əliyevi itirdi. Bu itkinin qiymətini, nə demək olduğunu hamı hiss etdi. Mən qəti əminəm ki, dövlət rəhbəri üçün bütün lazımi keyfiyyətlərə malik belə çox zəngin təcrübəli insan məhz həmin dövrdə, bütün cəmiyyətin yenidən qurulduğu bir dövrdə son dərəcə gərək idi.

Yaxşı ki, həmişə müdrik olan xalq həmin o çox mürəkkəb vaxtda, münaqişəli vəziyyətin ən qızğın çağında məhz Sizə çox böyük etimad göstərdi.

***Məhz Heydər Əliyevin qayğı və diqqəti sayəsində nə qədər görkəmli yaradıcı adamlar geniş şöhrət qazanmış, keçmiş SSRİ-nin bütün xalqlarının mənəvi inkişafına müsbət təsir göstərmişlər.***

*Güclü, cəsur Heydər Əliyeviçi insani səviyyədə incitdilər, amma o, antik qəhrəman kimi doğma torpağına gəldi, əlini ona basdı, qüvvət topladı və öz xalqına başçılıq etdi.*

*Aleksandr DZASOXOV*
*Şimali Osetiya-Alaniya Prezidenti*

# Heydər Əliyev antik qəhrəman kimi doğma torpağına gəldi və öz xalqına başçılıq etdi

Bu gün bütün Qafqaz xalqlarının böyük dostu Heydər Əliyeviçin andiçmə mərasimi günüdür. Deyirlər ki, axar sudan iki dəfə keçmək mümkün deyildir. Amma o, iki dəfə keçdi. Biz xöşbəxtik ki, Azərbaycan xalqının belə lideri var. Siyasətçilər arasında münasibətlər adi insanlara xas münasibətlərdən xali deyildir. Güclü, cəsur Heydər Əliyeviçi insani səviyyədə incitdilər, amma o, antik qəhrəman kimi doğma torpağına gəldi, əlini ona basdı, qüvvət topladı və öz xalqına başçılıq etdi.



*Valeri KOKOV*
*Kabarda-Balkariya Prezidenti*

# Müdrik Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan xalqı dünya şöhrəti qazanmışdır

Kabarda-Balkar xalqının sevimlisi müdrik Heydər Əliyevin uzaqgörənliyi və düşünülmüş siyasəti nəticəsində Azərbaycan xalqı dünya şöhrəti qazanmışdır. Allah eləsin ki, Yer kürəsi adlanan bu məkanda Azərbaycan xalqı həmişə ön sıralarda olsun.



*Ruslan AUŞEV*
*İnquşetiyanın keçmiş Prezidenti*

# Heydər Əliyev sübut etdi ki, siyasət əxlaqlı və alicənab adamların işidir

Heydər Əliyeviç mənim üçün, gənc bir siyasətçi üçün faydalı olan iki iş gördü. Belə deyirlər ki, siyasət çirkin, əxlaqsız işdir. Amma Heydər Əliyeviç sübut etdi ki, siyasət əxlaqlı və alicənab adamların işidir. Buna görə də Azərbaycan yeni əsrə bu siyasətlə daxil olur və bu siyasətin gələcəyi var. İkincisi, çox idarə etdikdə həmişə sürəti itirirsən. Təəccüblüdür ki, bu insan yenicə sürət götürməyə başlayır.



*Vladimir XUBİYEV*
*Qaraçay-Çərkəzin keçmiş Prezidenti*

# Sadə adamlar Heydər Əliyev üçün Allaha yalvarır və ona yaxşılıq arzulayırlar

Heydər Əliyeviç, Sizin seçkiləriniz ərəfəsində mən kənd rayonunda çoxlu adamla görüşmüşdüm və 90 yaşlı bir qoca məndən soruşdu: "Necə bilirsən, Heydər Əliyeviç seçkilərdə qalib gələcəkmi?". Mən "Bəli, qalib gələcək" - deyə cavab verdim və soruşdum ki, niyə belə sual verirsən? O cavab verdi ki, Heydər Əliyev Azərbaycana gəldi və müharibəni dayandırdı. Heydər Əliyeviç sadə adamlar Sizə, bax, belə qiymət verirlər, xidmətlərinizi xalq arasında qiymətləndirirlər, Sizin üçün Allaha yalvarır və Sizə yaxşılıq arzulayırlar.

*Aslan CARİMOV*
*Adıgeyin keçmiş Prezidenti*

# Heydər Əliyev Azərbaycan xalqına hədsiz məhəbbətində ardıcıldır

Qafqaz dağlarının əzəmətli sıralarını şimaldan cənuba doğru Adıgey və Azərbaycan başa çatdırır. Obrazlı desək, onlar ümumqafqaz evinin bir hissəsidir. Heydər Əliyeviçin müdrikliyi, mətinliyi, şəxsi cəsurluğu, şəxsi taleyi, hər bir azərbaycanlının taleyi, bütün Azərbaycan dövlətinin taleyi bəri başdan elə müəyyənləşdirmişdir ki, Azərbaycanı üçüncü minilliyə məhz Heydər Əliyev aparacaqdır. Heydər Əliyeviç Azərbaycan xalqına hədsiz məhəbbətində ardıcıldır. Belə prezidenti olan xalq xoşbəxtdir.



*Kirsan İLYUMJİNOV*
*Kalmıkiya Prezidenti*

# Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir

Mən və bir çox gənc siyasətçilər Heydər Əliyevi ağsaqqal, patriarx sayırıq. Biz hələ Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuyarkən Sizin fəaliyyətinizi, çıxışlarınızı öyrənirdik.

Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir, qurub-yaratmaq, yenidən ayağa qalxmaq rəmzidir.



*Rəcəb TAYYİB ƏRDOĞAN*
*Türkiyənin Baş naziri*

# Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq





Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq. Vəfatı hamımızı sarsıtmış möhtərəm Heydər Əliyev regionun inkişafı üçün çox böyük səy göstərdi. Bu dahi şəxsiyyət Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Ərzurum qaz kəmərləri layihələrinin həyata keçirilməsi üçün çox çalışırdı. Biz də çalışmalıyıq ki, bu layihələr mütləq reallığa çevrilsin. Türkiyə-Azərbaycan münasibətləri elə möhkəm təməl üzərində qurulmuşdur ki, bunu heç bir qüvvə sarsıda bilməz. Əminəm ki, Azərbaycan Prezidenti İlham Əliyev hörmətli Heydər Əliyevin yolu ilə gedərək, münasibətlərimizin inkişafına yeni töhfələr verəcəkdir.

***Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi.***



*Büländ ECEVİT*

*Türkiyənin keçmiş Baş naziri*

# Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir

Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür! Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir!





*Bənəzir BHUTTO*

*Pakistanın keçmiş Baş naziri*

# Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var

Keçmiş Sovetlər İttifaqına daxil olmuş respublikalar arasında dövlət çevrilişi cəhdlərinin qarşısını almaq üçün ən yaxşı mexanizm Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda yaradılmışdır. Mən fikirləşirəm ki, dövlət çevrilişinə cəhd etmək istəyənlər gərək başa düşsünlər ki, onsuz da uğursuzluğa düçar olacaqlar. Çünki mən yaxşı bilirəm ki, Azərbaycanda xalq Sizi dəstəkləyir. Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var, ona görə də indi ölkədə hər şey maşın mexanizmi kimi işləyir.

...Azərbaycanın Prezidentinə bizim dərin hörmətimiz var, onun siyasi karyerasını diqqətlə izləyirik və Azərbaycanda demokratik dəyişikliklərin aparılmasını, ölkənin bazar iqtisadiyyatına doğru addımlamasından ötrü göstərdiyi səyləri dəstəkləyirik. Bu proseslər – həm demokratik cəmiyyətin qurulması, həm də azad bazar münasibətlərinin yaradılması asan iş deyildir. Bundan ötrü vaxt gərəkdir. Biz bu işdə Heydər Əliyevi dəstəkləyirik və əminəm ki, Azərbaycan xalqı onun müdrik rəhbərliyi altında bu dəyişikliklərin bəhrəsini görəcəkdir.

***Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var, ona görə də indi ölkədə hər şey maşın mexanizmi kimi işləyir.***



*Helmut KOL*
*Almaniyanın keçmiş federal kansleri*

# Heydər Əliyev çətin bir şəraitdə ölkəsinə rəhbərlik edərək, onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparmışdır

***Almaniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafı və dərinləşməsində Heydər Əliyevin səylərinin böyük rolu olmuşdur.***

Biz inamla deyə bilərik ki, Almaniya ilə Azərbaycan arasında, xüsusən iqtisadi sahədə olan dostluq münasibətləri son illərdə aşkar inkişaf etmiş və dərinləşmişdir. Bu işdə Sizin səylərinizin böyük rolu olmuşdur. Eyni zamanda, Siz ölkənizə çətin bir şəraitdə rəhbərlik edərək, onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparırsınız. Bu, dünya dövlətləri arasında ölkənizə etimadın artmasına səbəb olmuşdur.





*Ryutaro HAŞİMOTO*
*Yaponiyanın keçmiş Baş naziri*

# Prezident Heydər Əliyevin Yaponiyaya səfəri tarixi hadisədir



Mən hələ gənclik illərində Azərbaycana xüsusi maraq göstərmişəm. Deyə bilərəm ki, Prezident Heydər Əliyev zəmanəmizin görkəmli dövlət xadimidir və onun həyat və fəaliyyəti ilə yaxından tanışam. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və islahatların müvəffəqiyyətlə aparılması sahəsində görülən işlər Yaponiya hökuməti və ictimaiyyəti tərəfindən maraqla qarşılanır.

Müstəqil Azərbaycan Respublikası bu gün dünya birliyində layiqli yerini tutur. Prezident Heydər Əliyevin Yaponiyaya səfəri tarixi bir hadisədir. Yaponiyaya bir çox dövlət başçıları səfərə gəliblər, lakin Heydər Əliyevin bu rəsmi səfərinə ictimaiyyət və kütləvi informasiya vasitələri tərəfindən göstərilən belə dərin maraq Yaponiyada nadir hallardan biridir. Cənab Prezident, məndə Sizin keçirdiyiniz görüşlərin siyahısı vardır. Belə gərgin işiniz məndə heyrət doğurur.

*Yaponiyaya bir çox dövlət başçıları səfərə gəliblər, lakin Heydər Əliyevin bu rəsmi səfərinə ictimaiyyət və kütləvi informasiya vasitələri tərəfindən göstərilən belə dərin maraq Yaponiyada nadir hallardan biridir.*



*Jan LÜK DE AN*
*Belçika Krallığının keçmiş Baş naziri*

# Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açar rolu oynayan ölkəyə çevrilmişdir



Prezident Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu, iqtisadi islahatların həyata keçirilməsi sahəsində əldə olunmuş nailiyyətlər Belçikada rəğbətlə qarşılanır. Məhz Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair dünyanın bir çox nüfuzlu şirkətləri ilə müqavilələr imzalanması Azərbaycanın müstəqilliyinin əbədi olmasına böyük təminat yaradır.

Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açar rolu oynayan ölkəyə çevrilmişdir və Belçika Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir. Prezident Əliyevin apardığı ağıllı, düşünülmüş siyasət və ölkədə yaradılmış şərait nəticəsində xarici şirkətlər, o cümlədən Belçika şirkətləri Azərbaycana marağı gündən-günə artırırlar.

***Məhz Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur.***



*Rafiq ƏL-HƏRİRİ*
*Livanın Baş naziri*

# Heydər Əliyev görkəmli, müdrik dövlət xadimi kimi bütün ərəb dünyasında məşhurdur



Heydər Əliyev görkəmli, müdrik dövlət xadimidir. Heydər Əliyev ilə görüşmək mənim üçün böyük şərəf və başucalığıdır. Bütün ərəb dünyasında da görkəmli, müdrik dövlət xadimi kimi məşhur olan Prezident Heydər Əliyevin rəhbərliyi ilə əldə edilmiş nailiyyətlər Livanda rəğbətlə qarşılanır. Məhz Prezident Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanın dünya birliyində layiqli yer tutması, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair bir çox şirkətlərlə imzalanmış müqavilələr Azərbaycanın suverenliyinin əbədi olmasına və bu bölgədə həmin dövlətlərin iqtisadi maraqlarının həyata keçirilməsinə çox böyük təminat verir.

Heydər Əliyevin şöhrətli şəxsiyyəti barədə məlumatlar təkcə Livanda deyil, bütün ərəb dünyasında geniş yayılmışdır.

***Heydər Əliyevin şöhrətli şəxsiyyəti barədə məlumatlar təkcə Livanda deyil, bütün ərəb dünyasında geniş yayılmışdır.***



*Riçard ARMİTAC*
*ABŞ dövlət katibinin birinci müavini*

# Heydər Əliyev ölkəsinin maraqlarını hər şeydən üstün tutan əsl liderdir



Cənab Prezident, Sizin Vaşinqtona və ABŞ-ın digər şəhərlərinə rəsmi səfərinizdən beş ay vaxt keçməsinə baxmayaraq, haqqınızda olan yüksək fikir Amerika vətəndaşlarının xatirində çox yaddaqalan olmuşdur. Onlar Sizə dərin hüsn-rəğbət bəsləyirlər. Bunun iki səbəbi vardır. Bu, birincisi, hamıya məlum olduğu kimi, ABŞ-da keçirdiyiniz görüşlərdə, apardığınız danışıqlarda özünü göstərmiş intuisiyanıza, yüksək danışıq qabiliyyətinizə görə olmuşdur. İkinci səbəb ondan ibarətdir ki, Siz Corctaun Universitetində çıxış edərkən müxtəlif mövzuda suallara çox ətraflı və dolğun cavablar vermisiniz. Həmin görüş zamanı bir daha göstərdiniz ki, Siz ölkənizin əsl liderisiniz, heç nədən qorxmursunuz və ölkənizin maraqlarını hər şeydən üstün tutursunuz.

***

*Heydər Əliyev regionun ən uzaqgörən şəxsiyyətidir.*

Ad gününüz mübarək, cənab Prezident!

Sizinlə görüşlərimiz və əməkdaşlığımız haqqında o qədər xatirələrim var ki. Ən birinci xatirəm isə, Azərbaycan yenicə müstəqilliyə çıxdıqdan dərhal sonra baş verən görüşümüzlə bağlıdır. Siz o zaman Naxçıvanda idiniz və yerli əhaliyə yardımın gətirilməsini təşkil edirdiniz. Mən ilk dəfə orada Sizinlə tanış oldum və birgə işlədim. Sizə elə o vaxdan ürəkdən bağlandım, çünki mənə atamı xatırlatdınız. Ümid edirəm, bu həqiqəti söylədiyimə görə məndən inciməyəcəksiniz, doğrudan da, ona bir qədər oxşayırsınız.

Bu görüşdən sonra Sizinlə dəfələrlə həm mülki şəxs kimi, həm də hakimiyyətdə olarkən birgə işlədim, Sizi Bakıda ziyarət etdim. Daha bir xatirəm ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri olduğum müddətlə bağlıdır. Siz Vaşinqtonda səfərdə olarkən, mənə Sizi ABŞ-ın görkəmli şəxslərinə təqdim etmək şərəfi nəsib olmuşdu. Bunu xüsusi rəğbətlə edirdim. Sizi həmçinin sabiq müdafiə naziri Kasper Uaynbergerə təqdim etdim. Xatırlayıram, Siz cənab Uaynbergerə baxıb dediniz: "Sizi televiziya ilə o qədər düşmən qismində görməyə öyrəşmişəm ki, şəxsən tanış olmağımdan məmnunam". Bu, mənim üçün unudulmaz hiss idi, çünki Kasper Uaynberger mənim keçmiş müdirim və müəllimim olmuşdur.

Son zamanlar Sizinlə yenidən, bu dəfə mən hakimiyyətdə olarkən, müxtəlif məsələlər üzrə birgə əlaqələr qurmuşuq. Şərq-Qərb enerji dəhlizi layihəsində Sizin rəhbərliyiniz Bakı-Tbilisi-Ceyhan kəmərini mümkün etmişdir. Həmçinin, Sizinlə birgə mübarizə apararaq, Dağlıq Qarabağ probleminə sülh yolu ilə nizamlama tapmaq mənim üçün maraqlı idi.



Sizinlə görüşlərimizin birində mən demişdim: "Öz azadlığını, müstəqilliyini qorumaq yolu, demokratiya, azadlıq yolu ilə irəliləyərkən Azərbaycan çox böyük çətinliklərlə qarşılaşıb və bundan sonra da qarşılaşacaqdır. Lakin biz qəti əminik ki, Azərbaycan Heydər Əliyevin rəhbərliyi altında qətiyyətini bundan sonra da göstərərək, öz dövlət müstəqilliyini daha da möhkəmləndirəcəkdir". Ötən illərdə biz bunun şahidi olmuşuq.

Mən müşahidə etmişəm və həqiqətən belədir ki, Azərbaycanın çox uzaqgörən prezidenti vardır. Siz həmişə demokratiya, tərəqqi, iqtisadi irəliləyiş haqqında düşünür, həmişə düzgün hərəkət edirsiniz. Belə adamlar həmişə işləri yaxşı nəticəyə gətirib çatdırırlar.

*Heydər Əliyev həmişə demokratiya, tərəqqi, iqtisadi irəliləyiş haqqında düşünür, həmişə düzgün hərəkət edir.*

ABŞ-da Sizin dostlarınız çoxdur və onlar dəfələrlə ölkənizə səfər etmiş, bu regionun ən uzaqgörən şəxsi ilə görüşmüşlər.

Bütün Birləşmiş Ştatlar hökuməti Sizin rəhbərliyiniz altında Azərbaycanın həm Əfqanıstanda, həm də İraqda əməliyyatlar zamanı koalisiyaya möhkəm dəstəyinə görə təşəkkürünü bildirir. Bunlar əsl dostluğun ölçüləridir. Amerkalılar bunları unutmur və heç bir zaman unutmayacaqlar.

Cənab Prezident, Sizi bir daha ad gününüz münasibətilə təbrik edirəm və bundan da böyük uğurlar arzulayıram.

Söhbəti yazdı:
**Şəfəq Akifqızı**
**AzərTAc-ın xüsusi müxbiri**

***

Cənab Heydər Əliyev Azərbaycanın dövlət başçısı kimi uzaqgörənlik, müdriklik göstərərək, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün çox böyük səylər qoymuşdur. Sülhün əldə olunması üçün gördüyü

gərgin işlərlə yanaşı, ölkənin iqtisadiyyatının bərpa olunmasına və canlandırılmasına da böyük həvəslə başlayan Prezident Heydər Əliyev Azərbaycanın qapılarını dünya birliyinin üzünə açmış və xarici şirkətlərin sərmayə qoymaları üçün hər bir şərait yaratmışdır.

Prezident Heydər Əliyevin Azərbaycanın demokratik inkişafını təmin etmək məqsədi ilə demokratik təsisatların yaradılması sahəsində göstərdiyi xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Cənab Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi və liderliyi artıq öz bəhrəsini verməkdədir.

***Prezident Heydər Əliyevin Azərbaycanın demokratik inkişafını təmin etmək sahəsindəki xidmətləri xüsusi vurğulanmalıdır.***



*Madlen OLBRAYT*
*ABŞ-ın keçmiş dövlət katibi*

# Heydər Əliyev açıq və qətiyyətli mövqeyi olan dövlət xadimidir



*ABŞ-da Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan ikinci prezident görməmişəm.*

Azərbaycan Prezidenti Heydər Əliyev açıq və qətiyyətli mövqeyi olan bir dövlət xadimidir. O, Xəzərin enerji ehtiyatlarından istifadə sahəsində iki ölkənin işbirliyinə böyük əhəmiyyət verən, ABŞ ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsinin yüksəldilməsinə səy göstərən tanınmış bir şəxsiyyətdir.

***

Prezident Bill Klintonun Prezident Heydər Əliyevlə görüşündən məmnunam. Bu vəzifədə olduğum dövrdə Amerika Birləşmiş Ştatlarında Heydər Əliyev qədər yüksək səviyyədə qarşılanan və uğurlu səfər edən ikinci prezident hələ görməmişəm.



*Henri KİSİNCER*
*ABŞ-ın keçmiş dövlət katibi*

# Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparmışdır



Azərbaycan Prezidentinin Qafqazda atdığı addımları Birləşmiş Ştatlarda diqqətlə izləyirlər. Azərbaycan çox mürəkkəb coğrafi məkanda yerləşən dövlətdir. ABŞ və Qərb ölkələri ilə əlaqələri inkişaf etdirməyi, bazar iqtisadiyyatının və demokratiyanın bərqərar olması üçün əzmlə çalışmağı qarşısına məqsəd qoyan Prezident Heydər Əliyevin fəaliyyəti təqdirəlayiqdir. Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparır.

***Prezident Heydər Əliyevin bazar iqtisadiyyatı və demokratiyanın bərqərar olması üçün əzmlə çalışması təqdirəlayiqdir.***



*Ərdal İNÖNÜ*
*Türkiyənin keçmiş xarici işlər naziri*

# Heydər Əlirza oğlu həyatdakı Atatürkdür

Heydər bəyi çox sevirik. Bir zamanlar babam İsmət Paşaya "həyatdakı Atatürk" deyilərdi. Heydər Əlirza oğlu həyatdakı Atatürkdür. Onun Azərbaycanı xoş günlərə çatdıracağına candan inanırıq.



*Kristian PONSÖLE*
*Fransa Senatının sədri*

# Prezident Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycan Cənubi Qafqazın hüdudlarından uzaqda böyük şöhrət qazanmışdır





Azərbaycana ilk səfərim zamanı Prezident Heydər Əliyevlə görüşməkdən sevinc və şərəf hissi duydum. O, məni əməkdaşlarımla birlikdə nahara dəvət etdi. Bu, yaddaqalan bir münasibət idi və belə xüsusi diqqət məni son dərəcə həyəcanlandırmış və təsirləndirmişdi. Həmin görüşdən məndə unudulmaz xatirə qalıbdır.

Prezident Heydər Əliyev cəsarətli və sarsılmaz iradəyə malik bir şəxsiyyətdir. O, bütün varlığı ilə ölkəsinə bağlı, ölkəsi ilə nəfəs alan, onun bütün çətinlikləri ilə yaşayan bir insandır, xalqın həyat tərzinin yaxşılaşdırılması naminə var gücü ilə çalışır, gerçəkliyi nəzərə alaraq praqmatik hərəkət edir. Əlbəttə, o, xalqa boş vədlər yox, konkret ümidlər verir.

Prezident Heydər Əliyevin iradə və gücündən danışarkən tibbi əməliyyatdan dərhal sonra məni qəbul edərək, çox uzun söhbət etməsini yaxşı xatırlayıram. Ona bir az dincəlməyi məsləhət gördükdə, "yox, bu söhbət çox vacibdir. Fransa ilə Azərbaycan arasında əlaqələrə böyük əhəmiyyət verdiyimdən mütləq sizinlə söhbət etməliyəm,"- deyə cavab verdi və söhbətin çox müsbət nəticələri oldu.

Prezident Heydər Əliyev ölkəsində sabitliyi və bütün qüvvələr arasında birliyi bərpa etməyi bacardı. O, ölkədə sosial inkişafın dayağı olan iqtisadi inkişafı təmin etmək üçün lazımi inamı və asayişi bərpa etdi. Ölkəsinin təbii sərvətlərdən maksimum mənfəət əldə etməsi üçün lazımi şərait yaratdı.

Bu gün Azərbaycan cəsarətli addımlarla bazar iqtisadiyyatına doğru gedir. Ölkə hər kəsin öz fikrini sərbəst ifadə etməsi, öz hisslərini bildirməsi üçün demokratiya yolunu seçib. Dövlət belə yüksəlir. Prezident Heydər Əliyev ölkədəki qüvvələri eyni bir məqsədə - Azərbaycanın tərəqqisi naminə səfərbər etməyə nail olmuşdur. Mən xüsusilə vurğulayıram ki, Prezident Heydər Əliyev Qərb demokratiyalarının əsas prinsipi olan dünyəvilik prinsipini ölkəsində tətbiq etdi. Ölkədə hər kəs dininə etiqad etməkdə və inamında azaddır. Eyni zamanda, din ölkənin idarə olunmasına müdaxilə etməməlidir. Bu, çox mühüm prinsipdir.

Deməliyəm ki, məhz Prezident Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycan Cənubi Qafqazın hüdudlarından uzaqda böyük şöhrət qazanıbdır. Bu gün Fransa və Azərbaycan arasında gözəl əlaqələrin inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Azərbaycan və fransız xalqları

***Prezident Heydər Əliyev Qərb demokratiyalarının əsas prinsipi olan dünyəvilik prinsipini ölkəsində tətbiq etdi.***

arasında çox səmimi dostluq hissləri mövcuddur. Mənə çox xoşdur ki, Prezident Heydər Əliyev Fransa inqilabının ildönümünü -14 iyulu həmişə xüsusi diqqətlə qeyd edir. Fransız xalqının azadlıq və demokratiya əldə etdiyi həmin gün ölkəsinə tərəqqi, azadlıq və ümid gətirmiş Heydər Əliyevin vaxtilə ən yüksək vəzifəyə təyin olunduğu günə təsadüf edir.

Söhbəti yazdı:
**Əsgər Əliyev**
**AzərTAc-ın xüsusi müxbiri**

***Fransa və Azərbaycan arasında gözəl əlaqələrin inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir.***



*Nikolay BAYBAKOV*
*Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri*

# Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram

Heydər Əliyev bir çox çətin məsələləri həll etməyə və qarşıya qoyulan məqsədlərə nail olmağa qadir insan idi. Bu insanın xalqlarımız üçün nə qədər yaxşı işlər gördüyünü sadalamaq və qiymətləndirmək çətindir. O, sıravi vətəndaşların hər hansı xahişlərinə həmişə diqqətlə yanaşardı. Onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir. Bizim belə insanlara ehtiyacımız var. Onun aramızda olmaması çox ağır dərddir.

***Onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir.***



*İqor İVANOV*
*Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, keçmiş xarici işlər naziri*

# Rusiyada Heydər Əliyevi Azərbaycan xalqının böyük oğlu, beynəlxalq miqyaslı müdrik siyasətçi, ölkəmizin və xalqımızın böyük dostu kimi tanıyırlar





Rusiyada Heydər Əliyevi Azərbaycan xalqının böyük oğlu kimi, beynəlxalq miqyaslı müdrik siyasətçi kimi, ölkəmizin və xalqımızın həqiqi dostu kimi tanıyırlar. Buna görə də, çox şadıq ki, bizə dost, əziz Azərbaycanın Prezidenti məhz Heydər Əliyev olmuşdur.

***

Cənab Prezident, Sizin bütün həyatınız dövlət mənafelərinə sədaqətlə xidmətin parlaq nümunəsidir. Dinc və realist xarici siyasət aparılması sayəsində Azərbaycanın regionda və beynəlxalq aləmdə nüfuzu durmadan artır.

Ölkələrimiz arasında ənənəvi dostluğun, yaxın mehriban qonşuluğun və hərtərəfli əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə verdiyiniz sanballı şəxsi töhfənizi Rusiyada yaxşı bilir və yüksək qiymətləndirirlər.

***Heydər Əliyevin bütün həyatı dövlət mənafelərinə sədaqətlə xidmətin parlaq nümunəsidir.***

*Duqlas HÖRD*

*Böyük Britaniyanın keçmiş xarici işlər naziri*

# Heydər Əliyev kimi liderlə görüş insanın yaddaşına həmişəlik həkk olunur





Mən dövlət vəzifəsində çalışarkən dünyanın bir çox dövlətlərinin liderləri, hökumət rəhbərləri, nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişəm. İnsan vəzifədən getdikdən sonra əvvəlki görüşlərə bir nəzər salmaq imkanı qazanır.

Cənab Prezident Heydər Əliyev, burada, Sizin qarşınızda etiraf etmək istəyirəm, - bu cür çoxsaylı görüşlərin eləsi var ki, insanın yaddaşına birdəfəlik həkk olur, eləsi də var ki, yaddaşda ondan heç bir əsər-əlamət qalmır.

Cənab Prezident, icazə verin, deyim ki, mən Sizinlə keçirdiyim görüşü, söhbətimizi hər zaman xatırlayacağam. Yaxşı yadımdadır ki, Sizinlə keçirdiyim görüş zamanı öz ölkəniz Azərbaycanın və regionunuzun gələcəyi barədə çox ağıllı, realist və eyni zamanda, çox nikbin nöqteyi-nəzərinizi mənim diqqətimə çatdırdınız.

***

Cənab Prezident, Siz mənə çox lazımlı adamsınız, mən Sizi özümə müəllim hesab edirəm. Siz hər altı aydan bir mənə dərs verirsiniz, mənim bu dərsə indi də ehtiyacım var. Bu, Qafqazda, regionunuzda, bütövlükdə dünyada gedən proseslərə Sizin münasibətinizi öyrənməkdən ibarətdir.

***Heydər Əliyevi özümə müəllim hesab edirəm, o, hər altı aydan bir mənə dərs verir.***

*Keyzo OBUÇİ*

*Yaponiyanın keçmiş xarici işlər naziri*

# Heydər Əliyev dünya siyasətində böyük rol oynayan çox məşhur şəxsiyyətdir

***Prezident Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin Yaponiyaya ilk rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın durmadan inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.***

Prezident Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin Yaponiyaya ilk rəsmi səfərini yüksək qiymətləndirirəm. Bu səfər ölkələrimiz arasında əməkdaşlığın durmadan inkişaf etdirilməsində mühüm rol oynayacaqdır. Prezident Heydər Əliyev dünya siyasətində böyük rol oynayan çox məşhur şəxsiyyətdir. Bunun sayəsində Azərbaycan tezliklə dünya birliyində özünə layiq yer tutacaqdır.





*Robin KUK*

*Böyük Britaniyanın keçmiş xarici işlər naziri*

# Prezident Heydər Əliyevin müdrikliyinə və dərin biliyinə heyranam



Dünya miqyaslı görkəmli siyasi xadim və dövlət xadimi Prezident Heydər Əliyevin müdrikliyinə, zəngin dünyagörüşünə, dərin biliyinə və uzaqgörənliyinə heyranam. Onun müvəffəqiyyətli və özünəməxsus liderliyi sayəsində Azərbaycanda əldə edilmiş tərəqqiyə valeh olmuşam.

Böyük Britaniya Qafqaz və Orta Asiya ölkələrinə xüsusi maraq göstərir. Azərbaycan bu regionda açar rolunu oynayır. Birləşmiş Krallıq Azərbaycanla əlaqələrin günbəgün genişlənməsindən, ölkələrimiz arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnundur.

Müstəqillik yolu tutmuş Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə demokratik islahatların həyata keçirilməsində əldə olunmuş nailiyyətlərdən xəbərdarıq. Böyük Britaniya Azərbaycanda gedən demokratikləşmə proseslərini diqqətlə izləyir.

***Heydər Əliyevin müvəffəqiyyətli və özünəməxsus liderliyi sayəsində Azərbaycanda əldə edilmiş tərəqqiyə valeh olmuşam.***



*Xavyer SOLANA*
*NATO-nun keçmiş baş katibi*

# Prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür

Bizim günlərdə hadisələr çox sürətlə cərəyan edir, qloballaşır. Təhlükəsizlik məsələləri xüsusilə gündəlikdə durur. Bu baxımdan Prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür. Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur.



***Prezident Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Asiya ilə Avropa arasında əlaqələr, əməkdaşlıq körpüsü qurulur.***

*Boris QRIZLOV*
*Rusiya Federasiyasının keçmiş daxili işlər naziri,*
*Dövlət dumasının sədri*

# Heydər Əliyev tarixin gedişinə təsir göstərən insanlardandır





Elə insanlar var ki, onların irəlidə, göz qabağında olması, başqalarından fərqlənməsi sanki öncədən alınlarına yazılmışdır. Onlarla ayaqlaşmağa çalışırlar, onları nümunə göstərirlər, məsuliyyətin əsas yükünü də onlar daşıyırlar, tarixin gedişinə məhz onlar təsir göstərirlər.

Haqlı olaraq, Heydər Əliyev də belə insanlar sırasındadır. Siz bütün ömrünüzü vətənə fədakarcasına xidmətə həsr etmisiniz. Siz mənim təsəvvürümdə vətənpərvər, dövlətin ali mənafeləri uğrunda güzəştsiz mübariz obrazının təcəssümüsünüz.

Azərbaycan xalqı Sizə daim yüksək etimad göstərir, Sizi iki dəfə respublikanın Prezidenti seçmişdir.

Dövlət idarəçiliyinin ən çətin məsələlərini vaxtında həll etmək bacarığınız və mürəkkəb dünya siyasi prosesində yarım addım öndə olmaq istedadınız Sizi müasir dövrün aparıcı dövlət xadimləri ilə bir sıraya çıxarır. Sizin adınız təkcə Azərbaycan Respublikasında deyil, onun hüdudlarından kənarda da çox məşhurdur. Siz müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlətlərarası münasibətlərinin təşəkkülü, inkişafı və möhkəmlənməsi işinə misilsiz töhfə vermisiniz.

Mübaliğəsiz demək olar ki, beynəlxalq mütəşəkkil cinayətkarlıqla mübarizə işində güzəştsiz mövqeyiniz, habelə hüquq mühafizə orqanlarının antiterror və antikriminal fəaliyyətini MDB-nin üzvü olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası çərçivəsində əlaqələndirmək sahəsində apardığınız böyük iş ümumən Birliyin bütün ərazisində, o cümlədən Qafqaz regionunda sabitliyin möhkəmlənməsinə kömək edir.

Biz uzun illər ərzində Azərbaycanı və Rusiyanı bir-birilərinə bağlayan dostluq və əməkdaşlıq ənənələrini çox əziz tuturuq və Azərbaycan DİN ilə Rusiya DİN arasında çoxsəpkili qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə və daha da inkişaf etməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

***Heydər Əliyevdə mürəkkəb dünya siyasi prosesində yarım addım öndə olmaq istedadı var.***

*Gennadi SELEZNYOV*
*Rusiya Dövlət dumasının keçmiş sədri*

# Heydər Əliyev parlaq siyasi sima və ailəsinə sədaqətli insan idi





Heydər Əliyev həm Azərbaycanda, həm də Sovet İttifaqında çox parlaq siyasi sima idi. Qeyri-adi istedad və qeyri-adı zəka sahibi olan bu insan ən mürəkkəb vəziyyətlərdə həqiqətin onun tərəfində olacağına və Azərbaycanın həyatının yaxşılığa doğru dəyişəcəyinə inamını itirmirdi. Ailəsinə, ömür-gün yoldaşına son dərəcə sədaqətli insan idi. O zaman onun Zərifə xanımın cənazəsini Azərbaycana aparıb yenidən torpağa tapşırmaq qərarını bir çoxları başa düşmürdü. Bu gün anladım ki, o, nəyə görə belə etmişdi. Onu Zərifə xanımın yanında dəfn etdilər, yəni onlar yenə bir yerdə olacaqlar. Həyatda da birlikdə idilər, Allahın dərgahında da bir yerdə olacaqlar.

Mən Heydər Əliyevi şəxsən çox yaxşı tanıyırdım. Biz saatlarla söhbət etmişik. Ona görə də bu böyük şəxsiyyətin vəfatı mənim üçün çox ağır itkidir.

Heydər Əliyev Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsi işinə ən sədaqətli rəhbərlərdən biri idi. O, başa düşürdü ki, Rusiya əsl strateji tərəfdaşdır, Rusiya Azərbaycanı yaxşı tanıyır və Azərbaycanda Rusiyanı tanıyırlar. Heydər Əliyev bu münasibətlərin möhkəmlənməsi və onlara xələl gəlməməsi üçün ardıcıl addımlar atırdı. Ona görə də, bu gün Azərbaycan-Rusiya münasibətləri elə səviyyəyə çatmışdır ki, Azərbaycan MDB ölkələri arasında bizim ən yaxşı tərəfdaşlarımızdan biridir.

***Heydər Əliyev ən mürəkkəb vəziyyətlərdə həqiqətin onun tərəfində olacağına inamını itirmirdi.***

*Lourens İQLBERGER*
*ABŞ-ın keçmiş dövlət katibi*

# Azərbaycandakı iqtisadi və siyasi dəyişikliklər heyranlıq doğurur

Biz çox şadıq ki, "soyuq müharibə" arxada qalıb və Birləşmiş Ştatlarla Azərbaycan bir-birinə bu qədər yaxındır. İndi əsas vəzifələrimizdən biri ölkələrimizi daha da yaxınlaşdırmaqdır. Son dövrdə Azərbaycanda bu qədər iqtisadi və siyasi dəyişikliklərin olmasına heyranıq və hesab edirik ki, bunlar getdikcə artacaqdır. Bütün bunlar Prezident Heydər Əliyevin rəhbərliyi altında baş vermişdir.

Azərbaycandan bir qədər şimaldakı ölkələr böyük iqtisadi problemlərlə üzləşirlər. Ona görə də mən xüsusi valeh olmuşam ki, ölkənizdə iqtisadi sabitlik əldə edilmişdir və bu, çox səmərəli bəhrələr vermişdir. Bu, həm Azərbaycandan ötrü, həm də, ümumiyyətlə, dünya iqtisadiyyatı üçün mühüm amildir.

Demokratiya yalnız iqtisadi reallığa əsaslana bilər. Azərbaycanda demokratiya sahəsində də böyük nailiyyətlər əldə olunmuşdur.

Dünyada çox az sayda prezident olubdur ki, onlarla görüşlərdən sonra belə qənaətə gəlim ki, nə isə öyrəndim. Siz sayca çox az olan belə prezidentlərdən birisiniz.





*Hovard BEYKER*
*keçmişdə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi*

# Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə əldə edilmiş tərəqqi çoxlarına müyəssər olmur

***Heydər Əliyevin rəhbərliyi ilə ölkədə baş vermiş böyük dəyişikliklər və tərəqqi adamı məftun edir.***

Cənab Prezident, mən bundan əvvəl də Azərbaycanda olmuşam və çox şadam ki, bu gün Sizinlə görüşürəm. Müstəqillik qazandıqdan bəri ölkədə Sizin rəhbərliyiniz altında əldə olunmuş tərəqqiyə görə Sizi təbrik etmək istəyirəm. Açığını deyim ki, qısa bir müddətdə belə tərəqqi əldə etmək çoxlarına müyəssər olmur.

Mən Azərbaycana əvvəlki gəlişimlə müqayisədə, indi böyük dəyişikliklər görürəm və bu tərəqqi, həqiqətən, adamı məftun edir.



*Anatoli MALOFEYEV*
*Belarus parlamenti Nümayəndələr palatasının keçmiş sədri*

# Heydər Əliyevin həyatı xalqına və ölkəsinə fədakarcasına xidmətin parlaq sübutudur

***Bütün dünya Heydər Əliyevi böyük siyasi və dövlət xadimi, müasir tipli ölkənin rəhbəri kimi tanıyır.***

Cənab Prezident, tale Sizə fitri istedad vermişdir. Bütün dünya Sizi böyük siyasi və dövlət xadimi, müasir tipli ölkənin rəhbəri kimi tanıyır. Sizin böyük həyat yolunuz, zəngin tərcümeyi-halınız öz xalqınıza, Azərbaycan Respublikasının iqtisadi qüdrətinin və milli təhlükəsizliyinin möhkəmləndirilməsinə təmənnasız və fədakarcasına xidmətin parlaq sübutudur.

*Klaus KİNKEL*
*Almaniyanın keçmiş xarici işlər naziri*

# Heydər Əliyev Azərbaycanı beynəlxalq birliyin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmişdir

Cənab Prezident, Siz öz yorulmaz və inadlı səylərinizlə Azərbaycanı dövlətlərin beynəlxalq birliyinin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmisiniz. Sizin rəhbərliyiniz dövründə Azərbaycanın keçdiyi fərəhləndirici inkişaf yoluna, xüsusən iqtisadi sahədəki inkişafa baxıb fəxr edə bilərsiniz.





*Yuri LUJKOV*
*Moskvanın meri*

# Heydər Əliyev Azərbaycanın gələcək firavanlığının bünövrəsini qoymuşdur

Cənab Prezident, Sizi uzun illərdən bəri tanıdığıma görə, müdrik və uzaqgörən dövlət xadimi, Azərbaycanda və dünyada layiqli hörmətə və nüfuza malik respublika rəhbəri kimi yüksək keyfiyyətlərinizi bir daha dönə-dönə məmnuniyyətlə qeyd etmək istərdim.

Azərbaycan Respublikası üçün ən çətin bir vaxtda ona başçılıq edərək, son dərəcə qısa müddətdə ölkədə siyasi və iqtisadi vəziyyəti sabitləşdirə, Azərbaycanın və onun əməksevər xalqının gələcək firavanlığının möhkəm bünövrəsini qoya bilmisiniz.

***Heydər Əliyev müdrik və uzaqgörən, dünyada layiqli hörmətə və nüfuza malik dövlət xadimidir.***



*Boris QROMOV*
*Moskva vilayətinin qubernatoru*

# Heydər Əliyev mənim üçün böyük qardaş, ata, dost idi





Heydər Əliyevlə çoxdan, özü də yaxşı tanış idim. Bakıda onunla tez-tez görüşmüşəm və bu insan şəxsən mənim üçün çox əzizdir, mənim və ailəmin həyatında onun çox böyük rolu olmuşdur. Heydər Əliyeviç Sovet İttifaqında da, bu böyük ölkə dağıldıqdan sonra da bir çoxları arasında xüsusi həyat mövqeyi ilə hər cəhətdən seçilmişdir. Mən Naxçıvana onun yanına getmişdim. Heydər Əliyeviç üçün çox çətin olan həmin vaxtlarda biz hamımız onu dəstəkləyirdik. Mən şadam ki, həyatımda belə bir insanla tanış olmuşam, bu isə gəlişigözəl sözlər deyildir. Bizim oxşar cəhətlərimiz çox idi və deyə bilərəm ki, o, mənim üçün böyük qardaş, ata, dost idi. Mən öz hisslərimi ifadə etməyə söz tapmıram, biz hamımız çox kədərlənmişik, onun vəfatı əvəzsiz itkidir.

***Heydər Əliyev mənim üçün çox əzizdir, mənim və ailəmin həyatında onun çox böyük rolu olmuşdur.***

*Viktor YANUKOVİÇ*
*Ukraynanın Baş naziri*

# Fəxr edirik ki, özümüzü Heydər Əliyevin müasirləri adlandıra bilərik

***Heydər Əliyevin fəaliyyəti xalqa xidmət, milli mənafeləri ardıcıllıqla qorumaq nümunəsi idi.***

Azərbaycan tarixinin son 30 ili xalqımızın görkəmli oğlu Heydər Əlirza oğlu Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Müdrik rəhbər və çox təcrübəli siyasətçi olan Heydər Əliyev əsl vətənpərvər kimi ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni həyatının inkişafı üçün əlindən gələni edirdi. Onun şəksiz liderliyi zamanın ağır sınağından keçmişdi və istər Azərbaycanda, istərsə də bütün dünyada şübhə doğurmurdu.

Heydər Əliyevin sovet dövründə və postsovet zamanında fəaliyyəti xalqa xidmət, milli mənafeləri ardıcıllıqla qorumaq nümunəsi idi. İti analitik zəkaya və öncəgörmə qabiliyyətinə malik olan Heydər Əliyev həm ölkə daxilində, həm də xaricdə aparılan siyasi danışıqlarda etibarlı tərəfdaş nüfuzu qazanmışdı.

Azərbaycan iqtisadi potensialını artıraraq, milli-mənəvi dəyərlərini qoruyub inkişaf etdirərək, üçüncü minilliyə inamla qədəm qoymuşdur.

Biz – qardaş Azərbaycan xalqının ukraynalı dostları uğurlarınıza səmimi qəlbdən sevinərək, bunun, həlledici dərəcədə, kimin sayəsində mümkün olduğunu heç zaman unutmayacağıq. Biz fəxr edirik ki, özümüzü Heydər Əliyevin müasirləri adlandıra bilərik.

Söhbəti yazdı:
**Zeynal Ağazadə**
**AzərTAc-ın xüsusi müxbiri**



*Vladimir LİTVİN*
*Ukrayna Ali Radasının sədri*

# Heydər Əliyev miqyaslı siyasətçiləri həyata tarixin özü gətirir

***Heydər Əliyev dialoq zamanı daim özünün diplomatik nəzakəti və incə üslubu ilə adamı heyran qoyurdu.***

Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq ədalətsizlik olardı. Onun adı zəmanəmizin parlaq və sönməz səhifəsidir, onun istər Azərbaycanın, istərsə də bütün Xəzər - Orta Asiya regionunun inkişafının strateji istiqamətləri və öncül problemlərinə uzaqgörən baxışları isə gələcəyə aparır.

Şübhə yoxdur ki, Heydər Əliyev Sovet İttifaqının tarixində və postsovet məkanı ölkələrinin yeni tarixində görkəmli simadır və zənnimcə, bu fenomen öz başlanğıcını Şərq fəlsəfəsinin dərinliklərindən, eləcə də həmin fəlsəfənin daxili harmoniyasından götürür və gələcək nəsillər üçün səmt göstəricisi olaraq qalır. Güclü intellektə malik insan, müdrik və uzaqgörən dövlət xadimi, dünya miqyaslı siyasətçi olan Heydər Əliyeviç məğrur və azadlıqsevər Azərbaycan xalqının böyük mədəni-tarixi ənənəsini peşəkar tarixçi kimi həmişə özündə təcəssüm etdirmişdir. Bunu bütün müasirləri də duyurdular və zənnimcə, onun haqlı olaraq məşhur Atatürklə müqayisə edilməsi buna daha bir sübutdur.

Mən Heydər Əliyevi yaxşı tanıyırdım, onunla tez-tez ünsiyyətdə olurdum. Onunla hər bir ünsiyyətdən aldığım təəssüratlar təkrarolunmazdır. Səmimi "qeyri-protokol" görüşləri bir yana qalsın, hətta rəsmi söhbətlərin protokolu çərçivəsində də Heydər Əliyevin parlaq siyasi zəkası özünü göstərirdi, o, ictimai həyatın istisnasız olaraq bütün sahələrində ensiklopedik bilik, yüksək şəxsi mədəniyyət nümayiş etdirirdi. Müsahiblərindən özünün çox vaxt xeyli zəngin olan həyat təcrübəsi və çağdaş dövrün ümdə problemlərinə dərindən bələdliyi ilə fərqlənən Heydər Əliyeviç dialoq





zamanı daim özünün diplomatik nəzakəti və incə üslubu ilə adamı heyran qoyurdu. Onun bütün bu keyfiyyətləri ünsiyyətin məzmununa və ahənginə müsbət təsir göstərir, söhbət iştirakçılarının qarşılıqlı hörmətini və bərabərliyini aşkar nəzərə çarpdırırdı. Bu insanla görüşdüyümə görə, məhz Heydər Əliyevdən misilsiz siyasi müdriklik, milli ləyaqət, başqa xalqlara və dinlərə münasibətdə tolerantlıq dərsləri almaq imkanına görə taleyimə minnətdaram.

Heydər Əliyeviç danışanda sözlərində daim öz xalqı barədə, onun firavanlığı, sosial sabitliyi və mənəvi sağlamlığı barədə düşündüyü hiss edilirdi. Ümummilli liderin doğma xalqının tarixi ənənələrinə, Azərbaycan cəmiyyətinin mənəvi və mədəni dəyərlərinə səmimi qəlbdən hörmət bəsləməsi milli dirçəlişin kamil fəlsəfəsini - Azərbaycanın müasir dünyada layiqli yerini müəyyənləşdirən fəlsəfəni formalaşdırmağa imkan verirdi.

Prezident Heydər Əliyevin 1993-2003-cü illər ərzində ölçülüb-biçilmiş daxili və xarici siyasəti, xüsusən onun yeni neft strategiyası və qədim İpək yolunu dirçəltmək siyasəti Azərbaycanın ictimai-siyasi sabitliyinə və iqtisadi yüksəlişinə gətirib çıxarmışdır. Prezidentin demokratik islahatlar və Azərbaycan cəmiyyətinin rifahının yaxşılaşdırılması sahəsində atdığı məqsədyönlü və qətiyyətli addımlardan sonra beynəlxalq birlikdə Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan Respublikasına yüksək hörmət hissi güclənmişdir.

Heydər Əliyev istər sovet Ukraynasında, istərsə də müstəqil Ukraynada baş verən sosial-iqtisadi və milli-mədəni proseslərin xüsusiyyətlərini həssaslıqla başa düşürdü. XX əsrin 90-cı illərinin ortalarından bəri Ukrayna-Azərbaycan əməkdaşlığının yeni keyfiyyətini və səmərəli formalarını məhz həmin anlam, habelə Ukrayna xalqının öz milli dövlətçiliyinə əsrlər boyu can atmasına olan daimi hörmət müəyyənləşdirmişdir. Qeyri-müəyyən siyasi bəyanatlar deyil, məhz öncül istiqamətli iqtisadi tədbirlər - Prezident Heydər Əliyevin ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün əsaslar hazırlanmasına münasibəti məhz belə olmuşdur. Heydər Əliyevin mənəvi nüfuzu ilə təsdiq edilən bu münasibətlər, şübhəsiz, gələcəkdə də möhkəmlənəcəkdir.

***Heydər Əliyevin adı zəmanəmizin parlaq və sönməz səhifəsidir.***

Mən əminəm ki, Heydər Əliyev miqyaslı siyasətçiləri həyata tarixin özü gətirir. Əlamətdar haldır ki, Heydər Əliyevin 30 ildən artıq bir dövr ərzində apardığı dövlət siyasəti Azərbaycanın zəngin və bənzərsiz yeni tarixinin bir hissəsi olmuş, Azərbaycan xalqına tarixi nikbinlik hissini qaytarmışdır.

Ukrayna fəxr edir ki, mənəviyyat məşəlinin, siyasi fikir nəhənginin, ən yeni tarixin strateqi və qurucusunun ölkəmizə əsl səmimi münasibətini, həqiqi dostluğunu və həssas diqqətini həmişə duymuşdur və bundan sonra da duyacaqdır.

Söhbəti yazdı:
**Zeynal Ağazadə**
**AzərTAc-ın xüsusi müxbiri**

***Heydər Əliyev məğrur və azadlıqsevər Azərbaycan xalqının böyük mədəni-tarixi ənənəsini peşəkar tarixçi kimi həmişə özündə təcəssüm etdirmişdir.***



*Valentina TEREŞKOVA*
*ilk qadın kosmonavt, RF XİN yanında Rusiya Beynəlxalq Elmi və Mədəni Əməkdaşlıq Mərkəzinin rəhbəri*

# Heydər Əliyev böyük, təkrarolunmaz insan, xalqının şanlı oğlu idi

Bu böyük və təkrarolunmaz insanla şəxsən tanış idim. Heydər Əliyevin xatirəsini anmağa və bu acı, ağır itki ilə əlaqədar bütün Azərbaycan xalqına, onun doğmalarına və yaxınlarına başsağlığı verməyə gəlməyə bilməzdim. Mən, Heydər Əliyeviçi həqiqətən, çox yaxşı tanıyırdım və onun vəfatı mənim üçün də yaxın və doğma adamın itkisidir. O, böyük dövlət xadimi və öz xalqının, sözün əsl mənasında, şanlı oğlu idi, ona görə də biz Azərbaycan xalqı ilə birgə kədərlənirik.

Ölkəmizin inkişafına, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə böyük töhfə vermiş istedadlı siyasətçi, böyük dövlət xadimi, gözəl insan Heydər Əliyevin nurlu xatirəsi Rusiya xalqının qəlbində yaşayacaqdır.

***İstedadlı siyasətçi, böyük dövlət xadimi, gözəl insan Heydər Əliyevin nurlu xatirəsi Rusiya xalqının qəlbində yaşayacaqdır.***

*Ramazan ABDULATİPOV*
*Rusiya Xalqları Assambleyasının sədri*

# Heydər Əliyevin Qafqazın tarixindəki rolunu, bəlkə də, əlli ildən sonra anlamaq və dərk etmək mümkün olacaqdır





Heydər Əliyeviç, Siz qafqazlıların istedadını və mərdliyini, düşdüyü vəziyyətdən, tutduğu vəzifədən və yaşından asılı olmayaraq, həmişə özünü əsl kişi kimi aparmaq bacarığını təcəssüm etdirirsiniz.

Sizin dostlarınız və şagirdiniz çoxdur. Mən də iftixarla özümü onlardan biri hesab edirəm.

Qardaş Azərbaycan xalqını təbrik edirəm ki, Azərbaycan dövlətçiliyinin təşəkkül tapdığı çətin illərdə respublikaya başçılıq etmək Qafqazın layiqli oğullarının ən layiqlisinə nəsib olmuşdur.

Bu gün Sizin ünvanınıza çox tərif söylənəcəkdir. Başqa cür danışmağa heç düşmənlərin də dili gəlməz. Deyilənlər Sizin həyatınızın yalnız məharətlə ifadə edilən faktlarıdır. Mən xoşbəxtəm ki, Sizi təkcə şöhrətinizin zirvəsində yox, həm də başqa mərhələlərdə görmüşəm. Siz həmişə Heydər Əliyev kimi hərəkət etmisiniz. Uzaq yol heç də ancaq hamar olmur. Sizin həyatınız Qafqazın və Rusiyanın tarixini zənginləşdirmişdir. Bu tarix indi də yazılmaqdadır.

***

Heydər Əliyev tarixi şəxsiyyət, Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. Heydər Əliyev respublikaya yenidən rəhbərliyə çox ağır vaxtda qayıtdı, lakin o, siyasi müdrikliyi və dövləti idarə etmək istedadı sayəsində bir çox məsələləri həll edə bildi. Bunun nəticəsi kimi, Azərbaycanı daha böyük gələcək gözləyir. Dövlət rəhbəri ölkənin əsas inkişaf parametrlərini və strateji xəttini artıq müəyyənləşdirmişdir. İndi böyük potensialdan istifadə edərək işləmək lazımdır. Fikrimcə, ən əsası isə budur ki, Heydər Əliyevin müdrikliyi, onun siyasi istedadı elə ancaq Azərbaycana xeyir gətirmir, bütün Qafqazın sərvətinə çevrilmişdir. Bu sərvətdən hamının rifahı naminə istifadə etmək lazımdır.

Mənim üçün çox mühümdür ki, Heydər Əliyev bu çətin illərdə Azərbaycanın rəhbəri olmuşdur. Çünki Azərbaycan təkcə bütün Rusiyanın qonşusu deyil, həm də Dağıstanın yaxın qonşusu və qardaşıdır. Azərbaycan və Dağıstan xalqları bir-birinə çox bənzəyən, çox yaxın olan, demək olar ki, bir xalqdır. Hətta, elə vaxt olub ki, - məsələn, Qafqaz Albaniyası dövründə, - biz bir dövlətdə yaşamışıq. Çox təəssüf

***Azərbaycan dövlətçiliyinin təşəkkül tapdığı çətin illərdə respublikaya başçılıq etmək Qafqazın layiqli oğullarının ən layiqlisinə nəsib olmuşdur.***

ki, Heydər Əliyevin potensialından həm bütün Qafqaz, həm də ümumilikdə, bütün region üçün tam istifadə olunmamışdır.

O, elə nəhəng adamdır, onun şəxsiyyəti elə çoxşaxəli və intəhasızdır ki, bu dahi insanın Dağıstan üçün, Qafqaz üçün, Rusiya üçün kim olduğunu bu gün anlamaq və qiymətləndirmək çox çətindir. Görünür, bunu, bəlkə də, 50 ildən sonra anlamaq, dərk etmək mümkün olacaqdır.

Regionumuzda bir sıra problemlər və həll olunmamış məsələlər var. Lakin Heydər Əliyevin hakimiyyətə gəlməsi bir çox işləri nizama saldı. Hər halda, o, münaqişələrdən, iradlardan, iddialardan yüksəkdə durdu. O, sözün əsl mənasında, İnsandır, çünki insan həyatının siyasi nəticələrdən qiymətli olduğunu başqalarından daha yaxşı bilir. Hesab edirəm ki, onun böyük müdrikliyi sayəsində qan tökülməsinə son qoyulmuşdur. O, aqil insan kimi bir vaxtlar bunu hamının başa düşəcəyinə, bütün problemlərin ədalətlə həll olunacağına inam bəsləyir. Belə nəhəng lider yalnız təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarlara da lazımdır.

***Heydər Əliyev sözün əsl mənasında, İnsandır, çünki insan həyatının siyasi nəticələrdən qiymətli olduğunu başqalarından daha yaxşı bilir.***



*İhsan DOĞRAMACI*

***Bilkənd Universitetinin qurucusu, professor, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri***

# Heydər Əliyev fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük şəxsiyyətdir



Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

O, fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük bir şəxsiyyətdir. Ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır.

***

Mən həyatımda çox böyük mükafatlar almışam. Amma Heydər Əliyevlə dostuğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz.

Siz həm təcrübəli, həm də orijinal adamsınız. Sizin sağlığınız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

***Heydər Əliyevlə dostuğumu özüm üçün ən böyük mükafat hesab edirəm.***



*Mstislav ROSTROPOVİÇ*
*zəmanəmizin böyük musiqiçisi*

# Heydər Əliyev bütün düyünləri açmağa qadir olan şəxsiyyətdir



Məhz sevimli dostum Prezident Heydər Əliyevin sayəsində mən buraya öz evimə gələn kimi gəlmişəm. Mən bunu öz xidmətim adlandıra bilmərəm. Lakin Siz mənim üçün məhz belə etdiniz. Xoşbəxtəm ki, Siz məni buraya bir dost kimi, azərbaycanlı kimi, öz evinə gələn insan kimi qaytardınız.

Mənim ailəm Azərbaycanı çox sevir. Məndən fərqli olaraq, Qalina Pavlovna Vişnevskaya çox az adamı sevir, bunu mənim ailəm də deyə bilər. Lakin deməliyəm ki, Heydər Əliyeviç onun qəhrəmanıdır. Buna görə də xoşbəxtəm ki, biz bir nəsildənik.

Ulu Tanrı Azərbaycan xalqının taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün düyünləri açmağa qadir olan böyük şəxsiyyət qismət etmişdir.

***

Sizə çox sağ ol deyirəm ki, olduqca böyük bir iş görürsünüz – xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız, elə bir insan ki, müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır.

***Ulu Tanrı Azərbaycan xalqının taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün düyünləri açmağa qadir olan böyük şəxsiyyət qismət etmişdir.***





*Çingiz AYTMATOV*
*məşhur qırğız yazıçısı,*
*Qırğızıstanın Belçikadakı səfiri*

# Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir



Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir.

Bütün bu həqiqətlər qloballaşan bazar iqtisadiyyatı şəraitindəki dünyanın gözü önündə cərəyan edir. Müstəqillik dövründə qarşılaşdığı çox böyük çətinliklərə, problemlərə baxmayaraq, Azərbaycan həm bölgədə, həm də dünyada layiqli, demokratik yerini tutmuşdur.

Bu məsələdə isə həlledici rol, tarixi missiya Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin öhdəsinə düşür. Çünki, o, müasir dövrün siyasi liderləri arasında böyük ehtiyac duyulan bir şəxsiyyətdir.

Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir.

Söhbəti yazdı:
**Tural Rzayev**
**AzərTAc -ın xüsusi müxbiri**

*Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir.*



*Viktor SADOVNİÇİ*
*Moskva Dövlət Universitetinin rektoru*

# Heydər Əliyevin dəstəyi olmasaydı, yəqin ki, Moskva Universiteti bugünkü kimi olmazdı

Heydər Əliyeviçin Moskva Universitetinə vətəndaş məsuliyyəti ilə göstərdiyi dəstəklə bağlı az məlum olan bir hadisəni xatırlamaq istərdim. İttifaqın rəhbərlərindən biri, Siyasi Büronun üzvü olan Heydər Əliyev Moskva Universitetinə də kuratorluq edirdi. O zaman onun dəstəyi olmasaydı, yəqin ki, universitet bu gün gördüyünüz kimi olmazdı. Elmimiz, təhsilimiz də çətin ki, belə yaxşı səviyyəyə qalxardı. Hələ bu bir yana. O, Azərbaycan alimlərinin bu universitetdə təhsil almalarına imkan yaratdı. Heydər Əliyevin o dövrkü fəaliyyəti xalqlarımızın mədəniyyətinin inkişafında çox böyük rol oynamışdır.



*Heydər Əliyevin o dövrkü fəaliyyəti xalqlarımızın mədəniyyətinin inkişafında çox böyük rol oynamışdır.*

*Oljas SÜLEYMENOV*
*görkəmli qazax yazıçısı, Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi*

# 1980-ci illərin axırları – 1990-cı illərin əvvəlində Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycanın başı bəlalar çəkməzdi



## USTAD HAQQINDA SÖZ

Ərəb dilindəki öyrədən, tədris edən şəxs mənasındakı "müəllim" sözü qazax dilində də işlədilir. Bununla yanaşı, mənim ana dilimdə bu sözün sinonimi olan "ustaz" sözü də var, mənşəcə ümumtürk "usta" sözündən gələn bu kəlmənin mənası "mütəxəssis", "öz işinin bilicisi"dir.

Mən həyatda çox şey öyrənmişəm və neçə-neçə ləyaqətli, yüksək hörmət-izzətə layiq insanlara ehtiramla "müəllim" demişəm. Amma onlardan yalnız bir neçəsini "ustaz", həyat müəllimi bilmişəm.

1970-80-ci illərdə Heydər Əliyev SSRİ respublikalarının ən məşhur rəhbərlərindən biri idi. 1980-ci ilin əvvəllərində SSRİ-nin hər yerindən idman şərhçilərini Moskvaya çağırmışdılar ki, onların arasından ən hazırlıqlılarını seçsinlər. Onlar həmin ilin yayında keçiriləcək yay Olimpiya oyunlarının gedişini işıqlandırmalı idilər. Testlərdən biri belə idi ki, respublikalardan birinin adı çəkiləndə dərhal, bədahətən



> *1970-80-ci illərdə Heydər Əliyev SSRİ respublika-larının ən məşhur rəhbər-lərindən biri idi.*

mümkün qədər çox ad (fərqi yoxdur, idmançı, yazıçı, yaxud alim olsun) sadalamaq, ilk öncə isə, bu respublikanın partiya rəhbərinin adını çəkmək lazım idi. Çoxları məhz bu sınaqda "büdrədi". Moldova... Türkmənistan... Litva... Latviya... Estoniya... Ermənistan... Qırğızıstan... Tacikistan... Belarus... Buna baxmayaraq, hətta ən kəmsavadlar da bilirdilər ki, Şerbitski Ukraynanın, Kunayev Qazaxıstanın, Əliyev Azərbaycanın, Şevardnadze Gürcüstanın, Rəşidov Özbəkistanın rəhbərləridir. Rəhbərlərin məşhurluğu təkcə respublikanın iqtisadi və siyasi sanbalı ilə deyil, həm də liderin şəxsiyyəti ilə izah edilirdi.

Əgər belə bir sorğu indi də keçirilsə, Əliyevin soyadı bütün cavablarda yenidən çəkilər. Halbuki indi, nəinki başqa bir zəmanədir, həm də başqa bir dövrdür. Elə bir dövr ki, özünün yüksək ad-sanını, nüfuzunu qoruyub-saxlamaq heç də hamıya müyəssər olmayıbdır.

... Sovet elmində türkdilli xalqlara cüzi bir tarixi rol ayrılırdı. Bu ənənənin bünövrəsi çar Rusiyası dövründə qoyulmuşdu. O Rusiyada ki, on illər boyu Türkiyə ilə müharibələr aparmışdı və onu da unutmurdu ki, Rusiyanı XIII əsrdən XVI əsrədək idarə etmiş Qızıl Orda da türk imperatorluğu idi. Tarixçi alimlər və dilçilər yeni nəsilləri türk mədəniyyətinin slavyan mədəniyyətinə guya heç bir təsir göstərmədiyinə inandırmaq üçün türklərin töhfəsini açıq-aşkar qulaqardına vurur, onun üstündən sükutla keçirdilər.

SSRİ-nin ən savadlı siyasətçiləri başa düşürdülər ki, Şimali Avrasiyanın taleyini həmişə slavyan və türk superetnoslarının qarşılıqlı münasibətləri müəyyənləşdirib və gələcəkdə də müəyyənləşdirəcəkdir. Odur ki, bir-birindən qarşılıqlı surətdə asılı olan bu iki etnosdan hər hansı birinin əhəmiyyətini elmi bəhanələrlə kiçiltmək cəhdləri digərinə və ümumən, tarixi prosesin nəticələrinə mənfi təsir göstərəcəkdir.

Azərbaycan, Qazaxıstan, Özbəkistan rəhbərləri slavyan və türk amillərinin təbii tarazlığını saxlamağa çalışır və başa düşürdülər ki, həmin tarazlıq pozulsa, bu, türk xalqlarının xeyrinə olmayacaqdır. Elə slavyan xalqlarının özlərinin də. Hələ onda belə bir inam yaranırdı ki, biz tarixən bir-birimizdən qarşılıqlı surətdə asılıyıq. Ona görə də bu müddəanı milli ideyanın mühüm dayaq nöqtəsi kimi dərk etmək vacibdir. O ideyanın təşəkkülünə və inkişaf etdirilməsinə isə yeni



formasiyanın alim və yazıçıları kömək edə bilərdilər. Deyə bilərəm ki, əgər biz nəyəsə nail olurduqsa, bu, daha çox respublikalarımızın siyasi rəhbərliyinin dəstəyi və həyanlığı sayəsində mümkün olurdu.

... Sovet İttifaqı binasının Qorbaçovsayağı yenidən qurulması dövlətin süqutu ilə nəticələndi. Yenidənqurmaya layihəsiz-filansız başladılar, təcrübəli qurucuları sıxışdırıb aradan çıxardılar, kütlənin ruh yüksəkliyinə və siyasi improvizasiyaya bel bağladılar. İndi, başımız daşdan-daşa dəyəndən sonra, inamla deyirik ki, həsrətində olduğumuz müstəqilliyə qovuşmaq kimi müqəddəs iş yeni dövlətlərin rəhbərlərindən çox yüksək peşəkarlıq tələb edirdi: belə bir taleyüklü məqamda gərək hakimiyyət boşluğunun yaranmasına yol verilməsin. SSRİ-nin "yenidənqurma eşqinə düşən" rəhbərliyi peşəkarları vəzifədən uzaqlaşdıraraq, yeni dövlətlərin müqəddəratını naşıların və kütlənin öhdəsinə buraxmaqla xalqları separatçılıq, vətəndaş müharibələri və etnik təmizləmələr faciəsinə düçar etdilər. Tacikistan, Özbəkistan, Qırğızıstan, Moldova, Gürcüstan, Azərbaycan, Çeçenistan... Yüz minlərlə insan öldürüldü, milyonlarla adam vətənindən didərgin salındı.

> *1993-cü ilin iyun ayında bir neçə gündən sonra xalq Heydər Əliyevi çağırmasaydı, ölkə daha çox insan və ərazi itirərdi.*

Mən əminəm ki, əgər 1980-cı illərin axırları –1990-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycana rəhbərliyi davam etdirsəydi, Ermənistan-Azərbaycan münaqişəsinə yol verməzdi. 1990-cı ilin yanvarında general Varennikovun tankları Bakıya yeridilməzdi. Qarabağ itirilməzdi.

...1993-cü il iyunun 1-də, Uşaqları müdafiə günü mən Bakıya humanitar yardım – 40 ton uşaq yeməyi gətirdim. Biz İl-76 yük təyyarəsinin üzərində "Uşaqların günahı yoxdur!" sözləri yazmışdıq. Mən nəzarət edirdim ki, uşaq yeməklərinin hamısı təyinat yerlərinə - uşaq xəstəxanalarına, uşaq evlərinə çatdırılsın.

Əminəm ki, əgər elə həmin 1993-cü ilin iyun ayında bir neçə gündən sonra xalq Heydər Əliyevi çağırmasaydı, ölkə daha çox insan və ərazi itirərdi. O vaxtlar BMT-nin və Qərbin hər şeyə qadir demokratik dövlətlərinin tam səhlənkarlığı üzündən Tacikistanda da qırğınlar törədilir, Yuqoslaviya, Gürcüstan, Moldova... qan-qadalarla parçalanırdı.

Heydər Əliyev müharibəni dayandırdı. Ötən on ildə regionun irili-xırdalı bütün qonşu ölkələri, Qərbin də, Şərqin

də böyük dövlətləri ilə münasibətlərin normallaşdırılması üçün çox işlər gördü.

İtirilənlərin hamısının dincliklə, sülh yolu ilə tədricən qaytarılacağına inam yarandı. O, sübut etdi ki, çağdaş və gələcək dünyamızda siyasi məharət hərbi məharətdən daha səmərəli ola bilər.

Vaxt gələcək, Şumer dövründən tutmuş zəmanəmizədək türklərin tarixi – böyük hadisələrə və Bilgamıs ("Müdrik qəhrəman"), Bilgə xaqan ("Müdrik xaqan"), İltəriş ("Torpaqları birləşdirən"), Atatürk... kimi dahi adlara söykənən tarixi yazılacaqdır.

Bizim zəmanəmiz Ustad titullu layiqli adlarla təmsil ediləcəkdir.

Heydər Əlirza oğlu Əliyev belə Ustadların ən birincilərindəndir.

***

*1990-cı ildə Heydər Əliyev Bakıda olsaydı, Qara yanvar olmazdı.*

Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda, 1990-cı ildə Siz burada olsaydınız, həmin o Qara yanvar olmazdı.

Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir. Peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər.

Çünki belə imkan xalqlara bəlkə də, min ildə bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında, azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, Sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarət idi.



*Georgi ŞOKİN*
*Ukrayna Beynəlxalq Kadr Akademiyasının prezidenti*

# Heydər Əliyev ən böyük beynəlxalq mükafata layiqdir



Çox hörmətli Heydər Əliyeviç, Beynəlxalq Kadr Akademiyasının rəyasət heyəti 1998-ci il fevralın 25-də keçirilən və dünyanın müxtəlif ölkələrinin 15 nümayəndəsinin iştirak etdiyi geniş iclası demokratik humanitar siyasət apardığınıza görə, xalq təhsilinə, bu sahədə beynəlxalq əməkdaşlığa şəxsi töhfənizə görə Sizi "Elm və təhsilin inkişafına görə" ordeni ilə təltif etmək haqqında yekdilliklə qərar qəbul etmişdir.

Hələ 1969-cu ildə, yəni 29 il əvvəl Siz Azərbaycana rəhbərlik etməyə başlayaraq, ilk 50 gənci ali təhsil almaq üçün respublikadan kənara göndərərkən nümayiş etdirdiyiniz siyasi müdrikliyə və dövlətçilik təfəkkürünün vüsətinə Akademiyanın bir çox üzvləri heyran qalmışdılar. Lakin aradan çox az vaxt keçdikdən sonra o dövrün ən yaxşı ali məktəblərinə artıq hər il 800-900 gənc azərbaycanlı göndərilirdi. Həqiqətən, Siz milli zəmində prinsipcə yeni beynəlxalq universitet təşkil etməyə müvəffəq oldunuz, yəni Azərbaycan əlavə olaraq daha bir ali məktəbə - Avrasiya regionunun ən yaxşı ənənələrini özündə təcəssüm etdirən məktəbə layiq oldu.

Əlbəttə, Siz ən yüksək beynəlxalq mükafatlara layiqsiniz və mən qəti əminəm ki, bizim orden bu mükafatlardan yalnız biri olacaqdır. Beynəlxalq Kadr Akademiyasının rəyasət heyəti adından Akademiyanın yüksək mükafatını Sizə məmnuniyyətlə təqdim etmək istəyirik.

***Heydər Əliyevin nümayiş etdirdiyi siyasi müdrikliyə və dövlətçilik təfəkkürünün vüsətinə Akademiyanın bir çox üzvləri heyran qalmışdılar.***



*Boris OLEYNİK*

*məşhur Ukrayna yazıçısı, xalq deputatı, ölkə parlamentinin AŞPA-dakı nümayəndə heyətinin başçısı*

# Heydər Əliyev Azərbaycan millətinin atası, dünya siyasətinin patriarxıdır



Azərbaycanın milli lideri, böyük siyasətçi, hamının görkəmli dövlət xadimi kimi tanıdığı Prezident Heydər Əliyev ilə mən də şəxsən tanışam. Əlbəttə ki, o, dünya siyasətinin patriarxıdır. Onun doğma xalqı üçün, öz ölkəsi üçün nə qədər böyük işlər gördüyü hamıya məlumdur. O, həqiqətən, millətin Atasıdır.

Mən AŞPA-da birlikdə çalışdığım İlham Əliyevin həyat və fəaliyyətindən bəhs edən "O, böyük siyasətə hazırdır" kitabının mayın 12-də Kiyevdə keçirilən təqdimat mərasimində məmnuniyyətlə iştirak etmişəm.

İlham Əliyev Azərbaycanın milli mənafelərinin AŞPA-da qorunmasında öz fəal və qəti mövqeyi ilə fərqlənir. O, yüksək səviyyədə danışıqlar aparmaq məharətinə, geniş biliyə və mədəniyyətə malikdir. Mən onun haqqında yazılmış kitabla böyük məmnuniyyətlə tanış oldum. Axı, bu kitab mənim ana dilimə də tərcümə edilmiş və Ukrayna oxucusu tərəfindən rəğbətlə qarşılanmışdır. Ukrayna parlamentinin AŞPA-dakı nümayəndə heyəti başçısının müavini, Ali Radanın Azərbaycanla parlamentlərarası əməkdaşlıq qrupunun rəhbəri Anatoli Raxanski İlham Əliyevi Avropa miqyaslı yeni nəsil siyasətçisi adlandırmışdır. Mən onun bu fikri ilə tamamilə razıyam.

Müstəqil Azərbaycana, Azərbaycan xalqına hər cür uğurlar arzulayıram.

***Heydər Əliyev doğma xalqı üçün, öz ölkəsi üçün nə qədər böyük işlər gördüyü hamıya məlumdur.***



*Sergey BABURİN*

***Rusiya Dövlət Ticarət-İqtisadiyyat Universitetinin rektoru***

# Heydər Əliyev hər bir millətin şərəfi ola bilərdi

Siyasi fəaliyyətim dövründə müxtəlif siyasətçilərlə görüşmüşəm. Onların arasında çoxlu tanınmış və görkəmli şəxslər də olmuşdur. Lakin, mübaliğəsiz deyə bilərəm ki, Heydər Əlirza oğlu Əliyev, sözün həqiqi mənasında, ən parlaq və müdrik siyasətçi idi. Mən əminəm, Heydər Əliyev sovet rəhbərliyində o qədər prinsipial sima idi ki, onun Sovet İttifaqı rəhbərliyindən kənarlaşdırılması SSRİ-nin dağılmasının əsas səbəblərindən biri oldu.

O, sonralar yenidən böyük siyasətə qayıdanda onunla artıq Azərbaycanın Prezidenti kimi görüşdük və mən əmin oldum ki, o, hər bir millətin şərəfi ola biləcək bir insandır.



***Heydər Əliyev keçmiş Sovet İttifaqı məkanında bütün prezidentlər arasında ən müdrik rəhbərdir.***

Əminəm ki, biz onun həm Azərbaycanın inkişafına verdiyi töhfəni, həm də Sovet İttifaqında gördüyü bütün diqqətəlayiq işlərin əhəmiyyətini tam dolğunluğu ilə yalnız gələcəkdə qiymətləndirə biləcəyik.

Mən Heydər Əliyevlə 1990-cı illərdə, Rusiya parlamentinin nümayəndəsi kimi Azərbaycanda olanda da, habelə Moskvada da görüşmüşəm. Çoxları hesab edir ki, Azərbaycan Rusiyadan uzaqlaşıb, Qərbə üz tutmuşdur. Sizi inandırıram ki, bu, elə deyildir. Biz Heydər Əliyevlə bu mövzuda çox söhbət etmişik və mübaliğəsiz deyə bilərəm ki, keçmiş Sovet İttifaqı məkanında bütün prezidentlər arasında o, ən müdrik rəhbərdir. Rusiyaya münasibətdə atdığı bəzi addımlar isə məcburi tədbir kimi Rusiyanın o vaxtkı rəhbərliyinin əməlləri ilə bağlı olmuşdur. Respublikanı qoruyub saxlaması, vətəndaş müharibəsi girdabında məhv olmağa qoymaması onun böyük xidmətidir. Bir sözlə, o, yüksək səviyyəli siyasətçi idi. Axı, hər şey müqayisədə bilinir. Məsələn, M.Qorbaçovla müqayisədə, Heydər Əliyev böyük şəxsiyyətdir, Qorbaçov isə hakimiyyət piramidasının zirvəsində xeyli dərəcədə təsadüfi adam idi.

Azərbaycanın indiki rəhbərliyinə Heydər Əlirza oğlu Əliyevin siyasətini davam etdirərək, öz respublikasında sülhü və ölkəsinin ərazi bütövlüyünü təmin etməyi səmimi qəlbdən arzulayıram. Rusiya Federasiyası ilə əməkdaşlığın möhkəmlənməsini istəyirəm, çünki Rusiya indi dəyişmişdir, o, artıq 10 il bundan əvvəlki ölkə deyildir. Bu gün qapılarımız qarşılıqlı dostluq, qardaşlıq və tərəfdaşlıq üçün açıqdır.

Söhbəti yazdı:
**Asya Hacızadə**
AzərTAc-ın xüsusi müxbiri



*Nikas SAFRONOV*
*məşhur rəssam, Rusiya Rəssamlıq Akademiyasının professoru*

# Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur, belə insanlar dünyanın ləl-cəvahiridir



Nə gizlədim, mən Heydər Əliyevi yaxından tanıyana qədər, ona münasibətim keçmiş SSRİ-nin digər rəhbərlərindən fərqlənmirdi. Buna da səbəb vəziyyəti obyektiv işıqlandırmayan, Heydər Əliyev kimi şəxsiyyətə obyektiv yanaşmayan informasiya vasitələri idi. Kiminsə haqqında nahaqdan mənfi təsəvvür yaradılması adama ağır gəlir. Vaxtilə Rusiyada KİV-lər Azərbaycan barəsində, xüsusən də Heydər Əliyev barəsində istər-istəməz qeyri-obyektiv rəy yaradırdılar.

Lakin onunla tanış olduğum və portretini çəkməyə başladığım andan hər şey dəyişdi. Bu insanla görüşümün elə ilk anları mənim üçün gözlənilməz oldu. Dərk etdim ki, Heydər Əliyev gözəl, alicənab və çox ağıllı bir insandır. Gördüm ki, qarşımda olduqca valehedici, son dərəcə ziyalı və müdrik bir insan dayanıb. Ünsiyyət zamanı onun səmimi və sadə bir insan olduğunu anladım, onun səndən yüksəkdə durduğu hiss olunmur. Başa düşürsən ki, qarşındakı nəhəng bir şəxsiyyətdir, amma bu, səni kiçiltmir və söhbət öz adi məcrasında, səmimilik, mehribanlıq şəraitində gedir. Mən ona dərin rəğbət bəsləyirəm və həmişə ona baxarkən düşünürəm ki, görəsən, Tanrı belə insanları necə yaradır? Lakin Naxçıvana, Prezidentin vətəninə getdikdən, oranın füsunkar təbiətini, gözəlliyini gördükdən sonra bunların necə bir qüvvə olduğunu başa düşdüm. Başa düşdüm ki, Naxçıvan hər bir sərkərdənin, hər bir dahi insanın güc, qüvvət ala biləcəyi bir yerdir.

Bu dahi insan, güclü, böyük siyasətçi nəinki öz ölkəsinin görkəmli xadimidir, həm də tarixi şəxsiyyətdir. Hesab edirəm ki, onun haqqında insafsızcasına az danışırlar. Mən istər Qərb, istərsə də MDB ölkələrinin bir çox prezidentləri ilə görüşmüşəm, amma heç vaxt belə müdrik siyasətçiyə rast gəlməmişəm, onlardan heç biri mənə belə güclü təsir bağışlamayıb. Heydər Əliyev onunla, hətta bircə dəfə görüşənlərdə də olduqca dərin, insanın bütün ömrü boyu unutmadığı təəssürat doğurur.

Heydər Əliyev gözəl, parlaq və qeyri-adi bir insandır. Bu insan tarixdir. Mən demişdim ki, belə insan 100 ildə bir dəfə dünyaya gəlir, amma sonra gördüm ki, səhv edirəm, belə insan min ildə bir dəfə doğulur. Belə insanlar dünyanın ləl-cəvahiridir, onları qorumaq, hifz etmək gərəkdir, çünki onlar bütün varlığını, həyatını əmin-amanlığın, səadətin bərqərar

*Heydər Əliyevlə ünsiyyət zamanı başa düşürsən ki, qarşındakı nəhəng bir şəxsiyyətdir, amma bu, səni kiçiltmir və söhbət öz adi məcrasında, səmimilik, mehribanlıq şəraitində gedir.*



olmasına həsr edir, özlərini isə düşünmür, qorumurlar.

Heydər Əliyevlə tanış olmaq mənim üçün böyük şərəfdir. Onun portretini çəkmək barədə sifarişi yerinə yetirdikdən sonra mən çox portretlər yaratmışam. Elə bu yaxınlarda Corc Buşun portretini çəkdim. Ümumiyyətlə, mən dünyanın məşhur adamlarının bir çoxu ilə tanışam. Amma onlardan heç biri üçün qəlbimdə daha layiqli və daha məhrəm yer saxlamamışam. Mənim öz prezidentim var və ona dərin hörmət bəsləyirəm, bununla belə, qəlbimdə Heydər Əliyevin xüsusi yeri var. Onunla bütün söhbətlər yaddaqalandır və bu söhbətləri araşdırdıqda onların nə qədər dəqiq, aydın, lakonik və dərin olduğunu başa düşürsən. Hesab edirəm ki, həyatda mənim bəxtim yaman gətirmişdir... Güclü siyasi sima olaraq Heydər Əliyevin qüdrətini həm onun qədir-qiymətini bilən, onunla fəxr edən insanlar, həm də düşmənləri, bədxahları etiraf edirlər.

Ümumiyyətlə, mənim üçün yeni dünya, yeni ülvi duyğular açdığına, yeni yaradıcılıq ilhamı verdiyinə görə Azərbaycana minnətdaram. Heydər Əliyev Azərbaycan



demәkdir. Heydәr Әliyevlә Azәrbaycan bir-birindәn ayrılmazdır, canbir qәlbdir. Mәn özümü azәrbaycanlı bilirәm, mәn sizin oğlunuzam, Azәrbaycanı öz ölkәm hesab edirәm vә heç kimә imkan vermirәm ki, sevimli Azәrbaycanım haqqında artıq-әksik danışsın.

Heydәr Әliyev dahi bir insandır vә onu fәrqlәndirәn әsas keyfiyyәt yenilmәz iradәsidir, bu iradәnin gücünә isә hәtta düşmәnlәr dә pәrәstiş edirlәr.

Söhbәti yazdı:
**Asya Hacızadә**
**AzәrTAc-ın xüsusi müxbiri**

***

Mәn çox xoşbәxtәm ki, dahi şәxsiyyәtin ömür-gün yoldaşı mәrhum Zәrifә xanım Әliyevanın portretini Prezident Heydәr Әliyevә tәqdim edirәm. Cәnab Prezident, Zәrifә xanımın sifәtinin cizgilәrindәn görünür ki, Sizin birgә ömür sürdüyünüz illәr әrzindә onun siması get-gedә daha gözәl vә daha nәcib olmuşdur. Әvvәla, gözlәri olduqca gözәldir. Mәn onları bir qәdәr kәdәrli, onun özünü isә hamının qeydinә qalan bir mәlәk kimi tәsvir etmişәm. Ümumiyyәtlә, Sizin ailәnizdә çox nüfuzlu vә xalqına bağlı şәxsiyyәtlәr yetişmişdir. Xalq Heydәr Әliyevi vәzifә sahibi olan bir şәxs kimi deyil, ürәkdәn sevib bağlı olduğu bir insan kimi qәbul edir.

***

Әgәr cәnab Heydәr Әliyev İncәsәnәt Akademiyasında dәrs desәydi, mәn gәlib onun tәlәbәsi olardım. O, incәsәnәtdәn, hәqiqәtәn, elә incәliklә baş çıxarır ki, mәn cәnab Prezidentin tәsviri sәnәt sahәsindә biliklәrinә heyran oldum. Onun incәsәnәtin incәliklәrini bilmәsi mәni hәmişә heyran etmişdi vә edir.

Heydәr Әliyevin portretini mәn birnәfәsә çәkdim. Mәn bu şәxsiyyәtin, bu görkәmli siyasi xadimin portretini çox asanlıqla çәkdim vә bu әsәri yaratmaq mәnә çox xoş idi. Belә insan çox böyük yaxşılığa qadirdir, onu özündә tәcәssüm etdirmәyә vә çox adama vermәyә qadirdir. Heydәr Әliyeviçlә hәr bir görüş mәnim üçün hәqiqәtәn böyük şәrәfdir. Bu görüşlәr mәnә olduqca böyük ilham verir.

*Güclü siyasi sima olaraq Heydәr Әliyevin qüdrәtini hәm onun qәdir-qiymәtini bilәn, onunla fәxr edәn insanlar, hәm dә düşmәnlәri, bәdxahları etiraf edirlәr.*



*Yevgeni PRİMAKOV*
*Rusiya Ticarәt-Sәnaye Palatasının sәdri*

# Heydәr Әliyev sübut etdi ki, öz xalqını sevәn, xalqının naminә yaşayan insanlar var



Heydər Əliyeviçin valideynləri heç ağıllarına da gətirməzdilər ki, o, necə uca zirvələr fəth edəcəkdir. Mən onun ömür-gün yoldaşı Zərifə Əzizovnanı xatırlamaq istəyirəm. O, bütün ömrünü ona, övladlarına, ailəsinə həsr etmişdi. Heydər Əliyeviç sübut etdi ki, öz xalqını sevən, dəyişə bilən və hər hansı quruluşda, hər hansı cəmiyyətdə dəyişə bilən, öz sosial statusundan asılı olmayaraq, bu xalqın naminə yaşayan insanlar var. Bir şeyi yadda saxlamaq lazımdır - belə insanlar bütün varlığını xalqa xidmətə həsr edirlər. Heydər Əliyev də məhz belə bir insandır. Mən onun hamını öz yüksək intellekti ilə necə valeh etməsinə heyranam. Mən burada, hamının yanında bir daha demək istərdim ki, Heydər Əliyeviçin qarşısında baş əyirəm, ona böyük hörmətim var, onunla görüşmək mənim üçün həmişə böyük hadisədir.

***Heydər Əliyevin hamını öz yüksək intellekti ilə necə valeh etməsinə heyranam.***





*Mariya ORLİK*
*Ümumukrayna Qadınlar İttifaqının sədri*

# Heydər Əliyev cəsarətli rəhbər və xalqının haqq işi uğrunda ardıcıl mübarizdir



Mən Heydər Əlirza oğlu Əliyevi Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, öz respublikasının müdrik rəhbəri və istedadlı natiq kimi çoxdan tanıyırdım. Onu saatlarla dinləmək olardı. Heydər Əliyevin beynəlxalq həyatın və ölkənin daxili siyasətinin ən mürəkkəb problemlərini elmi cəhətdən əsaslandırılmış və eyni zamanda, sadə, anlaşıqlı dildə ifadə etmək bacarığı məni həmişə heyran edirdi.

Mən bu qeyri-adi insanla ilk dəfə 1979-cu ilin oktyabrında görüşdüm. O zaman, bir il əvvəl Ukrayna SSR-də keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti günlərinə cavab olaraq, oktyabrın 2-də Bakı hava limanına Dnepr-Slavutiç sahillərindən Xəzər sahillərinə 400-ə yaxın qonaq gətirən iki təyyarə endi. Dostlar çox mehribanlıqla görüşdülər və Ukrayna nümayəndə heyətinin gəlişi ilə əlaqədar elə oradaca mitinq keçirildi.

Elə həmin gün Azərbaycan Kommunist Partiyası MK-nın Büro üzvləri və üzvlüyə namizədlərinin Ukrayna nümayəndə heyəti ilə görüşü oldu. Görüşü Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev aparırdı. O, qonaqları ürəkdən salamlayaraq, bir il əvvəl Ukrayna torpağında keçirilmiş və respublikalarımızın xalqlarının dostluğunun və qardaşlığının böyük bayramına çevrilmiş Azərbaycan mədəniyyəti günlərinə görə təşəkkürünü bildirdi. Heydər Əliyev Azərbaycanın iqtisadiyyat, mədəniyyət sahələrində və sosial sahədə qazandığı uğurlardan danışdı. Hər iki respublikanın mədəniyyət xadimləri də çıxış etdilər. Görüş səmimilik şəraitində keçdi, yaddaşımıza həkk olundu...

Tədbirin sonuncu günü böyük dostluq konserti oldu və belə gözəl bayramın başa çatması münasibətilə böyük ziyafət verildi.

Mən yenə də Heydər Əlirza oğlu Əliyevə heyranlıqla baxırdım. O, MK-dakı görüşdə dediklərini təkrarlamadan yeni sözlər, ifadələr, misallar, dəlillər tapır, hərdən də zarafat edirdi ki, bu görüş hamıda unudulmaz təəssürat buraxsın.

Azərbaycanda keçirdiyimiz günlərdə Ukrayna mədəniyyəti nümayəndələrinə gözəl şərait yaradıldığını da xatırlayırıq. Biz ölkə rəhbərinin diqqətcil qardaşlıq baxışlarını hər yerdə duyurduq.

1979-cu ildən sonra mən Heydər Əlirza oğlu ilə bir neçə dəfə Moskvada, o, SSRİ Nazirlər Soveti sədrinin birinci

***Heydər Əliyevin beynəlxalq həyatın və ölkənin daxili siyasətinin ən mürəkkəb problemlərini elmi cəhətdən əsaslandırılmış və eyni zamanda, sadə, anlaşıqlı dildə ifadə etmək bacarığı məni həmişə heyran edirdi.***



müavini işləyərkən görüşdüm. O vaxt iqtisadi məsələləri, kadr, maliyyə, tikinti məsələlərini və bir çox digər məsələləri Moskvada həll etmək heç də asan deyildi. Çünki hakimiyyətin mərkəzləşdirilməsi son həddə çatmışdı. Mədəniyyət sahəsi xüsusilə ağır vəziyyətdə idi. Ukrayna Nazirlər Soveti sədrinin müavini kimi bu sahəyə mən baxırdım. Heydər Əlirza oğlu ilə tanışlığım bunda da mənə öz köməyini göstərdi. Bakıda keçirilən görüşlərimizi o da xatırlayırdı...

Nəhayət, budur, 2001-ci ilin sentyabrında tale mənə Heydər Əlirza oğlu ilə yenidən görüşmək səadəti bəxş etdi. GUÖAM çərçivəsində aktual məsələləri müzakirə etmək üçün bu birliyin qadınlardan ibarət nümayəndə heyətlərinin birinci görüşü keçirildi.

Azərbaycan Respublikasının Prezidenti bizi, beş nümayəndə heyətinin bütün üzvlərini öz iqamətgahında qəbul etdi. Yeri gəlmişkən, bu ad ona çox yaraşır. Onunla yeni görüşüm mənə yenə də böyük təəssürat bağışladı. Heydər Əliyevin fenomenal yaddaşı, tükənməz natiqlik istedadı, MDB ölkələrində baş verən bütün dəyişikliklərdən, bu ölkələrdə islahat proseslərindən xəbərdar olması məni heyrətə gətirdi.

Heydər Əliyev GUÖAM birliyinə daxil olan ölkələr arasında əməkdaşlıq problemlərini dərindən təhlil etdi. Xüsusi vurğulandı ki, bu birliyin üzvü olan ölkələrin qarşılıqlı fəaliyyəti iqtisadiyyatda hərtərəfli əməkdaşlığın möhkəmləndirilməsində, münaqişələrin sülh yolu ilə nizama salınmasında, ümumi marağa, təcavüzkar separatizm, etnik dözümsüzlük, dini ekstremizm və beynəlxalq terrorizmlə mübarizədə ümumi səylərə əsaslanır.

Heydər Əliyev qeyd etdi ki, GUÖAM birliyi müxtəlif millətlərə, dinlərə mənsub olan ölkələrin və insanların ümumi işi necə uğurla həyata keçirdiyini bütün dünyaya nümayiş etdirir.

Azərbaycan xalqının lideri müstəqil ölkəsinin daxilində baş verən dəyişikliklərdən, onun nailiyyətlərindən və nöqsanlardan da söhbət açdı.

Qonşu dövlətlə münaqişədən, Dağlıq Qarabağ problemindən, on ilə yaxındır ki, çadır şəraitində yaşayan qaçqınların problemlərindən xüsusi ürək ağrısı ilə danışdı.

Bəli, o, həqiqətən, cəsarətli rəhbər və xalqının haqq işi uğrunda ardıcıl mübarizdir.

***Heydər Əliyevin fenomenal yaddaşı, tükənməz natiqlik istedadı, MDB ölkələrində baş verən bütün dəyişikliklərdən, bu ölkələrdə islahat proseslərindən xəbərdar olması məni heyrətə gətirdi.***

*İrina QOLUBEVA*
*Ukrayna Qadınları Milli Şurasının sədri*

# Heydər Əliyev Azərbaycan xalqının ən yaxşı xüsusiyyətlərini özündə təcəssüm etdirən dahi şəxsiyyətdir





1997-ci ilin martında Prezident Heydər Əliyevin Ukraynaya ilk dövlət səfəri oldu. O vaxt mən Kiyev Şəhər İcra Hakimiyyəti başçısının müavini idim. Heydər Əliyev həmin tarixi səfər çərçivəsində Kiyev meriyasına da gəldi. Lakin mənim Heydər Əliyev ilə şəxsi tanışlığım Bələdiyyə idarəsinin Sütunlu salonunda oldu. Burada Ukrayna paytaxtının meri Aleksandr Omelçenko Azərbaycan dövlətinin başçısına şəhərin fəxri qonağı Fərmanını və Qəhrəman şəhər Kiyevin rəmzi açarını təqdim etdi. Heydər Əliyeviçin Fəxri qonaqlar kitabımıza necə səmimi sözlər yazdığı indiyədək yadımdadır...

Bir neçə il sonra, 2001-ci ilin sentyabrında mənə Ukrayna nümayəndə heyətinin tərkibində Bakıya gəlmək nəsib oldu. Biz Azərbaycan paytaxtına GUÖAM-ın üzvü olan ölkələrin qadınlarının I Forumunda iştirak etməyə gəlmişdik.

Məlum olduğu kimi, GUÖAM çərçivəsində qadın təşkilatı yaradılması təşəbbüsü də Azərbaycan Prezidenti Heydər Əliyevə məxsusdur. Zənnimcə, bu, qadın və ailə problemlərinə, cəmiyyətdə qadınların rolunun artırılmasına, onlara kişilərlə hüquq bərabərliyi statusu verilməsi məsələsinə dövlət başçısının xüsusi diqqət yetirməsinin daha bir bariz təzahürüdür.

Bakıya səfərimiz çərçivəsində GUÖAM qadınları I Forumu iştirakçılarının Heydər Əliyev ilə unudulmaz görüşü oldu. Düşünürdüm ki, görüş qısa olacaq, necə deyərlər, protokol xarakteri daşıyacaqdır. Lakin mühüm, aktual mövzularda söhbət düz iki saat çəkdi. Heydər Əliyev görüş iştirakçılarının hər birinə söz verdi, onları diqqətlə dinlədi. Heydər Əliyevin ünsiyyətdə sadəliyi, xeyirxahlığı və incə yumor hissi hamımızı ruhlandırdı və biz öz planlarımız, layihələrimiz barədə fikirlərimizi onunla bölüşdük.

Heydər Əlirza oğlu, özü demişkən, ən fəal və həmrəy diaspor kimi tanıdığı Ukraynadakı Azərbaycan diasporu ilə münasibətlərimiz barədə mənə sual verdi. Mən ona Ukrayna Azərbaycanlıları Konqresi ilə birgə layihələri uğurla həyata keçirməyə imkan verən səmimi tərəfdaşlıq münasibətlərimizdən danışdım.

O tarixi söhbətdən özümüz üçün xeyli yeni və mühüm nəticələr əxz etdik. Azərbaycanın başlıca problemi – Dağlıq Qarabağ münaqişəsi, uzun sürən bu münaqişənin sülh yolu ilə

***GUÖAM çərçivəsində qadın təşkilatı yaradılması təşəbbüsü də Azərbaycan Prezidenti Heydər Əliyevə məxsusdur.***

ədalətli həlli üçün Heydər Əliyevin göstərdiyi səylər barədə ətraflı məlumat aldıq.

Yalnız çadır düşərgələrində yaşayan azərbaycanlı qaçqın-köçkünlərin faciəsi ilə şəxsən tanış olduqdan sonra, biz evsiz-eşiksiz qalmış bu binəsiblər barədə danışarkən Prezidentin gözlərinin nə üçün kədərlə dolduğunu anladıq.

Bizim Prezidentlə görüşümüzü elə həmin axşam Azərbaycan televiziyasının birinci kanalı ilə tam göstərdilər. Onda mən anladım ki, Prezident təkcə özü bizimlə tanış olmurdu, həm də bütün Azərbaycanı GUÖAM-a daxil olan ölkələrin elçiləri ilə tanış edirdi. Odur ki, haraya getsək, hətta çadır düşərgələrində də bizi tanıyır və salamlayırdılar. Bu, hakimiyyətin açıqlığından, onun şəffaflığından, ölkənin problemlərinə xalqın marağını cəlb etmək istəyindən xəbər verirdi.

Heydər Əliyevlə tanış olandan sonra mən onun xalq arasında nə üçün belə böyük nüfuz sahibi olmasının, belə sevilməsinin səbəbini anladım. Çünki o, Azərbaycan millətinin xeyirxahlıq, ürək genişliyi, mərdlik, qadınlara hörmət, güclü haqq-ədalət hissi, xəyanətə və saxtakarlığa nifrət kimi ən yaxşı xüsusiyyətlərini özündə təcəssüm etdirən dahi şəxsiyyətdir.

Onun xanımı və ömür-gün dostu Zərifə Əziz qızına bəslədiyi riqqətli münasibət məndə xüsusi hörmət hissi doğurdu. Heydər Əliyev ona bütün ömrü boyu sadiq qalmışdır.

Belə insan heç vaxt, heç bir şəraitdə nə xidmət etdiyi işə, nə xalqına, nə də ölkəsinə xəyanət etməz!

*Heydər Əliyev kimi insan heç vaxt, heç bir şəraitdə nə xidmət etdiyi işə, nə xalqına, nə də ölkəsinə xəyanət etməz!*

Söhbəti yazdı:
**Zeynal Ağazadə**
**AzərTAc-ın xüsusi müxbiri**



*Lyudmila ŞVETSOVA*
*Moskva hökumətində merin birinci müavini*

# Heydər Əliyev çox yüksək intellektə malik, heyrətamiz dərəcədə müdrik insandır



Biz çox şadıq ki, Rusiya Prezidenti Vladimir Putin Azərbaycan xalqının dahi oğlunun Rusiyanın ən yüksək ordeni ilə təltif olunması haqqında qərar qəbul etmişdir. Sovet İttifaqında yüksək vəzifələrdə çalışmış bu insanı biz tanıyırıq. Biz onu həyatının hətta ən çətin anlarında da sarsılmayan, ruhdan düşməyən bir insan kimi tanıyırıq. Xoşbəxtəm ki, Heydər Əliyevlə şəxsən tanışam. O, çox yüksək intellektə malik, heyrətamiz dərəcədə müdrik, heç vaxt xırdalığa varmamış və varmayan insandır. Öz Vətəninə, xalqına xidmət onun üçün ülvi amaldır, özünün bütün arzu və niyyətlərini, fəaliyyətini və iradəsini həmişə bu amala tabe etmişdir. Biz Moskvada Heydər Əliyeviçi çox sevirik. Azərbaycandakı rusdilli əhalinin dəstəklənməsi üçün biz birlikdə çox işlər görmüşük. Biz Heydər Əliyevin Rusiya mədəniyyət xadimlərinin Bakıya qastrol səfərlərinə necə qayğı ilə yanaşdığını bilirik.

*Öz Vətəninə, xalqına xidmət Heydər Əliyev üçün ülvi amaldır, özünün bütün arzu və niyyətlərini, fəaliyyətini və iradəsini həmişə bu amala tabe etmişdir.*

***

Heydər Əliyeviç, görkəmli dövlət xadimi, parlaq və hər cəhətdən qadir şəxsiyyət olaraq Siz doğma diyarın hüdudlarından uzaqlarda da layıqli nüfuza maliksiniz. Həqiqi milli lider, mənən və ruhən güclü, əsl kişi kimi təmkinli və müdrik şəxsiyyət olaraq Siz həmişə öz xalqınızla bir olmusunuz, ağır və gərgin zamanlarda çətinliklərə onunla birlikdə sinə gərmisiniz. Başlıcası isə, Siz Azərbaycan xalqının ruhunu, məhrəm düşüncə və arzu-istəklərini həssaslıqla duymağı öyrənmisiniz.

Azərbaycanda insanların öz Prezidentinə olan inamı həddsizdir, ən çətin illərdə respublikanın müqəddəratı üçün ağır məsuliyyəti öz üzərinə götürməklə Sizin nələr keçiridiyinizi başa düşürlər. Milyonlarla həmvətəniniz Sizin qəti, ürəyinizin dərinliklərindən süzülüb gələn sözünüzü dərin hörmətlə dinləyir. Azərbaycan torpağında sabitliyin, sülhün və tərəqqinin bərqərar ediləcəyinə bəslədikləri ümidlərini Sizin fəaliyyətinizlə bağlayır.

Əminəm ki, Sizin misilsiz təcrübəniz və çox böyük nüfuzunuz Azərbaycan Respublikasının möhkəmlənməsinə və əmin-amanlığına, onun dünya birliyində layiqli yerinin təmin olunmasına bundan sonra da xidmət edəcəkdir.

***

Mən Azərbaycan xalqının bü görkəmli oğlu ilə çoxdan tanış idim. O, haqlı olaraq, təkcə Azərbaycana deyil, həm də bütün bəşəriyyətə mənsubdur. Mən Heydər Əliyeviçlə hələ Sovet İttifaqı dövründən tanış idim, Bakıda dəfələrlə görüşmüşdük, onunla şəxsi, dostcasına və unudulmaz söhbətlərimiz olmuşdur.



*Heydər Əliyev haqlı olaraq, təkcə Azərbaycana deyil, həm də bütün bəşəriyyətə mənsubdur.*

Yadımdadır, Bakıya, Azərbaycan komsomolunun qurultayına gəlmişdim. Onda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi idi. Biz onunla, demək olar, bütün məsələlər – gənclərin problemləri, ümumən dövlətin problemləri, SSRİ-nin beynəlxalq nüfuzu və digər məsələlər barədə xeyli söhbət etdik. O, son dərəcə maraqlı müsahib idi. Onunla çox görüşsək də, hələ yadıma gəlmir ki, o, nəyi isə formal şəkildə etsin. Müsahibi onda maraq doğuranda və o, söhbətdən bir məna və fayda olduğunu görəndə, xırda detallara qədər hər şeyi aydınlaşdırmaq üçün söhbəti lazım bildiyi qədər uzadırdı.

O, mənim hafizəmdə görkəmli və müdrik siyasətçi, həssas, dərin zəkalı və öz amallarına, öz prinsiplərinə, habelə öz ailəsinə sədaqətli insan kimi həkk olunmuşdur. Mərhum həyat yoldaşı Zərifə xanıma necə qayğıkeş və nəzakətli münasibət göstərdiyini xatırlayıram.

Səmimi, insanı dərindən duyan, böyük dövlət xadimi kimi Heydər Əliyeviçi mən özüm üçün bir işlə əlaqədar ünsiyyətdə olarkən kəşf etdim. Komsomolun nümayəndəsi kimi mənə və birinci şəxs kimi Heydər Əliyeviçə uşaq evlərindən birində qayda-qanun yaratmaq tapşırılmışdı. Yadımdadır, Heydər Əliyeviç yetimlərin problemlərinə necə ürək ağrısı, həssaslıqla və qayğıkeşliklə nüfuz edir və onlara kömək göstərmək istəyirdi.

Mən xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev taleyüklü insan idi. Əgər o ağır illərdə ölkənizə başqa birisi, ayrı bir intellektual potensiala malik, dəyişikliklər barədə, eyni zamanda, illərdən bəri qurulub yaradılmış nə vardısa, onların qorunub saxlanması barədə başqa fikirdə olan adam rəhbərlik etsəydi, məlum deyildi ki, Azərbaycanın taleyi necə olacaqdı. Siyasi rəhbər kimi onun müdrikliyi, kamilliyi möcüzələr yaratdı. Allahdan arzum budur ki, Azərbaycan tərəqqi etsin, Azərbaycanın tərəqqisi, insanların firavan yaşaması bu böyük şəxsiyyətə ən yaxşı abidə olacaqdır.

Söhbəti yazdı:
**Asya Hacızadə**
**AzərTAc-ın xüsusi müxbiri**

*Ceyms VULFENSON*
*Dünya Bankının prezidenti*

# Heydər Əliyevin liderliyi ilə yaranmış sabitlik və sürətli iqtisadi inkişaf heyranlıq doğurur

***Biz Heydər Əliyievin liderliyinə çox güvənirik. Onun liderliyi nəticəsində Azərbaycandakı sürətli iqtisadi inkişaf dünyanı heyran edir.***

Cənab Prezident, biz Sizin liderliyinizə çox güvənirik. Ölkəniz və onun gələcəyi barədə Sizin düşüncələrinizlə tanış olmaq çox maraqlıdır. Sizin liderliyiniz nəticəsində Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi və ölkənizin iqtisadiyyatının sürətli inkişafını heyranlıqla müşahidə edirik. Biz bu inkişafın gələcəkdə də davam etdirilməsinə bundan sonra da Sizinlə birgə çalışacağıq. Mənim məqsədim odur ki, Sizinlə şəxsi mənada tərəfdaşlıq quraq, rəhbərlik etdiyim Dünya Bankı Sizinlə birgə çalışaraq, Azərbaycanın yaxın gələcəkdə inkişafı baxımından arzularınızın həyata keçməsinə nail olsun.



*Jan PERRƏN*
*Fransanın Azərbaycandakı ilk səfiri*

# Heydər Əliyev güclü şəxsiyyət, çox ağıllı siyasətçidir



## PREZİDENT HEYDƏR ƏLİYEVLƏ İLK GÖRÜŞÜM

Siyasi xadim və yaradıcılıq keyfiyyətləri ilə Sovet İttifaqı rəhbərliyində mühüm rol oynamış Heydər Əliyev barəsində çoxdan eşitmişdim. Öz müstəqilliyini bərpa etmiş Azərbaycana səfir təyin olunandan sonra, ölkənin qarmaqarışıq, lakin tarixi dövrünü yaşadığı bir vaxtda bu böyük şəxsiyyətlə görüşmək arzum hədsiz idi...

*Siyasi xadim və yaradıcılıq keyfiyyətləri ilə Sovet İttifaqı rəhbərliyində mühüm rol oynamış Heydər Əliyev barəsində çoxdan eşitmişdim.*

1993-cü ilin əvvəlləri idi. Mixail Qorbaçovun hakimiyyətə gəlməsindən sonra vəzifəsindən uzaqlaşdırılmış və Naxçıvanda yaşayan Heydər Əliyevə baş çəkməyi qərara aldım.

Naxçıvan Muxtar Respublikasından Azərbaycan parlamentinə deputat seçilmiş Heydər Əliyev 1991-ci ilin payızından Naxçıvan Ali Məclisinin sədri idi.

Naxçıvan ziddiyyətli iqlimi olan bir ərazidir. Bakıdan fərqli olaraq, havanın temperaturu qışda bəzən mənfi 30 dərəcəyə düşür. Novruz bayramı ərəfəsi olsa da, bərk şaxta idi. Başqa yanacaq vasitəsi olmadığından bütün ağaclar kəsilmişdi. Elektrik enerjisi, demək olar ki, yox dərəcəsində idi. Ermənistan və İran sərhədində yerləşən Naxçıvan Ermənistanla münaqişə nəticəsində Azərbaycandan tamamilə təcrid olunduğundan əziyyət çəkirdi. Əhalinin acınacaqlı vəziyyətini bilirdim və bizim humanitar təşkilatın köməyi ilə oraya təyyarədə 40 ton ərzaq aparmağa nail oldum, çünki yük mütləq Novruz bayramı qabağı çatdırılmalı idi.

Müntəzəm uçuşların dayandırıldığı bir vaxtda təyyarəmiz qarlı tufana baxmayaraq, yerə endi. Bu cür şücaəti yalnız səriştəli və əraziyə yaxşı bələd olan təyyarəçilər göstərə bilərdi.

Heydər Əliyevlə belə bir şəraitdə, həyat yoldaşımın müşayiəti ilə görüşdük. Mən belə bir addım atan ilk səfir idim. Öz zəhmi ilə bizi təsirləndirən bu insan qonaqları qızdırılmayan otaqdakı soyuqla təzad təşkil edən bir hərarətlə qarşıladı. Ümumi sözlərdən sonra Ali Məclisin sədri siyasi şəxsiyyətlər və digər mövzular barədə öz fikrini açıq söylədi. Hadisələrin sonrakı gedişi onun fikirlərinin düzgün olduğunu təsdiqlədi. Heydər Əliyevdən ayrılarkən onu tezliklə Bakıda yenidən görmək arzusunda olduğumuzu bildirdik və bu arzumuz az sonra həyata keçdi.



Naxçıvana bu səyahət xatirimizdə əbədi iz saldı. O vaxtdan etibarən aramızda etibarlı əlaqələr yarandı.

Hadisələr sürətlə inkişaf edirdi. Bir il öncə dövlət çevrilişindən sonra hakimiyyətə gəlmiş prezident Elçibəy ölkədə böyük ehtiram bəslənilən Heydər Əliyevi 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Bakıya çağırdı ki, öz nüfuzundan istifadə edərək, ölkədə yaranmış hərc-mərcliyə son qoysun. Beləliklə, arzumuz çin oldu...

Söhbəti yazdı:
**Əsgər Əliyev**
**AzərTAc-ın xüsusi müxbiri**

***

Ölkələrimizin indiki münasibətlərini bircə, lakin çox xarakterik sözlə ifadə etmək olar: "Axtarış". Hazırda birimiz digərimizi diqqətlə öyrənirik, əməkdaşlıq üçün yollar axtarırıq. Qətiyyətlə deyə bilərəm ki, bu proses çox səmərəli şəkildə davam edir. Azərbaycan Prezidenti Heydər Əliyevin Fransaya səfərindən sonra bu proses xüsusilə sürətlənmişdir. Bu səfərdən sonra Fransanın işgüzar dairələrində yüksək fəallaşma var. Bizim biznesmenlər, iş adamları indi Azərbaycana böyük maraq göstərirlər. Bu marağı onlarda zəngin dövlətçilik təcrübəsinə malik olan Prezident Heydər Əliyev doğurmuşdur.

*Azərbaycanı Fransaya, sözün əsl mənasında, Heydər Əliyev tanıtdı.*

Açığını deyim ki, Azərbaycanı Fransaya, sözün əsl mənasında, Heydər Əliyev tanıtdı. Onun Fransaya səfərinə qədər bizim ölkədəki ermənipərəst qüvvələr Azərbaycan əleyhinə təbliğatları ilə müəyyən məqsədlərə çatmağa çalışırdılar. Doğrudur, dövlət səviyyəsində buna məhəl qoyulmurdu. Ancaq görünür ki, məsələyə məhəl qoymamaqla iş bitmirmiş. Əslində, ideoloji mübarizə gərək imiş. Zati-aliləri Prezident Heydər Əliyevin Fransaya səfəri hadisələri öz məcrasına yönəltdi. Onun bizim ölkədəki çıxışları, verdiyi bəyanatlar Azərbaycanın siyasətini və regiondakı siyasi vəziyyəti düzgün qiymətləndirməyə imkan yaratdı. Azərbaycan Fransa üçün daha anlaşıqlı, daha yaxın oldu. İndi Fransadakı erməni azlığı bilir ki, qarşıdurma mənasızdır, ərazi dəyişikliyi baş tutan sövda deyildir.

*Fransanın müharibədən sonrakı dirçəlişini, onun tərəqqisini Şarl de Qollun adı ilə bağlayırlar. Azərbaycanda da Heydər Əliyevi millətin xilaskarı adlandıranlar heç də səhv etmirlər.*

Uzun müddət Azərbaycanda yaşayan diplomat kimi mən ölkənizin artıq tərəqqi yoluna çıxdığının şahidiyəm. Prezident Heydər Əliyevin müəyyənləşdirdiyi bu yol Azərbaycanı xoşbəxt həyata qovuşduracaqdır. Yeri gəlmişkən, bir müqayisə aparmaq istəyirəm: Fransanın müharibədən sonrakı dirçəlişini, onun tərəqqisini Şarl de Qollun adı ilə bağlayırlar. Azərbaycanda da Heydər Əliyevin şəxsiyyətinə böyük ümid bəsləyirlər. Onu millətin xilaskarı adlandıranlar heç də səhv etmirlər.

Tarix görkəmli şəxsiyyətlərə həmişə ehtiyac duymuşdur. Ona güclü liderlər həmişə lazımdır. Eləcə də bütün xalqlara. Ölkənin vəziyyəti nə qədər mürəkkəb olarsa, güclü şəxsiyyətlərə ehtiyac da bir o qədər çox olur. Əlbəttə, belə şəxsiyyətlərin qəbul edilməsi də mürəkkəb prosesdir. Onları hamı birmənalı qəbul etmir. Belə şəxsiyyətlərin öz layiqli qiymətlərini alması üçün bəzən illər lazım gəlir. Yadınızdadırsa, Şarl de Qollun fəaliyyətini heç də hamı bəyənmirdi. Lakin o, ölkəni böhran vəziyyətindən çıxara və layiq olduğu nüfuzu qazana bildi.

Azərbaycanın indiki vəziyyətini Fransanın həmin ağır günləri ilə müqayisə etmək olar. Xalqın Heydər Əliyevi hakimiyyətə gətirməsində təəccüblü heç nə yoxdur. O, şübhəsiz, güclü şəxsiyyətdir. Zəngin təcrübəsi olan dövlət xadimidir, çox ağıllı siyasətçidir, sözün qısası, ölkəni böhrandan çıxarmağa qadirdir. Mən buna əminəm.

**1994-cü il iyulun 14-də**
**AzərTAc-ın müxbirinə müsahibə**



*Tim EQQAR*
*Britaniya-Azərbaycan Cəmiyyətinin sədri, "Monument Oyl ənd Qaz" şirkətinin baş direktoru*

# Heydər Əliyev, həqiqətən, yeni Azərbaycan dövlətinin qurucusudur

Möhtərəm cənab Prezident, həqiqət ondan ibarətdir ki, Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. Siz, həqiqətən, yeni Azərbaycan dövlətinin qurucususunuz. Məhz bunu əsas götürərək, biz, Azərbaycanın Böyük Britaniyadakı və dünyadakı dostları Sizi Britaniyada salamlayır və "Xoş gəlmisiniz!" deyirik.



*Qacendra SİNQH*
*Hindistanın Azərbaycandakı ilk səfiri*

# Heydər Əliyev siyasət şahmatının ustasıdır

Mən Azərbaycan Prezidenti Heydər Əliyev ilə 1993-cü ilin sonu 1994-cü ilin əvvəllərindəki görüşlərimi həmişə məmnunluqla xatırlayıram. O zaman Heydər Əliyev yenicə hakimiyyətə gəlmişdi.

Naxçıvanda doğulmuş Heydər Əliyev 1982-ci ildə Kremlin ən yuxarı hakimiyyət strukturuna, Siyasi Büroya yüksələn ilk müsəlman idi. Cəmi bir neçə on il əvvəl, kommunist ideologiyasının möhkəm olduğu və slavyan millətçiliyinin tüğyan etmədiyi bir vaxtda Heydər Əliyev gürcülərin İ.Stalini və ukraynalıların N.Xruşşovu kimi ən yüksək vəzifəyə qalxa bilərdi.

Lakin 1985-ci ildə Qorbaçov hakimiyyətə gəldikdən və Heydər Əliyev onun dağıdıcı islahatlarına qarşı çıxdıqdan sonra o, 1987-ci ildə Siyasi Bürodan uzaqlaşdırıldı.
Əyilməz siyasətçinin yenidən görünməsi 1990-cı ildə Bakıya sovet ordusunun yeridilməsinə qarşı çıxışı ilə başladı.

Heydər Əliyev 1993-cü ildə Prezident olduqdan sonra böyük əzmlə Qərb liderləri ilə münasibətlər yaratmağa çalışırdı.

Ona əhalisinin bir hissəsi ermənilərdən ibarət olan Dağlıq Qarabağ uğrunda Ermənistanla gedən müharibə miras qalmışdı. Qarabağ erməniləri Ermənistanın dəstəyi ilə cənub-qərbi Azərbaycanın çox hissəsini nəzarət altına keçirmişdilər. Heydər Əliyev 1994-cü ildə Ermənistanla atəşkəsə nail ola bildi və bu, hələ də qüvvədədir, tərəflər arasında müharibə getmir. Lakin əhalisi 8 milyon olan Azərbaycanın bir milyondan artıq qaçqını var, ərazisinin 20 faizi Ermənistanın işğalı altında qalmaqdadır.

1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul olundu. Ölkənin siyasi həyatında hakim partiya Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan MDB-nin, İslam Konfransı Təşkilatının, ATƏT-in və Avropa Şurasının üzvüdür. Həm də NATO-ya üzv olmaq istəyir. İraq müharibəsi zamanı Azərbaycan ABŞ-ın tərəfində idi və hazırda İraqa əsgərlər



göndərmişdir və oradakı bərpa prosesində iştirak etmək barədə düşünür.

Heydər Əliyev "Millətin atası" kimi tanınır. O, ölkəyə sabitlik gətirib, iqtisadi islahatları işə salıb və nəhəng xarici sərmayələr cəlb edə bilmişdir. Azərbaycan neftini Qərb bazarlarına nəql edəcək Bakı-Tbilisi-Ceyhan kəməri tikilməyə başlayıbdır.

Heydər Əliyev siyasət şahmatının ustasıdır. O, məharətli şahmatçı kimi həm ehtiyatlı, həm də qətiyyətli olduğunu dəfələrlə sübut etmişdir.

Heydər Əliyev Qərb ölkələrinin rəhbərləri ilə görüşlərə çox böyük əhəmiyyət verdi. O, Fransa Prezidenti Fransua Mitteranla, Britaniyanın baş naziri Con Meycorla, İsrailin, digər ölkələrin liderləri ilə çox səmərəli görüşlər keçirdi, danışıqlar apardı.

*Heydər Əliyev 1982-ci ildə Kremlin ən yuxarı hakimiyyət strukturuna, Siyasi Büroya yüksələn ilk müsəlman idi.*

Heydər Əliyevin Avropa liderləri ilə görüşləri amerikalılarla birbaşa münasibətlərə yol açdı. Xüsusilə, güclü yəhudi lobbisi ilə yaradılmış münasibətlər Birləşmiş Ştatlardakı nüfuzlu erməni diasporuna qarşı əks-tədbir görmək baxımından vacib idi. 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" ilə Heydər Əliyev Qərb ölkələrinə enerji resursları qazandırmaqla "yeni böyük oyun" adlanan siyasətdə Qərbi öz tərəfinə çəkə bildi. 1997-ci ildə Birləşmiş Ştatlara rəsmi səfəri zamanı Heydər Əliyev Bill Klintonla görüşdü, Vaşinqtonda və digər şəhərlərdə ABŞ-ın neft nəhəngləri ilə 10 milyard dollarlıq razılaşmalar imzaladı.

Heydər Əliyevin səylərinin nəticəsi, həqiqətən, valehedici idi. Vaşinqtonda onu ulduz və böyük siyasətçi kimi qarşılayırdılar. 400-dən artıq yüksək rütbəli amerikalı, lobbiçilər, məsləhətçilər, sərmayəçilər, vasitəçilər onun şərəfinə verilmiş qonaqlığa təşrif buyurdu. Cəmi bir neçə ilə Heydər Əliyev ABŞ-ın sevimlisinə çevrildi. Amma bir şey aydındır ki, istənilən sistemdə ən yüksək mərtəbəyə çata bilmək üçün liderlik keyfiyyətləri mühümdür.

Azərbaycan yalnız neftlə zəngin deyildir. Bir çox qonşularından fərqli olaraq, münbit torpağı var və suvarma üçün su da yetərlidir. Özünü ərzaqla təmin edə bilir. Yeraltı sərvətləri də çoxdur. İslahatlarla və xarici sərmayələri həvəsləndirməklə bağlı tədbirlər tezliklə bəhrəsini verdi. Bakı elan etmişdir ki, növbəti 3 ildə ölkəyə qoyulan sərmayələrin həcmi 10 milyard dollara çatacaqdır. Bu, 1996-2002-ci illərdəkindən çox olacaqdır. Azərbaycan iqtisadi islahatları aparmaq, makroiqtisadi sabitliyi və struktur dəyişikliklərini təmin etmək üçün Beynəlxalq Valyuta Fondundan və Dünya Bankından 900 milyon ABŞ dolları almışdır. Bu yaxınlarda Dünya Bankının rəsmisi elan etdi ki, 2003-2005-ci illərdə Bakı daha 235 milyon dollar alacaqdır.



Ölkənin paytaxtı Bakı Xəzər dənizinin sahilində, qədim İpək yolunun üstündə, vacib ərazidə yerləşir. Keçən əsrin başlanğıcında bu şəhər dünya neftinin yarısını verirdi. Zəngin keçmişi, mədəniyyəti və gözəl binaları vardır.

Lakin 1993-cü ilin noyabrında bu sətirlərin müəllifi də daxil olmaqla, 5 səfir etimadnamələrimizi Prezident Heydər Əliyevə təqdim edərkən şəhər boz, işıqsız idi. Buraya gələn adam sıxıntı hissləri keçirirdi. Bizi əvvəllər "İnturist" adlanan otelə yerləşdirdilər. Bəzi otaqlarda ılıq və ya soyuq su var idi, digərlərində heç o da yox idi. Bu, mənə Çauşesku hakimiyyətinin ən pis dövrü zamanındakı ucqar Rumıniya əyalətini xatırlatdı. Lakin Bakıya hər sonrakı səfər zamanı şəraitin sürətlə dəyişməsini və ölkəyə sərmayələrin axmasını müşahidə edirdim.

*"Əsrin müqaviləsi" ilə Heydər Əliyev "yeni böyük oyun" adlanan siyasətdə Qərbi öz tərəfinə çəkə bildi.*

Sovet erasından əvvəl varlı neft maqnatları şəhərdə teatrlar tikmişdilər. Bu ənənə sovet dövründə daha da güclənmiş və buradan digər türkdilli ölkələrə də yayılmışdı. Bakıda ən yüksək səviyyəli opera dinləmək mümkündür. Bir çox Azərbaycan musiqiçiləri və dirijorları Türkiyənin müasirləşməsi və qərbləşməsinin əsasını qoymuş Kamal Atatürk Türkiyəsinin qərb üslublu operalarında çalışırlar.

Dağıstan və Çeçenistanla qonşu olan Azərbaycan çoxmillətli, Qafqaz adlanan və partlamaq təhlükəsi olan mozaikanın mərkəzi olaraq qalır. Azərbaycan və Gürcüstan Türkiyə vasitəsilə Qərbə axacaq neft və qazın nəqli üçün vacibdir. Eləcə də yalnız Azərbaycanın deyil, Qazaxıstan və Türkmənistanın yanacağının da nəqli və Rusiya ilə İranın bu strateji iqtisadi tədbirlərdən uzaq saxlanılması üçün də vacibdir. Xüsusilə də, Yaxın Şərqdə gərginliyin artdığı dövrdə çoxları nəzərlərini Xəzər hövzəsindən təhlükəsiz nəql olunacaq enerji daşıyıcılarına yönəldə bilər.

**"Eyia Tayms onlayn" İnternet saytı,**
**21 may 2003-cü il.**

*Çjan SİYUN*
*Çin Xalq Respublikasının Azərbaycandakı səfiri*

# Heydər Əliyev Çində böyük nüfuza malikdir



Çin ilə Azərbaycan arasında coğrafi baxımdan xeyli məsafə olsa da, ölkələrimiz arasında iki min ilə yaxındır ki, qarşılıqlı münasibətlər, əməkdaşlıq əlaqələri var. Bugünkü münasibətlər də tarixi ənənələrə əsaslanır. Müasir tarixə baxanda isə görərik ki, hələ 1950-60-cı illərdə iki ölkənin nümayəndələri, o cümlədən incəsənət ustaları bir-birinə gedib gəlirdi. Tanınmış müğənni Rəşid Behbudovun konsertləri Çində böyük rəğbətlə qarşılanırdı. İkinci Dünya müharibəsi zamanı bir çox azərbaycanlı Çin torpağında ümumi düşmənə qarşı vuruşmuşdur. Çin Xalq Respublikasının qurulduğu illərdə bir çox azərbaycanlı iqtisadçı, mühəndis, digər sahələr üzrə mütəxəssislər bizim ölkəmizdə işləmişlər. Bütün bunlar bizi daha da yaxınlaşdırıb və bugünkü münasibətlərimizə kömək edir.



Bakı ilə Pekin arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin xüsusi xidmətləri var. Cənab Heydər Əliyev Çin xalqı arasında böyük nüfuza malikdir. Hələ 1980-ci illərdə Heydər Əliyev keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən, başqa bir dövr, başqa şərait olsa da o, sovet rəhbərləri arasında Çinlə münasibətlərin qaydaya salınmasına çalışan ilk şəxslərdən biri olmuşdur. O, Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra da Çinlə əlaqələrə həmişə xüsusi diqqət vermişdir.

1994-cü ilin mart ayında Azərbaycan Prezidenti Heydər Əliyevin Çinə tarixi səfəri oldu. Səfər zamanı çox böyük işlər görüldü, ikitərəfli münasibətlərə dair 7 sənəd imzalandı. İndiyədək imzalanan və siyasi, iqtisadi və digər sahələri əhatə edən sənədlərin sayı isə 30-u keçmişdir. Bu, əməkdaşlığın inkişafı üçün çox əlverişli hüquqi baza yaradır.

*Bakı ilə Pekin arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin xüsusi xidmətləri var.*

Xalqlarımız, ölkələrimiz arasında milli maraqlarımıza dair məsələlərdə qarşılıqlı anlaşma var. Bu, ilk növbədə, hər bir ölkənin öz seçiminə hörmətlə yanaşması prinsipidir. İkincisi, iki ölkənin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü məsələsidir. Biz Azərbaycanın Tayvan məsələsində və digər sahələrdə Çinin mövqeyini dəstəklədiyini bilirik və bunu yüksək qiymətləndiririk. Biz də Azərbaycana eyni dəstəyi göstərməyə çalışırıq. Üçüncüsü, iki ölkənin rəhbərləri arasında da çox gözəl münasibətlər yaranmışdır. Müxtəlif səviyyədə qarşılıqlı səfərlər təşkil edilmişdir. Bütün bunlar imkan verir ki, siyasi münasibətlərdə sanballı uğurlar olduğunu deyək. Ölkələrimizin rəhbərlərinin göstərişlərinə uyğun olaraq, əlaqələri daha da inkişaf etdirməyə çalışacağıq.

Bir məqamı da xatırlatmaq istərdim. May ayında SARS virusunun yayılması ilə əlaqədar Çində ağır vəziyyət yaranmışdı. O vaxt cənab Heydər Əliyevin teleqramı əhalimiz arasında böyük əks-səda doğurdu, azərbaycanlıların da bizim yanımızda olduğunu hiss etdik. Bir sözlə, Çin-Azərbaycan əlaqələrinin inkişafında Prezident Heydər Əliyevin çox böyük xidmətləri var.

Söhbəti yazdı:
**Yalçın Əliyev**
**AzərTAc-ın müxbiri**



*Nikolay BELOBLOTSKİ*
*Ukraynanın Rusiya Federasiyasındakı səfiri*

# Heydər Əliyev Ukraynanın böyük dostu idi

Heydər Əlirza oğlu Əliyev təkcə öz xalqı üçün deyil, onu tanıyanların, onunla işləyənlərin hamısı üçün xüsusi bir insan idi. Öz xalqı üçün, öz Vətəninin beynəlxalq aləmdə nüfuz və hörmətinin yüksəlməsi üçün gördüyü böyük işlərə görə, nəhayət, Azərbaycanda sabitliyə və əmin-amanlığın bərqərar edilməsinə nail olduğuna görə onun xatirəsi əbədi yaşayacaqdır. Allah-Təalaya dua etmək lazımdır ki, heç kim onun nailiyyətlərini, xeyirxah işlərini pozmaq niyyətinə düşməsin. Bu insanın dünyasını dəyişməsi Ukrayna üçün də çox böyük itkidir. Biz Heydər Əliyevin simasında özümüzə arxa-dayaq görürdük, o, Ukraynanın böyük dostu idi, Azərbaycan-Ukrayna münasibətlərinin möhkəmlənməsi üçün çox işlər görmüşdür. Onu Ukrayna Prezidenti Leonid Kuçma ilə ən xoş və səmimi dostluq telləri bağlayırdı.

*Biz Heydər Əliyevin simasında özümüzə arxa-dayaq görürdük.*

Mübaliğəsiz demək istərdim ki, keçmiş Sovet İttifaqı məkanında Heydər Əliyev ən görkəmli sima idi, bir siyasətçi kimi, bir insan kimi öz sanbalı ilə həmişə, onilliklər ərzində xüsusi hörmət sahibi olmuşdur. Bu, əsassız deyildi. Hamı onun qeyri-adi iş qabiliyyətinə, məsələləri operativ surətdə həll etmək, xoş ünsiyyət qurmaq, ən çətin və mürəkkəb işlərdə qarşılıqlı razılığa gəlmək bacarığına heyran idi.

Ən böyük dost və dahi siyasətçi kimi onun xatirəsi Ukraynada həmişə yaşayacaqdır.

*Məhəmməd Xeyir VADİ*
*Suriyanın ÇXR-dəki səfiri*

# Heydər Əliyev mənim ailə səadətimin bünövrəsini qoymuşdur





Bismillahir-rəhmanir rəhim.

Mən və həyat yoldaşım görkəmli lider, müasir Azərbaycanın banisi Heydər Əliyevin vəfatı xəbərini eşidəndə çox sarsıldıq. Çünki Prezidentin mənim ürəyimdə və ailə üzvlərimin ürəyində xüsusi yeri vardır.

Ötən əsrin 70-ci illərinin əvvəllərində Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası nümayəndə heyətinin başçısı kimi Suriyaya səfər etmişdi. Suriya televiziyasının işçisi kimi mən cənab Heydər Əliyevlə görüşüb onun səfəri barədə müsahibə götürdüm. Müsahibənin gedişində Heydər Əliyev məndən soruşdu: "Moskvadan nə istərdin? Müsəlman dostlarından bir şey lazımdırsa, çəkinmədən deyə bilərsən". Onun belə sadə, həm də səmimi münasibəti məni cəsarətləndirdi və özümün bir problemimin həlli üçün ona müraciət etdim. O vaxtlar mən Suriya vətəndaşı olan, ancaq Moskvada yaşayan bir qızla evlənmək istəyirdim. Lakin müvafiq sovet dairələri qıza Moskvadan Suriyaya gəlməyə icazə vermirdilər. Mən bu problemin həlli üçün Heydər Əliyevə müraciət etdim. O isə gülümsünüb dedi: "Mən elə bilirdim, sənin xahişin böyük bir problem üçün olacaqdır".

İki həftədən sonra Moskvada viza bölməsindən nişanlıma bildirdilər ki, müvafiq dairələrin onun Suriyaya getməsinə heç bir etirazları yoxdur. Sonralar öyrəndim ki, Heydər Əliyev zəng edib məsələni yoluna qoymuşdur.

Mərhum Prezident o vaxtlar mənim ailə səadətimin bünövrəsini qurdu. Mən, həyat yoldaşım, üç övladım bu köməyinə görə bütün ömrümüz boyu ona minnətdar olacağıq. Biz onu heç vaxt unutmayacağıq.

Mən bununla əlaqədar öz minnətdarlığımı mərhum Prezident Heydər Əliyevin ailəsinə çatdırmaq istədim. Lakin bütün cəhdlərim baş tutmadı. Sonra Azərbaycanın Çindəki səfiri, dostum Yaşar Əliyevə müraciət etdim. Səfirə bu işi yoluna qoyduğuna görə təşəkkürümü bildirirəm.

Allahdan Heydər Əliyevə rəhmət diləyirəm, dost Azərbaycanı qoruyub, firavanlıq və tərəqqiyə çatdırmasını arzulayıram.

Azərbaycanın yeni Prezidenti İlham Əliyevə böyük uğurlar diləyirəm.

***Prezident Heydər Əliyevin mənim ürəyimdə və ailə üzvlərimin ürəyində xüsusi yeri vardır.***

*Terri ADAMS*
*Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin – ABƏŞ-in keçmiş prezidenti*

# Heydər Əliyevin liderliyi sayəsində Azərbaycan keçmiş sovet respublikaları arasında siyasi və iqtisadi baxımdan inkişaf modelinə çevrilmişdir





Azərbaycan üçün bu böyük gündən xatirə olaraq, ABƏŞ rəmzi məna daşıyan bir hədiyyə hazırlamışdır. İnanırıq ki, bu hədiyyə həm Sizin, həm də Azərbaycan xalqının daimi iftixar və məmnunluq mənbəyi olacaqdır. Cənab Prezident, Beynəlxalq Qızılgül Cəmiyyətində əbədi olaraq Sizin adınızla qeydiyyatdan keçirilmiş yeni bir qızılgül növü seçilmişdir. Həmin qızılgül növü Ülyahəzrət Böyük Britaniya kraliçasına ithaf edilmiş orijinal gül növlərindən xüsusi olaraq yetişdirilmişdir. Cənab Prezident, Sizin qızılgülünüzün bu gündən etibarən özünəməxsus adı olacaqdır: "Prezident Heydər Əliyev sülh qızılgülü".

Cənab Prezident, indi isə qızılgülünüzün rəsmi botanik şəklini böyük məmnunluq hissi ilə Sizə hədiyyə edirik. Həmin qızılgülün 200 kolu Sizin seçəcəyiniz yerlərdə əkilmək üçün Bakıya gətiriləcəkdir. Bundan başqa, qızılgül kolları bizim payçı şirkətlərin hamısına hədiyyə ediləcəkdir ki, "Prezident Heydər Əliyev sülh qızılgülü" ABƏŞ-in konsorsiumunda təmsil olunmuş ölkələrin hər birinin dövlət nəbatat bağlarını bəzəsin.

Cənab Prezident, qoy bu qızılgüllər əsasını qoyduğunuz və atası olduğunuz müstəqil Azərbaycanın beynəlxalq simvoluna çevrilsin. Möhtərəm Prezident, Azərbaycan xalqını açıqaydın, dinc və çiçəklənən gələcəyə doğru aparan uzaqgörənliyiniz və öndərliyinizlə bir daha təbrik edirik. Bizim bu uğurumuzu bu şanlı ölkənin azadlıq və müstəqilliyini təsbit etmiş yeni demokratik Konstitusiyanın ikinci ildönümü günündə bayram etməyiniz, həqiqətən, çox yerinə düşür.

***

Cənab Prezident, Sizin liderliyiniz ilə indi Azərbaycan çox sabit ölkə olmuşdur. Azərbaycan artıq beynəlxalq və coğrafi-siyasi status qazanmışdır. Bütün bunlara Sizin liderliyiniz sayəsində nail olunmuşdur. Bütün bunlar Sizin bu ölkə üçün işləyib-hazırladığınız neft strategiyası sayəsində əldə edilmişdir. Siz dünyanın bir çox iri, güclü şirkətlərini Azərbaycana gətirdiniz və onlar Azərbaycana sərmayə qoydular, ölkənizin iqtisadiyyatını dirçəltdilər.

Cənab Prezident, Sizin liderliyiniz sayəsində Azərbaycan keçmiş SSRİ respublikaları arasında siyasi və iqtisadi baxımdan inkişaf modelinə çevrilmişdir. Azərbaycanın ikinci müstəqillik dövrü barədə tarix kitabları yazılarkən Sizin adınız həmin kitabların səhifələrinə qızıl hərflərlə həkk olunacaqdır.

***Azərbaycanın ikinci müstəqillik dövrü barədə tarix kitabları yazılarkən Heydər Əliyevin adı həmin kitabların səhifələrinə qızıl hərflərlə həkk olunacaqdır.***

*Riçard MORNİNQSTAR*
*Xəzər hövzəsi ölkələri üzrə xüsusi müşavir*

# Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul etmişdir





Mənim üçün böyük şərəfdir ki, Xəzər regionunun böyük lideri Prezident Heydər Əliyev ilə birlikdəyəm. Hamı təsdiq edər ki, Zati-aliləri Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul etmişdir. Beləliklə, Azərbaycan ABŞ-ın geniş səpkili maraqlarına cavab verən bir ölkədir.

Prezident Əliyev dövlət xadimi bacarığı ilə müxtəlif boru kəmərlərinin reallaşmasını həyata keçirmişdir, Şərq-Qərb dəhlizinin yaradılmasında əldə etdiyimiz tərəqqidə bizə yardımçı olmuşdur. Prezident Əliyevin, mən deyərdim ki, sərt mövqeyi, Azərbaycan xalqı olmadan nə Bakı-Novorossiysk, nə də Bakı-Supsa kəmərləri mümkün olmazdı.

Son aylar Bakı-Ceyhan kəməri ilə bağlı işimizdə Prezident Əliyevin rolu əsas olmuşdur. Məhz bu rola görə biz aprelin 13-də İstanbulda birgə sənəd imzalaya bildik.

***Heydər Əliyevin, mən deyərdim ki, sərt mövqeyi, Azərbaycan xalqı olmadan nə Bakı-Novorossiysk, nə də Bakı-Supsa kəmərləri mümkün olmazdı.***

*Yan KALİTSKİ*
*ABŞ-ın keçmiş Prezidenti*
*Bill Klintonun nümayəndəsi*

# Heydər Əliyev Amerika-Azərbaycan dostluğunun təcəssümüdür





Bakının dənizkənarı parkında atəşfəşanlığı müşahidə edərkən ABŞ-ın müstəqillik günü olan 4 iyun günü yadıma düşdü. Burada, Bakıda olduğu kimi, hər il iyun ayının 4-də biz də öz ölkəmizin müstəqilliyinin bayramı şərəfinə atəşfəşanlıq edirik. Tamamilə qanunauyğun haldır ki, bu gün həm Azərbaycanın müstəqillik günü, həm də Heydər Əliyevin Prezident seçilməsi münasibətilə andiçmə mərasimi günüdür. Azərbaycanın azadlığı naminə hamıdan çox məhz Heydər Əliyev vuruşmuşdur. Cənab Prezident, Siz Azərbaycan üçün çox böyük işlər görmüsünüz. Siz öz fəaliyyətinizi təkcə Azərbaycanla məhdudlaşdırmayıb, bütün regionda, dünyanın bu bölgəsində də sülhün, əmin-amanlığın bərqərar olması üçün var qüvvənizlə çalışmısınız. Tamamilə qanunauyğun haldır ki, məhz Siz Bakıda tarixi İpək yolunun bərpasına dair beynəlxalq konfrans təşkil etdiniz və bu konfransda çoxsaylı nümayəndə heyətləri iştirak etdilər.

Şübhəsiz ki, Sizin keçən il ABŞ-a etdiyiniz həddən ziyadə gözəl səfərinizi də xatırlamaya bilmirəm. ABŞ-a səfəriniz zamanı Siz Azərbaycan həqiqətlərinin Amerikada yayılması, Azərbaycanın daha da yaxşı başa düşülməsi və ölkənizin mövqelərinin aydınlaşması üçün çox böyük işlər gördünüz. Cənab Heydər Əliyev, Siz Azərbaycanın, bütün regionun böyük lideri, Amerika-Azərbaycan dostluğunun təcəssümüsünüz.

***Heydər Əliyev Azərbaycanın, bütün regionun böyük lideri, Amerika-Azərbaycan dostluğunun təcəssümüdür.***

*Spenser ABRAHAM*
*ABŞ-ın energetika naziri*

# Heydər Əliyev enerji dəhlizinə verdiyi dəstəkdən heç vaxt geri çəkilməmişdir





Prezident Heydər Əliyev Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bu güclü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində Prezident Heydər Əliyev neft və qaz ixracı dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Boru kəmərlərinin reallığa çevrilməsində onun göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir.

Sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması Azərbaycan xalqı üçün, bütün region üçün inkişafa doğru güclü bir amildir. Bu, həmçinin Amerika Birləşmiş Ştatları hökumətinin Sizin hökumətlə ardıcıl əməkdaşlığının müsbət nəticələrini nümayiş etdirir. Həmin layihənin müvəffəqiyyətlə həyata keçirilməsi, eyni zamanda, lider kimi Sizin uzaqgörənliyinizi və bir çox çətin hallarda göstərdiyiniz yüksək təşkilatçılıq qabiliyyətinizi nümayiş etdirir.

***Bakı-Tbilisi-Ceyhan layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi, Heydər Əliyevin uzaqgörənliyini və bir çox çətin hallarda göstərdiyi yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirir.***

*Qreq LAFLİN*
*ABŞ konqresmeni*

# Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur

Cənab Prezident, mən Nyu-Yorkda Sizi Mərkəzi Asiyanın Corc Vaşinqtonu kimi təqdim etdim. Mən bunu ona görə bəyan etdim ki, Amerika Birləşmiş Ştatlarının yarandığı ilk illərdə Corc Vaşinqtonun göstərdiyi cəsarət, səylər kimi, Siz də Azərbaycanın müstəqilliyinin ilk illərində cəsarət, qətiyyət, mərdlik göstərmisiniz. İki boru kəmərinin çəkilməsi barədə qərarın məhz Sizin şəxsi qətiyyətinizin nəticəsi olduğunu bütün amerikalılar yaxşı bilirlər. Lakin çox az



amerikalı bilir ki, Siz Ermənistana, Gürcüstana və digər keçmiş sovet respublikalarına qayıdan rus əsgərinin Azərbaycanda da yerləşdirilməsi iddialarına qarşı çıxdınız və öz qətiyyətinizlə bundan imtina etdiniz.

Biz belə qərara gəlmişik ki, vətənə qayıdandan sonra həmkarlarımızı ətraflı məlumatlandıraq ki, Siz regionda sülhün və sabitliyin bərqərar olması üçün böyük işlər görürsünüz.

***

Məhz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir və öz ərazisinin, zəngin təbii sərvətlərinin sahibi olmağa, bütün sərvətləri barəsində müstəqil qərar qəbul etməyə qadirdir.



*Riçard LUQAR*
*ABŞ Senatının keçmiş komitə sədri*

# Heydər Əliyev Azərbaycanı dünyaya tanıtmışdır

**1997-ci ildə ABŞ-a ilk rəsmi səfəri zamanı Amerikada hamı Prezident Heydər Əliyevlə görüşməyə can atırdı.**

Cənab Prezident, 1997-ci ildə ABŞ-a ilk rəsmi səfəriniz çox həyəcanlı bir səfər idi və Amerikada hamı Sizinlə görüşməyə can atırdı. Bu səfər həm də ona görə çox əhəmiyyətli idi ki, Amerikada Sizin regiona olan diqqətin və marağın daha da artmasına güclü təkan verdi. Sizin liderliyiniz nəticəsində ölkənizdə qısa müddətdə əldə olunmuş nailiyyətlər Azərbaycanı, həqiqətən, dünyanın diqqət mərkəzinə çevirmişdir. Cəmi bir neçə il əvvəl Azərbaycan haqqında bunları demək olmazdı. Amma Sizin liderliyiniz sayəsində ölkənizdə birlik, sülh, sabitlik və daim artmaqda olan tərəqqi əldə edilmişdir. Bu, həqiqətən, müsbət dəyişikliklərdir.





*Nikolay KONOREV*
*keçmiş SSRİ-nin yollar naziri*

# Heydər Əliyev əsl dövlət adamı idi



***Tikinti gecikirdi, bu isə narahatlıq doğururdu. Belə olduqda, Heydər Əliyeviç BAM-a getməyi qərara aldı.***

Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdə Yuri Andropov ona dəmir yol nəqliyyatının kuratoru olmağı tapşırdı. Elə ertəsi gün Heydər Əliyeviç onu vəziyyətlə, Sovet İttifaqının dəmir yol nəqliyyatının işi ilə tanış etmək üçün məni yanına çağırdı. Təsəvvür edin ki, bizim bu ilk söhbətimiz dörd saatdan çox çəkdi. Onun sahəyə belə maraq göstərməsi aldığı tapşırığa ciddi yanaşmasından xəbər verirdi. Andropov isə ona inanırdı.

O zaman Nazirlər Sovetində vaxtilə L.Brejnev tərəfindən təyin olunmuş çoxlu adam vardı. Belə başa düşürdüm ki, Yuri Vladimiroviç aparatı yaxşı tanıdığı və etibar etdiyi adamlar cəlb etməklə təzələmək istəyirdi. Vaxtilə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərlik etmiş Heydər Əliyeviçin təyinatı bu istiqamətdə ilk addım oldu. Andropov onu çox yüksək qiymətləndirir, təhlükəsizlik orqanlarındakı işinin nəticələrini dəyərləndirirdi. Zənnimcə, ona hökumətdə belə yüksək vəzifəni məhz buna görə etibar etmişdi.

Heydər Əliyeviçlə ilk söhbətimizdən sonra biz hər həftə görüşmək qərarına gəldik və birgə işlədiyimiz bir neçə il ərzində belə də oldu. O, dəmir yol nəqliyyatı ilə bağlı bütün mühüm məsələlər haqqında mənimlə məsləhətləşməmiş, fikrimi dinləməmiş heç bir qərar qəbul etmirdi. Bir qayda olaraq, düzgün qərarlar qəbul edirdi. Bunu həyatın özü də təsdiqləyirdi.

Məsələn, Baykal-Amur Magistralının (BAM) tikintisini xatırlayıram. Bütün bu magistralda hərəkətin 1985-ci ildə açılması haqqında Sov.İKP MK-nın qərarı vardı. Heydər Əliyeviç nəqliyyata cavabdeh olduğundan, tikintinin gedişi ilə çox maraqlanırdı. Sifarişçi biz idik, icraçılar isə Sosnov yoldaşın başçılıq etdiyi Nəqliyyat Tikintisi Nazirliyi idi. Bir müddətdən sonra isə oraya Brejnevin qardaşı oğlu – Vladimir Arkadyeviç Brejnev təyin olundu. O, gənc mütəxəssis idi, işin öhdəsindən pis gəlmirdi. Heydər Əliyeviç bu nazirliyə də hamilik edirdi. Biz üçlükdə tez-tez bu layihə ilə məşğul olurduq. Tikinti gecikirdi, bu isə narahatlıq doğururdu. Belə olduqda, Heydər Əliyeviç BAM-a getməyi qərara aldı. Xatirimdədir, biz üçlükdə oraya yola düşdük. Haradasa piyada, haradasa qatarla, bəzən də təyyarə ilə, sonra isə yenə də piyada gedirdik... Magistralla çox ciddi tanış olurduq, qərarlar dərhal qəbul edilirdi. Məsələn, magistral çəkilərkən 52 kilometr uzunluğunda dolayı yol çəkilməsi kimi mühüm qərar



da elə oradaca, yerindəcə qəbul olundu. Bunun sayəsində BAM-da hərəkət, bir qədər gec də olsa, bütün yol boyu açıldı.

Şəxsi münasibətlərə gəldikdə, bizim belə münasibətlərimiz yox idi, ancaq peşə, iş münasibətlərimiz vardı. Mən Heydər Əliyevin harada yaşadığını bilmirdim, ailəsi ilə tanış deyildim. Çox mehriban və gözəl qadın olan ömür-gün yoldaşının onu yola saldığını yalnız bir dəfə görmüşdüm. Bilirdim ki, bu qadın elm sahəsində görkəmli şəxsiyyətdir. Onların qarşılıqlı münasibətləri xoşuma gəldi. O, həyat yoldaşına çox diqqətcil idi. Təbii ki, o da özünü çox ləyaqətlə aparırdı.

1982-ci ildən 1987-ci ilədək birgə işlədiyimiz vaxt ərzində biz siyasi mövzulara bir dəfə də olsun toxunmadıq. Mənim onunla ünsiyyətim yalnız bir dövlət adamı kimi olurdu. Bütün işlər ancaq dövlətin mövqeyindən qoyulurdu. Heydər Əliyev bir dövlət xadimi kimi, təsərrüfatın bir çox sahələrinə hamilik funksiyalarını yerinə yetirən insan kimi həmişə vəziyyətin fövqündə olurdu.

Çernobılda qəza baş verdiyi günləri xatırlayıram. Yollar Nazirliyi vasitəsilə həll edilməli olan bütün məsələlər uğurla həllini tapırdı. Şübhəsiz ki, Heydər Əliyeviçin köməyi və dəstəyi ilə. Biz oradan 350 min insanı köçürə bildik.

Mənə elə gəlirdi ki, o, dövlət vəzifəsində çalışmasından çox böyük məmnunluq duyurdu, çünki işləməyi çox sevirdi. Mənə hətta elə gəlirdi ki, o, siyasətdən uzaqlaşmasından və konkret işlərlə məşğul olmasından razıdır. Heydər Əliyeviç həmişə bizimlə idi və heç kəsin həll edə bilmədiyi ən çətin məsələlərin həllinə kömək göstərirdi.

***Heydər Əliyeviç həmişə bizimlə idi və heç kəsin həll edə bilmədiyi ən çətin məsələlərin həllinə kömək göstərirdi.***

Onun daim nikbin ovqatda olması şəxsən mənə böyük təsir bağışlayırdı. Həllini gözləyən çoxsaylı ən mürəkkəb məsələlərin olmasına baxmayaraq, həmişə görürdüm ki, o, istənilən məsələnin həllinin mümkünlüyünə əmindir. Bu inam bizi – onun kuratorluq etdiyi nazirləri də ruhlandırırdı. Bu, hafizəmdə həmişəlik qalmışdır.

Bir məsələni də deyim. O, həmişə səliqəli, hər işdə sözübütöv, həmişə nəzakətli idi, heç zaman kobudluğa yol verməzdi. Bir sözlə, o bütün işlərin öhdəsindən məharətlə gəlirdi.

Söhbəti yazdı:
**Asya Hacızadə**
**AzərTAc-ın xüsusi müxbiri**

*II ALEKSİ*
*Moskvanın və bütün Rusiyanın patriarxı*

# Heydər Əliyev danılmaz nüfuza malik olan müdrik siyasətçidir





Cənab Prezident, ümidvarıq ki, Azərbaycan, həqiqətən inkişaf edəcəkdir. Sizin müdrik siyasətçi olmağınız, danılmaz nüfuza malik olmağınız, Azərbaycanda vəziyyəti sabitləşdirməyiniz bunun böyük rəhnidir. Siz bu torpaqda yaşayan insanlara bərabər hüquqlar verilməsinə, dindarların öz dininə, öz inamına etiqad etməsinə, hamının çiyin-çiyinə işləməsinə və bir-birinə qarşı durmamasına nail oldunuz, onlara bu hüquqları verdiniz.

...Bir çox onilliklər ərzində ən məsul dövlət vəzifələrində Sizin əməyiniz yüksək peşəkarlıqla və insanlara həqiqi qayğı ilə əlamətdar olmuşdur. Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyət göstərdiyiniz dövrdə müdrik rəhbər və məsuliyyətli siyasətçi kimi Siz müxtəlif xalqların və dinlərin nümayəndələri, təkcə Azərbaycanın deyil, həm də dünyanın bir çox dövlətlərinin vətəndaşları arasında hörmət və yüksək nüfuz qazanmısınız. Bu, Sizin çox yüksək xidmətlərinizin və əməyinizin səmərəliliyinin təsdiqidir.

Rus Pravoslav kilsəsi Azərbaycan Respublikasının pravoslav sakinlərinin həyatına Sizin şəxsən qayğı göstərməyinizi yüksək qiymətləndirir. Bakıda əzəmətli baş kafedral kilsənin ucaldılması buna sübutdur.

***Heydər Əliyevin əməyi yüksək peşəkarlıqla və insanlara həqiqi qayğı ilə əlamətdar olmuşdur.***

*Yepiskop ALEKSANDR*
*Rus pravoslav kilsəsi Bakı və Xəzəryanı yeparxiyasının başçısı*

# Heydər Əliyev Azərbaycanın və Qafqazın müdrik, xeyirxah lideridir





Hörmətli Heydər Əliyeviç, Azərbaycanın müdrik və xeyirxah lideri kimi Siz Qafqazın bütün rus əhalisi arasında böyük şöhrət qazanmısınız.

Təlatümlü hadisələr Azərbaycanı sarsıdan vaxtlarda nəinki yerli millətdən, həm də rus millətindən olan bütün adamların, bütün Azərbaycan vətəndaşlarının arzusu, əlbət-tə, belə olmuşdur ki, bu çətin dövrdə dövlətə, dövlət hakimiyyətinə məhz Siz başçılıq edəsiniz. İndi görürük ki, ümidlər doğrulmuşdur.

Dövlətin daxili və xarici vəziyyətinin çox mürəkkəb olmasına baxmayaraq, Sizin rəhbərliyinizlə Azərbaycan torpağına əmin-amanlıq və sülh qayıtmışdır. İqtisadi həyatda, siyasi həyatda sabitlik – bunların hamısı Azərbaycana qayıtmışdır. Bakının küçələrində dinc həyatın hökm sürdüyünü yəqin etmək üçün şəhərimizi gəzib-dolaşmaq kifayətdir. Sizin Qafqazda yüksək nüfuzunuz var.

***Təlatümlü hadisələr Azərbaycanı sarsıdan vaxtlarda bütün Azərbaycan vətəndaşlarının arzusu, belə olmuşdur ki, bu çətin dövrdə dövlətə məhz Heydər Əliyev başçılıq etsin.***

*Ernst MÜLEMAN*
*Avropa Şurası Parlament Assambleyası sədrinin keçmiş müavini*

# Heydər Əliyev Azərbaycanda və Qafqaz regionunda sabitliyin dayağıdır



Cənab Heydər Əliyev Qafqaz regionunda sabitliyin dayağıdır. Biz bilirik ki, Balkan yarımadası Avropada "barıt çəlləyi"dir, əfsuslar olsun ki, bu çəllək artıq partladı.

Qafqaz da "barıt çəlləyi"dir, lakin bu çəllək partlamadı. Bəlkə ona görə ki, burada Heydər Əliyev kimi çox güclü siyasi xadimlər fəaliyyət göstərirlər. Bu, böyük nailiyyətdir ki, cənab Əliyev ölkəsini qanunlar əsasında, qanunların gücü ilə idarə edir. Şübhəsiz ki, buna bir gündə, bir ildə nail olmamışdır.

Prezident Heydər Əliyevin fəaliyyəti həm ölkəsi üçün faydalar gətirmişdir, həm də dünya birliyi üçün çox əhəmiyyətli bir amildir. Cənab Heydər Əliyev çox güclü prezidentdir, Avropa Şurası üçün çox böyük nümunələr göstəribdir.



*Lord Rassel CONSTON*
*Avropa Şurası Parlament*
*Assambleyasının keçmiş sədri*

# Heydər Əliyev dünyanın siyasət meydanında böyük nüfuz qazanmış şəxsiyyətdir

Cənab Prezident, Siz elə bir şəxsiyyətsiniz ki, bu regionda və dünyanın siyasət meydanında böyük nüfuz qazanmısınız. Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Mən bu görüşdən istifadə edərək istərdim ki, ölkənizin və bölgənizin düşdüyü çətin problemlərin həllinə Sizin münasibətinizi və bu barədə fikirlərinizi, şərhlərinizi eşidim, Sizdən öyrənim.





*Akkan SUVER*
*Türkiyənin Mərmərə qrupu Strateji və*
*Sosial Araşdırmalar Vəqfinin sədri*

# Heydər Əliyev təkcə Azərbaycanın Prezidenti deyil, bütün bölgənin dayağıdır, XX əsrdən XXI əsrə keçən bir xəzinədir



Möhtərəm Heydər Əliyev təkcə Azərbaycan dövlətinin Prezidenti deyil, eyni zamanda, bütün bölgənin dayağıdır. Canlı əfsanə olan möhtərəm Heydər Əliyev bütün bölgəmizdə, Avrasiyada sülhün bərqərar olunması sahəsindəki xidmətləri ilə yanaşı, türk dünyasında cərəyan etməkdə olan münasibətlərin böyük öndəri və memarıdır. "Əsrin layihəsi" adlandırdığımız Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri layihəsinin memarı da məhz Prezident Heydər Əliyevdir.

Ancaq məni valeh edən başqa bir məqam da vardır. Bu da möhtərəm Heydər Əliyevin ATƏT-in Lissabon sammitində ortaya qoyduğu mövqeyini müdafiə etməsidir. Çətin şəraitə, böyük təzyiqlərə baxmayaraq, siyasi müdrikliyi sayəsində Prezident Heydər Əliyev çox əhəmiyyətli beynəlxalq sənədə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və gələcəyi üçün həyati məna daşıyan fikirləri daxil etməyə müvəffəq olmuşdur. Yüksək siyasətin mahiyyəti, böyük dövlət adamı xüsusiyyəti də məhz belə şəraitlərdə meydana çıxır.

*Möhtərəm Heydər Əliyev XX əsrdən XXI əsrə keçən bir xəzinədir, çox böyük dövlət adamıdır. Əsrimizin, dövrümüzün nadir siyasi xadimlərindəndir.*

Möhtərəm Heydər Əliyev bütün çətinliklərə sinə gərərək, bölgəyə sülhü gətirən bir şəxsiyyətdir. Özünün və xalqının üzləşdiyi haqsızlıq və ədalətsizliklər vardır. Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini hər zaman və xüsusilə də son dövrdə müharibə yolu ilə də həll edə bilərdi. Ancaq belə bir gücü və imkanı olmasına baxmayaraq, Prezident Heydər Əliyev özündən 80 il əvvəl yaşayan başqa bir böyük dövlət adamı - Mustafa Kamal Atatürk kimi "yurdda sülh, cahanda sülh" prinsipi ilə hərəkət edərək, xalqının haqlı, ədalətli mövqeyini danışıqlar masası arxasında müdafiə etdi. Bu işdə də uğurlar əldə olunmuşdur. Həm BMT-nin, həm də Avropa Şurasının və ATƏT-in rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyünün tanınması öz əksini tapmışdır. Bu, diplomatiya nöqteyi-nəzərindən, insanlıq, humanizm baxımından böyük uğurdur.

Biz - Türkiyə türkləri Prezident Heydər Əliyevin dərin mənalı "bir millət, iki müstəqil dövlət" sözlərini zərb-məsəl kimi əzbərləmişik. Bu mənalı sözlərin sahibi Heydər Əliyev söylədiklərini əməli fəaliyyəti ilə də isbat edir.

Söhbəti yazdı:
**Tural Rzayev**
**AzərTAc-ın xüsusi müxbiri**



*Əbdülvahid NİYAZOV*
*3-cü çağırış Rusiya Dövlət dumasında "Avrasiya" Fraksiyalararası Birliyi Şurasının sədri*

# Heydər Əliyev dünya siyasətinin patriarxı, nadir şəxsiyyətdir



"Avrasiya" Partiyasını yenicə yaratdığımız və "Rifah" hərəkatının nümayəndələri kimi "Yedinstvo" blokunun tərkibində Rusiya Federasiyasının Dövlət dumasına daxil olduğumuz vaxt biz, ilk növbədə, dünya siyasətinin patriarxı Prezident Heydər Əliyev ilə görüşmək üçün partiyamızın rəhbərləri ilə birlikdə Bakıya gəldik. Çünki onun məsləhətlərinə, tövsiyələrinə ehtiyacımız vardı.

Heydər Əliyev, şübhəsiz, dünya miqyaslı simadır. O, artıq neçə illərdir, hələ Sovet İttifaqı dövründən bəri, hakimiyyət sükanı arxasındadır. Qeyri-rus millətinin nümayəndəsi, üstəlik, müsəlman olan bir şəxs kimi onun hakimiyyətin ali mərtəbəsinə necə yüksələ və İttifaq səviyyəsində qərarlar çıxarılmasında real surətdə iştirak etməyə necə nail ola bildiyini təsəvvürünüzə gətirin. Elə təkcə bunun özü çox şeyə dəlalət edir.

***Ağır və kəşməkəşli dövrdə hakimiyyətə gələn Heydər Əliyev özünün siyasi iradəsi, tükənməz enerjisi ilə dünyanı heyran qoydu.***

Heydər Əliyevin Bakıda rəhbərliyə hansı şəraitdə qayıtdığı da xatirimizdədir. Bu, elə bir dövr idi ki, ümumən, Azərbaycanın özünün bir dövlət kimi bütövlüyü və gələcəyi məsələsi həll olundu. Ölkənin bir hissəsi işğal olunmuşdu, vətəndaş müharibəsi və respublikanın parçalanması təhlükəsi göz qabağında idi. Belə bir ağır və kəşməkəşli dövrdə hakimiyyətə gələn Heydər Əliyev özünün siyasi iradəsi, tükənməz enerjisi ilə dünyanı heyran qoydu. İndi görürük ki, mövcud olmuş və hələ bu gün də qismən qalan problemlərə (ilk növbədə, Qarabağ münaqişəsi) baxmayaraq, hazırda Azərbaycan bütün sahələrdə - siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə Cənubi Qafqazda, əslində, liderə çevrilmişdir.

Azərbaycana səfərimizin proqramı çərçivəsində Bakıda biz Heydər Əliyev ilə görüşərkən yəqin edirdik ki, o, tamamilə başqa tarixi qiymətə layiq şəxsiyyətdir. Siyasət meydanına gələn və onu tarixdə heç bir iz qoymadan tərk edən müxtəlif siyasətçilər, dövlət liderləri çoxdur. Heydər Əliyev isə canlı tarixdir. Belə siyasətçilər həmişə tək-tük olur. Onlar təkcə öz ölkələrinin deyil, bütöv bir epoxanın tarixini müəyyənləşdirirlər.

Bu insanla şəxsi ünsiyyət olduqca xoş təsir bağışlayır. O, nadir bir insandır. Partiyamızın yaradılması ilə əlaqədar onunla görüşdən qalan xatirələrə qayıdıram. Gənc deputatlar olaraq, biz məsləhət üçün bir ağsaqqal kimi məhz onun yanına gəldik. Bəli, o, keçmiş İttifaq məkanında ağsaqqal idi.



Onunla saat yarımlıq görüşdən necə böyük məmnunluq duyduğumuz yadımdadır. Bu, səmimi, sərbəst söhbət idi, biz adi deputatlar olsaq da, o, öz nüfuzu ilə bizi təntitmirdi. Bu isə, əlbəttə ki, yalnız rəğbət doğurur. Xatirimdədir, cənab Heydər Əliyev bizə ən ümdə problemlərdən danışdı, çox dəyərli tövsiyələr, məsləhətlər verdi.

Prezident Heydər Əliyev, həqiqətən, dünya siyasətinin patriarxıdır, onun şəxsiyyəti hər hansı dövlət xadimi üçün parlaq örnək ola bilər. Hesab edirəm ki, Heydər Əliyevin həyatı öz xalqına, Vətəninə fədakarcasına xidmətin bariz nümunəsidir.

Bunu deməyə lüzum yoxdur ki, bütün çoxşaxəli fəaliyyəti ərzində Heydər Əliyev haqqında - onun uzaqgörənliyi, öz siyasətini qurmaq bacarığı, tükənməz iş qabiliyyəti, nəhayət, nadir yaddaşı haqqında, az qala, əfsanələr gəzib-dolaşır.

Azərbaycanın bəxti gətirmişdir ki, Tanrı ona Heydər Əliyev kimi lider, Prezident bəxş etmişdir, özü də, Azərbaycanın müqəddəratı, suverenliyi və bütövlüyü təhlükə qarşısında qaldığı bir vaxtda! Biz hamımız bilirik ki, Heydər Əliyev ölkəni nəinki böhrandan və hərc-mərclikdən çıxardı, həm də onu bütün postsovet məkanında sanballı dövlətlərdən birinə, dünyada sayılıb-seçilən dövlətə çevirdi.

***Heydər Əliyev ölkəni nəinki böhrandan və hərc-mərclikdən çıxardı, həm də onu bütün postsovet məkanında sanballı dövlətlərdən birinə, dünyada sayılıb-seçilən dövlətə çevirdi.***

*Usamiçe MASATAKİ*
*Yaponiyanın "Nisso İvai" şirkətinin prezidenti*

# Dünya dövlətlərinin Azərbaycana marağı bu ölkəyə Heydər Əliyev kimi müdrik şəxsiyyətin rəhbərlik etməsi ilə bilavasitə bağlıdır





Yaponiyada Prezident Heydər Əliyevi çox nüfuzlu, görkəmli dövlət xadimi kimi yaxşı tanıyırlar və onun fəaliyyətini diqqətlə izləyirlər. Prezident Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində Azərbaycanda son illər yaranmış möhkəm sabitliyin böyük əhəmiyyəti vardır. Dünya dövlətlərinin Azərbaycana maraq göstərməsi bu ölkəyə Heydər Əliyev kimi müdrik bir şəxsiyyətin rəhbərlik etməsi ilə bilavasitə bağlıdır. Həm siyasi, həm də iqtisadi sahədə Azərbaycanda əldə edilmiş nailiyyətlər ondan xəbər verir ki, müstəqil Azərbaycan Respublikası tezliklə ən inkişaf etmiş ölkələrdən birinə çevriləcəkdir.

***Yaponiyada Prezident Heydər Əliyevi çox nüfuzlu, görkəmli dövlət xadimi kimi yaxşı tanıyırlar və onun fəaliyyətini diqqətlə izləyirlər.***

*Yasuda XİROŞİ*
*Yaponiya İxrac-İdxal Bankının prezidenti*

# Azərbaycanda qazanılmış uğurlarda Prezident Heydər Əliyevin yüksək beynəlxalq nüfuzunun xüsusi rolu vardır

Biz Prezident Heydər Əliyevin ötən illər ərzində Azərbaycanda gördüyü çox böyük işlərdən – gənc respublikanın müstəqilliyinin möhkəmləndirilməsi, xarici aləmdə tanınması, islahatların həyata keçirilməsi, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən dünyanın maliyyə qurumları ilə sıx əlaqə yaradılması sahəsindəki fəaliyyətindən xəbərdarıq. Bütün bu sahələrdə qazanılmış uğurlarda Prezident Heydər Əliyevin yüksək beynəlxalq nüfuzunun xüsusi rolu vardır.





*Qulamrza Səbri TƏBRİZİ*
*Böyük Britaniyanın Edinburq Universitetinin professoru*

# Heydər Əliyev böyük məktəbdir, belə şəxsiyyətlər tarixdə nadir hallarda yetişir

Hər bir xalqın tərəqqisi üçün ilkin şərt müstəqillikdir. Şükür ki, bu gün Azərbaycan müstəqildir və millətimizin inkişafı üçün şərait yaranmışdır. Doğrudur, müstəqilliyin ilk illərində ölkədə qarışıqlıq hökm sürürdü, sabitlik yox idi, cürbəcür qanunsuz silahlı dəstələr meydan sulayırdı.

Xoşbəxtlikdən, Heydər Əliyev hakimiyyətə qayıtdı. Mən xalqın nicatını onda görürəm. Heydər Əliyev böyük məktəbdir. Belə şəxsiyyətlər tarixdə nadir hallarda yetişir. Bunu Heydər Əliyevə xüsusi rəğbətim olduğuna görə demirəm. O, hakimiyyətə gələndən bəri hərc-mərcliyin yerini sabitlik tutubdur. İnsanlar əmin-arxayın yaşayırlar. Halbuki, bir neçə il bundan əvvəl nəinki gecə vaxtı, elə gündüz də küçəyə xoflana-xoflana çıxırdıq. İnandırıram ki, heç Londonda da belə sabitlik yoxdur.

Vaxtilə heç kimin tanımadığı Azərbaycan bu gün Heydər Əliyevin yeritdiyi uğurlu xarici siyasət sayəsində beynəlxalq aləmdə özünəməxsus yer tutur. Belə bir ardıcıl siyasət nəticəsində bədxahların bizim əleyhimizə apardıqları məkrli təbliğat puça çıxır.

***Vaxtilə heç kimin tanımadığı Azərbaycan Heydər Əliyevin yeritdiyi uğurlu xarici siyasət sayəsində beynəlxalq aləmdə özünəməxsus yer tutur.***

*Rimma KAZAKOVA*
*tanınmış rus şairi*

# Heydər Əliyev ləyaqətli və heyrətamiz insan, zəmanəmizin ən böyük siyasətçilərindən biri idi





Heydər Əliyev onunla tanışlıq şərəfi nəsib olmuş bütün insanların qəlbində həmişə yaşayacaqdır. Hesab edirəm ki, o, zəmanəmizin ən görkəmli siyasi xadimlərindən biridir.

Heydər Əliyeviç ədəbiyyatla həmişə çox maraqlanırdı, hətta bir dəfə Yazıçılar İttifaqına gəlmişdi. Bu görüş yazıçıların onu mədəniyyətin cəmiyyət üçün əhəmiyyətini dəqiq və dərindən qiymətləndirən çox ağıllı, bilikli insan kimi daha yaxından tanımasına imkan verdi.

Hər hansı siyasətçiyə qiyməti zaman və onun xalqı verir. Heydər Əliyevin dəfn günlərində gördüklərimizə əsasən, birmənalı şəkildə demək olar: xalq onu sevir və qiymətləndirirdi. O, öz xalqı üçün olduqca çox işlər görmüşdür və buna görə də onu xalqının görkəmli oğlu kimi dəyərləndirməmək olmaz.

Heydər Əliyeviç şəxsən mənim diqqətimi öz yenilməz xarakteri ilə daha çox cəlb etmişdir. O, çox ağır bir vəziyyətə düşmüşdü və siyasətçilərdən kimsə çətin ki, öz həyatına və taleyinə belə çevik, belə cəsarət və mərdliklə yanaşa bilərdi. O, həqiqətən, taleyin hökmünə tabe olmadı. Bax, bu, məncə, çox dəyərli keyfiyyətdir. O, xeyli müddət Naxçıvanda yaşadı, nəhayət, elə bir gün gəlib çatdı ki, doğma xalqı onu yenidən dövlətə başçılıq etməyə və ölkəni uğurla irəliyə aparmağa çağırdı.

Mənim bəxtim gətirmişdir, mən Heydər Əliyeviçlə bir neçə dəfə təkbətək görüşmüşəm. Əlbəttə, bu, onun tərəfindən mənə göstərilən alicənablıq idi. O, məni və bir sıra yoldaşlarımı böyük Azərbaycan şairi Füzulinin yubileyinə şəxsən dəvət etmişdi. Yubileydən sonra ziyafət zamanı bir nəfər yanıma gəlib dedi ki, Heydər Əliyeviç mənim ona yaxınlaşmağımı istəyir. Əlbəttə ki, bu, mənim üçün böyük şərəf idi. Çünki belə ağıllı insanla ünsiyyətdə olmaq həmişə maraqlıdır, qələm sahibi üçün isə çox vacibdir. Biz söhbət etdik, yadımdadır, mən qadın cürəti ilə soruşdum: "Mənə elə gəlir ki, Rusiya Azərbaycana və şəxsən Əliyevə bir qədər düzgün münasibət göstərmir?". O mənə dedi: "Mən bunu başa düşürəm. Lakin vaxt gələcək, bu, belə olmayacaqdır". Kiminsə onun xətrinə dəydiyi, nəyinsə düzgün olmadığı barədə söhbəti Heydər Əliyeviçin necə ləyaqətlə davam etdirməməsi məni heyrətləndirdi. Halbuki, o vaxtlar hətta bizim qəzetlər də yazırdı: "Azərbaycanın nə demək olduğunu, hər halda, anlamaq gərəkdir. Azərbaycan neft deməkdir. Bu

***Heydər Əliyeviç şəxsən mənim diqqətimi öz yenilməz xarakteri ilə daha çox cəlb etmişdir.***

***Kiminsə onun xətrinə dəydiyi, nəyinsə düzgün olmadığı barədə söhbəti Heydər Əliyeviçin necə ləyaqətlə davam etdirməməsi məni heyrətləndirdi.***

respublika sovet dövlətində olduqca böyük rol oynayırdı, onunla yaxşı, xoş münasibətləri bərpa etmək və möhkəmləndirmək lazımdır". Əlbəttə, Azərbaycanın başına çox işlər gəldi və hər bir normal insan başa düşür ki, Bakıda törədilmiş 20 Yanvar faciəsi, - amma anlamaq olmurdu ki, qoşunlar şəhərə nə üçün yeridildi və onlar azərbaycanlıları da, rusları da nə üçün qırmağa başladılar, - əlbəttə, böyük milli faciə idi. Bax, bəzən ağılsız siyasətçilər xalqların arasını beləcə birdəfəlik vura bilərlər. Bu, kədər və təəssüf hissi doğurmaya bilməz. Lakin mənə elə gəlir ki, bütün bunlara hələ axıradək qiymət verilməyibdir.

Heydər Əliyeviç öz ölkəsinə rəhbərliyə gələndə, zənnimcə, onun xidmətlərindən biri də bu oldu ki, o, Qarabağ üstündə gedən müharibəni dayandıra bildi, qan tökülməsinə onun səyləri ilə son qoyuldu. Bundan əlavə, o, Azərbaycan Respublikasının beynəlxalq aləmdə yeni status almasına, həqiqətən, nail oldu. Bu da misilsiz xidmətdir, çünki milli ləyaqətin tapdalanması həyatda ən kədərli haldır. Bu isə çox vaxt insanların, cəmiyyətin və ya dövlətin təqsiri ucbatından deyil, müxtəlif şərait üzündən baş verir. Bu halların qarşısını kəsmək və onları dəf etmək, aradan qaldırmaq rəhbər və siyasətçi üçün böyük hünərdir.

Azərbaycanda ilkin neftin çıxarılması münasibətilə mənim də iştirak etdiyim şənlikləri xartırlayıram. Bütün bunların Azərbaycanda necə böyük sevinclə, necə ləyaqətlə və qürur hissi ilə qeyd edildiyini və Heydər Əliyevin necə sevildiyini görürdüm.

Sevimli şairim Bəxtiyar Vahabzadənin yaradıcılıq gecəsində olmağım da yadımdadır. Bildiyiniz kimi, mən onun əsərlərini tərcümə etmişəm. Həmin tədbirdə Heydər Əliyeviç kiçik bir söhbətlə mənə böyük şərəf göstərdi. Onun mənə dediyi sözlər qəlbimdə ömürlük dərin izlər buraxdı və orada xüsusi yer tutdu.

Bir neçə il əvvəl həmkarlarımla birlikdə Heydər Əliyev haqqında sənədli film hazırlayırdım. Heyf ki, bu film ekrana çıxmadı. Lakin Heydər Əliyev müsahibə verməklə məni şərəfləndirdi və dedi: bax, heç kimə müsahibə vermirəm, amma Rimmaya müsahibə verəcəyəm. Mən bu müsahibəni ömürlük yadımda saxlayacağam. Müsahibədə çoxlu sual və olduqca çox dərin mənalı və məzmunlu cavab vardı. Bir sual və onun cavabı xüsusilə yadımda qaldı: "Sizcə, xalqınız necə xalqdır, onun nə kimi mentaliteti var?" O, bir az fikrə getdi, sonra dərin inamla, böyük qürur hissi ilə dedi: "Mənim xalqım çox xeyirxah, genişqəlbli, səxavətli və daim elmə, biliyə can atan xalqdır". "Heydər Əliyeviç, mən bu sözləri bizim xalqımız, rus xalqı barədə də deyə bilərəm!" O cavab verdi: "Siz elə bir rəhbər və ya insan görmüsünüzmü ki, o, öz xalqı barədə başqa bir şey desin?"



***Mən Azərbaycanda vəziyyəti həmişə izləmişəm və respublikaya oradakı dostlarımın gözü ilə baxmışam. Əlbəttə, bu kəhkəşanda ən parlaq ulduz Heydər Əliyev idi.***

Mən Azərbaycanda vəziyyəti həmişə izləmişəm və respublikaya oradakı dostlarımın gözü ilə baxmışam. Əlbəttə, bu kəhkəşanda ən parlaq ulduz Heydər Əliyev idi. Onun necə işlədiyini müşahidə etmək mənim üçün çox maraqlı idi.

Mənə elə gəlir ki, bizim Prezidentimiz Vladimir Putin də Heydər Əliyevə heyran idi, biz bunu onun oğlu İlham Əliyev respublikanın Baş naziri təyin olunduqda Putinin ona göstərdiyi münasibətdə də müəyyən dərəcədə gördük. Vladimir Putinin İlham Əliyevlə görüşü zamanı diqqət yetirdim ki, Prezidentimiz İlham Əliyevə münasibətdəki kimi hələ heç vaxt belə mehriban, qayğıkeş, səmimi olmayıbdır. Mən onun İlham Əliyevə belə, qardaşcasına münasibətini gördüm, bu, hətta ekranda da sezilirdi.

Zənnimcə, Heydər Əliyevin oğlunun – İlham Əliyevin Prezident seçilməsi respublika üçün çox yaxşıdır. Axı, sirr deyil ki, İlham Əliyev çox savadlı adamdır, yüksək insani keyfiyyətlərə malikdir. Mənə elə gəlir ki, belə atanın oğlu başqa cür ola da bilməz. Ümidvaram ki, Heydər Əliyevin həyata keçirməyə başladığı və oğlunun da bu və ya digər şəkildə iştirak etdiyi işlər davam etdiriləcək və yeni-yeni uğurlar əldə ediləcəkdir.

Söhbəti yazdı:
**Asya Hacızadə**
**AzərTAc-ın xüsusi müxbiri**

*Yəhya DAŞDƏLƏN*
*Türkiyədə yaşayan soydaşımız, doktor, professor*

# Prezident Heydər Əliyev xalqımızın çöhrəsini güldürmüş, insanlarımıza güvənc və ümid gətirmişdir





Prezidentimizin dəvəti ilə Bakıya səfərim mənə Vətənimizlə əlaqədar cərəyan edən daxili və xarici hadisələri təhlil süzgəcindən keçirmək və gerçəklikləri gözlərimlə görmək bəxtiyarlığını vermişdir.

Azərbaycanın vəziyyətini anlamaq bizim üçün olduqca vacib məsələdir. Allaha şükür ki, son bir ildən bəri Prezident Heydər Əliyev xalqımızın çöhrəsini güldürmüş, insanlarımıza güvənc və ümid gətirmiş, dövlətimiz yoxdan var olmuş, cəmiyyət daha yaxşı düşünən, vicdanının səsini dinləyən toplum halına gələrək, əmin-amanlıqla yaşamaq şansı əldə etmişdir. Prezident Heydər Əliyevin dünyanın da diqqətini çəkən ictimai-siyasi fəaliyyəti Azərbaycan xalqının böyük dəstəyini qazanmışdır.

Tanrıya şükürlər olsun ki, alternativi olmayan Prezident Heydər Əliyev dövlətimizin sükanını, nəhayət ki, öz qüdrətli əllərinə aldı. Bu gün Prezident Heydər Əliyev ilə xalq arasında həmişəkindən daha artıq bağlılıq meydana gəlmişdir.

Azərbaycanda olduğum müddətdə xalqımızı daha fəal və daha rasional düşünən, siyasəti daha artıq mənimsəmiş bir halda gördüm. Heydər Əliyev iqtidarının məmləkətimizi dünyanın qabaqcıl ölkələri səviyyəsinə çıxaracağına qəti əminəm. Mən Bakıda olduğum günlərdə hiss etdim ki, Prezident Heydər Əliyev və onun irəliyə yönəlmiş düşüncə və siyasəti dövlət idarəçiliyində sağlam ab-hava yaradacaq, Azərbaycanı qüdrətli bir ölkəyə çevirəcəkdir. Məndəki qənaət budur ki, xalqımız indi hər şeydən öncə, dövlətinə və hakimiyyətdəki iqtidara ürəkdən inanır. Gəldiyim daha bir qənaət budur ki, Prezident Heydər Əliyev millətin tarixi siyasi idrakını və təkamülünü bir filosof kimi detallarına qədər çox yaxşı bildiyi üçün onun bütün qərarları fəaliyyət proqramı kimi qəbul olunur.

Bakıda gördüm ki, hökumətin verdiyi bütün qərarlar Prezident Heydər Əliyevin sayəsində məntiq qanunlarını əsas tutur. Azərbaycan Respublikasının dövlət siyasəti dünyada sülhün bərqərar edilməsinə və qorunmasına istinad etməkdədir. Bu siyasətin təməlini başqalarının daxili işlərinə qarışmadan barış içində birgə yaşayış prinsipi təşkil edir. Heydər Əliyev Azərbaycanın xarici siyasətini qonşu dövlətlərin daxili siyasətinə hörmət və ehtiram prinsipi üzərində qura bilmişdir. Fikrimi bir nümunə ilə təsdiqləmək

***Heydər Əliyev Azərbaycanın xarici siyasətini qonşu dövlətlərin daxili siyasətinə hörmət və ehtiram prinsipi üzərində qura bilmişdir.***

*Heydər Əliyev tarixi siması ilə xalqımıza olan xidmətlərini xalq ondan istəmədən, təmənnasız vermişdir.*

istəyirəm: Hələ utopiya və romantizmdən başqa bir dəyəri olmayan və qonşularımızı hürküdən "Vahid Azərbaycan" ifadəsinin ortaya çıxardığı sıxıntılar unudulmayıb. Prezident Heydər Əliyev özündən əvvəlki səriştəsiz rəhbərlərin bu cür xətalarını islah etmək üçün min bir əziyyət çəkməkdədir. Səlahiyyətli siyasət adamının ağzından çıxan hər söz bir daha geri qayıtmaz və ölkənin başına çox bəlalar açar. Prezidentimizin çəkdiyi bu keçici sıxıntılar Azərbaycanın siyasi tarixinə qızıl hərflərlə yazılacaq və sonda Azərbaycan xalqı bunun bəhrəsini görəcəkdir.

**1994-cü ilin avqustunda**
**Bakıda AzərTAc-ın müxbirinə**
**müsahibəsindən**

***

## PREZİDENT HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ GÖRÜNTÜSÜ

Təbiətin bütün canlıları kimi, böyük şəxsiyyətlər də təsadüfən mövcud olmurlar. Onları yetişdirən bir çevrə, bir mühit vardır. Azərbaycanda tarix boyunca bir sıra şəxsiyyətlər yetişmişdir. Elə bunlardan biri də son 70 ilin yetirdiyi böyük simaların ilk sırasında duran cənab Heydər Əliyevdir. Heydər Əliyev bu böyük liderliyini, böyük Atatürk kimi, bitib-tükənmək bilməyən millət qaynağından almışdır. Bir gün olacaqdır ki, Asiya qitəsində Heydər Əliyevin bir müqəddəs həyəcan bayrağı kimi dalğalandığını bizdən sonrakı nəsillər görəcəkdir.

Tarixi şəxsiyyətlər xalqın onlardan gözlədikləri bir çox şeyləri qəlblərində daşıyırlar. Heydər Əliyev də tarixi siması ilə xalqımıza olan xidmətlərini xalq ondan istəmədən, təmənnasız vermişdir.

Heydər Əliyev hazırda sivilizasiya uğrunda mübarizə aparmaqdadır. Azərbaycanın bügünkü müharibəsi, insanlığın mənfəəti və Şərq millətlərinin xoşbəxtliyi üçündür. Heydər Əliyev, insanları xoşbəxt etmək üçün onları bir-birinə yaxınlaşdırmaq arzusundadır.



*Heydər Əliyev Azərbaycanda demokratiyanın həm ideoloqu, həm təşkilatçısı və həm də icraçısıdır.*

Heydər Əliyev, eynilə Atatürk kimi, nə ideoloji, nə də mənfi fikirləri yerləşdirmək məqsədində, amalında deyildir. Atatürk demokratiyanı mənimsəmiş və zorakılığa qarşı çıxmışdır. Prezident Heydər Əliyev də eyni yoldadır, dövləti qorumaq üçün gördüyü hüquqi tədbirlərin zorakılıqla əlaqəsi yoxdur. Heydər Əliyev eynən Atatürk kimi, doktrinaçılıq anlayışından uzaq olub, demokratiya tərəfdarıdır.

Heydər Əliyev xalq qarşısında özünü məsuliyyətli hesab edir. Atatürk kimi, o da etinasız idarəçiliyin qarşısını almaqdadır. Heydər Əliyev "hər şeyi mən bilirəm" iddiasında deyildir. Bütün qərarlarını millətlə ortaq şəkildə almaq səyində bulunur.

Heydər Əliyev bütün dünya qarşısında siyasi anlayışının hesabını açıqca ortaya qoya bilməkdədir. Atatürk kimi, o da millətin bütünlüyü və azadlığı üçün qurtuluş savaşı verməkdədir. Hökumətin və hakimiyyətin millətin bir parçası olduğunu qətiyyətlə ifadə etməkdədir.

Heydər Əliyev Atatürk kimi beynəlmiləlçidir, fundamentalist deyildir. Heydər Əliyev Azərbaycanda demokratiyanın həm ideoloqu, həm təşkilatçısı və həm də icraçısıdır. Görüntü budur və buna qətiyyətlə inanmaq lazımdır ki, Prezident Heydər Əliyevin heç bir zaman alternativi yoxdur.

*Aleksandr KOVTUNOV*
*general-polkovnik, RF Təhlükəsizlik və Hüquq Qaydası Akademiyasının üzvü*

# Heydər Əliyev ədalətli insan idi və müdafiəyə ehtiyacı olanları həmişə dəstəkləyirdi





Heydər Əliyeviçlə mən 1972-ci ildən, Bakıya 4-cü ümumqoşun ordusunun diviziya komandiri vəzifəsinə gəldiyim vaxtdan tanış idim. Xidməti vəzifəmlə əlaqədar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə təqdim edildim. O, məni qəbul edərək, respublikada vəziyyətdən, həyata keçirilən işlərdən danışdı. O vaxt respublika yenicə dirçəlməyə başlayırdı. Heydər Əliyevin rəhbərliyi ilə çox böyük miqyasda inşaat işləri görülür, zavodlar, fabriklər tikilir, neft-qaz sənayesi infrastrukturunun əsası qoyulurdu, bir sıra digər müəssisələr meydana gəlmişdi. Heydər Əliyeviç bütün qüvvə və bacarığını respublikanın yüksəlişinə yönəldirdi. O, buna nail oldu. Demək olar ki, bütün quruculuq prosesləri onun adı ilə bağlıdır.

Heydər Əliyeviçlə ilk ünsiyyətdən sonra başa düşdüm ki, bu insanın yanına gedəndə görüşə ciddi hazırlaşmaq lazımdır. Ona hər hansı bir məsələ barədə elə-belə danışmaq olmazdı, hər şey konkret, dəqiq, əyani və aydın olmalı idi. Onun özü də belə danışırdı. O, çox böyük iş qabiliyyətinə malik, çox diqqətcil insan idi, təkcə respublikanın təsərrüfatı ilə bağlı məsələlərə deyil, hərbi məsələlərdə və xüsusən xarici siyasət məsələlərində də çox savadlı və səriştəli idi. Bir sözlə, demək istəyirəm ki, o, qeyri-adi insan, işini bilən, sözünün sahibi olan, ağlasığmaz dərəcədə əməksevər insan idi. Mən bunu sonralar dəfələrlə yəqin etdim. KP MK Bürosunun üzvü kimi hər həftə keçirilən iclaslarda respublikanın inkişafı ilə bağlı məsələlərin necə müzakirə edildiyini görürdüm. O, hər bir məsələnin təfərrüatına varır, vəziyyəti araşdırıb öyrənir, bütün məsələlərin incəliklərini bilirdi.

Qeyd etmək istərdim ki, o, qoşunlarda işlərin necə getməsi ilə daim maraqlanırdı, hərbçilər onun qayğı və diqqətini həmişə hiss edirdilər. Biz çoxlu təlimlər keçirirdik, Sovet İttifaqının müdafiə naziri Ustinov və Baş Qərargahın rəisi marşal Oqarkov onlardan birinin gedişini izləmək üçün Bakıya gəlmişdilər. Yeri gəlmişkən, onlar qoşunlarımızın döyüş hazırlığını yüksək qiymətləndirdilər. Heydər Əliyev qoşunların lazımi şəraitinin olmasına, zabitlərin mənzillə təmin edilməsinə və digər mühüm məsələlərə böyük diqqət yetirirdi. O, orduda yüksək nüfuza malik idi.

Heydər Əliyeviç şəxsən mənim həyatımda da mühüm rol oynamışdır. Onun nadir insani keyfiyyətlərini əyani şəkildə

***Heydər Əliyeviç şəxsən mənim həyatımda da mühüm rol oynamışdır.***

göstərən kiçik bir fraqment. Hər yerdəki kimi, orduda da müxtəlif adamlar, onların arasında isə paxıllar, kiməsə ədavət, kin-küdurət bəsləyənlər, kimisə dolaşdırmaq istəyənlər olur. Mən Bakıda olarkən, sələfim, general Kirilyuk mənim əleyhimə kampaniyaya başlamışdı: göstərmək istəyirdi ki, əvvəllər ona tapşırılmış işin öhdəsindən başqa birisi gəlməyə qadir deyildir. Mənə üzdə bir şey deyirdi, gedəndən sonra rəhbərliyə isə başqa şeylər söyləyirdi. İş o yerə çatdı ki, mənim başqa yerə göndərilməyim barədə məsələ qaldırıldı, mən hətta yeni vəzifəyə keçməyə razılıq verməyə məcbur oldum. Deməş, Heydər Əliyeviç mənim barəmdə başqa cür fikirləşirmiş. Onda ətraflı məlumat vardı. Məlum oldu ki, o, mənim haqqımda İttifaqın müdafiə nazirinə məlumat vermiş və mənə dəyməməyi xahiş etmişdir. Heydər Əliyeviçin bu alicənablığından sonra, yalnız o, Moskvaya, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə getdikdən sonra xəbər tutdum. O, gedərkən Büronun bütün üzvlərini çağırıb söhbət etdi. Növbə mənə çatanda, adəti üzrə, vəziyyət barədə ona məlumat verdim. Məndən soruşdu ki, onun yeni təyinatına necə baxıram. Cavab verib dedim: "Heydər Əliyeviç, Sovet İttifaqının rəhbərlərindən biri olmaq şəxsən Sizə, Azərbaycan xalqına böyük etimaddır. Sizdə bundan ötrü bütün keyfiyyətlər var. Siz fitri istedada, zəngin təcrübəyə, dərin biliyə, siyasi müdrikliyə, yüksək zəkaya, uzaqgörənliyə maliksiniz". Heydər Əliyeviç bir az düşünüb soruşdu: "Bəli, belədir. Amma mən burada kiməm?" Cavab verdim: "Birinci şəxssiniz". O isə yenidən soruşdu: "Bəs, orada kiməm?" Görünür, o, artıq onda bilirdi ki, çox mürəkkəb bir şəraitə düşəcəkdir. Sonralar baş vermiş hadisələri sanki qabaqcadan gördüyü üçün respublikadan getməyi çox da istəmirdi. Lakin onda da dövlət qarşısında borcunu yerinə yetirməyi üstün tutdu. Axırda Heydər Əliyeviç ondan inciyib-incimədiyimi soruşdu. Bu suala çox təəccübləndim. Dedim ki, Siz mənə çox yaxşılıqlar etmisiniz və mənim üçün olduqca dəyərli insansınız. Deməş, bu sualı elə-belə vermirmiş, düşünürmüş ki, mən Moskvada işləmək istəmişəm, amma buraya, Azərbaycana gəlib çıxmışam. Mən cavab verdim ki, Moskvaya getmək istəmirdim, məni oraya getməyə, sadəcə olaraq, məcbur edirdilər.

Bax, elə orada danışdı ki, bunu bilirdi və Ustinovdan

***Heydər Əliyev qeyri-adi insan, işini bilən, sözünün sahibi olan, ağlasığmaz dərəcədə əməksevər insan idi.***



bir neçə dəfə xahiş etmişdi ki, mənə dəyib-toxunmasınlar. O dedi: "Buna görə sən məndən inciyə də bilərsən, inciməyə də. Sənin Moskvaya getməməyinin, burada qalmağının təqsirkarı mənəm". Mən ona özünün sözləri ilə cavab verdim: "Mən burada kiməm – birinci hərbçi. Bəs, orada kiməm – mən orada heç kiməm".

Yadımdadır, o istəyirdi ki, Büro üzvü kimi mən rayonlara gedim, orada görülən işlərlə tanış olum. Mənə qabaqcıllara mükafatlar təqdim etməyi tapşırırdı. Mən Azərbaycanın bütün rayonlarını gəzib-dolaşdım. Onunla birlikdə İsmayıllı rayonunda təbii fəlakət zonasında olduq. O, mənə zəng vurub dedi ki, oraya çadırlar lazımdır. Bildirdim ki, bizdə çadırlar var, amma toxunulmaz ehtiyatdadır. Biz onun təkidi ilə müdafiə nazirinin arxa məsələləri üzrə müavini Kurkotkinə zəng vurduq, vəziyyəti dedik. Sonra isə biz birlikdə təbii fəlakət zonasına getdik və rayonu lazım olan hər şeylə təmin etdik. Şəxsən Heydər Əliyeviç o vaxt İsmayıllı rayonunda çox işlər gördü.

Heydər Əliyeviçlə bağlı bir məqamı təbəssümlə xatırlayıram. Bir dəfə İraqdan bizə nümayəndə heyəti gəlmişdi. Mən onlarla təlim keçirdim. Heydər Əliyeviçi, Azərbaycan KP MK Bürosunun və respublika hökumətinin üzvlərini təlimlərə dəvət etdim. Kosmonavt Pavel Popoviçin arvadı Marina Popoviç də bu tədbirə gəlmək istədiyini bildirdi. Təyyarəçi, idmançı olan Marina Popoviç Bakıda zabitlərə mühazirə oxuyurdu. Dedim ki, Heydər Əliyeviç də orada olacaq, buna görə də səni oraya buraxmaq olmaz. Lakin o, dediyindən dönmədi və xahiş etdi ki, orada qalmasına icazə versinlər. Hətta söz verdi ki, orada olmasının səbəbini Heydər Əliyeviçə özü danışacaqdır.

Xatirimdədir, Heydər Əliyev maşından çıxdı və məni qadınla gördü. Deyəsən, fikirləşdi ki, həyasızlığa bax, arvadını belə bir tədbirə gətiribdir... O, üz-gözünü turşutdu. Mən yaxınlaşıb vəziyyət barədə məlumat verdim, elə bu an Marina Popoviç ona yaxınlaşıb, əlini uzatdı və özünü təqdim etdi: polkovnik Popoviç. Bunu eşidən kimi Heydər Əliyeviç gülərək dedi: "Mən sizin haqqınızda çox eşitmişəm, amma birinci dəfədir görürəm". Heydər Əliyeviç onu bağrına basdı, öpüb qoluna girdi, məşğələnin davam etdiyi bütün üç saat ərzində özü ilə gəzdirdi.

***Heydər Əliyeviçlə ilk ünsiyyətdən sonra başa düşdüm ki, bu insanın yanına gedəndə görüşə ciddi hazırlaşmaq lazımdır.***

Sonda bir daha demək istəyirəm, bəlkə də, təkrar edirəm, Heydər Əliyeviç bir rəhbər kimi, özü də ciddi, bütün təfərrüata dərindən varan rəhbər kimi xüsusi istedada malik idi. Bəzən özüm-özümdən soruşuram: "Hə, yaxşı, mən onun nəyiyəm? Mənim kimilər o qədərdir ki..." Amma o, dar günümdə imdadıma çatdı, məni böhtanlardan, dedi-qodulardan qorudu. Axı, müdafiə nazirindən, illah da ki, Stalinin xalq komissarı olmuş Ustinov kimi qəliz adamdan nə isə xahiş etmək hər kəsin işi deyildi... Lakin Heydər Əliyev mənim taleyimə biganə qalmağı özünə rəva görmədi. Bilirdi ki, məni heç nədən, əsassız olaraq incidirlər. Kimi isə müdafiə etmək üçün möhkəm iradə və insanlıq gərəkdir. O, belə məsələləri ədalətlə həll etməyi özünə borc bilirdi. Mən tək deyildim, o, hər bir konkret halda məsələni araşdırır, insanlara kömək edirdi. Onun müdafiə etdiyi, dəstəklədiyi, kömək göstərdiyi adamları çox görmüşəm. O, heç kimin taleyinə biganə qalmırdı. Bax, bu baxımdan da, o, qeyri-adi, nadir insan idi. Səhlənkarlığa heç vaxt yol verməzdi, özünə qarşı da son dərəcə tələbkar idi, hamıdan da dəqiqlik, nizam-intizam, mənəvi paklıq tələb edirdi.

*Heydər Əliyeviç bir rəhbər kimi, özü də ciddi, bütün təfərrüata dərindən varan rəhbərkimi xüsusi istedada malik idi.*

Söhbəti yazdı:
**Asya Hacızadə**
**AzərTAc-ın xüsusi müxbiri**



*Keçmiş Ukrayna KP MK-nın katibi*
# Yakov POQREBNYAKIN *Kiyevdə çıxan "Faktı i kommentarii" qəzetinə müsahibəsi*

## "Admiral Naximov" qəzaya uğrayanda həlak olanların cəsədləri evlərinə göndərilməzdən əvvəl hökumət komissiyasının sədri Heydər Əliyev dedi: "Deyəsən bu yara ürəyimdə həmişəlik qalacaq!"

### TEZLİKLƏ O, İNFARKT KEÇİRDİ

1977-ci ildə Kiyevə, Ukraynada sovet hakimiyyəti qurulmasının 60 illiyi münasibətilə keçirilən şənliklərə gəlmiş Azərbaycan nümayəndə heyətinə respublika KP MK-nın birinci katibi Heydər Əliyev başçılıq edirdi. UKP MK-nın katibi kimi mən azərbaycanlı yoldaşlara təhkim olunmuşdum.



Azərbaycan nümayəndə heyəti Roza Lüksemburq küçəsindəki mülkdə qalırdı. Həyat yoldaşımla şam yeməyinə dəvət olunduq. Təbii ki, süfrədə Ukrayna xörəkləri üstünlük təşkil edirdi. Heydər Əliyev süfrədəki naz-nemətı nəzərdən keçirərək dedi: "Ukraynalılar, hər halda, yaxşı yeməklər bişirirlər!"

Mən isə Azərbaycandan gətirilmiş Şərq şirniyyatına və konyaka diqqət yetirdim.

Heydər Əliyev ünsiyyətdə sadəliyi, səmimiliyi ilə fərqlənsə də, yaxası açıq olmazdı. Əksinə, pencəyi həmişə düyməli idi – vaxtilə orqanlarda işləməsi özünü göstərirdi.

*Heydər Əliyev ünsiyyətdə sadəliyi, səmimiliyi ilə fərqlənirdi.*

Əliyev Ukraynaya xanımı ilə gəlmişdi. Heydər Əliyeviç tibb elmləri doktoru olan həyat yoldaşı ilə fəxr edirdi. O, ərindən geri qalmırdı. Yeri gəlmişkən, digər respublikaların liderlərindən fərqli olaraq, Əliyevlər rusca, demək olar, aksentsiz danışırdılar. Ukrayna haqqında, liderimiz Vladimir Şerbitski barədə çoxlu xoş sözlər söyləndi. Azərbaycan nümayəndə heyətinin digər üzvlərinin çıxışlarında Heydər Əliyevin özünün ünvanına tərifli sözlər səsləndi. Əslinə qalsa, tərifli sözlərin bir qismi haqlı idi – Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın ictimai, siyasi və işgüzar həyatı canlanmışdı.

### ƏLİYEVİN MOSKVAYA GƏTİRİLMƏSİ HAQQINDA ANDROPOVUN QƏRARI GÖZLƏNİLMƏZ OLDU

Biz üç ildən sonra, 1980-ci ildə Bakıda görüşdük. Ukrayna nümayəndə heyəti Azərbaycan SSR-in yaradılmasının 60 illiyinin bayram edilməsi şənliklərinə gəlmişdi. Mən Azərbaycana ilk dəfə gəlmişdim və Xəzər dənizindəki neft platformasına ekskursiya bütün ömrüm boyu yaddaşımda qaldı. Burada neftçilər bizi mehribanlıqla qarşıladılar və Azərbaycan çörəyinə, bir qədəh konyaka və kişmişə qonaq etdilər. Azərbaycan-Ukrayna dostluğu şərəfinə yenicə badə qaldırmışdıq ki, güclü külək bizim olduğumuz buruğu sanki taxta parçası kimi yırğalamağa başladı. Belə qeyri-adi vəziyyətə düşəndə hətta bir az qorxduq. Sahilə çatanadək bir fikir başımızdan çıxmırdı: "Təki Xəzərin dibinə qərq olmayaq..."

Respublika sarayında keçirilən təntənəli mərasimdə bütün sovet respublikalarının birinci şəxsləri iştirak edirdilər (Ukraynanı respublika Ali Soveti Rəyasət Heyətinin sədri Aleksey Vatçenko və mən, MK katibi təmsil edirdik). Təkcə Sov.İKP MK-nın Baş katibi gəlməmişdi, o xəstə idi. Lakin iclasın əvvəlində Heydər Əliyevi səhnə arxasına çağırdılar. O, beş dəqiqədən sonra qayıdıb dedi: "Leonid İliç Brejnev zəng vurmuşdu. Yubiley münasibətilə bizi təbrik etdi".



Heydər Əliyev məhz Leonid Brejnevin tövsiyələri ilə 1982-ci ildə, Baş katibin vəfatından sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Yuri Andropovun bu addımı çoxları üçün gözlənilməz oldu, lakin Azərbaycanın sabiq lideri özünün işgüzar keyfiyyətləri ilə hökumət rəhbərliyinə uyğun gəldi. Nəqliyyat, ticarət və məişət xidməti məsələləri onun səlahiyyətinə daxil idi. Məsələn, Əliyev Baykal-Amur magistralının tikintisini başa çatdırmaq üçün çox qüvvə sərf etdi. O vaxt belə hesab olunurdu ki, Çin sərhədindən yan keçən dəmir yol Vladivostokadək məsafəni xeyli qısaldacaqdır.

*Heydər Əliyev Baykal-Amur magistralının tikintisini başa çatdırmaq üçünçox qüvvə sərf etdi.*

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi 1986-cı ilin avqustunda "Admiral Naximov" gəmisinin Novorossiysk yaxınlığında qəzaya uğraması nəticəsində zərər çəkənlərə yardım göstərilməsi üzrə hökumət komissiyasına başçılıq edirdi. Mən Ukrayna qrupunun rəhbəri idim. Hər iki gəmi – "Admiral Naximov" və "Pyotr Vasev" - Qara Dəniz Gəmiçiliyi İdarəsinə aid olduğuna, həlak olmuş 423 nəfərin isə 280-i ukraynalı olduğuna görə, cəsədlərin tanınması, evlərinə göndərilməsi və ailələrə maddi yardım göstərilməsi işlərinin əsas ağırlığı bizim qrupun üzərinə düşürdü.

Mən Novorossiysk hava limanında Heydər Əliyevi qarşılayanda o dedi: "Bugünkü görüşümüz heç də yaxşı görüş deyil!"

### SUDA BOĞULANLARIN SİFƏTİ QORXUDAN ƏYİLMİŞDİ, ÇOXLARININ SAÇLARI ÇƏNGƏ-ÇƏNGƏ QOPMUŞDU

- Günün işıqlı vaxtlarında Qara dəniz xilasediciləri, Baltik dənizindən və Xəzərdən köməyə gəlmiş həmkarları meyitləri sudan çıxarırdılar. Həlak olanların şəxsiyyəti müəyyənləşdirildikdən sonra onların cəsədləri yola salınmaq üçün dəmir yol terminalına gətirilirdi. Əliyevlə birlikdə biz,

əslində, hər gün bu terminalda olurduq. Heydər Əliyeviç ölənlərin sayını və əslən haralı olduqlarını dəqiqləşdirirdi. Gözlərimiz qarşısında cəsədləri geyindirir və refrijeratorlara yığırdılar. Suda boğulanların sifəti qorxudan əyilmişdi, çoxlarının saçları çəngə-çəngə qopmuşdu. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini qəmgin-qəmgin gəzinir və tez-tez də təkrar edirdi: "Deyəsən, bu yara ürəyimdə həmişəlik qalacaq!" Doğrudan da, tezliklə o, infarkt keçirdi.

Əvvəllər, onun rəhbərliyi ilə Azərbaycanda işlər yaxşı gedəndə, ovqatı yaxşı olurdu, tez-tez zarafat edirdi. Moskvaya gələndən sonra isə Heydər Əliyevin üzündəki təbəssüm azaldı. Paytaxtda Qorbaçovla münasibətləri düz gəlmirdi - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini siyasi islahatların sürətləndirilməsini təqdir etmirdi. Bundan əlavə, Novorossiysk faciəsindən bir il əvvəl həyat yoldaşını itirmişdi. Heydər Əliyev onu böyük ehtiramla xatırlayırdı: "O, mənim əsl dostum idi. Mən ən əziz adamımı itirdim!" Ailə bədbəxtliyi və işlə bağlı qayğılarla yanaşı, "Naximov" gəmisinin faciəsi də onun çiyninə düşdü. Əliyev bu faciəni ürəyinə saldı.

*Heydər Əliyevin Qorbaçovla münasibətləri düz gəlmirdi - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini siyasi islahatların sürətləndirilməsini təqdir etmirdi.*

Heydər Əliyev başda olmaqla komissiya hər gün saat 18.00-da şəhər sovetinin klubunda axtarışların gedişi barədə həlak olanların qohum-qardaşlarına məlumat verirdi. "Naximov"un batması xəbəri televiziya ilə veriləndə ilk günlər Novorossiyskə gəmidə həlak olanların 300-ə yaxın qohum-əqrəbası gəlmişdi, dördüncü gün isə onların sayı 900-ə çatmışdı. Xilas edilənlərin də adamları gəlmişdi.

Sualtı axtarışların üçüncü günü dalğıclardan biri həlak oldu, gəminin qırıqlarından biri onun oksigen şlanqını deşmişdi. Bundan sonra Heydər Əliyev, gözləri yaşarmış halda, həlak olanların qohum-qardaşlarına axtarış işlərinin dayandırıldığını elan etdi.

Biz Heydər Əliyevlə salona, hönkürtü ilə ağlayan adamların yanına gəldik. Buradakıların yarısı əzizlərinin həlak olduqlarını bilirdi. Möcüzəyə ümid qalmamışdı. Heydər Əliyev ağlayan bir qadına yaxınlaşdı, onu qucaqlayıb öpdü. Sonra isə xalasının yanında dayanmış 15 yaşlı bir oğlana yaxınlaşdı: onun valideynləri həlak olmuşdu. Heydər Əliyeviç oğlanı qucaqlayıb astadan dedi: "Başımıza belə bir iş gəldi. Biz əlimizdən gələni edəcəyik ki, sən ali məktəbi bitirəsən, sənə təqaüd təyin edəcəyik..."



**HEYDƏR ƏLİYEV STRESS VƏZİYYƏTİNDƏN ÇIXMAQ ÜÇÜN BİR QƏDƏH KONYAK İÇİRDİ**

Biz səhər və axşam yeməyini vilayət partiya komitəsinin mehmanxanasının restoranında edirdik, Heydər Əliyev elə orada ikiyerlik adi nömrədə qalırdı. Axşam, stressdən çıxmaq üçün Heydər Əliyev bir qədəh konyak içirdi. Mədəmdəki yaranın ağrısı kəskinləşdiyindən mən hətta bunu da edə bilmirdim.

Faciəni bir anlıq da olsa unutmaq üçün süfrə arxasında başqa mövzular tapmağa çalışırdıq. Bütün fikrini ittifaq büdcəsinin tərtibinə yönəldən Heydər Əliyeviç deyirdi ki, ölkə təkcə xammal ixracı hesabına yaşamamalıdır. SSRİ-nin sanballı iqtisadi inkişaf proqramının olmamasından təəssüflənirdi.

... "Admiral Naximov" teploxodunda axtarış işləri 50 metr dərinlikdə işləyən 10 dalğıcın ikincisi həlak olana qədər davam etdirildi. Səbəb elə həminki idi: gəminin qırıntıları oksigen şlanqını kəsmişdi. Bu faciəni ürəyinə salan Heydər Əliyev sınıxmış vəziyyətdə Moskvaya yola düşdü. O, öz səlahiyyətlərini mənə verərək dedi: "İnsanların dərdini mümkün qədər azaltmaq üçün əlinizdən gələni edin!"

Şəxsi keyfiyyətləri və vətəndaş mövqeyi sayəsində Heydər Əliyevə istər sovet Azərbaycanında, istərsə də ölkə müstəqillik əldə etdikdən sonra ehtiyac var idi. Dəqiq bilirəm ki, o, MK-da işləyərkən axşam saat 10-dan tez evə getmirdi. Respublika MK-nın birinci katibi işlədiyi illərdə o, demək olar ki, bütün kəndlərdə və zavod kollektivlərində olmuşdur. Milli incəsənəti qiymətləndirir, Azərbaycan opera teatrının bütün ilk tamaşalarında olurdu. Müslüm Maqomayevə həyat vəsiqəsi vermişdir. Azərbaycan dilinin mükəmməl surətdə tədris olunmasında təkid edirdi. Bununla da, sözsüz ki, xalqının məhəbbətini qazanmışdır.

1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hərc-mərclikdən sonra Heydər Əliyevə yenidən ehtiyac yarandı. Partiya rəhbəri kimi yox, hamı tərəfindən qəbul edilmiş milli lider kimi.

*1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hərc-mərclikdən sonra Heydər Əliyevə yenidən ehtiyac yarandı. Partiya rəhbəri kimi yox, hamı tərəfindən qəbul edilmiş milli lider kimi.*

**"Faktı i kommentarii" qəzeti, 13 may 2003-cü il.**

*Jan ROREN*
*Fransa-Azərbaycan Ticarət Palatası sədrinin müavini*

# Azərbaycanın bəxti gətirib ki, ona Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir





Azərbaycanın bəxti gətirib ki, ona böyük dövlət xadimi - millətin inkişafının rəhni olan demokratiya və bazar iqtisadiyyatı əqidəli, nadir dünyagörüşlü bir vətənpərvər və ziyalı rəhbərlik etmişdir. O, dünyəvi respublika qura bilmişdir.

Mənim Azərbaycanla ilk tanışlığım poçt markası kolleksiyası vasitəsilə olmuşdur. Dünyaya və coğrafiyaya hədsiz marağımla əlaqədar kolleksiyam üçün poçt markaları toplamağa başladım. Yaraşıqlı albomumun ilk səhifəsində Abissiniya (Efiopiya – *red.*) sözündən sonra Azərbaycan adını qeyd etdim. 1918-1920-ci illərdə mövcud olmuş respublikanın markasını əldə etməkdə bəxtim yamanca gətirdi.

Azərbaycana ilk gəlişim 1974-cü ilə təsadüf etdi. Həmin dövrdə sovet neft sənayesi naziri cənab Şaşin məndən Bakıda konfrans təşkil etməyi xahiş etmişdi.

Azərbaycanla bu ilk tanışlıq məndə çox böyük təəssürat doğurdu, mədəniyyət, memarlıq, azərbaycanlıların qonaqpərvərliyi məni hədsiz dərəcədə aludə etdi və özlüyümdə yenidən buraya gəlməyi qərara aldım. 1980-ci ildə ikinci dəfə Bakıya gəldiyim zaman burada artıq özümü qərib kimi hiss etmədim.

1990-cı ildə sovet qoşunlarının Bakıya daxil olması barədə Parisdə xəbər tutdum. Sonra müstəqillik qazanıldı. Daha sonra mənim dost ölkəmin siyasi sabitliyinin pozulmasına cəhdlər göstərildi. Üstəlik, Gəncədən Bakının üzərinə qoşun yeridildiyini eşitdim. Yenidən oraya getmək üçün Azərbaycanda sabitlik bərqərar olana qədər gözləməyi qərara aldım.

1993-cü ilin dekabrında S.N.A.F. məni Azərbaycanın yeni Prezidenti cənab Heydər Əliyevin rəhbərliyi ilə keçirilən yığıncaqda iştirak etməyə dəvət etdi. Orada Prezident Heydər Əliyevin nitqi mənim üçün bir inqilab idi: səlis, aydın, məntiqli və inamlı danışıq. General de Qolla qulaq asdığımı zənn edirdim. Onun sözləri 1974-cü ildə xatirimdə qalmış çıxışını bir daha xatırlatdı.

Fransa müəssisələrinin neft sektorunda Azərbaycanla birlikdə işləmək arzusunu cənab Prezidentə çatdırmaq üçün söz aldım. Prezident Heydər Əliyev haqlı olduğumu bildirdi və tezliklə Bakıya gəlməyimin vacibliyini söylədi.

TOTAL-ın direktorları ilə birlikdə Prezident Heydər Əliyevin qəbulunda onunla görüşmək xoşbəxtliyi bir daha

***Prezident Heydər Əliyevin nitqi mənim üçün bir inqilab idi: səlis, aydın, məntiqli və inamlı danışıq. General de Qolla qulaq asdığımı zənn edirdim.***

XXI əsrin görkəmli siyasi xadimi Prezident Heydər Əliyev böyük təşkilatçıdır.

mənə nəsib oldu. Həmin dövrdən Xəzər neft-qaz sərgilərində, protokol sənədləri imzalananda, Paris və Strasburqa səfərləri zamanı cənab Prezidentlə dəfələrlə görüşdüm.

Prezident Heydər Əliyevin Parisə səfəri zamanı sədr müavini olduğum Fransa-Azərbaycan Ticarət Palatasının üzvlərini qəbul etməsi bizdə xoş duyğular yaratdı. Onu da deyim ki, Azərbaycanın Parisdəki səfiri Eleonora Hüseynova bu görüşün təşkilində bizə çox kömək göstərmişdi.

Özümü Prezidentin mətbuat xidmətinin məlumatlarını oxumağa və öyrənməyə vərdiş etdirmişəm. "Azərbaycan intənəşnl" jurnalının mütəmadi çap etdiyi yazıları bəyənirəm. Məhz bu yazıların sayəsində cənab Heydər Əliyevin ideyalarının əsas məğzi barədə məndə aydın fikir yarandı: Dağlıq Qarabağ probleminin nizama salınmasına dair plan və ideyaları, dövlətin modernləşdirilməsi, bazar iqtisadiyyatını və demokratiyanı daha da inkişaf etdirmək istəyi. Mən cəsarətlə deyə bilərəm ki, bu deyilənlərin əksəriyyəti artıq həyata keçirilir.

Cənab Heydər Əliyevin bəzi fikirləri ilə tanışlığımı nəzərə alaraq, Bakıya səfər ərəfəsində Fransanın xarici işlər nazirinə məsləhət vermək mənə həvalə edilmişdi. Sonralar mənə görüşün yüksək səviyyədə keçdiyini bildirdilər.

XXI əsrin görkəmli siyasi xadimi Prezident Heydər Əliyev böyük təşkilatçıdır. 1994-cü ildə Qərb ölkələrinin neft şirkətləri "Əsrin müqaviləsi"ni imzaladı.

Prezident Heydər Əliyevin əməli fəaliyyəti Azərbaycanın işıqlı gələcəyindən, iqtisadi cəhətdən qüdrətli bir ölkə olacağından xəbər verir. Mən buna inanıram.

Söhbəti yazdı:
**Əsgər Əliyev**
**AzərTAc-ın xüsusi müxbiri**



*Pavel BORODİN*
*Rusiya-Belarus İttifaq dövlətinin dövlət katibi*

# Dünya siyasi liderlərindən, bəlkə də, yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar

Heydər Əliyev təkcə Azərbaycanı deyil, bütün postsovet məkanını idarə etməyə qadir heyrətamiz liderdir.

Heydər Əliyev təkcə Azərbaycanı deyil, bütün postsovet məkanını idarə etməyə qadir heyrətamiz liderdir. Onun Azərbaycan üçün gördüyü işlər qibtə edilməyə layiqdir – söhbət həm istehsalın artırılmasından, həm sənaye infrastrukturu yaradılmasından, həm də bütövlükdə iqtisadiyyatın inkişafından, habelə bir çox dövlətlərlə birlikdə beynəlxalq səviyyəyə yüksəlməkdən gedir. Heydər Əliyev hələ sovet dövründə - Siyasi Büronun üzvü olduğu vaxtda da Azərbaycan üçün çox işlər görərək, onu Sovet İttifaqının özünü təmin edə bilən beş respublikasından birinə çevirmişdi. Bu ölkənin indiki iqtisadi tərəqqisi məhz o dövrdə və məhz Heydər Əliyev tərəfindən yaradılmış baza sayəsində mümkün olmuşdur. Mən bu fikirdəyəm ki, onun alicənablığı, liderlik duyğusu, öz xalqı qarşısında məsuliyyət hissi hamı üçün hələ uzun müddət nümunə olacaqdır.

Mən qüdrətli şəxsiyyətlərin siyasi karyerasını həmişə izləyir və onların sırasında U.Çörçilli xüsusi fərqləndirirəm. Hesab edirəm, dünya siyasi liderlərindən, bəlkə də, yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar.

Sovet İttifaqı dövrünü xatırlayaraq, deyə bilərəm ki, köhnə ənənələr bərpa olunacaq və postsovet məkanının bütün dövlətləri siyasi deyil, iqtisadi baxımdan əvvəlki münasibətləri bərpa edəcəklər. Vaxtilə Sov.İKP MK-nın baş katibi vəzifəsinə fərasətsiz Qorbaçovu deyil, məhz Heydər Əliyevi seçmək lazım idi, onda hər şey düzgün ssenari üzrə inkişaf edərdi.

*Ekmələddin İHSANOĞLU*
*İslam Konfransı Təşkilatının İstanbuldakı*
*İslam Tarix, Sənət və Kültür Mərkəzinin baş direktoru*

# Heydər Əliyev bizə böyük üfüqlər açdı

***Heydər Əliyevin dilindən təkcə keçmişə aid fikirləri deyil, gələcəyə aid fikirləri də eşitmək bizim üçün ən böyük bəxtiyarlıq olmuşdur.***

Azərbaycan Qafqazda ən önəmli ölkə və islamın mərkəzi, buradakı mədəniyyətin mərkəzidir. Lakin Zati-aliniz nitqinizdə bizə böyük üfüqlər açdınız. Sizin dünyada tanınan dövlət təcrübənizlə yanaşı, tarix, mədəniyyət barəsindəki dərin təcrübənizi və biliyinizi də öyrənmək imkanı qazandıq. Qurulma halında olan bir dövlətin qurucusunun dilindən təkcə sırf keçmişə aid fikirləri, təcrübələri deyil, gələcəyə aid fikirləri də eşitmək məndən ötrü, qardaşlarımın bir çoxu üçün ən böyük bəxtiyarlıq olmuşdur. Bu, bəndəniz və qardaşlarınız üçün ən gözəl xatirədir.





*Leonid MEDVEDKO*
*Rusiya Elmlər Akademiyası Afrika*
*İnstitutunun elmi əməkdaşı, professor*

# Heydər Əliyevin islam sivilizasiyası haqqında fikirləri islamşünaslıq üçün çox vacibdir

***Heydər Əliyev bizə - rus alimlərinə islama tamamilə yeni bir münasibət göstərdi, ərəb islam sivilizasiyası ilə yanaşı, Azərbaycan islam sivilizasiyası haqqında da danışdı.***

Cənab Prezident, icazə verin, həqiqətən, Şərqsayağı, islam qonaqpərvərliyi üçün Sizə təşəkkür edim. Sizə - ustada, müəllimə və akademik həmkarıma Şərq ruhunda müraciət etmək istəyirəm. Ən əvvəl, söylədiyiniz nitqə görə təşəkkürümü bildirirəm. Sizin nitqinizi oxudum və deməliyəm ki, Siz bizə - rus alimlərinə islama tamamilə yeni bir münasibət göstərdiniz. Ərəb islam sivilizasiyası ilə yanaşı, Siz Azərbaycan islam sivilizasiyası haqqında da danışdınız. Mən hesab edirəm ki, bu, islamşünaslıq üçün çox vacibdir.



*Andrey LOGİNOV*
*Rusiya Dövlət dumasında hökumətin keçmiş səlahiyyətli nümayəndəsi*

# Heydər Əliyevin başlıca hünəri Azərbaycana xidmət etməsidir

> ***Heydər Əliyeviç həyatı boyu çox işlər görmüşdür. Onun başlıca hünəri isə doğma respublikasına, Azərbaycan xalqına xidmət etməsidir.***

Heydər Əliyeviç, şübhəsiz ki, həm siyasətçi, həm dövlət xadimi, həm də respublikanın rəhbəri kimi dünya miqyaslı lider idi. Lakin bütün bunlar onun çox gözəl şəxsi keyfiyyətlərinin üstünü örtməməlidir. Mənim ailəm üçün o, müəllim, alicənablığı və hümanizmi həmişə əlçatmaz ideal olan insan olmuşdur və bundan sonra da belə qalacaqdır. Zənnimcə, bizim təsəvvürümüzdə onun həyatının və fəaliyyətinin ayrı-ayrı məqamlarından toplanmış tam obrazının formalaşması üçün illər keçməlidir. Ola bilsin, onda anlayarıq ki, bu nadir insan, həqiqətən, necə böyük şəxsiyyət idi.

Heydər Əliyeviç həyatı boyu çox işlər görmüşdür. Onun başlıca hünəri isə doğma respublikasına, Azərbaycan xalqına xidmət etməsidir. O, hətta həyatdan köçərkən, elə məşəllər yandırmışdır ki, onlar əzabkeş Azərbaycan xalqına öz torpağında sülh və əmin-amanlıq yaratmaq, firavanlıq və tərəqqi şəraitində yaşamaq üçün həqiqətən kömək edəcəkdir. Bunu da əlavə etmək istərdim ki, Heydər Əliyevin həyatı və siyasi yolu, Rusiya-Azərbaycan dostluğu yolu mənim üçün ayrılmazdır. Ona görə də bu iki xalqlarımızın ümumi itkisidir. Əlbəttə, onun idealları, dostluğumuzun ideallarına sədaqətlə xidmət etməsi dövlətlərimiz üçün, xalqlarımız üçün mayak və bələdçi olacaqdır.



*Əli BAYRAM*
*Türkiyənin Fateh Universiteti idarə heyətinin üzvü, Qafqaz Universiteti rəyasət heyətinin sədri*

# Dünyamızdan bir ulduz getdi

> ***Heydər Əliyev həyat və fəaliyyətinin araşdırılması zəruri olan böyük və dünya miqyaslı liderdir.***

Heydər Əliyev haqqında 1980-ci illərdən etibarən eşidirdim. Ancaq 1992-ci ildə bilavasitə tanış oldum. Araz çayının üzərində tikilən "Həsrət körpüsü"nün açılışı mərasimində qırmızı lenti onunla bərabər kəsmək şərəfi mənə qismət oldu. Onu görər-görməz, bir əsrlik ulu çinarın kölgəsində olduğumu hiss etdim. Heydər Əliyev həyat və fəaliyyətinin araşdırılması zəruri olan böyük və dünya miqyaslı bir liderdir. Onun həyatdan getməsi təkcə Azərbaycan Respublikası üçün yox, eyni zamanda, türk dünyası, Avrasiya və Yaxın Şərq üçün itkidir. Onun haqqında hələ çox danışılacaq, çox yazılacaqdır.

Azərbaycan xalqı kimi, türk xalqı da onu heç vaxt unutmayacaqdır. Çünki Heydər Əliyev, eyni zamanda, Türkiyəni ürəkdən sevən bir insan idi. Türkiyə və Azərbaycan barədə "Bir millət, iki dövlətik" deyərdi. Onun aforizmə çevrilən bu hərarətli sözü yaxın keçmişi bilən və xatırlayanlar üçün çox mənalıdır.

Türk dövlətləri arasında Azərbaycanın yeri ayrıdır. Coğrafi baxımdan türk dünyasının ortasında, strateji mövqedə yerləşməsi, digər türk dövlətlərinə, hətta okeana açılan bir qapı olması Türkiyə üçün sözlə izah edilməyəcək qədər böyük əhəmiyyət daşıyır.

Uzun müddət müstəqilliyini itirmiş olan Azərbaycan xalqının yenidən müstəqilliyə qovuşmasından sonra bir sıra çətinliklərə məruz qalmasını təbii qarşılamaq lazımdır. Çünki gənc və müstəqil bir ölkənin zəngin yeraltı və yerüstü sərvətlərinin çox olması xarici qüvvələrin iştahasını artırır, nifaq üçün təhriklər, taktikalar dövrəyə girirdi. Necə ki, bu

çətin dövrdən istifadə etmək istəyən ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdilər.

Ona görə də Azərbaycanın müdrik, təcrübəli, millət və vətən sevgisi ilə yaşamış, güclü bir dövlət başçısına ehtiyacı vardı. Böyük dövlət idarəçiliyi təcrübəsinə malik olan Heydər Əliyev o dövrdə Naxçıvanda yaşayırdı. Uzun illər Sovetlər Birliyində müxtəlif rəhbər vəzifələrdə olan Heydər Əliyev rejimin ürəyi sayılan Siyasi Büroda işləmişdir.

Əliyevin orada işləməsini qəbul edə bilməyənlər başa düşməlidirlər ki, o dövrdə bir siyasətçinin millətinə xidmət etməsi üçün başqa bir yol tapmasına imkan yox idi. Heydər Əliyev Siyasi Büronun üzvü ikən daim vicdanının səsini eşitmiş, siyasi karyerasını təhlükə altına qoymaq bahasına millətinin və digər türk və müsəlman millətlərinin dayağı olmuşdur. Buna iki misal gətirmək istəyirəm. Todor Jivkov Bolqarıstan türklərinin adlarını zorla dəyişdirərkən rəhmətlik Özal Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Qorbaçova məktub yazaraq, buna son qoyulmasını tələb

***Əliyev Siyasi Büronun üzvü ikən daim vicdanının səsini eşitmiş, siyasi karyerasını təhlükə altına qoymaq bahasına millətinin və digər türk və müsəlman millətlərinin dayağı olmuşdur.***





etmişdi. Qorbaçov Özalın məktubunu Siyasi Büroda oxuduqdan sonra "bu, Bolqarıstanın daxili işidir, müstəqil bir ölkənin daxili işlərinə müdaxilə edi bilmərik" - deyərək gündəlikdəki digər məsələyə keçmək istərkən, Heydər Əliyev buna qarşı çıxaraq demişdir: "Macarıstan və Çexoslovakiyadakı hadisələri onların daxili işləri hesab etmədən müdaxilə edirik. Ancaq Bolqarıstandakı türklərə edilən zorakılığa gələndə "bu onların daxili işidir" deyirik? Belə ikili standart bizə yaraşarmı?"

1980-ci illərin ortalarında Heydər Əliyev, sadəcə, Azərbaycan xalqının yox, türk və müsəlman xalqlarının lideri vəzifəsini yerinə yetirirdi. Qazaxıstanın dövlət başçısı Dinmühəmməd Kunayev də Siyasi Büronun üzvü idi. Qorbaçov Kunayevi Qazaxıstanın rəhbərliyindən uzaqlaşdırıb yerinə rus Kolbini təyin etmək istədiyini bildirdi. Yenə Heydər Əliyev bunu əsla qəbul edə bilməyəcəyini söylədi: "Dinmühəmməd Kunayev 20 ildir ki, respublikanın lideridir. Böyük xidmətlər göstərmişdir və göstərməkdədir.

***1980-ci illərin ortalarında Heydər Əliyev, sadəcə, Azərbaycan xalqının yox, türk və müsəlman xalqlarının lideri vəzifəsini yerinə yetirirdi.***



Əgər Kunayev vəzifəsindən çıxarılacaqsa, onun yerinə rus yox, bir qazax təyin edilməlidir. Misal üçün, Nazirlər Sovetinin sədri Nursultan Nazarbayev təyin edilməlidir". Buna baxmayaraq, Qorbaçov dediyini etdi. Ancaq Qazaxıstanda xalq hərəkatı yarandı.

Heydər Əliyev Siyasi Bürodakı fəaliyyətində öz karyerasını yox, Azərbaycanın, türk xalqlarının gələcəyini düşündüyü üçün yüksəlişi uzun sürmədi.

Heydər Əliyev 1993-cü ildə Azərbaycanın dövlət başçısı seçiləndən sonra türk dünyasının məsələləri ilə daha yaxından maraqlanmağa başladı. O, İqtisadi Əməkdaşlıq Təşkilatının 1993-cü il iyulun 5-də İstanbulda keçirilən toplantısının iştirakçılarına təbrikində demişdir: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin — Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkisanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir".

*Heydər Əliyev Azərbaycanı Qafqazın parlayan ulduzuna çevirdi və dövlətini ciddi qurumlara daxil etdi.*

Heydər Əliyev həmin sözləri ilə türk-islam birliyinin zərurəti məsələsini qaldırır. Bu birliyin yaranmasında Türkiyənin rolunun böyüklüyünə də inanan Heydər Əliyev hər fürsətdə türk xalqına qarşı olan səmimiyyətini bu sözlərlə ifadə edirdi: "Türkiyə hazırda dünyanın siyasi xəritəsində özünə xas bir nüfuza və qüdrətə malikdir. İqtisadi və mədəni cəhətdən inkişaf etmiş güclü dövlətlərdən biridir", "Azərbaycanlıların qəlbində türkiyəlilərin çox gözəl yeri var", "Türkiyə Azərbaycan üçün qardaş və dost bir ölkədir", "Türkiyə və Azərbaycan arasındakı əlaqələr çox qədim bir tarixə malikdir", "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir", "Xalqlarımızın kökü eynidir, hətta son zamanlarda bir-birimizdən ayrı düşməyimiz də bu birliyimizi əlimizdən ala bilməmişdir".

Heydər Əliyevin Prezident seçilməsi ilə qısa müddət ərzində daxili və xarici sıxıntıların öhdəsindən gələn Azərbaycanda dövlət ənənələri bərqərar olmağa başladı. Avtoritar bir quruluşdan demokratik xarakter daşıyan bir sistemə keçməyin çətin prosesini təmin etməyi bacaran lider, həqiqətən, böyük liderdir. Müstəqilliyin əldə edilməsi zamanı çalxantılı bir dövr yaşamaq ictimai aqibətdir. Elə liderlər də, adətən, çalxantılı və böhranlı dövrlərin övladlarıdır. Sevilən bir lider dünyadakı şəraitdən yaxşı baş aça bilirsə, öz millətinin gücünü realist bir dərrakə ilə qiymətləndirirsə, ölkəsini sabit inkişaf yoluna qovuşdura bilir. Bu xüsusiyyətlərə malik olan Əliyev qısa müddət ərzində ölkəsində sabitlik və əmin-amanlığı təmin etdi. Azərbaycanı Qafqazın parlayan ulduzuna çevirdi və dövlətini ciddi qurumlara daxil etdi.



Hamımızın arzusu azərbaycanlı qardaşlarımızın çatdıqları bu səviyyənin qədrini yaxşı bilmələri, sabitliyi davam etdirmələri, inkişaf yolu ilə getmələri, işğal altındakı torpaqları tezliklə azad etmələridir. Oğul İlham Əliyev bu sistemə daha bir addım əlavə edərsə, böyük xidmətlər göstərmiş olar və böyük lider olan atasının yolu ilə o da millətinin və türk xalqlarının könüllərində taxt qurar.

Azərbaycanı türk dünyasının mədəniyyət və sənət mərkəzi kimi görürük. Ən böyük arzumuz bütün dünyada bu istedadları ilə təqdir qazanmış olan Azərbaycan xalqının xoşbəxt, firavan bir cəmiyyət yaratmasıdır. Bunun üçün hər cür imkan var, mehriban azərbaycanlı qardaşlarımız ən böyük gözəlliklərə malikdirlər.

*Prezident Heydər Əliyevin vəfatı ilə türk dünyası ən böyük ulduzlarından birini itirdi.*

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin dediyi kimi, Prezident Heydər Əliyevin vəfatı ilə türk dünyası ən böyük ulduzlarından birini itirdi. Ancaq inanırıq ki, oğul İlham Əliyev o böyük liderin yolunu davam etdirməklə, ümummilli kədərimizə ən böyük təsəlli vermiş olacaqdır.

Söhbəti yazdı:
**Yalçın Əliyev**
**AzərTAc-ın müxbiri**

*Yuri KOÇUBEY*
*səfir, Ukrayna XİN yanında Diplomatiya Akademiyasının professoru*

# Heydər Əliyev həm gözəl siyasətçi, həm də mahir diplomat idi

***Heydər Əliyev təkcə Cənubi Qafqazda deyil, həm də bütün Xəzər regionunda sabitliyin dayağı idi.***

Mən, ilk növbədə, bu ağır, əvəzolunmaz itki ilə əlaqədar bütün Azərbaycan xalqına, Heydər Əliyevin ailəsinə səmimi və dərin hüznlə başsağlığı vermək istəyirəm. Mən bunu Ukrayna üçün, xalqımız üçün də böyük itki hesab edirəm, çünki Azərbaycanın bu böyük oğlu ukraynalıların səmimi dostu idi.

Heydər Əliyevlə 1995-ci ildə Parisdə tanış oldum. Heydər Əliyev buraya Londondan, İkinci Dünya müharibəsində qələbənin 50-ci ildönümü münasibətilə keçirilən şənliklərdə iştirak etməyə gəlmişdi. Parisin Şimal vağzalında ona təqdim edilmək şərəfinə nail oldum. Dünya miqyaslı bu məşhur siyasətçinin sadəliyi məni heyran etdi. Heydər Əliyev təkcə Cənubi Qafqazda deyil, həm də bütün Xəzər regionunda sabitliyin dayağı idi. Mən həmişə hesab etmişəm ki, Heydər Əliyev nəinki gözəl siyasətçi, həm də mahir diplomat idi. Fəxr edirəm ki, yaxın vaxtlarda Azərbaycan xalqının bu böyük oğlunun Kiyevdə abidəsi ucaldılacaqdır.

Prezident İlham Əliyevə bu mürəkkəb beynəlxalq şəraitdə Heydər Əliyevin xəttini uğurla davam etdirməsini arzulamaq istəyirəm. Əminəm ki, İlham Əliyev ölkəni demokratiya, tərəqqi yolu ilə irəliyə aparacaqdır.



*Boris VOROVİÇ*
*Ukrayna Milli Müdafiə Akademiyasının kafedra rəisi, general-mayor*

# Heydər Əliyev vəfat etmədi, öz xalqının səadəti və öz müstəqil ölkəsinin tərəqqisi naminə qəhrəmancasına həlak oldu

***Şəxsən mən Heydər Əliyevi təkcə görkəmli siyasətçi deyil, həm də böyük hərbi strateq hesab edirəm.***

Şəxsən mən Heydər Əliyevi təkcə görkəmli siyasətçi deyil, həm də böyük hərbi strateq hesab edirəm. Hələ sovet dövründə Bakıda C.Naxçıvanski adına hərbi məktəb açmaq üçün, Azərbaycan gənclərini keçmiş SSRİ-nin ən yaxşı hərbi məktəblərinə və akademiyalarına, o cümlədən Ukraynaya təhsil almağa göndərmək üçün çox uzaqgörən siyasətçi olmaq gərək idi. Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsində qan tökülməsini dayandırmağa, yüz minlərlə azərbaycanlı gəncin həyatını xilas etməyə müvəffəq oldu. Azərbaycanın güclü, peşəkar Silahlı Qüvvələrinin yaradılmasında tarixi rol ancaq ona məxsusdur. Mən özüm Azərbaycanın layiqli nümayəndələrinə bizim akademiyada hərb sənətinin sirlərinə yiyələnməkdə kömək etmişəm və bundan qürur hissi duyuram. İndi onların bəziləri Ali Baş Komandan, dərin zəkalı, zəngin təcrübəli və yüksək zabit şərəfli insan olan Heydər Əliyev tərəfindən yaradılan ordunuzun ən yaxşı hissəsini təşkil edirlər.

Heydər Əliyev özünün bütün ömrünü doğma xalqına, ölkəsinə həsr etmiş insan kimi yaşadı və böyük amal naminə Qəhrəman kimi həlak oldu.

*Dmitri QNATYUK*
*Ukraynanın və SSRİ-nin xalq artisti,*
*Ukrayna Milli Operasının baş rejissoru*

# Heydər Əliyev öz ölkəsini ağır zərbədən sonra yenidən dirçəldən böyük vətənpərvərdir





Mənim azərbaycanlılarla tanışlığım təkcə müğənnilərlə məhdudlaşmırdı. Siyasi xadim Heydər Əlirza oğlu Əliyevlə tanışlığım da bu qəbildən idi. Bu tanışlıq Moskvada Əliyevin apardığı böyük ziyafətdə olmuşdu. Cavan və yaraşıqlı bu insan parlaq nitqi ilə məndə unudulmaz təəssürat buraxdı. Biz onunla 1970-ci illərdə, Azərbaycanda Ukrayna incəsənəti və ədəbiyyatı ongünlüyü keçirilərkən yaxından tanış olduq. O zaman Heydər Əlirza oğlu Azərbaycan KP MK-nın birinci katibi idi və bizi ən əziz qonaqlar kimi qəbul edirdi.

O, respublikanın rəhbəri olsa da, bunu bizə hiss elətdirmir, tay-tuş, yaxın dost münasibəti göstərirdi. Moskvadan sonra onun məndə buraxdığı ilk parlaq təəssürat tamamilə özünü doğrultdu. Onun davranışında sünilik yox idi, hər şey ürəkdən gəlirdi. Məhz Heydər Əliyevin sayəsində ongünlüyün ab-havası o qədər dostcasına, şən və xoş oldu ki, biz özümüzü azərbaycanlılarla doğma adamlar kimi hiss etdik. Oxuyurduq, rəqs edirdik, incəsənət bizi doğmalaşdırırdı. Bu sənət bizə yaxın idi, biz onları, onlar da bizi başa düşürdü, bir-birimizə bənzəyirdik, bu dahi insan isə mədəniyyətlərin birliyinin təcəssümü idi.

Sonralar, üç çağırış SSRİ Ali Sovetinin deputatı olarkən mən Heydər Əlirza oğlu ilə tez-tez görüşürdüm və məndə belə bir hiss oyanırdı ki, sanki biz dostuq. Heydər Əliyevin sənət adamlarına xoş münasibətini görəndə ona hörmətim qat-qat artırdı. Onun Rəşid Behbudov barədə nə qədər gözəl sözlər dediyini, gənc Müslüm Maqomayev haqqında atalıq qayğısı ilə, xüsusi səmimiyyətlə danışdığını dəfələrlə eşitmişəm. Bu cür insanların hətta təkcə mənəvi cəhətdən də olsa, dəstək verməsi sənət adamları üçün çox əhəmiyyətlidir.

*Heydər Əliyev parlaq nitqi ilə məndə unudulmaz təəssürat buraxdı.*

İndi Heydər Əlirza oğlu Əliyev suveren ölkə olan Azərbaycanın Prezidentidir. Bu vəzifədə onun geniş miqyaslı rəhbər, diplomat, dövlətin taleyi üçün böyük məsuliyyət hiss edən insan kimi parlaq və misilsiz istedadı özünü tam şəkildə büruzə verir.

Mənə Müslüm Maqomayevin yubileyi ilə əlaqədar şənliklərə dəvət edilərkən bu gözəl insanla yenidən görüşmək səadəti nəsib oldu.

Heydər Əlirza oğlu Əliyevin bu bayrama səmimilik və xeyirxahlıq ab-havası gətirmək, yubilyar müğənniyə - öz xalqının mədəniyyətinə böyük töhfə vermiş insana hörmətini çox gözəl ifadə etmək bacarığı məni yenə də heyran etdi.

*Vladimir UXOV*
*keçmiş SSRİ Nazirlər Soveti Katibliyi müdirinin müavini*

# Heydər Əliyev işgüzarlığı ilə hamını heyran edirdi





Mən Heydər Əliyevin rəhbərliyi altında işləyirdim. Bizim şöbəyə onun adına çoxlu məktub gəlirdi. Təkcə Azərbaycandan ildə təxminən 6-7 min məktub alırdıq. Heydər Əliyev sakit yaşaya bilməyən, coşğun həyatlı bir insan idi. O, dəqiqlik, səlislik, hər bir məsələni operativ həll etmək bacarığı kimi şəxsi keyfiyyətlərini üzə çıxarmağa imkan verən şəraitdə işləməyi sevirdi.

Heydər Əliyev çox qətiyyətli və ədalətli insan idi. Onun rəhbərliyi ilə işləyən və ya müxtəlif məsələlərlə bağlı onunla ünsiyyətdə olan əməkdaşlara böyük hörmətlə yanaşırdı. Bu əməkdaşlar arasında ondan cavanları da var idi. Lakin Heydər Əliyev hamıya "siz" deyə müraciət edirdi.

Onu başqalarından fərqləndirən ən əsas cəhət işgüzarlığı idi. O, həddindən artıq çox işləyirdi. Şəxsi söhbətlərimiz zamanı biz ona deyirdik: "Heydər Əliyeviç, nə üçün bu qədər işləyirsiniz?" O cavab verirdi ki, başqa cür bacarmır, bu, onun həyat tərzidir. Hətta Azərbaycana məzuniyyətə gedəndə orada da işləməkdə davam edirdi. Aparatın bütün əməkdaşları dincəldiyi vaxt o, adəti üzrə, iş yerində qalır, məsələləri həll etməklə məşğul olurdu. Mənə həmişə elə gəlirdi ki, o, nəfəsini dərmədən işləyir, həmişə çalışır. Bəlkə də hərdən dincəlirdi, yəqin, teatra gedəndə. O, incəsənəti çox sevirdi.

Xahişlərə, məktublara xüsusi həssaslıqla yanaşır, insanların problemlərinin, fərqi yoxdur, kiçik və ya böyük problemlərinin, - həllinə daim kömək edirdi. Ona məktublar, əsasən, Azərbaycandan gəlirdi. Xatirimdədir, bir vətəndaş musiqi aləti almaqda yardım göstərməsini xahiş edirdi. Heydər Əliyeviç hətta belə adi xahişi də diqqətsiz qoymadı. O, mənə Azərbaycan KP MK ilə əlaqə yaradaraq, bu işlə kimin məşğul ola biləcəyini öyrənməyi tapşırdı. Mən də problemi həll edə bildim. Belə məktublar çox idi və o, hamıya kömək edirdi. O, respublika ilə daim sıx əlaqə saxlayır, məktubları oxuyur, məsələləri həll edirdi.

***Heydər Əliyev sakit yaşaya bilməyən, coşğun həyatlı bir insan idi.***

*Məryəm LORDKİPANİDZE*
*Gürcüstan Elmlər Akademiyasının akademiki*

# Heydər Əliyevin yeritdiyi siyasət beynəlxalq siyasi vəziyyətə təsir göstərir

Azərbaycan dövlətinin Prezidenti kimi Sizin yeritdiyiniz siyasi xətt, Qafqazda və bütün Cənubi Qafqazda vəziyyətə təsir göstərir. Cənubi Qafqaz elə bir qovşaqdır ki, burada Qərbin və Şərqin, Şimalın və Cənubun maraqları kəsişir. Buna görə də Sizin yeritdiyiniz siyasət beynəlxalq siyasi vəziyyətə təsir göstərir.

Bizim iqtisadi problemlərimiz, qlobal problemlər yanacaq və neftlə bağlıdır. Bu neftin yolu isə Xəzərdən gəlib Gürcüstandan keçəcəkdir. Biz Sizə çox minnətdarıq. Gürcü xalqı bunu bütün ömrü boyu yadında saxlayacaq və bu, bizim tariximizə qızıl hərflərlə yazılacaqdır.





*Donald FAYTS*
*ABŞ-ın "Katerpillar" şirkəti Direktorlar şurasının sədri*

# Prezident Heydər Əliyev dünyada çox nadir rəhbərlərdən biridir

Cənab Prezident, Siz dünyada çox nadir rəhbərlərdən birisiniz. Siz keçmiş sovet hökuməti vaxtında Azərbaycana rəhbərlik etmisiniz və SSRİ-nin rəhbərlərindən biri olmusunuz.

Cənab Prezident, Siz respublikanızı köhnə sistemdən çıxarmış, Azərbaycanı demokratik, azad bazar iqtisadiyyatı olan bir ölkəyə çevirmisiniz. Sizin rəhbərlik qabiliyyətiniz və ölkənizin təbii sərvətləri, bacarıqlı işçi qüvvəsi Azərbaycanın demokratik bir ölkəyə çevrilməsində mühüm rol oynamışdır. Azərbaycanın bugünkü uğurları hamıya məlumdur və bu, dünya ictimaiyyətinin respublikanıza böyük maraq göstərməsində öz əksini tapır.

Bu il Azərbaycana 872 milyon dollar məbləğində sərmayə qoyulubdur. Halbuki, 1993-cü ildə bu rəqəm ancaq 15 milyon dollar idi. Azərbaycana sərmayə qoyanlardan 70-i Amerika şirkətləridir. Onlardan biri də "Katerpillar"dır".

***Heydər Əliyev Azərbaycanı demokratik, azad bazar iqtisadiyyatı olanbir ölkəyə çevirmişdir.***

*Con BRAUN*
*"bp" şirkətinin prezidenti*

# Bir vaxtlar arzu kimi görünən məsələlər Heydər Əliyevin qətiyyəti, əzmi nəticəsində həqiqətə çevrilir

Cənab Prezident, bir vaxtlar bizə yuxu kimi, yalnız arzu kimi görünən məsələlər Sizin qətiyyətiniz, əzminiz nəticəsində indi həqiqətə çevrilmək üzrədir. Sizin neft və qaz strategiyanız, siyasətiniz uğurla həyata keçir və dünyada əfsanə kimi görünən neft kəməri artıq reallığa çevrilir. Hazırda işlər gedir və bütün bu işlərin hamısı bir vaxtlar Sizin əkdiyiniz toxumlardır ki, indi cücərməyə başlayır, bar verir. Bütün bu işlərin hamısına biz Sizin qətiyyətiniz sayəsində müvəffəq olmuşuq.





*Bədr ƏL-ƏYBƏN*
*Səudiyyə Ərəbistanının "Delta Oyl" şirkətinin prezidenti*

# Heydər Əliyev Müstəqil Azərbaycanın yaradıcısı və atasıdır



Prezident Heydər Əliyev Azərbaycan və region üçün çox işlər görmüş, müdrik rəhbərliyi ilə Azərbaycanı dünyanın enerji bazarlarının liderinə çevirmişdir. O, xarici sərmayələri ölkəsinə cəlb etmiş və Azərbaycanı dünyanın ən mühüm ölkələri sırasına çıxarmışdır. Cənab Heydər Əliyevin liderliyi sayəsində bu regionda sabitlik yaranmışdır.

Neft müqavilələrinin həyata keçirilməsi açıq-aydın sübut edir ki, Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan istər daxili, istərsə də beynəlxalq qanunlara hörmət edən ölkədir. Azərbaycanın Prezident Heydər Əliyevin çox böyük töhfə verdiyi bu imici xarici sərmayədarların ölkəyə, onun iqtisadiyyatının bütün sahələrinə marağını artırmışdır. Ona görə də mən deyə bilərəm ki, Prezident Heydər Əliyev bizə qardaş ölkə olan müstəqil Azərbaycanın yaradıcısı və atasıdır. Azərbaycan xalqı bununla fəxr edə bilər.

***Prezident Heydər Əliyev Azərbaycan və region üçün çox işlər görmüş, Azərbaycanı dünyanın enerji bazarlarının liderinə çevirmişdir.***



*S.ROB SÜBHANİ*

*ABŞ-ın "Kaspian enerci konsaltinq" şirkətinin prezidenti*

# ABŞ-da yaxşı bilirlər ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün hər cür müqavimətlərə mərdliklə sinə gərir

Dörd-beş il bundan öncə Amerikanın kütləvi informasiya vasitələrində verilən məlumatların, demək olar ki, hamısında Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycan tərəfi günahkar kimi təqdim olunurdu. Bu fikri Amerikanın çoxlu dövlət və siyasi xadimləri də müdafiə edirdilər. İndi artıq hamı bilir ki, Azərbaycan torpaqları ermənilər tərəfindən işğal olunub, nəticədə bir milyondan çox dinc əhali qaçqın vəziyyətinə düşmüşdür. Hamıya məlum olmuşdur ki, bu münaqişədə Ermənistan tərəfi günahkardır.

Prezident Heydər Əliyevin ABŞ-a və digər xarici ölkələrə səfərləri zamanı apardığı ağıllı siyasət dünyada ermənilər tərəfindən Azərbaycanın əleyhinə formalaşdırılan mənfi obrazı tamamilə yox etmişdir. Cənab Heydər Əliyevin xarici səfərləri zamanı jurnalistlərin suallarına məntiqi cavabları, onun natiqlik məharəti, güclü yaddaşı da az rol oynamamışdır. Heydər Əliyev xarici səfərləri zamanı bilərəkdən jurnalistlərlə səmimi ünsiyyət saxlayır. Jurnalistlər də öz növbəsində, bu böyük siyasi xadimdən çox şey öyrənir, onun

***Heydər Əliyevin ABŞ-a və digər xarici ölkələrə səfərləri zamanı apardığı ağıllı siyasət dünyada ermənilər tərəfindən Azərbaycanın əleyhinə formalaşdırılan mənfi obrazı tamamilə yox etmişdir.***







fikirlərini informasiya vasitələri ilə ictimaiyyətə çatdırırlar. Prezident Heydər Əliyevin belə ağıllı siyasəti Azərbaycan ətrafında yaranmış informasiya blokadasının dağılmasına gətirib çıxarmışdır.

ABŞ-ın rəsmi mövqeyinin dəyişməsində Prezident Heydər Əliyevin üç dəfə Prezident Klintonla, vitse-prezident Qorla və dövlət katibi Kristoferlə görüşləri əsas rol oynamışdır. Həmin görüşlərdə Prezident Heydər Əliyev Qarabağ münaqişəsinin əsl mahiyyətini onlara çatdıra bilmiş, Ermənistanın tutduğu təcavüzkar mövqeyi izah etmişdir. Həmin görüşlərin hər birinin Amerikanın rəsmi dairələrinin mövqeyinin dəyişməsində müstəsna rolu olmuşdur.

***ABŞ-ın rəsmi mövqeyinin dəyişməsində Prezident Heydər Əliyevin üç dəfə Prezident Klintonla, vitse-prezident Qorla və dövlət katibi Kristoferlə görüşləri əsas rol oynamışdır.***

Ağ evdə və ümumiyyətlə, Amerikanın siyasətçiləri Prezident Heydər Əliyevin fəaliyyətinə belə qiymət verirlər ki, o, ölkədə sabitlik yaratmışdır. ABŞ-da yaxşı bilirlər ki, indiki Azərbaycan şəraitində bu, çox çətin bir işdir. Amerikada onu da yaxşı bilirlər ki, Prezident Heydər Əliyev, həqiqətən, Azərbaycanın müstəqilliyini istəyir və onu qoruyub saxlamaq üçün hər cür müqavimətlərə mərdliklə sinə gərir. Buna görə də Amerikanın dövlət xadimləri Heydər Əliyevlə işləməyə üstünlük verirlər. Ağ evin nümayəndələri hesab edirlər ki, Heydər Əliyev, həqiqətən, öz ölkəsini hədsiz dərəcədə sevir və öz ömrünü xalqına həsr etmişdir, onun başqa bir məqsədi yoxdur. Bu, çox mühüm bir faktdır. Çünki elə siyasi xadimlər var ki, hakimiyyətə gəlirlər, amma onlarda öz vətənini sevmək kimi istək yoxdur. Həmin siyasətçilər, sadəcə olaraq, müəyyən müddətə hakimiyyətə gəlib siyasi ehtiraslarını öldürürlər.

Amerikanın məşhur siyasi və dövlət xadimi Zbiqnev Bjezinski Bakıya gələndə Prezident Heydər Əliyevlə və müxalifətin nümayəndələri ilə görüşdükdən sonra öz fikirlərini Amerika mətbuatında belə ifadə etmişdir: "Bu gün Azərbaycanı idarə edə biləcək şəxs yalnız Heydər Əliyevdir. Çünki sabitlik müstəqillik və demokratiyanın əsasıdır. İndiki halda Azərbaycanda sabitliyi saxlaya biləcək yeganə siyasi xadim Heydər Əliyevdir". Bjezinskinin fikrincə, indiki Azərbaycan şəraitində birinci sabitlik, sonra isə demokratiya lazımdır. O, Bakıya gələndə Heydər Əliyevlə bir dəfə görüşməyi nəzərdə tutmuşdu. Lakin onun Heydər Əliyev şəxsiyyətinə olan marağı, bu nəhəng siyasətçilərin bir-birini yaxşı anlaması nəticəsində onlar dörd dəfə görüşdülər.



Cənab Bjezinski ABŞ-a qayıdarkən Prezident Klintonla görüşmüş, ona Azərbaycanda keçirdiyi görüşlər barədə ətraflı məlumat vermişdir. Mətbuatda çıxış edib Azərbaycandakı real vəziyyəti Amerika ictimaiyyətinə çatdırmışdır. Bjezinski ABŞ-da çox nüfuzlu şəxsdir və onun fikirlərini amerikalılar yüksək qiymətləndirirlər...

Yaxın bir müddətdə Azərbaycan çətin vəziyyətdən çıxacaqdır. Çünki Azərbaycanın güclü iqtisadi potensialı və hər sahə üzrə savadlı mütəxəssisləri var. Ən başlıcası isə, Azərbaycanda siyasi sabitlik hökm sürdüyünə görə, xarici biznes ölkəyə böyük maraq göstərir. Hansı ölkəyə tanınmış firmalar, biznesmenlər gəlirsə, deməli, həmin ölkənin gələcəyi var. Əminəm ki, Heydər Əliyev bu gələcəyi təmin edəcəkdir.

***Amerikada yaxşı bilirlər ki, Prezident Heydər Əliyev, həqiqətən, Azərbaycanın müstəqilliyini istəyir və onu qoruyub saxlamaq üçün hər cür müqavimətlərə mərdliklə sinə gərir.***

*Robert ZOELT*
*Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin prezidenti*

# Mərkəzi Asiya kimi çox gərgin regionda sülh və sabitliyin bərqərar olmasında Heydər Əliyevin xidmətləri əvəzsizdir

Hamımız yaxşı bilirik ki, 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş və bu vəzifəyə keçən il yenidən seçilmiş Heydər Əliyevin çox gərgin region olan Mərkəzi Asiya regionunda sülh və sabitliyin bərqərar olmasında xidmətləri əvəzsizdir. Onu da bilməliyik ki, Prezident Əliyevin ABŞ-a indiki səfəri zamanı Amerika şirkətləri ilə üç yeni müqavilənin imzalanması nəzərdə tutulur. Xəzərin zəngin enerji ehtiyatlarından istifadə üçün 40 milyard dollardan çox sərmayə qoyulmasını nəzərdə tutan müqavilələr imzalanıbdır. Onu da gözəl bilirik ki, zəngin neft ehtiyatları olmasının və onlardan istifadənin ölkə üçün müəyyən mənfi nəticələrini də gözəl dərk edən Prezident Heydər Əliyev Azərbaycanda iqtisadiyyatın digər sahələrinin və infrastrukturun inkişafı üçün də əlavə tədbirlərin görülməsi və bu işlərə sərmayələrin cəlb edilməsi ilə məşğuldur.

Prezident Əliyev Kosovoda baş verən münaqişə ilə əlaqədar öz mövqeyini açıqlamışdır. Şübhəsiz, hamınız bilirsiniz ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan çox vətəndaş öz yurd-yuvasından didərgin düşüb və qaçqın vəziyyətində yaşayır. Öz qonşuları ilə əlaqədar üzərinə müəyyən risk götürməsinə baxmayaraq, Prezident Əliyev cəsarətli bəyanatlar verərək, Kosovoda törədilən vəhşilikləri pisləmiş və Kosovo əhalisinə özünüidarə hüququ verilməsinin tərəfdarı kimi çıxış etmişdir. Çox gərgin bir regionda yerləşən ölkənin Prezidenti olan Əliyev ABŞ-ın yaxın dostudur. Çox məmnunuq ki, o, bu gün bizimlə bir yerdədir.

***Çox gərgin bir regionda yerləşən ölkənin Prezidenti olan Heydər Əliyev ABŞ-ın yaxın dostudur.***





*Frenk VERRASTRO*
*Vaşinqton Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində Xəzər enerjisi proqramının direktoru*

# Heydər Əliyevin işinin davam etdirilməsi təkcə Azərbaycan üçün deyil, bütün bölgədən ötrü əhəmiyyətlidir





Prezident Heydər Əliyev barədə danışarkən, ən əvvəl onun Azərbaycan üçün rolu haqqında düşünürəm. Müstəqil respublika ilk günlərində ciddi iqtisadi və siyasi böhran keçirirdi. Məhz Heydər Əliyevin liderliyi və rəhbərliyi altında Azərbaycan bu vəziyyətdən çıxdı. Prezident Əliyev Birləşmiş Ştatlar və Türkiyə ilə sıx işləməklə yanaşı, qonşu Rusiya və İranla da yola getməyi bacarırdı.

Sovet İttifaqı məktəbini keçən rəhbərlər - Heydər Əliyev, Eduard Şevardnadze və Nursultan Nazarbayevin birgə əməkdaşlığı çox səmərəli idi. Onlar biri-birini yaxşı tanımaqla yanaşı, ölkələrinin müstəqilliyi və iqtisadi inkişafı üçün nə etməyi gözəl bilirdilər. Bu amillər Azərbaycan, Gürcüstan və Qazaxıstanın yalnız ayrı-ayrı dövlətlər kimi deyil, bir qrup kimi də irəliyə addımlamasına səbəb olmuşdur.

Prezident Heydər Əliyevlə ilk görüşüm yaxşı yadımdadır. Məni ona Nyu-Yorka səfərlərinin birində təqdim etmişdilər. Biz hansısa konfransla bağlı Nyu-York otellərindən birində idik. Mən otelin girişində durarkən, Züleyxa Vebberi (Əsədullayevanı) gördüm. Onun gözləri yaşarmışdı. Yaxınlaşıb səbəbini soruşanda, dedi ki, bir azdan Prezident Heydər Əliyevlə görüşməlidir, hədiyyə verməyə gülü də yoxdur. Mən tez gedib bir dəstə gül bağlatdırıb Züleyxa xanıma gətirdim. Züleyxa xanım dərhal gözdən itdi. Görüşqabağı həyəcanlandığı bəlli idi. Sonra biz otelin mərasim salonuna daxil olduq. Prezident Heydər Əliyev qonaqlarla salamlaşırdı. O, Züleyxa xanımla mehribancasına görüşdü. Züleyxa xanım Heydər Əliyevə mənim kiçik köməyim haqda danışmışdı. Bir qədər sonra Prezident mənə yaxınlaşarkən Züleyxa xanıma köməyimdən məmnun qaldığını bildirdi. Bu, mənə çox böyük təəssürat bağışlamışdır. Heydər Əliyev kimi böyük şəxsiyyətin mənə yaxınlaşaraq, Züleyxa xanıma kömək etdiyimə görə təşəkkür etməsi və buna vaxt ayırması məni xeyli mütəəssir etmişdi.

Prezident Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldiyi zaman bu hadisə Amerikada narahatçılıqla qarşılanmışdı. Onun sabiq DTK işçisi olduğunu nəzərə alaraq, hakimiyyət dəyişikliyindən Rusiya ilə təbii müttəfiqlik gözləyirdik. Lakin Amerika şirkətlərinin nümayəndələri və Amerika diplomatları ilə birgə Prezident Əliyevlə ilk dəfə Bakının "İnturist" mehmanxanasında görüşəndə bunun belə

***Prezident Heydər Əliyev barədə danışarkən, ən əvvəl onun Azərbaycan üçün rolu haqqında düşünürəm.***

olmayacağını düşünməyə başladıq. Elə ilk günlərdən biz Prezident Heydər Əliyevin Azərbaycanın Corc Vaşinqtonu olacağını və müstəqil siyasət aparacağını sezdik. Onun qərb şirkətlərini ölkəyə, nəyin bahasına olursa olsun, dəvət etməsi təkcə sərmayə axını deyil, həm də Qərblə əlaqələr quracağı demək idi.

Azərbaycan Respublikasının ilk 10 ili ölkə üçün özünütəsdiqləmə illəri idi. İlk dövrdə sabitlik və inam yox idi. Amma unutmaq lazım deyil ki, demokratiya bir günə qurulmur. Heydər Əliyev tərəfindən götürülən inkişaf xətti gələcək nəsillərə keçəcəkdir. Onun işinin davam etdirilməsi təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün əhəmiyyətlidir.

Söhbəti yazdı:
**Şəfəq Akifqızı**
**AzərTAc-ın xüsusi müxbiri**

***Heydər Əliyev tərəfindən götürülən inkişaf xətti gələcək nəsillərə keçəcəkdir.***



*Nikolay PATRUŞEV*
*RF Federal Təhlükəsizlik Xidmətinin direktoru*

# Heydər Əliyevin həyatı vətənə fədakarcasına xidmət nümunəsidir



Cənab Prezident, Sizin bütün həyatınız Vətənə fədakarcasına xidmət nümunəsidir. On səkkiz yaşında ikən Siz dövlətin təhlükəsizliyini təmin etmək kimi çətin zəhmətə qatlaşanların sıralarına daxil olmuş, Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinədək yol keçmisiniz. Sizin misilsiz bacarığınız, təşkilatçılıq istedadınız və dövlətçilik təfəkkürünüz ölkə və zaman üçün gərəkli idi. Siz respublikada, Sov.İKP MK-da, Nazirlər Sovetində rəhbər vəzifələrə ucaldınız.

Yüksək mükafatlar – Sosialist Əməyi Qəhrəmanı adları, beş Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Ulduz ordenləri Sizin xidmətlərinizə parlaq sübutdur.

Respublikanın dövlətçiliyinin möhkəmləndirilməsinə, onun sosial-iqtisadi inkişafına, Rusiya Federasiyası ilə əlaqələrin genişlənməsinə verdiyiniz çox böyük şəxsi töhfə əvəzsizdir. Beynəlxalq miqyaslı siyasi xadim və dövlət xadimi kimi Sizin nüfuzunuz Azərbaycan Respublikasının dünyada mövqeyinin möhkəmlənməsinə böyük təkan verir.

***Heydər Əliyevin misilsiz bacarığı, təşkilatçılıq istedadı və dövlətçilik təfəkkürü ölkə və zaman üçün gərəkli idi.***



*V.MOROZOV*
*keçmiş SSRİ yollar nazirinin müavini*

# Mən yol təsərrüfatı mütəxəssislərini inandırmalı olurdum ki, Heydər Əliyev dəmiryolçu deyildir

Heydər Əliyevə qədər dəmir yolu nəqliyyatına Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizədlər kuratorluq edirdilər. Mən SSRİ yollar nazirinin müavini işləyərkən 1979-cu ildən başlayaraq, onlardan xahiş edirdim ki, yol təsərrüfatı işinin nə qədər ağır olduğunu görmək üçün əsaslı təmir işini izləsinlər. Amma mən onları buna inandıra bilmirdim.



***Heydər Əliyev əvvəldən axıradək bu prosesi izlədi, fəhlələrlə söhbət apardı və işin başa çatması münasibətilə mühəndis-texniki işçiləri hərarətlə təbrik etdi.***

Heydər Əliyev Siyasi Büronun üzvü seçildikdən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra (dəmir yolu nəqliyyatına kuratorluq da onun səlahiyyətləri daxilində idi), bizimlə birlikdə əsaslı təmirin gedişinə baxmasını ondan xahiş etdim. O, buna razılıq verdi. Biz 1983-cü il iyulun 21-də 1 nömrəli təcrübəvi yol-maşın stansiyasının işçiləri ilə işə başladıq. Dörd saat ərzində 2 kilometr köhnə yol söküldü və yenisi salındı. Heydər Əliyev əvvəldən axıradək bu prosesi izlədi, fəhlələrlə söhbət apardı və işin başa çatması münasibətilə mühəndis-texniki işçiləri hərarətlə təbrik etdi. Beləliklə, o, yol təsərrüfatı işinin ağırlığını öz gözləri ilə gördü. Bundan sonra o, yol işləri üçün xaricdən maşın və mexanizmlərin alınmasına dair valyuta ayrılmasına göstəriş verdi.

O, məni tez-tez yanına çağırır və yol işləri ilə maraqlanırdı. Bir dəfə onunla söhbət zamanı mən yoldəyişdiriciləri, onların çarpaz hissələrinə aid məsələyə toxundum və dedim ki, bu avadanlıq yeyildiyinə görə bir çox stansiyalarda qatarların sürətinə məhdudiyyət qoyulur. Mənim məlumatımdan sonra Heydər Əliyev Murom yoldəyişdiricilər zavodunda modernləşdirmə aparılması barədə göstəriş verdi. İşlər tamamlandıqdan sonra onun təntənəli açılışında yollar naziri N.Konorevlə birlikdə iştirak etdi.

*Heydər Əliyev 1 saat 30 dəqiqəlik çıxışında ölkənin dəmir yolu nəqliyyatındakı vəziyyətin dərin təhlilini verdi və çatışmazlıqları göstərdi.*

1984-cü ilin avqustunda Moskvada, SSRİ Yollar Nazirliyində ölkənin 32 dəmir yolunun, hissələrin, bəzi lokomotiv və vaqon depolarının, yol, rabitə, enerji təchizatı distansiyaları rəislərinin, həmkarlar ittifaqı komitələri nümayəndələrinin, SSRİ Nazirlər Soveti işçilərinin iştirakı ilə geniş kollegiya iclası keçirilirdi. İclasda Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev də iştirak edirdi. O, bu iclasdakı 1 saat 30 dəqiqəlik çıxışında ölkənin dəmir yolu nəqliyyatındakı vəziyyətin dərin təhlilini verdi və çatışmazlıqları göstərdi. Onun heç bir yazılı mətndən istifadə etmədiyi bu əhatəli çıxışına hamı valeh olmuşdu. Kollegiya iclası qurtardıqdan sonra, əsas etibarilə yol təsərrüfatı işçiləri mənə yaxınlaşıb deyirdilər ki, yaqin yoldaş Əliyev dəmir yolu mütəxəssisidir. Mən isə onları inandırmalı oldum ki, belə deyildir. Yoldaş Əliyev Bakı Universitetinin tarix fakültəsini bitirmişdir. İlk dəfə mənimlə də dəmiryolçu dilində danışanda, məəttəl qalmışdım.



*Vitali JOLOBOV*

*təyyarəçi-kosmonavt, "Slava" Ümumukrayna Birliyinin və Ukrayna Aeokosmik Cəmiyyətinin prezidenti*

# Əliyevlərin mehriban ailəsinin qonaqpərvərliyi yaddaşıma həmişəlik həkk olunmuşdur

Ukraynanın Xerson şəhərində dünyaya göz açan Vitali Mixayloviç ömrünün ən təravətli və coşğun 22 ilini Bakıda yaşamışdır. Burada 164 nömrəli məktəbi, sonra Azərbaycan Neft və Kimya İnstitutunun avtomatika və telemexanika fakültəsini bitirmişdir. İnstitutu qurtarandan sonra kosmik



sahə üçün zəruri olan yüksək ixtisaslı mütəxəssis kimi Kapustin Yar raket poliqonuna təyinat almışdı.

O, Bakının qaynar, dolanbac küçələrini, mehriban orta və ali məktəb müəllimlərini, qayğıkeş qonşularını, sədaqətli dostlarını həsrətlə xatırlayır. Çoxları ilə bu günədək səmimi əlaqə saxlayır.

Müsahibim 1976-cı ildən şəxsən tanış olduğu Prezident Heydər Əliyev ilə görüşlərindən xüsusi mehribanlıqla və hədsiz ehtiramla danışır:

"Əliyevlərin mehriban ailəsinin qonaqpərvərliyi yaddaşıma həmişəlik həkk olunmuşdur. Xoşbəxtəm ki, mən bu ailənin qonağı olmuşam. Zərifə xanımın da, gözəl övladlarının da ailənin başçısına necə böyük hörmət və ehtiramla yanaşdıqları diqqətimi cəlb etmişdi.

*Xoşbəxtəm ki, mən bu ailənin qonağı olmuşam. Zərifə xanımın da, gözəl övladlarının da ailənin başçısına necə böyük hörmət və ehtiramla yanaşdıqları diqqətimi cəlb etmişdi.*

Başqa görüşlər də olurdu. Ukrayna Prezidenti Leonid Kuçmanın 1995-ci ildə Azərbaycana rəsmi səfəri zamanı nümayəndə heyətində mən də vardım. Biz sağollaşıb ayrılarkən Heydər Əliyev mənə yaxınlaşıb bağrına basaraq mehribancasına soruşdu: "Bir de görüm, buraya niyə gəlmirsən?" İnanın, bu sözləri eşitmək mənim üçün son dərəcə xoş idi, bu sözlərdən kövrəldim. Deməli, bir insan və bir kosmonavt kimi məni unutmayıblar.

Mən cənab Heydər Əliyev ilə 1997-ci ildə, onun Ukraynaya tarixi səfəri zamanı da görüşdüm. Amma bu dəfə görüşdə Azərbaycan diasporu nümayəndə heyətinin üzvü kimi iştirak edirdim".

... Təbii ki, biz söhbətimizdə Dağlıq Qarabağ mövzusuna da toxunduq. Vitali Jolobov dünyanın birinci kosmonavtı Yuri Qaqarinin sözləri ilə cavab verdi: "Yer kürəsi ixtilaflar və müharibələr üçün çox balacadır, ona görə də insanlar həyatın qədir-qiymətini bilməlidirlər". Heydər Əliyev öz yüksək nüfuzu və zəngin təcrübəsi ilə qırğını dayandırmağa müvəffəq oldu, indi də Ermənistan-Azərbaycan münaqişəsini ancaq siyasi yolla həll etməyə çalışır.

Söhbəti yazdı:
**Zeynal Ağazadə**
**AzərTAc-ın xüsusi müxbiri**



*Gi ŞEVALYE*
*Fransanın Bakıdakı səfirliyinin keçmiş əməkdaşı*

# Heydər Əliyev hakimiyyətə gəlməklə Azərbaycanın bütövlüyünü qoruyub saxlamışdır



*Prezident Heydər Əliyevin gəlişi ilə ölkədə müdafiə, siyasi və ictimai, iqtisadi kontekstin tamamilə dəyişməsi fəaliyyətimizin sürətli inkişafına imkan verdi.*

Xarici İşlər Nazirliyimizin sərəncamı ilə 1993-1998-ci illərdə mən Fransanın Azərbaycandakı səfirləri Jan Perrən və Jan-Pyer Ginyutun rəhbərliyi altında mədəniyyət bölməsində çalışmışam. 1993-cü ilin yanvar ayında Bakıya gəldiyim zaman ölkənizdə tez-tez baş vermiş sürətli dəyişiklikləri 1993-cü ilin ikinci yarısında cənab Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi dövrlə müqayisə etmişəm. Ölkənizə gəlişimin ilk aylarında doğma ocaqlarından qovulmuş minlərlə ailə Bakının hər tərəfinə üz tutmuşdu.

Azərbaycana vurulmuş dərin yaraların - müstəqillik arzusunu boğmağa çalışanların 1990-cı il yanvarın 20-də Bakıda törətdikləri cinayətlər nəticəsində şəhid olanların xatirəsinin yad edilməsinin, Qarabağ müharibəsinin, xüsusilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı soyqırımının, ərazilərinizin bir hissəsinin işğalının və bir milyona yaxın məcburi köçkünün ağırlığını duymuşam. 1993-cü ilin kədərli qışının soyuğunda yaşadığım və bütün mərtəbələri silahlı adamlarla dolu mehmanxanada dövlət miqyaslı qüssəni, televiziyada hər gün sezilən ruh düşkünlüyünü hiss etmişəm.

Cənab Prezident müharibənin ağır və amansız illəri zamanı hakimiyyətə gəlişi ilə ölkənin birliyini saxlamağa və möhkəmləndirməyə, vətəndaş həmrəyliyi yaratmağa nail oldu. Azərbaycan xalqının özünə inam və sakitlik tapması məni sevindirirdi. Ölkə xalq təhsilinin yüksək səviyyəsinə çatmaqla və öz təbii sərvətlərinə sahib olmaqla, tərəqqi yoluna qədəm qoymaqla yoxsulluqdan müvəffəqiyyətlə çıxa bildi.

Yaxşı xatırlayıram ki, cənab Prezidentin gəlişi ilə ölkənizdə müdafiə, siyasi və ictimai, iqtisadi kontekstin tamamilə dəyişməsi fəaliyyətimizin sürətli inkişafına imkan verdi. 1995-ci ilin noyabrında Fransanın Nant şəhərində keçirilən üç qitənin festivalında Azərbaycanın fotosərgisini, rəsmlərini, musiqisini və kinosunu təqdim etmək üçün 90 nəfərdən ibarət ziyalı və artisti oraya aparan təyyarədə bir nəfər kinorejissorun Prezident Heydər Əliyevin ruhlandırıcı və ürəkləndirici məktubunu oxuması xatirimdə həmişəlik iz salıbdır.

Cənab Prezident tədris metodunun modernləşməsi əsasında fransız dilinin inkişafına yeni imkanlar açmaqla gənclərinizin müəyyən qisminin Fransa və fransızdilli ölkələrlə əlaqələr saxlamalarına şərait yaratdı. 105 FM dalğasında BFR (Beynəlxalq Fransa Radiosu) verilişlərinin yayımlanması ölkənizdə baş verən ən mühüm hadisələri bütün dünyadakı frankofonların dinləməsinə imkan yaratdı. Bütün bunların davamı kimi, 1999-cu ildən Parisin Şərq Dilləri İnstitutunda Azərbaycan dili tədris olunmağa başladı. Prezident Heydər Əliyevin gənc nəslə qayğısı və onların Avropa mədəniyyətinə yaxından yiyələnmələri arzusu məni məsul olduğum mədəniyyət və təhsil sahəsinə daha ciddi yanaşmağa vadar etdi. Dünyada Fransanın siyasətini xarakterizə edən qarşılıqlı hörmət və düşüncəyə sadiq qalmağa, vətəninizə məhəbbət bəsləməyə cəsarətləndim.

Söhbəti yazdı:
**Əsgər Əliyev**
**AzərTAc-ın xüsusi müxbiri**





*Prezident Heydər Əliyevin gənc nəslə qayğısı və onların Avropa mədəniyyətinə yaxından yiyələnmələri arzusu məni məsul olduğum mədəniyyət və təhsil sahəsinə daha ciddi yanaşmağa vadar etdi.*

*Vsevolod ŞİLOVSKİ*
*Rusiyanın xalq artisti*

# Heydər Əliyev Moskva Akademik Bədaye teatrına böyük qayğı göstərmişdir





Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi illərdə Moskva Akademik Bədaye Teatrının Kamerger dalanındakı əsas binasının tamamilə yenidən qurulmasına ehtiyac vardı. Bundan ötrü böyük məbləğdə pul lazım idi. Odur ki, Nazirlər Sovetinə ərizə ilə müraciət etdik. Teatrın rəhbərliyi ilə birlikdə mən də nümayəndə heyətində idim. Mən binanın yenidən qurulmasının təşkilinə cavabdeh idim.

Bizi Nazirlər Sovetinin iclasına dəvət etdilər. İclası SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev aparırdı. Məsələ maliyyə baxımından çox mürəkkəb idi, ona görə ki, qəti bir seçim edilməli idi: ya lazım olduğu qədər pul verirlər, ya da ümidimizi üzməliyik.

Nəhəng salondakı masanın yuxarı başında əyləşən Heydər Əliyev dedi: "Məsələ MABT-la bağlıdır. Biz onu diqqətsiz qoymamalıyıq. Bizim vəzifəmiz məsələni araşdırıb, maliyyələşdirmə barədə qərar qəbul etməkdir". Qərarı da o qəbul etdi. Elə həmin iclasda bizə 25 milyon dollar ayrıldı. Az pul deyil! İncəsənətə səmimi münasibət, bax, budur.

Mən uzun ömür sürmüşəm və məni heyrətləndirmək çətindir. Mən daha sözlərə inanmıram, ancaq əməllərə inanıram. Bu insan bütün ömrü boyu böyük və nəcib işlər görmüşdür. Heydər Əliyev indiyədək çalışdığı bütün dövlət vəzifələrində mədəniyyət xadimlərinə, özü də təkcə Azərbaycanın deyil, Rusiyanın da, keçmiş SSRİ-nin digər respublikalarının da mədəniyyət xadimlərinə, o cümlədən zəngin ənənələri və rus teatr məktəbinin beşiklərindən biri olan dünya şöhrətli Moskva Akademik Bədaye Teatrına da həmişə qayğı göstərmişdir.

***Heydər Əliyev bütün ömrü boyu böyük və nəcib işlər görmüşdür.***

*Konsuelo PRİASKO*
*İtaliya Radio-Televiziya Şirkətinin Avropa Parlamentində xüsusi müxbiri, Romanın La Sapienza Universitetinin professoru*

# Heydər Əliyev həm də alicənablığına və müdrikliyinə görə yaddaşlarda qalacaqdır

***Prezident Heydər Əliyev əbədi olaraq yeri görünəcək böyük liderdir.***

Azərbaycan paytaxtına etdiyim səfərlərdən birində keçirdiyim çox əhəmiyyətli və həyəcanlı görüşü xatırlayıram. Həmin görüşdə gözlənilmədən Prezident Heydər Əliyevlə şəxsən tanış olmaq şərəfinə nail olmuşdum və onun şəxsiyyətindən duyulan fövqəladə xarizma məni valeh etmişdi. Görkəmli şəxslərlə görüşməyə adət etmişəm, lakin Prezident Heydər Əliyevlə heç kəsdə görmədiyim insanpərvərliyi, altruizmin və uzaqgörənliyin şahidi oldum.

Bu həqiqətdir ki, Prezident Heydər Əliyev əbədi olaraq yeri görünəcək böyük liderdir. O, yalnız xalqına etdiyi böyük xidmətlərə görə yox, həm də alicənablığına və müdrikliyinə görə yaddaşlarda qalacaqdır. Əminəm ki, tarix onun barəsində böyük hörmət və minnətdarlıqla danışacaqdır. Eyni hissləri Heydər Əliyevi Prezident və görkəmli xadim kimi tanımaq şərəfinə nail olan bütün şəxslər də keçirir.

Əminəm ki, Prezident Heydər Əliyev hələ də haralardasa xalqına və özünün zəhmətini və ənənələrini əbədiləşdirməyə çalışanlara yardım edir.



*Vitali İQNATENKO*
*İTAR-TASS agentliyinin baş direktoru*

# Heydər Əliyev jurnalist əməyinə xeyirxah münasibət bəsləmişdir

***Heydər Əliyevin dövlət xadimi müdrikliyi gözəl insani keyfiyyətlərlə, insanlara qayğıkeş münasibətlə vəhdət şəklində birləşmişdir.***

Cənab Prezident, çoxillik səmərəli və faydalı əməkdaşlığa görə Sizə minnətdarlıq sözləri demək üçün bu gün yaxşı əsasımız var. Tassçı jurnalistlərin neçə-neçə nəsli özünün bütün ömrünü doğma xalqına sədaqətlə xidmətə həsr etmiş ən nüfuzlu müasir siyasi liderlərindən biri, Rusiyanın ardıcıl və etibarlı dostu kimi Sizə dərin hörmətlə yanaşmışdır. Sizdə dövlət xadimi müdrikliyi gözəl insani keyfiyyətlərlə, insanlara qayğıkeş münasibətlə vəhdət şəklində birləşmişdir. Biz Sizin jurnalist əməyinə diqqətcil, xeyirxah münasibətinizi, tassçı müxbir və fotoreportyorlar üçün həmişə vaxt tapmağa hazır olduğunuzu yaxşı bilir və yüksək qiymətləndiririk. Sizin onlarla görüşməyə vaxt ayırmağınız Azərbaycanın həyatını operativ, hərtərəfli və dərindən işıqlandırmağa imkan verir.



*Mixail QUSMAN*
*İTAR-TASS agentliyi baş direktorunun birinci müavini*

# Heydər Əliyev Azərbaycanın daşını da tanıyır

Prezident Heydər Əliyevi bu binada qəbul etmək bizim üçün, agentliyin əməkdaşları üçün xüsusilə xoşdur. Çünki bu bina vaxtilə Nazirlər Sovetinin qərarına uyğun olaraq, Sovet İttifaqı hökuməti sədrinin birinci müavini Heydər Əliyevin sərəncamı ilə tikilmişdir. Sizə hətta balaca bir sirr açacağam. Bu gün Heydər Əliyev binamızın bəzək daşları arasında Azərbaycan daşını da görüb tanıdı.






*Xulio İQLESİAS*
*məşhur İspaniya müğənnisi*

# Heydər Əliyevin rəhbərlik etdiyi ölkəni ziyarət etmək ən böyük arzum olmuşdur

Cənab Prezident, mənim Sizə deyiləcək bir neçə sözüm vardır. Həmişə mənim ürəyimdə və beynimdə belə bir arzu olubdur ki, məhz Sizin rəhbərlik etdiyiniz ölkəyə səfər edim. Mən bundan sonra öz həmkarlarıma, biznesdə olan dostlarımın hamısına deyəcəyəm ki, Azərbaycana səfər etmək çox maraqlı və çox gözəldir. Azərbaycanın həm xalqı, həm də Prezidenti çox gözəldirlər. Mən Sizə, bu ölkəyə, bu ölkənin qonaqpərvərliyinə minnətdaram. Sizin gözəl, hər şeyi görə biləcək gözləriniz vardır. Cənab Prezident, bilirsinizmi, əgər Prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar.

***Heydər Əliyevin gözəl, hər şeyi görə biləcək gözləri vardır. Əgər Prezidentin gözləri gözəl olmasa, onun üçün çox çətin olar. İnsanlar həmişə insanı gözündən oxuyurlar.***



*Herri HOULİHƏN*
*Klivlend klinikası təhlükəsizlik xidmətinin rəisi*

# Heydər Əliyev tarixin gedişində dönüş yaratmış şəxsiyyət idi





Bir neçə il əvvəl mənə məlumat verildi ki, Prezident Heydər Əliyev tibbi müayinə üçün Klivlendə gələcəkdir. O vaxtadək mən Prezident haqqında, onun xalqı və ölkəsi haqqında heç nə bilmirdim. Buna görə də Azərbaycan ölkəsi və xalqı haqqında bilik toplamağa başladım.

O vaxt heç ağlıma da gəlmirdi ki, mənimlə Əliyevlər ailəsi və Prezidenti müşayiət edənlər arasında xüsusi möcüzəli ünsiyyət yaranacaqdır. Biz hamımız dost olduq. Xoş vaxtlarda birlikdə sevinir, ağır vaxtlarda bir-birimizə təsəlli verirdik.

Heydər (mən özüm də babayam) ingiliscə çox danışmırdı. Amma onun mavi gözlərindən hiss edə bilirdim ki, nə deyir. Onun özünü yaxşı hiss etdiyi günlər əlimi sıxmasından və sıcaq təbəssümündən özümü xoşbəxt hiss edirdim. Mənim soyadımı tam tələffüz edə bilmirdi və sadəcə, "Salam, Houli" deyirdi. O sözlər, onun təbəssümləri və əlimi sıxması yaddaşımdan heç zaman silinməyəcəkdir.

Heydər tarixin gedişində dönüş yaratmış şəxsiyyət idi. Mən fəxrlə deyə bilərəm ki, onu tanıyırdım və onu müşayiət edənlərlə yaxşı dost olduq. Bu xatirələri uzun illər ürəyimizə təsəlli kimi saxlayacağam. Heydərin vəfatı ilə bağlı ən dərin kədər hisslərimi çatdıraraq, mən həm də inkişaf etdirdiyimiz dostluğa, məni şəxsi səviyyədə özünə yaxın buraxdığına görə onun ruhu qarşısında ürəkdən gələn minnətdarlığımı bildirirəm. Sizə yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə. Bu hissləri nəvələrimlə bölüşmək çətin olacaq, amma çalışacağam ki, bunu edim.

***Heydər Əliyevin özünü yaxşı hiss etdiyi günlər əlimi sıxmasından və sıcaq təbəssümündən özümü xoşbəxt hiss edirdim.***

*Nikolay BALATSKİ*
*Kiyev metropoliteninin keçmiş direktoru*

# Heydər Əliyev ən məsuliyyətli anlarda işi şəxsən öz üzərinə götürürdü





Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən bir sıra digər məsələlərlə yanaşı, nəqliyyatın da işinə kuratorluq edirdi. Mən isə on il yarım Kiyev şəhər partiya komitəsinin nəqliyyat və rabitə şöbəsinə başçılıq etməli olmuşam.

Dəmir yolu ilə daşınmalarda, ələlxüsus da ilin sonunda, hər bir müəssisə illik tapşırığı yerinə yetirmək üçün yükü daha tez göndərməyə çalışanda böyük çətinliklər meydana çıxırdı. O zaman yükləri vaxtında göndərmək, kiçik müəssisələrdən tutmuş nəhəng müəssisələrədək hər bir rəhbər işçi üçün ciddi tələb idi.

Bax, elə həmin məsuliyyətli məqamlarda, çox gərgin qış aylarında daşınmaların təmin edilməsi məsələlərini məhz Heydər Əliyev öz üzərinə götürürdü. Onun uçsuz-bucaqsız ölkə ərazisində keçirdiyi selektor müşavirələri, bir tərəfdən, həddindən artıq çətin şəraitdə mütəşəkkilliyin nümunəsi və nəticədə yüklərin daşınmasının təmin olunması, digər tərəfdən isə, gənc partiya, təsərrüfat işçiləri üçün mürəkkəb vəzifələrin həlli baxımından yaxşı təşkilatçılıq məktəbi idi.

Bunu da deməyə bilmərəm ki, Heydər Əlirza oğlu heç vaxt nə cüzi kobudluğa, nə də əsəb gərginliyi yaranmasına yol verirdi. Belə mürəkkəb şəraitdə kiminsə vəzifədən kənarlaşdırıldığını xatırlamıram. Hər şey bu məsələdə işlərin nə vəziyyətdə olduğunu dərindən bilməyə, icraçı kadrlara etibara və əlbəttə ki, ilk növbədə, Heydər Əlirza oğlunun böyük nüfuzuna əsaslanırdı.

Mənə 2002-ci ilin noyabrında Bakı Metropoliteninin 35 illiyi münasibətilə keçirilən təntənələrdə Kiyev Metropoliteni kollektivi adından iştirak və çıxış etmək nəsib olmuşdu. Bizi – MDB ölkələri metropolitenlərinin bir çox kollektivlərinin nümayəndələrini Prezidentin təntənəli iclasda və konsertdə iştirakından, bizimlə şəxsən söhbət etməsindən tutmuş, Bakı Metropoliteninin və Metro Tikintisi İdarəsi kollektivlərinin işindən xəbərdar olmasına qədər hər şey heyran etdi. Heydər Əlirza oğlu bir saatdan çox davam edən çıxışında çoxlu rəqəmlər misal gətirdi, onlarca metropoliten işçisinin soyadını "sinədəftər" çəkdi.

***Çox gərgin qış aylarında daşınmaların təmin edilməsi məsələlərini məhz Heydər Əliyev öz üzərinə götürürdü.***

*Arkadi NESTEROV*
*Rusiya Tibb Elmləri Akademiyasının akademiki*

# Heydər Əliyev heyrətamiz, yorulmaq bilməyən insan idi

***Heydər Əliyev heyrətamiz bir şəxsiyyət idi.***

Mən ötən illəri, Zərifə xanımla görüşlərimizi, birgə fəaliyyətimizi həmişə məmnunluq, eyni zamanda, kədər hissi ilə xatırlayıram. Zərifə xanım qeyri-adi qadın və Azərbaycan elminə öz töhfəsini vermiş görkəmli, ciddi alim idi. Mən ürəkdən fəxr edirəm ki, eyni problemlər üzərində biz bir yerdə işləmişik, birlikdə iki kitab yazmışıq. Zərifə xanım bütün fəaliyyəti ilə, haqlı olaraq, Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki adına layiq görülmüşdür.

Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu ilə səmimi dostluğumuzdan da danışmaya bilmərəm. Heydər Əliyev heyrətamiz bir şəxsiyyət idi. İlk növbədə, onun





zəkasını və erudisiyasını qeyd etmək istərdim. O, ən müxtəlif sahələrdən – incəsənətdən də, müxtəlif elmin bir çox sahələrindən də xəbərdar idi. Buna görə də onunla ünsiyyətdə olmaq həmişə maraqlı idi. Nəhayət, o, yorulmaq bilməyən insan idi.

Bir dəfə yayda həyat yoldaşımla Zuğulbada istirahət edirdik. Göydən sanki od ələnirdi. Televiziya ilə isə Heydər Əlirza oğlunun hər gün kənd rayonlarına getdiyini, heyvandarlıq fermalarına və digər kənd təsərrüfatı obyektlərinə baş çəkdiyini görürdük. Hər gün belə olurdu, bir rayondan başqasına gedirdi... O, həqiqətən də, son dərəcə işgüzar idi və yorulmaq nə olduğunu bilməzdi. Buna görə heç də təəccüblü deyildir ki, Azərbaycan həmişə birincilər sırasında olurdu.

Mən Heydər Əlirza oğlu ilə Zərifə xanımı bir-birinə bağlayan sonsuz məhəbbətdən də danışmaya bilmərəm. Onların arasında olan ülvi məhəbbəti sözlə ifadə etməyə çətinlik çəkirəm. Bu gözəl qadının həyatdan getməsi Heydər Əlirza oğlu üçün əsl faciə oldu. Bu, bizi də son dərəcə kədərləndirmişdi.

Mən çox şadam ki, İlham Əliyev Azərbaycanın Prezidenti seçilmişdir. İlham Əliyev çox ağıllı və işgüzar siyasətçidir və əminəm ki, atasının başladığı işi layiqincə davam etdirəcəkdir.

Biz Azərbaycanı çox sevirik və bir daha oraya gedəcəyimizə ümid bəsləyirik. Azərbaycana tərəqqi, əmin-amanlıq, sabitlik və daimi iqtisadi inkişaf arzulayırıq.

***Heydər Əlirza oğlu ilə Zərifə xanımı bir-birinə bağlayan ülvi məhəbbəti sözlə ifadə etməyə çətinlik çəkirəm.***

Söhbəti yazdı:
**Asya Hacızadə**
**AzərTAc-ın xüsusi müxbiri**

*Aleksandr ADLER*
*"Kuryer İnternasional" jurnalının (Fransa) baş redaktoru*

# Nadir şəxsiyyət





Heydər Əliyevdə insanı ən çox onun planet miqyasında siyasi uzunömürlülüyü heyran edir.

Heydər Əliyev fəaliyyətinə 1940-44-cü illərin son dərəcə mürəkkəb bir şəraitində başlamışdır. Bu, elə bir dövr idi ki, 20 yaşlı gənclər indiki yaşıdlarına nisbətən cəmiyyətdə daha böyük rol oynayırdılar. O, Naxçıvanda idi, nasist Almaniyası ilə ölüm-dirim mübarizəsi aparan Sovet İttifaqının çox çətin sərhəd sahəsini qoruyurdu.

Sonra Heydər Əliyev Təbrizdə xidmət edir, faciəli hadisələrin şahidi olur.

Azərbaycanın qeyrətli vətənpərvəri olan Heydər Əliyev Sovet İttifaqının köməyi ilə böyük Azərbaycanın inkişafını görmək istəyirdi. Lakin o, başa düşməyə başlayırdı ki, rusların qüdrəti intəhasız deyil və bəlkə də bu, Sovet İttifaqının hər şeyə qadir olduğu barədə xülyalara qapılanlardan fərqli olaraq, onun siyasi karyerasının uzun sürməsinin səbəblərindən biridir.

Heydər Əliyev başa düşür ki, həqiqət, əslində, daha mürəkkəb və daha çətindir. O, gözəl bilir ki, xarici siyasət mürəkkəb bir fəaliyyətdir, burada bilik, ağıl-zəka, kəşfiyyat və danışıqlar da güc kimi eyni əhəmiyyətə malikdir. Bütün bu keyfiyyətlərə malik olan Heydər Əliyev çox vaxt silahsız, ancaq öz zəkasının gücü ilə, köməyi ilə mübarizə aparmalı olmuşdur.

***Heydər Əliyev çox vaxt silahsız, ancaq öz zəkasının gücü ilə, köməyi ilə mübarizə aparmalı olmuşdur.***

Heydər Əliyev Sovet İttifaqının kəşfiyyat xidmətlərində davam etmiş bütün bu uzun təcrübəni öz xalqına xidmətə yönəltmişdir. Ümidlər və xoş xəyallarla dolu olan Brejnev dövrünün əvvəllərində o, mürəkkəb vəziyyətə düşmüş Azərbaycan Respublikasının rəhbəri təyin edilir. Bu, Azərbaycan üçün postneft erasının başlanğıcı, respublikanın sərvətlərinin tükənmək həddinə çatdığı və sənayeni daha yüksək texnoloji səviyyəyə keçirmək tələb edildiyi bir vaxt idi.

Heydər Əliyev bu məqsədin həyata keçirilməsi – emal olunmamış xammalın sadəcə hasilatından imtina edərək, işin yeni normalarının, yeni texnologiyaların yaradılması uğrunda mübarizə aparmağa başlayır. Bu səhvi ərəb dünyası 50-ci illərdə etmişdi. Respublika iqtisadiyyatını modernləşdirmək üçün Mərkəzi hakimiyyətdən kreditlər ayırmasına nail olmaq lazım idi. Bundan ötrü isə daimi və gərgin diplomatik səylər tələb olunurdu. Lakin bu səylərə Dövlət Plan Komitəsinin

yeni rəhbəri Baybakovun əslən Azərbaycandan olması da kömək etmirdi.

Heydər Əliyev bu döyüşdən qalib çıxır, nəticədə 1970-80-ci illərdə Azərbaycan, ilk növbədə, neft texnologiyaları və informatika sahəsində yüksək inkişaf etmiş sektorlara malik iri sənaye ölkəsinə çevrilir. Az-az adam bilir ki, Bakı sovet informatikasının mühüm mərkəzlərindən biri idi.

Eyni zamanda, Heydər Əliyev mədəniyyət sahəsində misli görünməmiş siyasət yeridir: Qafqazın Böyük Teatrı adlandırılan Bakı Opera Teatrı çiçəklənir, əla simfonik orkestr, güclü şahmat məktəbi yaradılır, istedadlı kinorejissorlar yetişdirilir. Məlumdur ki, Azərbaycan kinosu uzun müddət durğunluq vəziyyətində olmuşdur, halbuki vaxtilə "Arşın mal alan" Stalinin sevimli filmi idi.

Heydər Əliyevin Azərbaycanın rəhbəri vəzifəsində uğurlu və çoxşaxəli fəaliyyətinin nəticəsi idi ki, Yuri Andropov öz islahatlarının ilk dövrünə başlayanda Heydər Əliyevi ən yaxşı baş nazir hesab edir və düşünürdü ki, o, ölkənin dövlət aparatına təkan verməyə qadirdir. Andropov hakim rus millətçiliyinin düşməni idi, hesab edirdi ki, "Leninin milli siyasətinə" qayıtmaq, yəni respublikaların rəhbərlərinə Mərkəzdə layiq olduqları yeri vermək lazımdır.

*Sovet diplomatiyasında inkişaf zəifliyinə qarşı yönəldilmiş böyük dəyişikliyin təşəbbüsçüsü məhz Heydər Əliyev olmuşdur.*

Sovet diplomatiyasında inkişaf zəifliyinə qarşı yönəldilmiş böyük dəyişikliyin təşəbbüsçüsü məhz Heydər Əliyev olmuşdur. Sonralar bu xətt Qorbaçov və Şevardnadze tərəfindən davam etdirilmişdir.

Şübhə yoxdur ki, Heydər Əliyev sovet diplomatiyasının istiqamətinin dəyişdirilməsində ən başlıca rol oynamışdır. Lakin onun bu xidmətini nə Dobrının, nə də Qorbaçov etiraf etmişlər. Üstəlik, Qorbaçov hakimiyyətə gəldikdən sonra sovet rəhbərliyi Heydər Əliyevin guya səhhətinin pisləşdiyini bəhanə gətirərək onu Siyasi Bürodan uzaqlaşdırdı.

Heydər Əliyevin əvvəlcə ancaq ədalətsiz siyasi sanksiya kimi qarşıladığı bu qərar, əslində, rusların öz cənublu müsəlman tərəfdaşlarını sıxışdırıb aradan çıxarmaq siyasətinin bir xüsusiyyəti idi. Bibliyada İosif barəsində deyildiyi kimi, İosif Firona daha əl vermədiyinə görə, o, getməli idi.

Tanrının son dərəcə güclü ruh bəxş etdiyi Heydər Əliyev dərin daxili ləyaqətə, özünə hörmət qazandırmaq bacarığına, habelə sarsılmaz iradəyə malikdir və öz xalqına sıx bağlıdır.



Bu keyfiyyətlər respublikanın siyasətinə qarşı Moskvanın yeritdiyi təhrikçilik siyasətinin nəticəsi olan Qarabağ münaqişəsinin başlandığı vaxtdan özünü xüsusilə büruzə vermişdir. Böhran inkişaf edib dərinləşdikcə, Heydər Əliyev Azərbaycan haqqında böyük narahatlıqla düşünürdü. Axı, Azərbaycan parçalanmaq təhlükəsi ilə qarşılaşmışdı və onun zəhmətinin buradakı bəhrələrini hər tərəfdən dağıdırdılar.

O, öz milli amalına sadiq qalaraq, Azərbaycan cəmiyyətinin bütün nümayəndələri ilə görüşür, onlara məsləhətlər verirdi. Heydər Əliyevin əsas qayğısı, Ermənistanla müharibə ilə yanaşı, ölkənin dağılmasına gətirib çıxara biləcək ən başlıca bəla olan vətəndaş müharibəsinin qarşısını almaq idi.

Ancaq Azərbaycanda həm Şimalın, həm də Cənubun dəstəklədiyi, qardaş qırğını müharibəsini qızışdırmaq istəyən məsuliyyətsiz adamlar var idi. Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyətdə yenə də yalnız öz zəkasının gücü ilə hərəkət edirdi.

Azərbaycanın belə bir ağır vaxtında Heydər Əliyev öz xalqının Xilaskarı kimi gəldi.

*Tanrının son dərəcə güclü ruh bəxş etdiyi Heydər Əliyev dərin daxili ləyaqətə, özünə hörmət qazandırmaq bacarığına, habelə sarsılmaz iradəyə malikdir və öz xalqına sıx bağlıdır.*

Heydər Əliyev tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu Moskva ilə münasibətlərdə etmək asan oldu, çünki orada hamı bilirdi ki, Heydər Əliyev ölkənin rəhbərlərindən biri olmuşdur. Bunu Türkiyə ilə də etmək asan oldu, sağ ekstremistlərin əbəs cəhdlərindən sonra Ankara başa düşdü ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyildir. Ankara onu da başa düşdü ki, Heydər Əliyev türkdilli Azərbaycanın müstəqilliyindən və özgürlüyündən heç vaxt imtina etməyəcəkdir.

İranla münasibətlərin yaxşılaşdırılması böyük zəhmət sayəsində, müəyyən dərəcədə Xatəminin qələbəsi və Azərbaycan xalqı üçün yeni perspektivlər açılan bu cənub qonşunun ardıcıl surətdə demokratikləşməsi sayəsində mümkün oldu.

Heydər Əliyevin siyasəti çoxlarını qane etmirdi, onun həyatına bir sıra sui-qəsdlər törədilmişdir. Lakin Tanrı Heydər Əliyevi qorumuşdur.

Belə bir şəraitdə Heydər Əliyev dinclik bilmədən öz ölkəsini dirçəltməyə başlayır. Diqqətəlayiq faktdır ki, onun hakimiyyətə ikinci qayıdışı Azərbaycanın yeni neft erası



dövrünə təsadüf etmişdir, halbuki o, ölkəyə rəhbərliyə ilk dəfə postneft dövründə gəlmişdi.

Yeni neft erası kökləri XIX əsrin sonları - XX əsrin əvvəllərinə təsadüf edən böyük ənənələrin davamıdır. O vaxtlar Bakı inkişaf sarıdan dünyanın bir çox paytaxtlarını geridə qoyurdu. Burada tramvay xətti Moskvadan əvvəl çəkilmişdir, Bakı operası bütün Rusiya imperiyasında ən yaxşı opera sayılırdı. Heydər Əliyevin himayəsi ilə Azərbaycan tədricən regionun strateji mərkəzinə və deməli, XXI əsrin mühüm dövlətlərindən birinə çevrilir.

Bəs, bu transformasiyalar nəyin sayəsində baş verir? Burada üç amili qeyd etmək lazımdır:

1. Azərbaycan bu gün bütün müsəlman dünyasında ən qabaqcıl ölkə olsa da, ən zəngin ölkə deyildir. Bu, təəccüblü deyil, çünki sürətlə sənayeləşdirmə çox vaxt yoxsulluqla müşayiət olunur. Lakin bu vəziyyət neftdən götürülən gəlirlər sayəsində tezliklə düzəlməlidir.



Azərbaycanda müasir dəyişikliklər Türkiyədəkindən daha tez baş vermişdir. İndi adambaşına götürdükdə, Azərbaycanda (bəlkə də, hazırlıqları çox yüksək deyil) Fransadakı qədər həkim var. Əhalinin tibbi xidmətlə bu cür başdan-başa əhatə edilməsinin dünyada tayı-bərabəri yoxdur. Savadlılığın səviyyəsi 98 faizə çatır ki, bu da Fransadakından yüksəkdir. Neft sahəsindəki mühəndislərin sayı da Fransanın həmin göstəricisindən artıqdır. Azərbaycanda elə ali məktəblər var ki, onlar Sovet İttifaqının aparıcı elmi mərkəzləri olmuşdur.

Zənnimizcə, Azərbaycan modernləşdirmənin ahəngini saxlamaq üçün Rusiya ilə daimi və güclü əlaqələrə, dostluğa və qarşılıqlı hörmətə əsaslanan güclü münasibətlərə malik olmalıdır.

2. Dünyadakı Azərbaycan icmaları ilə əlaqələr nəzərə alınmaqla, Azərbaycan, sözün həqiqi mənasında, öz ərazisi ilə müqayisədə daha mühüm rol oynayır.

Üç böyük imperiyanın - türk, rus və fars imperiyalarının təşəkkülünün şahidi olan azərbaycanlıların misilsiz bir keyfiyyəti var: onlar bu üç xalqı başa düşərək, özünəməxsusluğunu qoruyub saxlamaq və assimiliyasiyaya uğramamaq üçün kifayət qədər gücə malikdirlər. Harada yaşamalarından asılı olmayaraq, onlar tərəqqi və modernləşmə daşıyıcılarıdır. Azərbaycanlılar başqa mədəniyyətlərə açıqdırlar və müasirliyin ənənəvi cəmiyyətlərə tətbiqinin daşıyıcılarıdır.

Tezliklə, neft hasilatı artırılıb 60 milyon barrelə çatdırıldıqdan sonra Bakı - mədəniyyətlərin qovuşduğu bu şəhər indi unudulmuş bütün qədim yolların işləməsini təmin etmək üçün iqtisadi imkanlara malik olacaqdır.

3. Azərbaycan və azərbaycanlılar müasirlik və bilikləri yaymaq niyyətlərinin güclü olduğu ölkə və xalqdır. Bu, bir qədər sadələvh, amma nəcib iddialar sovet dövrünə xas idi. O vaxtlar mərkəz Azərbaycan olmaqla, Sovet İttifaqına oxşar və Türkiyədən, İrandan, bəlkə də ərəb dünyasının bir hissəsindən - Suriya və İraqdan ibarət böyük bir mədəni-siyasi konqlomerat yaratmaq ideyası vardı.

Bu kommunist perspektivləri keçmişdə qaldı, amma həmin ideya çox da utopik deyildir. Əlbəttə, bu ölkələr heç zaman böyük Avrasiya xilafəti və ya xaqanlığı yaratmayacaqlar, lakin gələcəkdə həmin ölkələrdən hər birinin milli su-

***Heydər Əliyevin siyasəti çoxlarını qane etmirdi, onun həyatına bir sıra sui-qəsdlər törədilmişdir. Lakin Tanrı Heydər Əliyevi qorumuşdur.***

verenliyinə hörmət göstərilməsi şərtilə ümumi bir bazar yaradılması və mübadilələrə yenidən başlanması mümkündür.

Bu birliyin ürəyi Ankara və Tehran deyil, məhz Azərbaycan və regionun elm mərkəzi hesab edilən Bakı olacaqdır.

Yeni neft erası, Qərb ölkələrinin Azərbaycana qayıtması bu perspektivi real edir. Qərbyönümlü olan və imperiyanın özünün eybəcər formalarında bərpa olunmasından imtina edən Vladimir Putinin başçılığı ilə Rusiya siyasətçiləri Azərbaycanın bütün əhəmiyyətini anlamağa başlayır və onunla daha da yaxınlaşmağa səy göstərirlər.

Yuxarıda söylənilənlərin hamısı Heydər Əliyevin şəxsiyyəti və dahiliyi ilə ayrılmaz surətdə bağlıdır. Dövlət Təhlükəsizliyi Komitəsinin generalı, xüsusi idarələrdə Türkiyə-İran şöbəsinin rəhbəri olmuş, Yaxın Şərqə dair ensiklopedik biliyə malik olan, istər Azərbaycan mədəniyyətini, istərsə də rus mədəniyyətini dərindən bilən Heydər Əliyev, özünün bütün yüksək vəzifələrinə baxmayaraq, gücün hər şeyə qadirliyinə heç zaman inanmayıbdır.

*Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyətdə yenə də yalnız öz zəkasının gücü ilə hərəkət edirdi.*

Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır.

Belə hünərlər göstərən şəxsiyyət fövqəladə şəxsiyyətdir.

**"Kuryer İnternasional" jurnalı,**
**may 2003-cü il**



*Aleksandr BUDBERQ*
*"Moskovski komsomolets" qəzeti,*
*9 aprel 1998-ci il*

# Virtuoz



Özünü siyasətçi hesab edən adamlar çoxdur. Bəzən görürsən ki, rayon deputatı seçilən biri gələcəkdə napoleonluq iddiasına düşür. Əslində isə, hətta prezidentlərin də bir çoxu əsl siyasətçiyə çevrilə bilmir, baxmayaraq ki, ömürlərinin axırınadək həmin kürsüdə qalırlar. Amma Azərbaycan Prezidenti, respubilka DTK-sının keçmiş rəhbəri, Azərbaycan KP MK-nın keçmiş birinci katibi, keçmiş Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, onları bir nümunə kimi göstərmək olar. O, Makiavellinin traktatlarına canlı nümunə təsiri bağışlayır. Hakimiyyətə gəlmək istəyən insanlar onun təcrübəsini araşdıra və öyrənə bilərlər. Amma bunun çətin ki, təkrarı olsun. Çünki bütün başqa istedadlar kimi, siyasətçi istedadı da anadangəlmədir, fitridir.

*Heydər Əliyev Makiavellinin traktatlarına canlı nümunə təsiri bağışlayır.*

Heydər Əliyev hakimiyyət zirvələrini dəfələrlə fəth etmişdir. O, inkişaf etmiş sosializm illərində də və SSRİ dağıldıqdan sonra da birinci ola bilmişdir. Hakimiyyətin hansısa bir texnologiyası olduğunu bilirmi? - sualına cavabında deyir ki, bilir. Sonra isə bildirir ki, insan məşğul olduğu işi gərək sevsin. Həmsöhbətini dinləməyi bacarmaq. Verdiyin sözü yerinə yetirmək. Bu ümumi qaydalar hər şeylə maraqlanan jurnalistlərə (müəllifin özü də bunların sırasına aiddir) ilk baxışda son dərəcə ümumi məsələlər kimi görünür. Sonra isə başa düşürsən ki, həyat tərzini daha nə cür izah etmək mümkündür? Bunu daha nə cür izah etmək olar ki, əgər sutkada 24 saat yalnız siyasətlə yaşayırsansa, hakimiyyət Tanrının sənə bəxş etdiklərini həyata keçirmək üçün bir vasitədirsə, qalan hər şey öz-özünə baş verir.

Heydər Əliyev özünün ən yüksək hakimiyyət zirvəsinə 1993-cü ildə qalxmışdır. O vaxt Dağlıq Qarabağ üstündə gedən müharibənin əldən saldığı Azərbaycan sürətlə dağılmağa doğru yuvarlanırdı. Ölkə hərbi klanların komandirlərinin əlində oyuncağa çevrilmişdi.

...Belə olan vəziyyətdə respubilkada hər bir uşaq da başa düşürdü ki, müharibədən və tam yoxsulluqdan çıxmaq üçün yeganə imkan Xəzər neftidir. Lakin müqavilələrin imzalanması hər dəfə pozulurdu. Gözlənilən nəticədən narazı olan güclü xarici qüvvələr fitnələrə əl ataraq, gah yenidən müharibəni qızışdırır, gah da hakimiyyət çevrilişi edirdilər.



1993-cü ildə də belə olmuşdu. Elçibəy müqavilələri imzalayacağını elan edən kimi, - bunlarda Rusiyanın mövqeyi və mənafeləri, ümumiyyətlə, nəzərə alınmamışdı, deyə, - Hüseynov tankların "mühərriklərini işə salmaq" əmri vermişdi. Tezliklə məlum oldu ki, hökumət qoşunları onun qarşısını saxlaya bilməyəcəkdir. Bax, onda Azərbaycanın əsas hissəsindən Ermənistan ərazisi ilə ayrı düşmüş Naxçıvandan onun lideri Heydər Əliyevi Bakıya çağırdılar.

Heydər Əliyev Moskvadan Naxçıvana bundan bir neçə il əvvəl qayıtmışdı. Qorbaçov onu Siyasi Bürodan uzaqlaşdırmışdı və belə hesab edirdi ki, siyasətdən də kənarlaşdırmışdır. Lakin sovet tankları Bakıda nümayişçiləri tırtılları altına salanda vəziyyət dəyişdi. Moskva getdikcə güclənən mərkəzdənqaçma proseslərinə daha təsir göstərə bilmirdi. Əliyev zor işlədilməsini elə həmin gün kəskin şəkildə pislədi. Ancaq o vaxt onun dövrü hələ yetişməmişdi. Bununla belə, onun qayıdışı məhz o zaman başlanmışdı.

*Heydər Əliyev hakimiyyət zirvələrini dəfələrlə fəth etmişdir. O, inkişaf etmiş sosializm illərində də və SSRİ dağıldıqdan sonra da birinci ola bilmişdir.*

...Belə bir vaxtda o, əsl siyasətçi olduğunu bir daha göstərən addım atdı. Hər şeyi bir kənara ataraq, Azərbaycanın ən ucqar nöqtəsinə - öz qohumlarının, yaxın adamlarının yanına yollandı. O, Naxçıvan Ali Məclisinin deputatı, sonra isə parlamentin sədri, əslində, muxtar respublikanın başçısı oldu. Bu cür böyük siyasətçinin belə bir kiçik quruma başçılıq etməsi üçün çox böyük mərdlik tələb olunurdu. Axı, özlərini lider adlandıranların mütləq əksəriyyəti, ümumiyyətlə, başa düşə bilmir ki, hər cür xırda-para işlərlə necə məşğul olmaq olar. Mövcud sistemin sayəsində vəzifə pillələri ilə yuxarı qalxan bu adamlar özləri işlək sistem yarada bilmirlər. Əliyev isə bunu bacardı.

O, Rusiyanın böyük bir rayonu rəhbərinin gördüyü hər cür işlə - istilik, su, yemək məsələləri ilə məşğul olmağa məcbur oldu. Bundan əlavə, o, həm də müharibə alovu əhatəsində olan bir adada idi. Ermənistanla razılığa gəlmək lazım idi ki, döyüş əməliyyatları Naxçıvan ərazisinə keçməsin.

Naxçıvanda onu hamılıqla dəstəkləyirdilər, ancaq o zaman ölkənin qalan yerlərində başqa "qəhrəmanlar" mövcud idi. Heydər Əliyeviç vaxtilə qoyduğu adamların ona xəyanət etmələrini indiyədək ürək ağrısı ilə xatırlayır. O cümlədən, təyyarə ilə Bakıya gələrkən Mütəllibovun onun əleyhinə piket təşkil etməsini. Amma bütün bunlar ikinci dərəcəli



məsələlər idi. Ən başlıcası o idi ki, neçə illər rəhbəri olduğu ölkə uçuruma doğru gedirdi.

Ona görə də Elçibəy qorxub qaçanda, Heydər Əliyev çox da götür-qoy etmədən bütün məsuliyyəti öz üzərinə götürdü. Bunu indi başa düşmək çətindir ki, başı dumanlanmış narkotik kralı ilə şəxsi söhbəti zamanı Əliyev onu necə inandıra bilmişdi ki, cavan varis baş nazir vəzifəsində təcrübə toplayana qədər ölkəyə "bir müddət" özü rəhbərlik edəcəkdir. Heydər Əliyev onunla danışıqları zamanı hansı incə mətləblərə toxunmuş, həmsöhbətinin ürəyini necə oxuya və bundan nə cür istifadə edə bilmişdir – bunlar yalnız Əliyevə məlumdur.

Bütün yayı və payızın əvvəlində respublika daim gərginlik içərisində idi. Qətllər, sui-qəsdlər adi hala çevrilmişdi. Rusiyanın və Türkiyənin xüsusi xidmət idarələri öz oyunlarını inamla oynayırdılar. Bütün bunlar oktyabrın əvvəlində növbəti çevriliş cəhdi ilə nəticələndi. Heydər Əliyevin yalnız bircə imkanı qalmışdı – birbaşa xalqa müraciət etmək. O, bu imkandan böyük məharətlə istifadə etdi. Vəziyyətə nəzarəti cəmi bir neçə saatlığa itirmiş Hüseynov qaçdı. Məlum oldu ki, Heydər Əliyev Hüseynovun "korpusu"nun öhdəsindən gəlməyə qadir olan qoşunu hiss edilmədən toplaya, hazırlaya bilmişdir.



Ancaq hər halda, ən çox heyrət doğuran o idi ki, sovet nomenklaturasına mənsub olan siyasətçi Prezident sarayının qarşısına toplaşmış və güc işlədilməsini qeyri-mümkün edən izdihamlı mitinqi necə asanlıqla idarə edə bildi.

Artıq 95-ci ilin martında Heydər Əliyevi yeni dövlət çevrilişi cəhdi gözləyirdi. O, Kopenhagendə keçirilən Avropa toplantısında Türkiyə prezidentindən öyrəndi ki, bu, sabah baş verəcəkdir. Dəmirəl Heydər Əliyevə xəbər verdi ki, qayıdarkən onun təyyarəsini vuracaqlar. Dəmirəl ilə söhbətdən sonra Əliyev yarım saat tək qalıb fikrə daldı. Sonra isə təcili olaraq Bakıya yola düşdü. Terrorçular onun belə tez qayıtmasına hazır deyildilər. XTPD-nin (Xüsusi Təyinatlı Polis Dəstəsinin) qiyamını bir neçə gün ərzində yatırtdılar.

Bundan sonra isə nələr baş verdiyi yaxşı məlumdur. Azərbaycana təsir göstərməyə çalışan Rusiya nəqliyyat blokadası tətbiq etdi, Ermənistana silah göndərdi. Ancaq buna baxmayaraq, neft müqavilələri imzalandı, indi isə yavaş-yavaş həyata keçirilir. Heydər Əliyev dünyanın bütün aparıcı ölkələrində öz kiçik dövlətinə maraq doğura bildi. Bunun da nəticəsi olaraq, Azərbaycanın yaxşı perspektivləri var. Rusiya lap təzəlikcə Xəzər dənizinin bölgüsünü tanımışdır.

Demək lazımdır ki, Heydər Əliyev xaricdə olarkən adamların Azərbaycanda görməyə vərdiş etdiyi Əliyevdən çox fərqlənir. Amerikada konqresmenlərin ayrı-seçkilik qoyan düzəlişləri ləğv etməsinə nail olmaq üçün o, Azərbaycana qarşı ədalətsizlik törədildiyini onların hər birinə sxem üzərində şəxsən izah etməkdən çəkinmirdi. Qarabağ problemi barədə heç nə bilməyən və onun harada yerləşdiyini dumanlı şəkildə təsəvvür edən adamların qarşısında çıxış etməyi və onlarla ünsiyyətdə olmağı özü üçün əskiklik saymırdı. Miqyas baxımından onunla heç müqayisə edilə bilməyən siyasətçiləri inandırırdı. Lazımdırsa, deməli, etmə-

***Heydər Əliyevin yalnız bircə imkanı qalmışdı – birbaşa xalqa müraciət etmək. O, bu imkandan böyük məharətlə istifadə etdi.***

lidir. O, ABŞ-a səfəri zamanı danışıqlarda və görüşlərdə 150 saat danışmışdır.

Heydər Əliyev Türkiyəyə gələndə Birləşmiş Ştatlardakından tamamilə fərqlənir. Rusiyada isə tam başqa adamdır. Bizim mətbuatımızda Əliyevi sancmaq istəyəndə xatırlayırlar ki, o, Brejnevi çox tərifləyirdi. Ancaq respublika üçün belə lazım idi, o zamanın qaydaları bu cür idi. O da nə tələb olunurdusa, onu edirdi. Bu, siyasətçi üçün zəiflik sayılmır. Reallığın nəyi tələb etdiyini başa düşmək və buna nail olmaq - əslində bu, ən başlıca məsələdir. Azərbaycan Prezidenti "Moskovski Komsomolets"ə müsahibə verəndə, demək olar, hər bir suala cavabını "əgər məsələyə real yanaşsaq" sözləri ilə başlayırdı. O, məsələlərə elə bu cür – real, heç bir yersiz həssaslıq göstərmədən yanaşır. Amerikalıların məhz gücü və maliyyə qüdrəti onları Kremlə nisbətən daha cazibədar edir. Ona görə də burada hiylə, məkr axtarmaq səfehlikdir. Reallıq öz işini görür.

*Heydər Əliyev dünyanın bütün aparıcı ölkələrində öz kiçik dövlətinə maraq doğura bildi.*

Yeri gəlmişkən, Heydər Əliyev özü təsdiqləyir ki, dövlət xadiminə aktyorluq yad olmalıdır. Axı, aktyor həmişə başqalarının sözlərini söyləyir və özgəsinin fikirləri ilə düşünür. Halbuki, rəhbərin hökmən öz fikri olmalıdır və bunu həyata keçirərkən aktyorluq etmək yersizdir.* Bununla belə, böyük vəzifə tutan hər bir rəhbərdə, - xüsusən də siyasətçilərdə, - müəyyən qədər artistlik məharəti olmalıdır.

Heydər Əliyev isə nəinki teatrı sevir, gəncliyində hətta teatr studiyasında da fəal məşğul olmuşdu. Seçkiqabağı plakatlarda onun boğazlı qara köynəkdə, əlləri qoynunda çəkilmiş şəklinə baxanda isə az qala Hamleti xatırlayırsan.

Əliyev və tərif haqqında məsələni isə "Moskovski komsomolets"in müxbiri öz timsalında öyrəndi. Müəllif, Heydər Əliyeviçdən ilk müsahibə almaq üçün gələndə, bəzi xeyirxahlar mənə "fəndgir üsullar" öyrədirdilər. Lakin bütün bu hazırlıq əbəs imiş. Mən kabinetə daxil olan kimi Heydər Əliyev mənə çox sərt nəzərlə baxdı və jurnalist dərhal başa düşdü ki, onu "qiymətləndirirlər": müxbirin kimliyi və onunla söhbətin səviyyəsi, bunun maraqlı olub-olmayacağı bəllidir. Dərhal anladım ki, onun təsəvvüründə mənim yerim artıq məlumdur. Bütün bunlar cəmi 2 saniyəlik sükut ərzində baş verdi. İki saniyə müddətində mən başa düşdüm ki, əvvəlcədən gördüyüm "tədarükü" bir kənara atmaq olar. Tərif – sadəcə olaraq, oyunun qaydasıdır. Bütün başqa qaydalar kimi, o da nəzərə alınmalıdır, ancaq bundan o yana getmək olmaz. Özü də bu, təkcə Bakıya aid deyildir. Hər halda MDB-yə cavabdehəm.



Azərbaycanda Heydər Əliyevin hakimiyyəti mütləq və sarsılmazdır. Onun alternativi, həqiqətən, yoxdur. Ölkənin birliyinə, beynəlxalq aləmdə tanınmasına və real siyasi müstəqilliyinə nail olan Əliyev indi daha mürəkkəb vəzifəni yerinə yetirməlidir. Azərbaycan hazırkı bütün dövlət quruluşu, bütün siyasi sistemi, əslində, onun çiynindədir. O, sabitliyə təkbaşına zəmanət verir və bunu təmin edir.

Azərbaycan Prezidenti oktyabrda yeni seçkilərə getməyə hazırlaşır və şübhəsiz ki, bu seçkilərdə qalib gəlməlidir. Heydər Əliyev son bir neçə ildə o qədər siyasi mübarizələr



aparmış, o qədər çətin qərarlar qəbul etmişdir ki. Ancaq buna baxmayaraq o, elə bir sabit sistem yaratmalıdır ki, bu, təkcə Prezidentin şəxsiyyətindən asılı olmasın. Xüsusən də ona görə ki, Bakıda bu miqyaslı şəxsiyyətlərin bir-birinin ardınca hakimiyyətə gələcəyinə güman yoxdur.

Bu məsələnin həlli yolunu tapmaq çətindir. Bundan ötrü hətta siyasətçi olmaq da azdır. Axı, Heydər Əliyeviç indiyədək nə edibsə, özü edib, şəxsi qabiliyyətinə, çox zəngin təcrübəsinə və nüfuzuna arxalanaraq edibdir. Sistemi qurmaqdan ötrü şəxsi amili bir kənara qoymağa çalışmaq lazımdır. Bu isə, əslində, hər şeyi təzədən başlamaq deməkdir. Moskva yaxınlığındakı rahat Jukovkadan yenidən dağlıq Naxçıvana qayıtmaq deməkdir. Ancaq o vaxt Heydər Əliyevin həyatda başlıca işi – siyasət yox idisə və ona görə də o, əslində heç nə itirmirdisə, indi hər şeyi var.

Belə uğur son onilliklər ərzində bəlkə də Den Siyaopinə nəsib olmuşdur. O, özünə varisləri düzgün seçərək kölgəyə çəkilməyi bacardı və yalnız Tyananmen meydanındakı üsyan kimi gərgin anlarda üzə çıxırdı. Ancaq o vaxt Çin ərazisinin 20 faizini heç kim işğal etməmişdi, çinlilərin yeddidə biri qaçqına çevrilməmişdi. Azərbaycanda isə bunların hər ikisi var.

... Heydər Əliyevin Qarabağ barədə nə düşünməsi ən böyük dövlət sirridir. Həqiqətən böyük olan hər bir siyasətçi kimi, o, müşkül məqamı hiss etməlidir. Adətən, dərhal qərar qəbul etmək onun üslubu deyildir. O, şəraitin yetişməsini gözləyir. Bu cür mühüm bir məsələdə də onun tələsəcəyini düşünməyə əsas yoxdur. İstənilən halda onun qərarından təkcə öz ölkəsinin və ya Ermənistanın taleyi asılı olmayacaqdır. Əslində, indi Əliyev MDB-də "gizli müxalifət"in də lideridir. Bu isə o deməkdir ki, keçmiş SSRİ respublikalarının birliyinin gələcək taleyi, əslində, ondan asılıdır. Ən başlıcası isə odur ki, təkcə Cənubi Qafqaz və Orta Asiyanın deyil, həm də Rusiyanın, Qərbin və hətta qarşıdakı əsrdə neft bazarları uğrunda əsas mübarizənin gedəcəyi Cənub-Şərqi Asiyanın da bağlı olduğu nəhəng neft və nəqliyyat layihələri Azərbaycandan asılıdır.

Heydər Əliyev Simurq quşu kimi yenidən pərvazlanaraq, bütün dünyanı onunla hesablaşmağa məcbur etmişdir. Hətta nadir postsovet məkanında da başqa belə bir nümunə

*Heydər Əliyev indiyədək nə edibsə, özü edib, şəxsi qabiliyyətinə, çox zəngin təcrübəsinə və nüfuzuna arxalanaraq edibdir.*



yoxdur. Onun "qardaşı" Şevardnadzenin həyatında da bu cür məcburi fasilə olmamışdır. Əliyevin uğuru bir daha göstərir ki, sosialist sistemində və ya demokratik sistemdə siyasi virtuozlar olmur. Demokrat Çörçill, kommunist Stalin kimdir. Sadəcə, hakimiyyətə layiq olan, bu hakimiyyətin onların yenilməz etdiyi siyasətçilər olur. Elə siyasətçilər də olur ki, hakimiyyət yükünün ağırlığı onları əzir. Ona görə də Heydər Əliyev "öz işini sevmək lazımdır", - deyərkən, sadəcə olaraq, fikrini tamamlamır ki, "işi məni kimi sevmək lazımdır". Belə olan halda hər şey öz həllini tapır.

*Heydər Əliyev Simurq quşu kimi yenidən pərvazlanaraq, bütün dünyanı onunla hesablaşmağa məcbur etmişdir. Hətta nadir postsovet məkanında da başqa belə bir nümunə yoxdur.*

*İrfan ÜLKÜ*
*türk jurnalisti, yazıçı*

# Heydər Əliyev sağlığında əfsanələşən, tarixdə yerini alan şəxsiyyətdir





Azərbaycan müstəqilliyinə nail olduqdan sonra ölkənizə çox gəldim. 1994-cü ildən bəri müqayisə olunmayacaq dərəcədə köklü dəyişikliklər baş verdiyinin canlı şahidiyəm. İqtisadiyyat sürətlə inkişaf etmişdir. Bazar iqtisadiyyatı sistemi bərqərar olmuşdur. Təkcə Bakıda deyil, Mingəçevirdən Salyana qədər iqtisadiyyatda böyük bir canlanma olduğunu görürük.

Azərbaycana xarici kapitalın axını başlanmışdır. Bu, son illərdə məqsədyönlü və kütləvi şəkil almışdır. Azərbaycana xarici sərmayə qoyuluşunun təməlində duran amil dövlət rəhbərliyi və xüsusilə də Prezident Heydər Əliyev tərəfindən həyata keçirilən səmərəli siyasətdir. Çünki xarici sərmayələri ölkəyə cəlb edən əlverişli şərtlər sabitliyin və müvafiq qanunvericiliyin olmasıdır. Xarici sərmayəçilər, ilk növbədə, qarşılarında kimin oturduğuna, onun etibarlı olub-olmadığına baxırlar. Bu şəxsin xalq arasındakı nüfuzunu araşdırırlar. Bu gün biz planlı sosializim sistemindən sərbəst bazar iqtisadiyyatına uğurlu keçid mərhələsində Azərbaycan modelindən söhbət aça bilərik.

*Azərbaycana xarici sərmayə qoyuluşunun təməlində duran amil dövlət rəhbərliyi və xüsusilə də Prezident Heydər Əliyev tərəfindən həyata keçirilən səmərəli siyasətdir.*

Mən 1991-ci ildə Naxçıvana getdim və 15-20 gün orada qaldım. Möhtərəm Heydər Əliyevlə görüşüb ondan müsahibələr götürdüm. Xatirələrini, dünyaya baxışını qeydə aldım, sonra bu qeydlərimi toplayıb kitab halına gətirdim. "Qızıl ulduzdan hilala" kitabı belə yarandı, Türkiyədə və Azərbaycanda çap olundu. Mən Heydər Əliyevi XX əsrin yetirdiyi ən böyük siyasi xadimlərindən biri kimi dəyərləndirirəm.

Bir insan, bir yazıçı, bir jurnalist kimi mənə təsir edən cəhət Heydər Əliyevin həyatının fövqəladə zənginliyi, bu insanın taleyinin göydəki ulduzlar qədər müxtəlifliyi, bu şəxsiyyətin çox maraqlı, möcüzəli alın yazısı idi. Naxçıvan Məclisinin sədri seçildikdən sonra keçirilən böyük bir mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin mavi, qırmızı və yaşıl rəngli, ay-ulduzlu bayrağını Azərbaycanda ilk dəfə Heydər Əliyev rəsmi dövlət bayrağı kimi qəbul etdi. Bu qərar Naxçıvandakı Azadlıq meydanında on minlərlə insanın gurultulu alqışları ilə qarşılandı. Heydər Əliyev bayrağı üç dəfə öpdü.

Onun qəlbi Azərbaycanla vurur. Azərbaycan sevgisi Heydər Əliyevin damarlarında axır. Məncə, Heydər Əliyev

Azərbaycanın keçmişinin və gələcəyinin simgəsi – rəmzidir. Möhtərəm Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün çox iş görmüşdür. Ancaq mənim fikrimə görə, gənc, müstəqil Azərbaycanın inkişafının ən böyük təminatçısı da məhz Heydər Əliyevin özüdür. Heydər Əliyev bu torpaqda yetişmişdir və bu torpaqdan ayrılmazdır. Prezident Heydər Əliyev Türk və Azərbaycan tarixinə ən parlaq və istedadlı siyasi xadim kimi daxil olmuşdur. Müasir Azərbaycanın hansı sahəsinə nəzər salsanız, Heydər Əliyevin imzasını görür, onun yaratdığı əsərlərin şahidi olursunuz. İstər iqtisadiyyat, istər mədəniyyət, istər səhiyyə, istər memarlıq olsun - hər sahədə Heydər Əliyevin misilsiz əməyinin, qayğılarının, yuxusuz gecələrinin, narahatlığının nəticələrini görə bilərsiniz.

*Prezident Heydər Əliyev Türk və Azərbaycan tarixinə ən parlaq və istedadlı siyasi xadim kimi daxil olmuşdur.*

Azərbaycanın müstəqil dövlət quruculuğunda, demokratik dövlət kimi inkişafında Heydər Əliyevin rolu əvəzsizdir. O, Azərbaycanın iqtisadi tərəqqisinin memarıdır. Dünyadakı siyasi vəziyyəti real qiymətləndirə bilən və bu prizmadan ölkəsinin mənafeyi çərçivəsində doğru qərarlar qəbul edən liderdir. Heydər Əliyev haqqında zamanımızda və bizdən sonra da çoxlu kitablar, elmi əsərlər yazılacaqdır. Amma bir həqiqəti hamımız dərk eləməliyik ki, Heydər Əliyev sağlığında əfsanələşən, tarixdə yerini alan bir şəxsiyyətdir.

Söhbəti yazdı:
**Tural Rzayev**
**AzərTAc-ın xüsusi müxbiri**



*Lətif GÜLƏR*
*türk jurnalisti*

# Heydər baba millətini bütün varlığı ilə sevən, dərin təfəkkürlü bir insandır



Azərbaycan Qafqazın ən ağrılı bölgəsidir, əzabkeş insanların yaşadığı müqəddəs torpaqdır. Bu strateji bölgəyə Allahın bəxş etdiyi milli sərvətlər bu günə qədər azərbaycanlılara iztirabdan başqa bir şey gətirməmişdir. Yeni dövrdə Mütəllibov, sonra niyyəti təmiz olsa da, dövlət başçısı və lider kimi keyfiyyətlərdən uzaq Elçibəy bu gün yaşanan sıxıntıların təməlini qoymuşlar. Bütün bunlara baxmayaraq, əsrin sonunda tale Azərbaycanın üzünə gülmüş, qarşısında geniş imkanlar açılmışdır. Sovet dövründə əldə etdiyi biliyi, təcrübəsi və uzaqgörənliyi ilə böyük siyasi xadim kimi şöhrət tapan Heydər Əliyev müstəqil Azərbaycanın ümidlərini həqiqətə çevirəcək yeganə şəxsiyyətdir. Heydər baba millətini bütün varlığı ilə sevən dərin təfəkkürlü bir insandır. Heydər Əliyev onu əhatə edən imperialist qüvvələrlə "şahmat" oynamağı bacaran yeganə şəxsiyyətdir. Oyun isə hələ də davam edir.

Problemlərin həllinin gecikməsi, ilk növbədə, Azərbaycanda baş vermiş dövlət çevrilişi cəhdləri ilə bağlıdır. Heydər Əliyevin yeritdiyi ölçülü-biçili daxili siyasət nəticəsində artıq hakimiyyəti zəbt etməyə qadir qüvvə yoxdur. Ölkədə daxili sabitlik bərqərar olunmuşdur. Bu isə Azərbaycan dövlətinin üzləşdiyi problemləri həll etməyə imkan verir. Artıq bu problemlərin həllinə başlanılmışdır. İnanırıq ki, Heydər Əliyevin müdrik rəhbərliyi altında Azərbaycan bütün çətinlikləri dəf edib işıqlı gələcəyə qovuşacaqdır.

***Biliyi, təcrübəsi və uzaqgörənliyi ilə böyük siyasi xadim kimi şöhrət tapan Heydər Əliyev müstəqil Azərbaycanın ümidlərini həqiqətə çevirəcək yeganə şəxsiyyətdir.***



*İqor SAVİN*

*"Rossiya" qəzeti, 6 may 2003-cü il*

# Nəsildə böyüklərin dəstək və təcrübəsi gənc ailəyə nə qədər lazımdırsa, Heydər Əliyevin də siyasi təcrübəsi və müdrikliyi gənc müstəqil Azərbaycana bir o qədər gərəkdir



## YOL

Qafqazda hakimiyyətə hörmət edirlər, amma siyasət bambılılarına dözmürlər. Məğrur xalqları idarə etmək çətindir, tarixin sərt dönümlərində hakimiyyətin zirvəsində olmaq isə ikiqat çətindir. Odur ki, yeni tarixin öz xalqlarını belə bir zamanədə qan-qadadan, səfalətdən və əsarətdən qurtara bilmiş qəhrəmanları maraq doğurmaya bilməz.

Azərbaycanın ən siqlətli siyasətçisi ölkənin ağır bir vaxtında hakimiyyətə gələrək, artıq on ildir respublikanı idarə edir. Nəsildə böyüklərin dəstək və təcrübəsi gənc ailəyə nə qədər lazımdırsa, onun da siyasi təcrübəsi və müdrikliyi gənc müstəqil ölkəyə bir o qədər gərəkdir.

*Orqanlarda xidmət Heydər Əliyev üçün heç də asan olmamışdır*

## NAXÇIVAN

Heydər Əlirza oğlu Əliyevin atası fəhlə idi, buna baxmayaraq, övladlarına yaxşı təhsil vermişdir: birinci övladı akademik, ikinci övladı Leninqradda Rəssamlıq Akademiyasını bitirərək, rəssam olmuşdur. Heydər isə ikiillik Naxçıvan Pedaqoji Texnikumunu bitirərək, memar olmaq üçün Bakıya təhsil almağa getmişdir. O, institutda özfəaliyyət teatrında məşğul olmuş, tələbə tamaşalarında oynamışdır.

1944-cü ildə Əliyev təhlükəsizlik orqanlarına işləməyə gedir. O vaxtkı Sovet İttifaqında siyasi mənsəbə çatmaq üçün, əslində, heç bir yol yox idi. Heydər Əliyev ən mübahisəli və təhlükəli bir yol seçir. İndi, ötən günlərə zəmanəmizin zirvəsindən baxılsa, demək olar ki, bu yol onun üçün doğru-düzgün bir yol olmuşdur.

Heydər Əliyev 1954-cü ildə Zərifə Əliyeva ilə ailə qurmuşdur. Zərifə xanımın qafqazlılara xas gözəlliyi, ədəb-ərkanı və istiqanlılığı fitri zəkası və əməksevərliyi ilə ahəngdar bir vəhdət təşkil edirdi. Sonralar o, elmlər doktoru, akademik oldu. Lakin bu, ona qızı Sevilin və oğlu İlhamın tərbiyəsinə diqqət yetirməyə mane olmadı.

Bu qadın Moskvada, əri ilə birlikdə Kremldə rəsmi qəbullarda iştirak etməli olduqda da ətrafdakılara gözəl təsir bağışlayırdı.



## BAKI

Orqanlarda xidmət Heydər Əliyev üçün heç də asan olmamışdır, vəzifədə də çox sürətlə yüksəlməmişdir. O, yalnız 1964-cü ildə respublika Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini vəzifəsinə yüksəlmiş, üç ildən sonra isə general rütbəsi almış və Komitənin sədri olmuşdur.

Nəhayət, 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilir və həmin dövrdən onun, belə demək olarsa, mülki xidməti başlanır. Bu xidmət sonralar onu müstəqil Azərbaycan dövlətinin prezidenti vəzifəsinə gətirib çıxarmışdır. Amma həmin anadək ağır, heç nə vəd etməyən iyirmi dörd il olmuşdur.



Birinci katib olduğu on dörd ildə Heydər Əliyev Azərbaycan üçün çox işlər görmüşdür. O, dərin qazma özülləri, hesablayan elektron maşın zavodları kimi iri müəssisələrin tikilməsinə nail oldu. Xəzərdə neft hasilatı kəskin şəkildə aşağı düşdükdə və Bakı neftayırma zavodları bağlanmaq təhlükəsi ilə qarşılaşdıqda o, Qroznı-Bakı neft kəmərinin çəkilməsinə nail oldu və bu kəmərlə Tümen və Tatarıstandan neft Azərbaycana göndərilməyə başladı. Əlbəttə, bütün bunlar yalnız ona görə mümkün olmuşdur ki, Heydər Əliyev özünün haqlı olduğunu Brejnevə inandıra bilirdi.

Məsələn, o, ukraynalı həmkarı Şerbitskidən zirək tərpəndi və kondisionerlər zavodunu onun əlindən aldı. Bu əhvalat İttifaq respublikaları kommunist partiyalarının birinci katiblərinin müşavirəsində baş vermişdir. Yorğun və gecəni yaxşı yatmamış Leonid İliç kondisionerin pis işləməsindən gileylənərək demişdir: "Mənə elə gəlirdi ki, qonşu otaqda bütün gecə traktor işləmişdir".

Elə oradaca Heydər Əliyev kondisioner buraxmaq üçün böyük bir müəssisə tikmək təklifi irəli sürmüşdür. Zaporojyedə tikilməsi nəzərdə tutulan zavod elə oradaca Bakıya ünvanlanmışdır. Nahaq deməyiblər ki, incə oyunun yaxşı da nəticəsi olur.

*Heydər Əliyev diviziya komandiri Naxçıvanskinin adını daşıyan hərbi təmayüllü məktəb açdı.*

Vaxt vardı, azərbaycanlı gənclərı hərbi xidmətə, əsasən, inşaat batalyonlarına göndərirdilər. Heydər Əliyev diviziya komandiri Naxçıvanskinin adını daşıyan hərbi təmayüllü məktəb açdı. Azərbaycanlı gəncləri İttifaqın hər yerində hərbi məktəblərə və institutlara qəbul etməyə başladılar. SSRİ dağılandan sonra müasir Azərbaycan ordusunun zabit korpusunun özəyini məhz bu məzunlar təşkil etdilər.

Lakin birinci katib heç də təkcə hərbçilər barədə düşünmürdü. İstedadlı gənc azərbaycanlılar ölkənin ən mötəbər ali məktəblərinə təhsil almağa göndərildilər. Heydər Əliyev onlar üçün məqsədli təyinata nail olmuşdu. Abituriyentlər imtahanları Bakıda verirdilər. Təhsil dövründə tələbələr Heydər Əliyevdən təbrik açıqcaları alırdılar. İndi bu keçmiş "himayədə olanlar" neft sahəsinin rəhbərləridir, Bakının ali məktəblərində dərs deyirlər, akademikdirlər. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasına onlar da kömək etdilər.



## MOSKVA

Moskvada həyat əvvəlcə uğurlu oldu. Andropov ona himayədarlıq göstərirdi. O, Heydər Əliyevi, əvvəlcə, Siyasi Büronun üzvü, sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini etdi.

Onun əlində olduqca böyük səlahiyyət vardı - on dörd nazirliyə kuratorluq edirdi. Lakin bu, Qorbaçov hakimiyyətə gələnə qədər davam etdi. Qarmaqarışıq vaxtlar başlandı. İttifaq dağılırdı. Qafqazda qanlı Qarabağ hadisələri başlanır. 1990-cı ilin əvvəlində Bakıda faciəli toqquşmalar baş verir.

Güclü siyasi duyuma malik olan Heydər Əliyev başa düşürdü ki, ittifaq respublikaları sürətlə müxtəlif tərəflərə uzaqlaşmağa başlayır və onların çoxunu məşəqqətli, qanlı-qadalı çağlar gözləyir. O hiss edirdi ki, Qafqaz respublikalarını daha ağır zamanlar gözləyir, çünki onların çox dolaşıq siyasi tarixi və mürəkkəb hakimiyyət münasibətləri sistemi var.

İttifaqın süqutundan sonra müstəqil Azərbaycanda Xalq Cəbhəsinin lideri Elçibəy hakimiyyətə gəlir. Klanlar ölkəni parçalayırlar, ölkə isə, bilmir hansı tərəfə üz tutsun və dünyanın siyasi xəritəsində öz yerini necə müəyyənləşdirsin. Amerika ilə gözdəniraq sövdələşmələr şimal qonşusunu qıcıq-



landırır və həm də çoxdan gözlənilən iqtisadi dividendlər gətirmir. Siyasət, illah da ki, Qafqazda, siyasi avantüristlərə və naşılara dözmür. Odur ki, siyasətdə vəzni, sanbalı olanların dövranı gəlib çatmışdı.

**BAKI**

1993-cü il – Azərbaycanda üsyan baş verir. Hökumət pərən-pərən düşür və Heydər Əliyev hakimiyyətə gəlir. O, bir çox illərdən sonra Bakıya qayıdır. Artıq indi müstəqil respublikanın prezidentidir.

Bu, yeni həyatın başlanğıcı, yoxsa, onun uzaq qırxıncı illərdə başladığı yolun məntiqi davamı idi?

Qafqazda iti və dərin zəkalı insanları sevirlər, amma tələm-tələsik çıxarılan qərarları bəyənmirlər. Qafqazda hakimiyyətə hörmət edirlər, amma hökmranlığa dözmürlər. Bunu başa düşmək üçün gərək illərlə orada yaşayasan və öz xalqının övladı olasan.

Heydər Əliyev on ildir ki, yeni ölkəsini idarə edir. Özünə başı qarlı-dumanlı qoca Qafqaz zirvələrindən baxan ölkə üçün bu on il böyük vaxt deyildir. Bu, bir andır. Amma böyük və şanlı yolun başlanğıcında ilk addım olacaq andır.

***Güclü siyasi duyuma malik olan Heydər Əliyev başa düşürdü ki, ittifaq respublikaları sürətlə müxtəlif tərəflərə uzaqlaşmağa başlayır və onların çoxunu məşəqqətli, qanlı-qadalı çağlar gözləyir.***



*"Çikaqo Tribun" qəzeti,*
*avqust 1997-ci il (ixtisarla)*

# Heydər Əliyev artıq 30 ildir Azərbaycanın taleyində həlledici rol oynayır

Azərbaycan Rusiyanı, İranı, Ermənistanı, Türkiyəni, Gürcüstanı və Xəzər dənizini qalan bütün dünya ilə birləşdirən yolun üstündə yerləşir. Zəngin enerji ehtiyatları olan bu ölkənin ərazisi Cənubi Karolina Ştatının ərazisi qədərdir.

Bu yeni müstəqil ölkənin Prezidenti Heydər Əliyev Çikaqoya özünün üçgünlük səfəri zamanı onun ölkəsində fəaliyyət göstərən Çikaqo şirkətlərinin – "AMOKO Korp", "Həyat Hotels Korp", " FMS Korp." və " Motorola İng." şirkətlərinin rəhbərləri ilə görüşdü. Bu görüşlər onun ABŞ-a rəsmi səfərinin bir hissəsi idi.

Heydər Əliyev artıq 30 ildir Azərbaycanın taleyində həlledici rol oynayır. 1969-cu ildə o, Azərbaycan KP MK-nın birinci katibi, 1982-ci ildə Siyasi Büronun üzvü seçilmişdir. Lakin Çernobıl qəzasından sonra SSRİ prezidenti M.Qorbaçovun "qəzəbinə" düçar olmuşdur, çünki bu beynəlxalq faciəni gizlətməyin əleyhinə çıxmışdır. 1990-cı ildə Bakıda, Azərbaycanın paytaxtında yüzlərlə mülki şəxs milli azadlıq hərəkatını yatırmaq üçün Qorbaçovun göndərdiyi Rusiya qoşunları tərəfindən öldürüldükdə o, öz etirazını bildirmişdir. 1993-cü ildə Azərbaycanda son 75 ildə keçirilmiş ikinci demokratik prezident seçkilərində Əliyevin qələbəsi onu bir daha öz ölkəsinin müstəqilliyinin müdafiəçisinə çevirmişdir.

Bir çox səbəblər var ki, onlara görə Amerika Azərbaycanın müstəqilliyi işində Heydər Əliyevin mövqeyini dəstəkləməlidir.

***Heydər Əliyev Çernobıl qəzasından sonra SSRİ prezidenti M.Qorbaçovun "qəzəbinə" düçar olmuşdur, çünki bu beynəlxalq faciəni gizlətməyin əleyhinə çıxmışdır.***



*1993-cü ildə Azərbaycanda son 75 ildə keçirilmiş ikinci demokratik prezident seçkilərində Əliyevin qələbəsi onu bir daha öz ölkəsinin müstəqilliyinin müdafiəçisinə çevirmişdir.*

Amerikanın energetika təhlükəsizliyi ABŞ-a neft göndərilməsinə çoxsahəli xarakter verməyi tələb edir. Xəzər bölgəsi öz neft ehtiyatlarına görə İran körfəzindən sonra ikinci yeri tutur və 40 ildən artıq bir dövrdə Qərb üçün daimi enerji mənbəyi ola bilər. Həqiqətən, Azərbaycanda imzalanmış ilk neft layihəsində gündə 2 milyon barreldən çox neft çıxarılması nəzərdə tutulur ki, bu da OPEK-in üzvü olan ərəb ölkələrindən ABŞ-ın idxal etdiyi neftin miqdarına bərabərdir. ABŞ-ın energetika tələbatının güclənməsi təqdirində Vaşinqton neftə əsaslanan Amerika-Azərbaycan əməkdaşlığını hər vasitə ilə müdafiə etməyə borcludur.

Heydər Əliyevin ABŞ-a səfəri Rusiyaya işarədir ki, Azərbaycana qarşı ekspansionist planlara Vaşinqton biganə qalmayacaqdır. Bu ekspansionist meyllər özünü Heydər Əliyevə qarşı təzyiqlər formasında, bütün Xəzər dənizi üzərində veto qoymaq hüququnda büruzə vermişdir. Azərbaycanın öz sektorundan, enerji ehtiyatları ilə zəngin olan ərazi sularındakı yataqlardan istifadə etmək hüququnu şübhə altına alır... Aydındır ki, ABŞ-ın və Azərbaycanın neft sahəsində əməkdaşlığının möhkəmlənməsində Rusiya ikiqat təhlükə görür: Azərbaycan Rusiyanın təsiri altından çıxır və ABŞ Rusiyanın ənənəvi nüfuz sahəsində peyda olur.

Amerikanın ayrı-seçkilik xarakteri daşıyan düzəlişi - ABŞ tərəfindən təkcə yeganə bir ölkəyə humanitar yardım göstərilməsini yasaqlayan düzəlişi ucbatından Bakı ilə Vaşinqton arasında münasibətlər gərginləşmişdir. Hətta Kuba, Liviya, Şimali Koreya, İran və İraq Amerikadan yardım almaq hüququna malikdirlər. Klinton Amerikaya qarşı heç vaxt heç bir pislik etməyən ölkənin əleyhinə yönəldilmiş ayrı-seçkilik qanununu şübhə altına almalıdır. Prezident Klinton Heydər Əliyevin səfərindən Konqresin liderlərinə bir çağırış – həmin düzəlişi aradan götürmək və Ermənistanla müharibə nəticəsində öz yurd-yuvalarından didərgin salınmış bir milyonadək qaçqına ABŞ-ın kömək göstərməsinə icazə vermək çağırışı kimi istifadə etməlidir.





*Əgər ABŞ özünün uzunmuddətli milli təhlükəsizliyini təmin etmək niyyətindədirsə, onda fəal formada iş görməli və Azərbaycana yardımı təmin etməlidir.*

Klinton Azərbaycanı iqtisadiyyatı mərkəzləşdirilmiş ölkənin azad bazar iqtisadiyyatına keçməsi işində ona vergi ödəyicilərinin deyil, məhz özəl sektorun kömək etməsinin bariz nümunəsi kimi göstərə bilər.

Əgər ABŞ özünün uzunmuddətli milli təhlükəsizliyini təmin etmək niyyətindədirsə, onda fəal formada iş görməli və Azərbaycana yardımı təmin etməlidir.

## KİTABIN İÇİNDƏKİLƏR


*OXUCUYA* ..... 3

*Ramiz MEHDİYEV*
Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr ..... 5

*Corc BUŞ*
Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünya görüşünə və nadir natiqlik istedadına valehəm ..... 64

*Bill KLİNTON*
Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolundakı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur ..... 67

*Əhməd Necdət SEZƏR*
Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu məkana çevrilməsi sahəsindəki fəaliyyəti ilə daim xatırlanacaqdır ..... 69

*Vladimir PUTİN*
Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi ..... 71

*Jak ŞİRAK*
Heydər Əliyev Azərbaycanı tərəqqi yoluna çıxarmışdır ..... 76

*Seyid Məhəmməd XATƏMİ*
Heydər Əliyevin xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir ..... 79

*Süleyman DƏMİRƏL*
Heydər Əliyevi Azərbaycanda yüksək vəzifəyə xalq dəvət etmişdi ..... 81

*Toni BLEYER*
Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir ..... 88

*Leonid KUÇMA*
Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir ..... 90

*Nursultan NAZARBAYEV*
Heydər Əliyevin xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir ..... 94





*İslam KƏRİMOV*
Azərbaycan xalqına həsəd aparıram, çünki onun dəqiq, aydın, ardıcıl siyasəti, mövqeyi olan lideri var ..... 96

*Əsgər AKAYEV*
Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi sayəsində Azərbaycan dünya birliyində layiqli yer tutmuşdur ..... 99

*Aleksandr KVASNEVSKİ*
Polşada Heydər Əliyevi görkəmli dövlət xadimi kimi tanıyırlar ..... 101

*Eduard ŞEVARDNADZE*
Heydər Əliyev dünya miqyaslı dahi siyasətçidir ..... 103

*Zbiqnev BJEZİNSKİ*
Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir ..... 109

*Emil KONSTANTİNESKU*
Heydər Əliyev çox parlaq şəxsiyyətdir ..... 112

*Petru LUÇİNSKİ*
Mən Heydər Əliyevin mərdliyini, ağıl-zəkasını həmişə yüksək qiymətləndirmişəm ..... 115

*Butros-Butros QALİ*
Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam ..... 118

*Məhəmmədəli MƏHƏMMƏDOV*
Dağıstan xalqı Heydər Əliyevə dərin məhəbbət, böyük hörmət və səmimi ehtiram bəsləyir ..... 119

*Mintimer ŞAYMİYEV*
Heydər Əliyevin sovet sistemi şəraitində respublikası, xalqı üçün gördüyü işlər hamımızda heyranlıq, bəlkə də, bir qədər qibtə hissi doğurmuşdur ..... 122

*Aleksandr DZASOXOV*
Heydər Əliyev antik qəhrəman kimi doğma torpağına gəldi və öz xalqına başçılıq etdi ..... 124

*Valeri KOKOV*
Müdrik Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycan xalqı dünya şöhrəti qazanmışdır ..... 125

*Ruslan AUŞEV*
Heydər Əliyev sübut etdi ki, siyasət əxlaqlı və alicənab adamların işidir ........................................ 126

*Vladimir XUBİYEV*
Sadə adamlar Heydər Əliyev üçün Allaha yalvarır və ona yaxşılıq arzulayırlar ........................................ 127

*Aslan CARİMOV*
Heydər Əliyev Azərbaycan xalqına hədsiz məhəbbətində ardıcıldır ... 128

*Kirsan İLYUMJİNOV*
Heydər Əliyev gənc siyasətçilər üçün əfsanədir ........................................ 129

*Rəcəb TAYYİB ƏRDOĞAN*
Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq ........................................ 130

*Bülənd ECEVİT*
Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir ........................ 132

*Bənazir BHUTTO*
Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var ........................ 133

*Helmut KOL*
Heydər Əliyev çətin bir şəraitdə ölkəsinə rəhbərlik edərək onu azadlıq və siyasi-iqtisadi inkişaf yolu ilə aparmışdır ........................ 134

*Ryutaro HAŞİMOTO*
Prezident Heydər Əliyevin Yaponiyaya səfəri tarixi hadisədir ........... 135

*Jan LÜK DE AN*
Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda açar rolu oynayan ölkəyə çevrilmişdir ............ 137

*Rafiq Əl-HƏRİRİ*
Heydər Əliyev görkəmli, müdrik dövlət xadimi kimi bütün ərəb dünyasında məşhurdur ........................................ 139

*Riçard ARMİTAC*
Heydər Əliyev ölkəsinin maraqlarını hər şeydən üstün tutan əsl liderdir ........................................ 141

*Madlen OLBRAYT*
Heydər Əliyev açıq və qətiyyətli mövqeyi olan dövlət xadimidir ........................................ 145



*Henri KİSİNCER*
Heydər Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparmışdır ........................................ 147

*Ərdal İNÖNÜ*
Heydər Əlirza oğlu həyatdakı Atatürkdür ........................................ 149

*Kristian PONSÖLE*
Prezident Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycan Cənubi Qafqazın hüdudlarından uzaqda böyük şöhrət qazanmışdır ............. 150

*Nikolay BAYBAKOV*
Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram ........................................ 153

*İqor İVANOV*
Rusiyada Heydər Əliyevi Azərbaycan xalqının böyük oğlu, beynəlxalq miqyaslı müdrik siyasətçi, ölkəmizin və xalqımızın böyük dostu kimi tanıyırlar ........................................ 154

*Duqlas HÖRD*
Heydər Əliyev kimi liderlə görüş insanın yaddaşına həmişəlik həkk olunur ........................................ 156

*Keyzo OBUÇİ*
Heydər Əliyev dünya siyasətində böyük rol oynayan çox məşhur şəxsiyyətdir ........................................ 158

*Robin KUK*
Prezident Heydər Əliyevin müdrikliyinə və dərin biliyinə heyranam .. 159

*Xavyer SOLANA*
Prezident Heydər Əliyev kimi təcrübəli siyasətçi ilə fikir mübadiləsindən çox şey əldə etmək mümkündür ........................................ 161

*Boris QRIZLOV*
Heydər Əliyev tarixin gedişinə təsir göstərən insanlardandır ............. 162

*Gennadi SELEZNYOV*
Heydər Əliyev parlaq siyasi sima və ailəsinə sədaqətli insan idi. ........ 164

*Lourens İQLBERGER*
Azərbaycandakı iqtisadi və siyasi dəyişikliklər heyranlıq doğurur. ..... 166

*Hovard BEYKER*
Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə əldə edilmiş tərəqqi çoxlarına müyəssər olmur. ........................................ 168

*Anatoli MALOFEYEV*
Heydər Əliyevin həyatı xalqına və ölkəsinə fədakarcasına xidmətin parlaq sübutudur. ........ 169

*Klaus KİNKEL*
Heydər Əliyev Azərbaycanı beynəlxalq birliyin tanınmış və nüfuzlu üzvlərindən birinə çevirmişdir. ........ 170

*Yuri LUJKOV*
Heydər Əliyev Azərbaycanın gələcək firavanlığının bünövrəsini qoymuşdur ........ 171

*Boris QROMOV*
Heydər Əliyev mənim üçün böyük qardaş, ata, dost idi. ........ 172

*Viktor YANUKOVİÇ*
Fəxr edirik ki, özümüzü Heydər Əliyevin müasirləri adlandıra bilərik. ........ 174

*Vladimir LİTVİN*
Heydər Əliyev miqyaslı siyasətçiləri həyata tarixin özü gətirir ........ 175

*Valentina TEREŞKOVA*
Heydər Əliyev böyük, təkrarolunmaz insan, xalqının şanlı oğlu idi. ..179

*Ramazan ABDULATİPOV*
Heydər Əliyevin Qafqazın tarixindəki rolunu, bəlkə də, əlli ildən sonra anlamaq və dərk etmək mümkün olacaqdır. ........ 180

*İhsan DOĞRAMACI*
Heydər Əliyev fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük şəxsiyyətdir. ........ 183

*Mstislav ROSTROPOVİÇ*
Heydər Əliyev bütün düyünləri açmağa qadir olan şəxsiyyətdir. ........ 185

*Çingiz AYTMATOV*
Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir. ........ 187

*Viktor SADOVNİÇİ*
Heydər Əliyevin dəstəyi olmasaydı, yəqin ki, Moskva Universiteti bugünkü kimi olmazdı ........ 189

*Oljas SÜLEYMENOV*
1980-ci illərin axırları-1990-cı illərin əvvəlində Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycanın başı bəlalar çəkməzdi. ........ 190



*Georgi ŞOKİN*
Heydər Əliyev ən böyük beynəlxalq mükafata layiqdir. ........ 195

*Boris OLEYNİK*
Heydər Əliyev Azərbaycan millətinin atası, dünya siyasətinin patriarxıdır ........ 197

*Sergey BABURİN*
Heydər Əliyev hər bir millətin şərəfi ola bilərdi. ........ 199

*Nikas SAFRONOV*
Heydər Əliyev kimi tarixi şəxsiyyətlər min ildə bir dəfə doğulur, belə insanlar dünyanın ləl-cəvahiridir. ........ 201

*Yevgeni PRİMAKOV*
Heydər Əliyev sübut etdi ki, öz xalqını sevən, xalqının naminə yaşayan insanlar var. ........ 205

*Mariya ORLİK*
Heydər Əliyev cəsarətli rəhbər və xalqının haqq işi uğrunda ardıcıl mübarizdir. ........ 207

*İrina QOLUBEVA*
Heydər Əliyev Azərbaycan xalqının ən yaxşı xüsusiyyətlərini özündə təcəssüm etdirən dahi şəxsiyyətdir. ........ 210

*Lyudmila ŞVETSOVA*
Heydər Əliyev çox yüksək intellektə malik, heyrətamiz dərəcədə müdrik insandır. ........ 213

*Ceyms VULFENSON*
Heydər Əliyevin liderliyi ilə yaranmış sabitlik və sürətli iqtisadi inkişaf heyranlıq doğurur ........ 216

*Jan PERRƏN*
Heydər Əliyev gözəl şəxsiyyət, çox ağıllı siyasətçidir. ........ 217

*Tim EQQAR*
Heydər Əliyev, həqiqətən, yeni Azərbaycan dövlətinin qurucusudur. ........ 221

*Qacendra SİNQH*
Heydər Əliyev siyasət şahmatının ustasıdır. ........ 222

*Çjan SİYUN*
Heydər Əliyev Çində böyük nüfuza malikdir. ........ 226

*Nikolay BELOBLOTSKİ*
Heydər Əliyev Ukraynanın böyük dostu idi. ....229

*Məhəmməd Xeyir VADİ*
Heydər Əliyev mənim ailə səadətimin bünövrəsini qoymuşdur. ....230

*Terri ADAMS*
Heydər Əliyevin liderliyi sayəsində Azərbaycan keçmiş sovet respublikaları arasında siyasi və iqtisadi baxımdan inkişaf modelinə çevrilmişdir. ....232

*Riçard MORNİNQSTAR*
Heydər Əliyev Xəzər regionu üçün təlatümlü dövrlərdə qəti qərarlar qəbul etmişdir. ....234

*Yan KALİTSKİ*
Heydər Əliyev Amerika-Azərbaycan dostluğunun təcəssümüdür. ....236

*Spenser ABRAHAM*
Heydər Əliyev enerji dəhlizinə verdiyi dəstəkdən heç vaxt geri çəkilməmişdir. ....238

*Qreq LAFLİN*
Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur. ....240

*Riçard LUQAR*
Heydər Əliyev Azərbaycanı dünyaya tanıtmışdır. ....242

*Nikolay KONOREV*
Heydər Əliyev əsl dövlət adamı idi. ....243

*II ALEKSİ*
Heydər Əliyev danılmaz nüfuza malik olan müdrik siyasətçidir. ....246

*YEPİSKOP ALEKSANDR*
Heydər Əliyev Azərbaycanın və Qafqazın müdrik, xeyirxah lideridir. ....248

*Ernst MÜLEMAN*
Heydər Əliyev Azərbaycanda və Qafqaz regionunda sabitliyin dayağıdır. ....250

*Lord Rassel CONSTON*
Heydər Əliyev dünyanın siyasət meydanında böyük nüfuz qazanmış şəxsiyyətdir. ....252



*Akkan SUVER*
Heydər Əliyev təkcə Azərbaycanın Prezidenti deyil, bütün bölgənin dayağıdır, XX əsrdən XXI əsrə keçən bir xəzinədir. ....253

*Əbdülvahid NİYAZOV*
Heydər Əliyev dünya siyasətinin patriarxı, nadir şəxsiyyətdir ....255

*Usamiçe MASATAKİ*
Dünya dövlətlərinin Azərbaycana marağı bu ölkəyə Heydər Əliyev kimi müdrik şəxsiyyətin rəhbərlik etməsi ilə bilavasitə bağlıdır. ....258

*Yasuda XİROŞİ*
Azərbaycanda qazanılmış uğurlarda Prezident Heydər Əliyevin yüksək beynəlxalq nüfuzunun xüsusi rolu vardır. ....260

*Qulamrza Səbri TƏBRİZİ*
Heydər Əliyev böyük məktəbdir, belə şəxsiyyətlər tarixdə nadir hallarda yetişir. ....261

*Rimma KAZAKOVA*
Heydər Əliyev ləyaqətli və heyrətamiz insan, zəmanəmizin ən böyük siyasətçilərindən biri idi. ....262

*Yəhya DAŞDƏLƏN*
Prezident Heydər Əliyev xalqımızın çöhrəsini güldürmüş, insanlarımıza güvənc və ümid gətirmişdir. ....266

*Aleksandr KOVTUNOV*
Heydər Əliyev ədalətli insan idi və müdafiəyə ehtiyacı olanları həmişə dəstəkləyirdi. ....270

*Yakov POQREBNYAK*
"Faktı i kommentarii" qəzetinə müsahibə. ....275

*Jan ROREN*
Azərbaycanın bəxti gətirib ki, ona Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir ....280

*Pavel BORODİN*
Dünya siyasi liderlərindən, bəlkə də, yalnız Heydər Əliyevi Çörçillə müqayisə etmək olar. ....283

*Ekmələddin İHSANOĞLU*
Heydər Əliyev bizə böyük üfüqlər açdı. ....284

*Leonid MEDVEDKO*
Heydər Əliyevin islam sivilizasiyası haqqında fikirləri islamşünaslıq üçün çox vacibdir ........ 285

*Andrey LOGİNOV*
Heydər Əliyevin başlıca hünəri Azərbaycana xidmət etməsidir ........ 286

*Əli BAYRAM*
Dünyamızdan bir ulduz getdi ........ 287

*Yuri KOÇUBEY*
Heydər Əliyev həm gözəl siyasətçi, həm də mahir diplomat idi ........ 292

*Boris VOROVİÇ*
Heydər Əliyev vəfat etmədi, öz xalqının səadəti və öz müstəqil ölkəsinin tərəqqisi naminə qəhrəmancasına həlak oldu ........ 293

*Dmitri QNATYUK*
Heydər Əliyev öz ölkəsini ağır zərbədən sonra yenidən dirçəldən böyük vətənpərvərdir ........ 294

*Vladimir UXOV*
Heydər Əliyev işgüzarlığı ilə hamını heyran edirdi ........ 296

*Maryam LORDKİPANİDZE*
Heydər Əliyevin yeritdiyi siyasət beynəlxalq siyasi vəziyyətə təsir göstərir ........ 298

*Donald FAYTS*
Prezident Heydər Əliyev dünyada çox nadir rəhbərlərdən biridir ........ 299

*Con BRAUN*
Bir vaxtlar arzu kimi görünən məsələlər Heydər Əliyevin qətiyyəti, əzmi nəticəsində həqiqətə çevrilir ........ 300

*Bədr ƏL-ƏYBƏN*
Heydər Əliyev müstəqil Azərbaycanın yaradıcısı və atasıdır ........ 301

*S. Rob. SÜBHANİ*
ABŞ-da yaxşı bilirlər ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün hər cür müqavimətlərə mərdliklə sinə gərir ........ 303

*Robert ZOELT*
Mərkəzi Asiya kimi çox gərgin regionda sülh və sabitliyin bərqərar olmasında Heydər Əliyevin xidmətləri əvəzsizdir ........ 308



*Frenk VERRASTRO*
Heydər Əliyevin işinin davam etdirilməsi təkcə Azərbaycan üçün deyil, bütün bölgədən ötrü əhəmiyyətlidir ........ 310

*Nikolay PATRUŞEV*
Heydər Əliyevin həyatı vətənə fədakarcasına xidmət nümunəsidir ........ 313

*V. MOROZOV*
Mən yol təsərrüfatı mütəxəssislərini inandırmalı olurdum ki, Heydər Əliyev dəmiryolçu deyildir ........ 315

*Vitali JOLOBOV*
Əliyevlərin mehriban ailəsinin qonaqpərvərliyi yaddaşıma həmişəlik həkk olunmuşdur ........ 317

*Gi ŞEVALYE*
Heydər Əliyev hakimiyyətə gəlməklə Azərbaycanın bütövlüyünü qoruyub saxlamışdır ........ 319

*Vsevolod ŞİLOVSKİ*
Heydər Əliyev Moskva Akademik Bədaye teatrına böyük qayğı göstərmişdir ........ 322

*Konsuelo PRİASKO*
Heydər Əliyev həm də alicənablığına və müdrikliyinə görə yaddaşlarda qalacaqdır ........ 324

*Vitali İQNATENKO*
Heydər Əliyev jurnalist əməyinə xeyirxah münasibət bəsləmişdir ........ 325

*Mixail QUSMAN*
Heydər Əliyev Azərbaycanın daşını da tanıyır ........ 326

*Xulio İQLESİAS*
Heydər Əliyevin rəhbərlik etdiyi ölkəni ziyarət etmək ən böyük arzum olmuşdur ........ 327

*Henri HOULİHƏN*
Heydər Əliyev tarixin gedişində dönüş yaratmış şəxsiyyət idi ........ 328

*Nikolay BALATSKİ*
Heydər Əliyev ən məsuliyyətli anlarda işi şəxsən öz üzərinə götürürdü ........ 330

*Arkadi NESTEROV*
Heydər Əliyev heyrətamiz, yorulmaq bilməyən insan idi ........ 332

*Aleksandr ADLER*
Nadir şəxsiyyət ....................................................................... 334

*Aleksandr BUDBERQ*
Virtuoz ....................................................................... 341

*İrfan ÜLKÜ*
Heydər Əliyev sağlığında əfsanələşən, tarixdə yerini alan şəxsiyyətdir ....................................................................... 350

*Lətif GÜLƏR*
Heydər baba millətini bütün varlığı ilə sevən, dərin təfəkkürlü bir insandır ....................................................................... 353

*İqor SAVİN*
Nəsildə böyüklərin dəstək və təcrübəsi gənc ailəyə nə qədər lazımdırsa, Heydər Əliyevin də siyasi təcrübəsi və müdrikliyi gənc müstəqil Azərbaycana bir o qədər gərəkdir ....................................................................... 355

*"ÇİKAQO TRİBUN" qəzeti.*
Heydər Əliyev artıq 30 ildir Azərbaycanın taleyində həlledici rol oynayır ....................................................................... 361

**Dünyanı heyran qoyan insan**
*(Azərbaycan dilində)*
Bakı–Azərnəşr–2004

| | |
|---|---|
| Bədii redaktoru | *Ə. İbrahimov* |
| Texniki redaktoru | *M. Orucov* |
| Korrektoru | *B. Eyvazlı* |
| Kompüter dizaynçıları | *F. Cəfərov* |
| | *İ. Qafurova* |
| | *C. Ağayev* |
| | *V. Əmrullayev* |
| Fotolar | *O. Məmmədovun,* |
| | *R. Bağırovun və* |
| | *Y. Xəlilovundur* |

AzərTAc-ın kompüter mərkəzində yığılıb səhifələnmişdir.
Çapa imzalanmış 25.03.2004. Formatı 60x90 1/8.
Şərti ç.v. 23,5. Sifariş №1. Tirajı 1000 nüsxə.

Çap olunub

mega

Tel +90(212) 551 11 19

Sb3(2A)
D 97